MİSKİN VƏLİ

# Ş E İ R L Ə R,
# D A S T A N L A R

"Elm və təhsil"
Bakı – 2016

*Toplayıb tərtib edəni*: **YAQUB MƏHƏRRƏM OĞLU BABAYEV**
*filologiya üzrə elmlər doktoru, professor*

***Redaktoru:*** **MAHMUD QARA OĞLU ALLAHMANLI**
*filologiya üzrə elmlər doktoru, professor*

**Miskin Vəli. Şeirlər, dastanlar.**
**Bakı, “Elm və təhsil” 2016, 352 səh.**

*Miskin Vəli (Vəli Bayramov) Azərbaycan aşıq ədəbiyyatının ustad sənətkarlarından biridir. Kitaba sənətkarın müxtəlif janrlarda yazdığı şeirləri, həmçinin onun özü tərəfindən yaradılmış «Miskin Vəlinin Canbağça səfəri» dastanı, habelə ustad aşığın dilindən toplanmış əlavə üç xalq dastanı («Xəstə Qasımın Dağıstan səfəri», «Cəlali Kürdoğlu», «Yetim Söyün») və ustad sənətkarın qardaşı Aşıq Məhəmmədəli Bayramovun bir neçə şeiri daxil edilmişdir.*

*ISBN 978-9952-8176-6-9*

**©«Miskin Vəli», 2016**

## USTAD OZAN MİSKİN VƏLİ

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri də Miskin Vəlidir. Aşıq ədəbiyyatımızda «Miskin» təxəllüslü bir çox sənətkar bəllidir: Miskin Abdal, Miskin Məmmədcəfər, Müsəmma Miskin, Miskin Əsəd və s. Başqa Miskinlərin təxəllüsünün nə ilə bağlı olduğu ayrı bir söhbətin mövzusudur. Miskin Vəliyə gəldikdə isə sənətkarın sağlığında biz onunla görüşərkən nə üçün belə bir təxəllüs götürdüyünün səbəbini soruşmuşuq. O isə bunun iki səbəblə bağlı olduğunu söylədi: 1. Sənətkarın doğulub yaşadığı Böyük Qarabulaq (indiki Miskinli) kəndi də daxil olmaqla Gədəbəy rayonunun bu ərazisində 11 kənd, yəni böyük bir oba Miskinli adlanır. Miskinli obasının ən böyük kəndi və demək olar ki, mərkəzi Böyük Qarabulaq kəndidir. Deməli, ən əvvəl «Miskin» («Miskinli») təxəllüsü yerlə, konkret məkan adı ilə əlaqəlidir; 2. Ustad sənətkarın iki yaşında atası vəfat etmiş, ailə ciddi maddi ehtiyac içərisində qalmış, Miskin Vəlinin uşaqlığı və gəncliyi özünün dediyinə görə maddi-mənəvi sıxıntı və məşəqqət içərisində, başqa sözlə, miskin bir tərzdə keçmişdir. Şairin təxəllüsünün ikinci anlamı onun həyat və güzəranının belə bir acınacaqlı tərzi ilə bağlıdır.

Miskin Vəli (Vəli Alı oğlu Bayramov) 1894-cü ildə Gədəbəy rayonunun Miskinli (o zamankı Gəncə quberniyasının Qazax qəzasının Gədəbəy nayihəsinin Böyük Qarabulaq kəndi) kəndinə yaxın olan və “Bayraməli qışlağı” adlanan yerdə anadan olmuşdur. O zaman “Bayraməli qışlağı” adlanan yerin adı Miskin Vəlinin babası Bayraməlinin adı ilə bağlıdır. Alman alimləri Volfram Hagel və Yeva Ştrommengerin Berlində nəşr olunmuş “Qalakənd”

adlı kitabında, 1888-1891-ci illərdə Gədəbəydə “Simens” firmasında çalışan alman alimi Valdemer Belkin həmin illərə aid məktublarında da bu yer “Bayraməli qışlağı” adlanır. (***Bax**: Volfram Hagel və Yeva Ştrommenger. Qalakənd. Bakı, “Diplomat” nəşriyyatı, 1999, s. 15*)

Qalakənd çayı ilə Şəmkir çayının qovuşduğu həmin yerə indi “Qoşakörpü” deyirlər. “Qoşakörpü” toponimi Simens qardaşlarının dəmir yolu çəkərkən orada tikdirdikləri qoşa (cüt) körpü ilə əlaqədar xalq arasında buraya verilən addır. Hal-hazırda hər iki körpü uçub dağılmışdır və yalnız yerləri bilinir. Anadan olduğu tarix barədə şair özü bir gəraylısında yazır:

*Min səkkiz yüz doxsan dördəm,*
*Yetmiş səkkiz yaşım mənim.*
*Bu müddətdə, məsafədə*
*Az yaradıb başım mənim.*

Ustad sənətkar soy etibarilə oğuzların 24 boyundan biri olan Emir (Eymür) boyundandır. Bu oğuz boyu haqqında türk alimi F.Sümərin «Oğuzlar» (Bakı, Yazıçı, 1992) kitabında geniş məlumat vardır. M.Vəli şeirlərində Emir nəslindən olduğunu dönə-dönə xatırladır. Məsələn, «Ya Əli» rədifli bir divanisində yazır:

*Əslim Emir Miskin Vəli,*
*Var nihanda günahım.*
*Hər ayədə, hər kəlmədə*
*Göstəribsən irahım.*
*Puli-sirat, hax divanda*
*Sən ol mənim pənahım.*
*Vali sənsən, vəkil sənsən*
*Şiri-Yəzdan, ya Əli!*

Yeri gəlmişkən deyək ki, «Miskin Abdal» (Bakı, Səda, 2001) kitabında bu divani səhv olaraq Miskin Abdalın şeiri kimi verilmişdir.

Miskin Vəli başqa bir şeirində də soyunun Emir, yaşadığı məkanın isə Miskinli olduğunu belə nəzərə çatdırır:

*Zatı Emir, Miskinlidə*
*Yetirib ellər səni.*
*Xain çıxma düz ilqara*
*Vəli, gözdə-gözdə sən.*

Vəli iki yaşında ikən atası Alı vəfat etmiş, ailənin bütün ağırlığı anası Balaxanımın üzərində qalmışdır. Ailə böyük idi. Vəlinin özündən başqa üç qardaşı (Məhəmmədəli, Qəhrəman, Məsim) və dörd bacısı (Bahar, Xeyransa, Gülşən, Qəmər) olmuşdur. Böyük qardaşı Məhəmmədəli Bayramov böyüdükdən sonra qonşu Dəyəqarabulaq kəndinə köçüb orada yaşamış, aşıqlıq etmiş, Miskinli obasının sayılıb seçilən aşıqlarından olmuşdur. Zil və şahrah səsə malik M.Bayramov, əsasən, qardaşı Vəli Bayramovla birlikdə aşıqlıq etmişdir.

Yetim qaldığından, ailənin maddi güzəranı ağır olduğundan sənətkarın uşaqlıq və gənclik həyatı özünün dediyinə görə çox məşəqqətli və ağır keçmişdir. Uşaq yaşlarında ikən o qapıda-bu qapıda muzdurluq etmiş, 14-15 yaşlarında isə çobanlığa başlamış, başqalarının qoyun-quzusunu otarmaqla ruzi qazanmışdır. 15-16 yaşlarından şeir yazmağa başlamış, təhsil almaq imkanı olmadığından yazıb oxumağı bacarmamışdır. Çox güclü hafizəsi və yaddaşı sayəsində aşıqların ağzından eşitdiyi şeir və dastanları, ziyalı din xadimlərindən eşitdiyi dini məsələləri, rəvayət və hədisləri yaddaşına həkk etmişdir.

O, bir aşığın (Göyçəli Aşıq Şəmistanın) məsləhəti ilə çobanlığı atıb saz almış, saz çalıb oxumağı və aşıqlığı öyrənmiş, bir müddət Göyçəli Aşıq Şəmistana şəyird durmuşdur. Nisbətən püxtələşdikdən sonra böyük qardaşı M.Bayramovla birlikdə məclis-mərəkə aparmış, ağır yığnaqlar yola salmış, kamil bir aşıq, yaradıcı ustad kimi formalaşmışdır. Onun üç oğlu (Əli, Ədil, Əkbər) və yeddi qızı (Şamama, Xumar, Nigar, Kifayət, Səfayət, Sücaət, Bənövşə) olmuşdur.

Şair Vəli XX əsrin 70-ci illərinin əvvəllərinə qədər aşıqlıq etmişdir. Onun qardaşı M.Bayramovla birlikdə 1972-ci ildə apardığı toy məclislərindən biri mənim yadımdadır. Bu, demək olar ki, ustad ozanın keçirdiyi son şənlik məclislərindən biri idi. Bundan sonra sənətkar öz ağsaqqallıq və ozanlıq missiyasını bir az başqa şəkildə yerinə yetirmişdir: yəni saz çalıb oxumadan ayrı-ayrı məclis və yığıncaqlarda şifahi şəkildə şeir demək, maraqlı söhbətlər etmək. Mənim Miskinli kənd orta məktəbinin IX-X siniflərində oxuduğum illərdə (1973-1975) yadımdadır ki, Vəli baba darıxanda ara-sıra kəndin «Köç yolu» deyilən mərkəzi hissəsinə gələr, burada

çayxanada oturar, ya da elə-belə küçədə ayaq üstə durar, maraqlı və şirin söhbətlər edər, başına çoxlu adam yığışardı.

1987-ci ildə (3 il gec olsa da) Gədəbəy rayon Partiya Komitəsinin o zamankı katibi, xeyirxah ziyalı Aydın Quliyevin təşəbbüsü ilə rayonda el sənətkarının anadan olmasının 90 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Yubileyə telestudiyadan da çəkiliş qrupu getmişdi və yubileydən hazırlanmış veriliş dövlət televiziyasında göstərilməli idi. Təəssüf ki, bu veriliş nə üçünsə göstərilmədi.

Mən 1990-93-cü illərdə ADPU-nun Folklorşünaslıq problem laboratoriyasında işləyərkən bir araşdırıcı kimi Miskin Vəli ilə bir neçə dəfə görüşdüm. Bir neçə şeirini, «Xəstə Qasımın Dağıstan səfəri», «Cəlali Kürdoğlu», «Yetim Söyün» dastanlarını və bəzi maraqlı söhbətlərini sənətkarın dilindən maqnitafon kassetinə yazdırdım. Şairin özünün iştirakı ilə onun külliyatını oğlu Əkbər Bayramov bizə təqdim etdi. Hal-hazırda həmin külliyat bizdədir. Biz «İki ustad: Miskin Vəli, Növrəs İman» (Bakı, Azərnəşr, 1996) kitabında sənətkarın şeirlərinin təxminən üçdə birini çap etdirmişik.

Vəli Bayramov 22 dekabr 1995-ci ildə 101 yaşında vəfat etmişdir. Qəbri Miskinli (keçmiş Böyük Qarabulaq kəndi) kənd qəbristanlığındadır.

Ustad sənətkar aşıq ədəbiyyatının çeşidli janrlarında şeirlər yazmışdır. Onun qoşma, gəraylı, təcnis, cığalı təcnis, gedər-gəlməz cığalı təcnis, dodaqdəyməz, müxəmməs, qoşayarpaq müxəmməs, qoşayarpaq cığalı müxəmməs, divani, dodaqdəyməz divani, bayatı, qıfılbənd və s. janrlarda yaratdığı şeirləri aşıq poeziyamızı daha da zənginləşdirmişdir.

Söz sonu onu da deyim ki, Miskin Vəlinin mənsub olduğu Emir nəslindən çıxan şair yalnız o deyildir. Gədəbəy rayonunda yaşayan və Emir nəslinə mənsub olan Emirli Salman, Emir Məhərrəm, Növrəstə Babayeva, Fəridə Babayeva da el şairi kimi tanınmışdır. Biz özümüz də onun mənsub olduğu Emir nəslindənik.

* * *

Bu kitab Miskin Vəlinin oxucularla ikinci görüşüdür. Onun şeirləri birinci dəfə yuxarıda dediyimiz kimi, «İki ustad: Miskin Vəli, Növrəs İman» toplusunda işıq üzü görmüşdür. Topluya adı

zikr olunan hər iki sənətkarın yaradıcılığından nümunələr daxil edilmişdir.

Bu kitab isə Miskin Vəlinin bədii irsinin əsas hisəssini əhatə edir. Kitaba yaradıcı aşığın özü tərəfindən avtobioqrafik notlar əsasında yaradılan «Miskin Vəlinin Canbağça səfəri», həmçinin 1990-92-ci illərdə onun dilindən maqnitafon kassetinə köçürüb yazıya aldığımız üç dastan da daxil edilmişdir. İnanırıq ki, həm ustad ozanın əsərləri, həm də kitaba daxil edilmiş dastanlar oxucular üçün maraqlı olacaqdır.

***

Təxminən 1969-1970-ci illərdə mənim böyük qardaşım Süleyman Babayev Miskin Vəlinin qardaşı Aşıq Məhəmmədəli Bayramovun bir neçə şeirini onun (Aşıq Məhəmmədəlinin) öz dilindən yazıya almışdı. O zaman M.Bayramov bizimlə qonşuluqda yaşayırdı. Biz itib-batmasın deyə həmin şeirləri də kitaba əlavə etməyi lazım bildik.

***YAQUB BABAYEV***
***filologiya üzrə elmlər doktoru***

# USTADNAMƏLƏR

## BİLGİNƏN

Bir adam ki, sənlə ülfət eyləsə,
Onun əsil zatın ara, bilginən.
Həqiqətdən, həcviyyatdan söyləsə,
Yaxındı, uzaqdı ara, bilginən.

Bağban olsan, bəslə almanı, narı,
Sərrafsan qiymətə yetir mirvarı,
Mətahının bağlı olsa bazarı,
Onda öz bəxtini qara bilginən.

Danışma məclisdə dəli, divana,
Nə mənada şama yanar pərvana,
Xəstəyəm qapına gəldim dərmana,
Ağ sinədə bir cüt nara bilginən.

Aşıq Vəli, nə çəkirsən ahuzar?
Tərlan oylağında olmazmı şikar?
Cümlə bu cahanın bir qüvvəsi var,
İşıq salır ürüzgara bilginən.

## VƏDƏSİNDƏ

İlimiz dörd fəsil, on iki aydır,
Arı şana çəkər, bal vədəsində.
Bağbanın zəhməti bir haqqı-saydı,
Yetirsin məhsulu bol vədəsində.

Qışda könül yatmaz meyvəsiz bağa,
Dəm söhbət gərəkdi isti otağa,
Bilsən nə deyərlər vaxtsız qonağa,
Kişinin mehmanı ol vədəsində.

Vəfalı yar öz yarından usanmaz,
Nə yalan danışmaz, nə də utanmaz.
Gələndə sevinməz, gedəndə yanmaz,
Açar alnı açıq yol vədəsində.

Əgər hökmün olsa Süleyman kimi,
İxtiyarın varsa can alan kimi,
Xalqa xidmət eylə sən insan kimi,
Hörməti, qiyməti al vədəsində.

Vəli, mərdin məhəbbəti az olmaz,
Müxənnəs başadək sərfiraz olmaz,
Zimistana yaz deməklə yaz olmaz,
Gül açmaz bülbülün lal vədəsində.

## BİLSİN

Xalqa ziyan verən xeyir gətirməz,
Yaxşıya peş görən yamanı bilsin.
Bağ salıb yetirməz, bol bar götürməz,
Bağbana verməyən amanı bilsin.
Güvənməsin qanadına, qoluna,
Arxalanan qaratikan koluna,
Dərin quyu qazan elin yoluna,
Nifrətə gələcək gümanı bilsin.
Atalar demişdir döyülər döyən,
Çox qazanar çor deyənə can deyən,
Sıxarlar qan qusar özünü öyən,
Əzərlər, öyrənər xam onu bilsin.
Nadan nəsihəti almaz deyərlər,
Qanan heç yadından salmaz deyərlər,
Qan tökən qələbə çalmaz deyərlər,
Yaşadan yaşayan zamanı bilsin.
Vicdanı olmayan çəkinər nədən,
Yaxşını bəyənməz pis yola gedən,
Pozar həyatını əyrilik edən,
Şor tapmaz itirsə xamanı, bilsin.
Xalqa xoş gəlməsə yazdığın əsər,
Əhli-hal içində verərmi səmər,
Tələsən, təntiyən, tədbirsiz kəsər,
Atalar demişdi damanı bilsin.
Adam var adamı dərinə salar,
Adam var adamdan min ilham alar,
Adam var zəhməti sevməz ac qalar,
Qışda mala tapmaz samanı bilsin.
Adam var ki, yetik olsan halına,
Gücü çatmaz bir yük tuta dalına,
Yol azan, göz dikən özgə malına,

Torpağa qatarlar umanı bilsin.
Zülmətə son qoyur günəşin nuru,
Gözünə görünür bulannıq, duru,
Kim desə aləmdə çalacam suru,
Gərək yeri, göyü, səmanı bilsin.
Vəlini eşidər kamala çatan,
Ölümə layiqdi vətəni satan,
Bir karvan batırar yolunu azan,
Aləmdə xar edər sarvanı bilsin.

## OĞLUMA NƏSİHƏT

Kamil sənətkar ol, mehriban oğlum,
Arada çox gəzmə aciz avara,
Gecəni gündüzə qataraq çalış,
Bir namus, qeyrətə, bir etibara.
Dərs al, oxu, öyrən, təmiz ad qazan,
Yaxşı, qabaqcıl ol, yaradan, yazan,
Ölər, itər, batar yolundan azan,
Dilindən od alan tez yanar nara.
Eşit bu sözləri, unutma qəti,
Uyma fırıldağa, sev həqiqəti,
Namərdə, zalıma çəkmə minnəti,
Öz pulun olmasa getmə bazara.
Sakit ol məclisdə havayı gülmə,
Nəfsinə aldanma, lovğalıq bilmə,
Qatarından qalma, eldən üzülmə,
Sayıq olsan bil ki, düşməzsən dara.
Qəlbin çox düz olsun, pis yola getmə,
Qarşına gələndən salamsız ötmə,
Əmək sev, ərinmə, tənbəllik etmə,
Həyatın şən olsun güvənmə vara.
Miskinli Vəlini salma nəzərdən,
Öyrən bu sözləri, yada sal hərdən,
İnsana mərifət üstündü zərdən,
Dosta yalan satma düz ol ilqara.

## SƏBR ELƏ

Acığın gələndə saxla özünü,
Dayan, düşün tək bir ana səbr elə,
Xeyrin olar çor deyənə can desən,
Dilə alma ata-ana səbr elə.
Zəhər qatma öz ağzının dadına,
Haqsız yanma dilin, nəfsin oduna,
Ağlı olan çatar xoş muradına,
İnsanlığa, ada-sana səbr elə.
İblis əməllərin izin itirən,
Həqiqət yolunda güllər bitirən,
Zəhmət çəkən, bağ bəsləyən, yetirən,
Seyrə çıxar gülüstana səbr elə.

İnsanları güldürginən, gülginən,
Ağlayanın göz yaşını silginən,
Sözü eşitməsən yəqin bilginən,
Tez düşərsən çox ziyana səbr elə.
Miskinli Vəlini salma dərinə,
İnsan hörmət eylər biri-birinə,
Enişə, yoxuşa, acı, şirinə,
Diqqət yetir, bax hər yana səbr elə.

## OLA BİLMƏZ

Dəllal yüz dil tökə sərraf tanıyar,
Qızıl qiymətinə gil ola bilməz.
Əyridə həqiqət, səyridə diqqət,
Səfikdə sədaqət, bil, ola bilməz.
Sazım əldən düşüb pas tutsa simi,
Sönməz alovlara yaxar qəlbimi,
Hər çala-çuxurda bir dərya kimi,
Sinəsi sərvətli göl ola bilməz.
Duz-çörək tamını bilməyən nadan,
Soraqsız, çıraqsız gedər dünyadan,
Himar köhlən olmaz, keçi gərgədan,
Qatır boy atmaqla fil ola bilməz.

Dünyada bir iz sal, ürəklərdə qal,
Zəhmətdən zövqün al, qüdrətdən ucal,
Xaində doğru hal, zaildə kamal,
Naqisdə dürr tökən dil ola bilməz.
Vəli, de, yaz, yarat, onu yəqin bil,
İtirməz qiymətin keçsə, yüz min il,
Ala qarğa laçın, boz sərçə bülbül,
Hər kol çiçək açsa, gül ola bilməz.

**İNANMA**

Diqqət yetir bu dünyanın işinə,
Hər şirin söz, xoş rəftara inanma.
Aldanma köksündə türfə gülünə,
Solar gedər hər bahara inanma.
Soruş əhvalını, öyrən halını,
Tutma nəzərində dövlət-malını,
Sənə bəxş eləsə hər cəlalını,
Yalan sözə, hiyləgərə inanma.
Keçdikcə zamanı, gedir insanı,
Dayanmır karvanı, bilinmir sanı.
Bacını, qardaşı, ata-ananı,
Əldən alır bil aşkara inanma.
Nə düşünür boşalmayan, dolmayan,
Bağda gül tək açılmayan, solmayan,
Doğru sözü, düz ilqarı olmayan,
Səni salar min azara inanma.
Kimsədən pay umma, incimə, küsmə,
Əyilmə, düz dolan, titrəmə, əsmə,
Yaxşı ol, yaxşıdan meylini kəsmə,
Can gedəcək ixtiyara inanma.
Min bir söz söyləyim sən eşit burda,
Yaraşmaz tarixə, yaramaz yurda,
Qan soran zəliyə, quduza, qurda,
Maşağa, əqrəbə, mara inanma.
Qəsd eyləmə cana, susama qana,
Qarışma fitnəyə, şərə, böhtana,
Yalançıya, hiyləgərə, nadana,
Oğru, saxta sənətkara inanma.

Amansız yağıya əyilmə qəti,
Qatilə, qəddara vermə fürsəti,
Zəhərdi namərdin nanı, neməti,
İblisin bağında bara inanma.
İnan insanlığa, inan hörmətə,
Bir xoş gələcəyə, bir şux niyyətə,
İşə, ixtiyara, şana-şöhrətə,
Solan, gedən çəmənzara inanma.
Dünya Süleymanın pozdu dəmini,
Ürəkdən çəkdirdi hicran qəmini,
Bir əjdaha yaranmışın cəmini,
Çəkir udur, milyonlara inanma.
Məskən salıb bir bazara uymasan,
Fayda verməz səfasından doymasan,
Tarix yazıb xoş nişana qoymasan,
Qazanmasan xeyri-kara inanma.
Hörmət elə dildən-dilə düşməyə,
Bir çeşmə çəkdirib suyun içməyə,
İnsanların cərgəsinə keçməyə,
Yaramasan yadigara inanma.
Miskinli Vəlinin gedəcək canı,
Sözündən, şerindən qalar nişanı,
Sərin su olmasa yayın zamanı,
Yanarsan, tapılmaz qara inanma.

## DÜNYADA

Fəqiri çox əzmiş əzəldən bəri,
Qaniçən, yırtıcı, yağı dünyada.
Düşünməz bimürvət, dəli, sərsəri,
Qullara yalatmış ağı dünyada.
Diqqətin cəlb eylə söz ustadına,
Ləkə vurma başqasının adına,
Saxla dili, yanma nəfsin oduna,
Qurd içindən kəsir tağı dünyada.
Nəfs olmasa ağıl başdan azalmaz,
Düz fikir insanı ayağa salmaz,
Gözəllik yaxşıdı kimsəyə qalmaz,

Solan gördüm gül yanağı dünyada.
Çıxma doğru yoldan əyilmə yana,
Aldanma nəfsinə, düşmə ziyana,
İnsanın dəyməsin gərək insana
Əl-ayağı, dil-dodağı dünyada.
Lovğalıq eyləməz, özünü öyməz,
Əlinə düşəndə fəqiri döyməz,
Bir könül sındırmaz, bir qəlbə dəyməz,
Düz yazan qaranı, ağı dünyada.
Əcəl çoxlarının daşını atar,
Yüz il üzdə gəzən bir gündə batar,
Düşünən beyinlər torpaqda yatar,
Qoyanlar dağ üstə dağı dünyada.
Miskinli Vəliyəm düşünəm, qanam,
Ehtiyatlı olsam, ağlamaz anam,
Dil açsa, deyərdi sən tək insanam,
Dindirdikcə hər torpağı dünyada.

## SAXLAMAZ

Nəslində naxələf, əslində qələt,
Namusu, qeyrəti, arı saxlamaz,
Özünü itirən sözünü bilməz,
Əyri fikir, düz ilqarı saxlamaz.
Həmişə can verən şərə-böhtana,
Cəhd edər dünyanı qoysun virana,
Aldanan nəfsinə, yağlı yalana,
İtkin düşər ixtiyarı saxlamaz.
Meydanda, cövlanda bir ər oğlu ər,
Zatında olarsa, göstərər hünər,
Hər daş qızıl olmaz, hər torpaq cövhər,
Hər təpə başında qarı saxlamaz.
Əlli öyrənməyən, yüzü qanmayan,
Düşünməz əyrini, düzü qanmayan,
Nəshət eşitməyən, sözü qanmayan,
Boş beyinlər yadigarı saxlamaz.
Miskinli Vəliyəm min nəshət deyən,
Böyük ziyan verər xırda kəsəyən,
Sürünü batırar qurddan törəyən,
Eli satar, etibarı saxlamaz.

## OLMAZ

Mən bir söz söylərəm arif yanında,
Sözüm yerə düşüb bimiqdar olmaz.
Namərd yüz dil töksə, yoxdu qanında,
Onda başa kimi düz ilqar olmaz.
Bir çox şəhər gəzib gəlmişəm kəndə,
Görüb götürdüyüm öyrəndim mən də,
Namərd daldalanar qonaq görəndə,
Mərd açar süfrəni, qəlbi dar olmaz.
Yaxşı diqqət yetir bu iltimasa,
Ağladan ağlayar, tez batar yasa,
Kimsəyə can demə ağlı olmasa,
Naqisdən, nadandan sənə yar olmaz.
Düşmənə aldanma, dostunu sına,
Qanmaza qoşulsa qananı qına,
Düzdən düz törəyər, zinadan zina,
Mayası haramda namus, ar olmaz.

Oğruynan, əyriynən gəzib, dolanma,
Bir də dilin nəfsin oduna yanma,
Qatilə, qəddara qəti inanma,
Onun heç birində etibar olmaz.
Azadlıq günəşi tutar dünyanı,
Sevər, alqışlayar insan insanı,
Qan tökmək istəyən itirər canı,
Dostluğu sevənlər ahu-zar olmaz.
Aşıq Vəli, mərdə çevir üzünü,
Mərifətdən kənar etmə özünü,
De, yaz-yarat yaxşı yetir sözünü,
Bundan qeyri sənə yadigar olmaz.

## OLMAZ

Yaramaz yaşamaz itirər canı,
Batar adı-sanı sərasər olmaz.
Aşkarı, pünhanı, sirri, simanı,
Oxuyan, öyrənən bixəbər olmaz.

Vaxt olar ki, izi itər ahların,
Pərdəsi açılar çox günahların,
Taxtı tarac olur zalım şahların,
Səsinə səs verən bir nəfər olmaz.

Kal ilə kotana qoşulsa dana,
Yarılar ürəyi qarışar qana,
Dünyanı bəzəyən alar nişana,
Viranalıq sevən mötəbər olmaz.

Naşı ləl tanımaz yüz dəfə baxa,
Şər gəzən xətadan qurtarmaz yaxa,
Bimürvətdə kərəm, zalımda səxa,
Dəlidə sərmayə, simü-zər olmaz.

Miskinli Vəlinin söz büsatında,
Cəvahir parlayar cövhər qatında,
Həqiqət olmasa, əsli, zatında,
Səfikdən, səmədən, səydən ər olmaz.

# QOŞMALAR

## EYLƏR

Mərifətin çoxu, tamahın azı,
İnsanlıq elminə düz diqqət eylər.
Səni eldən, eli də səndən razı,
Eyləsə, eyləsə həqiqət eylər.
Düzlük olsa insanların hasında,
Canında, qanında, təmənnasında,
Məhəbbət yaradar el arasında,
Hörməti süfrəyə sədaqət eylər.
Miskinli Vəlinin qaralmaz qanı,
Hesabdar düz çəksə, hesabı-sanı
Bahar çəmənzarı, küllü dünyanı,
Aləmi gül, çiçək ədalət eylər.

## ETİBARSIZ

Məhəbbət kəsilər, dost düşmən olar
Tərlanı satanda sar etibarsız.
Baş kəsilər, ev yıxılar, qan olar,
Öz yarın atanda yar etibarsız.
Qoy kor olsun xain baxan elinə,
Dost bağının bülbülünə, gülünə.
Ölsün, itsin, düyün düşsün dilinə,
Nə qədər dünyada var etibarsız.
Miskinli Vəlini salmır yadına,
Haqsız yanır dilin, nəfsin oduna,
Qara ləkə vurur təmiz adına,
Çəkmir namus, qeyrət, ar etibarsız.

## YERİYİR

Bəxtəvər başına ay çeşmə sənin,
Hər səhər üstünə sona yeriyir,
Gözlərini süzür, canımı üzür,
Qəmzələrin qəhri cana yeriyir.
Qüdrət qələmindən çəkilib qaşı,
Yandırır sinəmi eşqin ataşı,
Qoysalar məzara, örtsələr daşı,
Yenə ruhum o canana yeriyir.
Yenə könül quşu canana döndü,
Kərəm tək od tutub yanana döndü,
Yazıq Vəli Şeyxi-Sənana döndü
Səməndər tək yana-yana yeriyir.

## GƏRƏKDİ

İnsanın varıdır sərraf kamalı,
Torpaqdan götürsün zəri gərəkdi.
Halal tut malını, halal yığginən,
Şirindir zəhmətin təri gərəkdi.
İnsana layiqdi halal əməyi,
Təmiz qəlbi ola, təmiz yeməyi,
Dar günündə qarşı gələ köməyi,
Qüdrətdən açıla dəri gərəkdi.
Ola mərifəti, həm həqiqəti,
Halal zəhmətindən ala ləzzəti,
Haqqa məhəbbəti, ola xidməti,
İnsanlığa bir pərgəri gərəkdi.
Doğru yol göstərib şahların-şahı,
Doğru qullarının odur pənahı,
Doğrunu, əyrini bilir günahı,
Könüllərdən var xəbəri gərəkdi.
Vəli, itirməynən haqqın sayını,
Ov keçsə bərədən, gözdən yayını,
Hər kəs öz qəlbindən tapar payını,
Xeyrin, şərin var dəftəri gərəkdi.

## NƏSİHƏT

Bu dünya baqidir, insan köçəri,
Həm gəlir, həm gedir yaxşı, yamanı,
Heç qəlbinə dəymə özün kimi bil,
Qonşunu, qohumu, eli, obanı.
Qarışdırma suyu, etmə bulannıq,
İnsana layiqdi dost, mehribannıq,
İnsannıq, insannıq, yenə insannıq,
Layiq deyil əzə insan insanı.
Cavan ola, qoca ola, pir ola,
Bəşəriyyət işdə, sözdə bir ola,
Qüdrət ola, qüvvət ola, gir ola,
Kamil ola başa düşə havanı.
Nə olar ki, açılan gül solmaya,
Suyun kuzəsinə qanlar dolmaya,
Azğınlıq, lovğalıq, tamah olmaya,
Ölkələr vuruşub etməz davanı.
Vəlinin sözlərin qanannar qanar,
Qanmayannar hesab çəksə inanar,
Hamı bir qardaşdı, dillərdi kənar,
Unutma Həvvanı, Adəm atanı.

## ÇƏTİNDİ

Bir kimsənin ağlı getsə sərindən,
Onu salar hər diyara çətindi.
Mənəm-mənəm deyib özündən çıxan,
Öz gününü eylər qara çətindi.
Kəm ağıl məni də gətirsə dəmə,
Neçə dağlar yersiz çəkər sinəmə,
Yığılar məxluqat, olar məhkəmə,
Nüsrət yolu günahkara çətindi.
Eşit sözlərimi unutma qəti,
Düzlükdədir insanlığın ziynəti,
Hakim sanmırsansa sən həqiqəti,
Ədalət olmağa çara çətindi.
Alim gördü oxuyanı, yazanı,
Nəyə bənzədərlər yoldan azanı,

Atalar demişdir quyu qazanı
Özü düşər üzüqara çətindi.
Vəli, de sözünü, yetir isbata,
Qail ol zəhmətə, haqqa, barata,
Oğru, əyri olan qayğısız ata,
Tərbiyəsi uşaqlara çətindi.

## GƏRƏK

Ləhzədə ləl eylər insan həyatı,
Lütfü kərəm olub gələsən gərək.
Labətdən, lətfədən ləzzət götürüb,
Sözünü dinləyib biləsən gərək.
Al geyən, şal geyən məxluqi-nisar,
Layiqin, qüdrətin mərfətdən alar,
Laqeyid, laqeyrət lənidə qalar,
«Laməhla lahəni» biləsən gərək.
Aşıq Vəli, çünki düşdün bala sən,
Bax zənbura, qulluq eylə bala sən,
Bəzmi dolan, behcət eylə bala sən,
Yekbəyek güldürüb güləsən gərək.

## DEYİMMİ?

Sənə bir söz deyim dərdimi qanan,
Mənim xoş muradım qaldı deyimmi?
Zəhmət çəkdim bəhrəsini görmədim,
Qəm ləşkəri üstüm aldı deyimmi?
Aşıq olub dolaşmışam elləri,
Çox keçmişəm dərin-dayaz selləri,
İntizar qəlbimin incə telləri,
Min qəmlər nəğməsi çaldı deyimmi?
Qocaldıqca canım oda yaxıldı,
Aciz qaldım üzümə kəm baxıldı,
Duyub, düşündükcə ürək sıxıldı,
Gözlərim qan, yaşla doldu deyimmi?
Bəxtim bəd gətirdi, dövranım döndü,
Günüm zülmət oldu, çırağım söndü,

Zəhmətim hədərdi, ünüm boş ündü,
Danışmağa dilim laldı deyimmi?
Miskinli Vəliyəm yollar yorğunu,
Fani gördüm hər büsatı, qurğunu,
İtirdim Qoşqarı, şair Vurğunu,
Açılan güllərim soldu deyimmi?

## OLSUN
***(bəy tərifi)***

Möhtərəm şairin mehriban oğlu,
Görüm a bəy, toyun mübarək olsun.
Meyli, məhəbbəti xalqına bağlı,
Görüm a bəy, toyun mübarək olsun.
Aşıqlar götürsün telli sazını,
Yaysın hər tərəfə xoş avazını,
Qarşıla ömrünün bahar yazını,
Görüm a bəy, toyun mübarək olsun.
Atan, anan bu gün çatır murada,
Dostlar sənə sağlıq deyir arada,
İnsanlıq naminə yaşa dünyada,
Görüm a bəy, toyun mübarək olsun.
Olsun səy-irəyin, elmə həvəsin,
Bəzə ellər üçün hatəm süfrəsin,
Yaxşı dostlar qazan ucalsın səsin,
Görüm a bəy, toyun mübarək olsun.
Şamamalar ətir versin tağında,
Bülbül cəh-cəh vursun güllü bağında,
Doqquz oğul dursun solu-sağında,
Görüm a bəy, toyun mübarək olsun.
Kamil bağban qızıl güllər bitirir,
Bəsləyir, böyüdür yaxşı yetirir,
Atalar oğluna töhfə gətirir,
Görüm a bəy, toyun mübarək olsun.
Səni alqışlayır dağlar çiçəyi,
Qonşular, qohumlar arzu, diləyi,

İstəkli dostların sevən ürəyi,
Görüm a bəy, toyun mübarək olsun.
Eşit sən Vəlini, düşün dünyanı,
Yaxşı ol, yamana satma qananı,
Sən ol tarixlərin ölməz insanı,
Görüm a bəy, toyun mübarək olsun.

## SƏNİNKİDİ

Əlinə gəldikcə yığ ver qızıla,
Bəxt çəkib gətirər pul səninkidi.
Aldadıb alırsan naxış yetirir,
Haqsız, təmənnasız qul səninkidi.
Soy, soyundur, işlət fitnə-felini,
Dolaşdır işini, bağla dilini,
Nəyi var verəcək uzat əlini,
Qazanıb hazırdı, mal səninkidi.
Bağından barını silkələ gətir,
Verməsə qəlbinə vəlvələ gətir,
Çalış ixtiyarın tez ələ gətir,
Başının ağası ol, səninkidi.
Yalvarıb, yaxarsa, tutma sözünü,
Yazığın gəlməsin çıxart gözünü,
Soy gətir gönünü, görsət özünü,
Aləmdə qüvvətli qol səninkidi.
Versə, yaxın durma yüz min manata,
Çox al, tez çatasan varlı həyata,
İşləyər pətəyə, istəməz yata,
Arı şana çəkir bal səninkidi.
Bəzə süfrə üstə pilovu, aşı,
Kababı, konyakı, dolma, bozbaşı,
Ye, gey zər-zibanı, oynat daş-qaşı,
Dünyanın sərvəti bol səninkidi.
Bir xəbər söyləyim rəngin solmasın,
Qəlbin qaralmasın, gözün dolmasın,
Yükünü yüngül tut, ağır olmasın,
Örkən, noxta, palan, çul səninkidi.
Nəyi var əlindən al, canı çıxsın,
Verməyəni dama sal, canı çıxsın,
Deyinsə, ölüncə çal, canı çıxsın,
Qaz kimi tükünü yol, səninkidi.

Öldürmə Vəlini az günahınan,
Çox nifrət alıbsan qarğış-ahınan,
Cənnəti görməzsən bu tamahınan,
Cəhənnəmə gedən yol səninkidi.

## GÖZƏLLİK

Ana vətənimdə daim qalacaq,
Əllidə gözəllik, yüzdə gözəllik.
Sağlam canda şadlıq, şənlik olacaq,
Ürəkdə gözəllik, üzdə gözəllik.
Birliyin gücüdür vətənin canı,
Qüdrəti, qüvvəti, şöhrəti-şanı,
Yazıb-yaradanın qalır nişanı,
Tarixdə gözəllik, izdə gözəllik.
Əmək sevən əkir, səpir, bitirir,
Bəsləyir, becərir, məhsul götürür,
Ata-ana, bir də elmi yetirir,
Oğlanda gözəllik, qızda gözəllik.
Alimin gücünə alim mat qalır,
Araz Kür çayından suyunu alır.
Sonsuz səhralarda bağ, bostan salır,
Ağ qızıl gül açır düzdə gözəllik.
Miskinli Vəliyəm baxıb görməyə,
Bir bağ salıb bəhri-barın dərməyə,
Elmə, insanlığa ziynət verməyə,
Şe'riyyət çox verir, söz də gözəllik.

## KİMİ

Qardaş qardaşının üzünə baxmır,
Sıxır istədiyin alana kimi.
Qəsd edir vədinə, sözü düz çıxmır
Hesabı çəntəyə salana kimi.
Dövlət bir atadı, torpaq bir ana,
İstəməz övladı sala ziyana.
Oğruyu, əyriyi kəssin zamana,

Kimdi cəlb eləyən talana kimi.
Xainlər qəsd edir cana, insana,
Yediyi çörəyə, nemətə, nana,
Allanan nəfsinə, uyan şeytana,
Aşılayır, alladır yalana kimi.

İnsan gələcəyi bilsə yaxşıdı,
Payını çox düzgün bölsə yaxşıdı,
Qatardan üzülən ölsə yaxşıdı,
O yaman günlərə qalana kimi.

Miskinli Vəliyəm bir bağ olaydım,
Ətirli çiçəkli yarpaq olaydım,
Əriyə, çürüyə torpaq olaydım,
Bu qəmlər sazını çalana kimi.

## BATIRMA

İnanmış, sınanmış bir adam kimi,
İxtiyarın olsa qanı batırma.
Sevsən həqiqəti, adil hakimi,
Özünü, neməti, nanı batırma.

Kamil olsan qulluq eylə ustada,
Yaxşını yamana vermə arada,
Mənliyini pula satma dünyada,
İnsanlığı, adı, sanı batırma.

Qəvvas olan gedər gəzər dərində,
Arif olan sözü deyər yerində,
Eşit məni ağlın olsa sərində,
Əldə saxla bu dövranı batırma.

Mərdlərin pirinə deyəsən bəli,
Dar gündə çağırsan dadına gəli,
Qızıl mədənidi Miskinli Vəli,
İnsaf elə gövhər-kanı batırma.

## QOCALANDA

Heç kimsəni intiqama çəkməsin,
İnsana lazımdı var qocalanda.

Dərd üz verib qamətini əyməsin,
Yara kəm baxmasın yar qocalanda.
Vaxt gəlib keçəndə quruyur tağlar,
Gözəllik donunu soyunur dağlar,
Saralır yarpaqlar, pozulur bağlar,
Saxlamır budaqlar bar qocalanda.
İtirəndə baharını, yazını,
Şeyda bülbül çəkmir gülün nazını,
Aşıq yerə qoyur telli sazını,
Xanəndə götürmür tar qocalanda.
Vaxt səni mindirsə eşqin atına,
Bir dəstə gül gətir el baratına,
Bax nazlı afətin boy-büsatına,
Yağır saçlarına qar qocalanda.
Vaxt gəlir son qoyur ər savaşına,
Zəhər qatır mərd igidlər aşına,
İnsafdımı, Qoç Koroğlu başına,
Gəlir gen dünyası dar qocalanda.
Dünyanı soruşdum Süleymanından,
Dedi, ye malından, sür dövranından,
Əzizliklə bəslədiyin canından,
Əbədi görməzsən kar qocalanda.
Yüz il gün keçirsən dadlı-məzəli,
Torpaqdır insanın axır-əzəli,
Bu dərdə dözərmi Miskinli Vəli,
Tərlanı bəyənmir sar qocalanda.

## LƏNƏT

Qurd olar sürünü büsbütün qıran,
Süpürüb, dolduran gödənə lənət,
Dünyada qonşudur dağınan aran,
Qonşuya xəyanət edənə lənət.
Bir söz desəm pozar pisin halını,
Dağıdar iblisin hər cəlalını,
Qazanıb yeməyən halal malını,
Haramın dalınca gedənə lənət.
Vəli gözlər namusunu, arını,

Başqasına verməz ixtiyarını,
Haqsız yerə gözdən salıb yarını,
Özgəni axtaran, bədənə lənət.

## MÜBARƏK OLSUN
***(bəy tərifi)***

Bu əziz gününə gəlir ellərin,
Görüm a bəy, toyun mübarək olsun!
Bar versin gəncliyin, gülsün günlərin,
Görüm a bəy, toyun mübarək olsun!
Qulluq eylə yaxşı mətləb qanana,
Sənə can deyənə, candan yanana,
Hər an sevinc gətir ata-anana,
Görüm a bəy, toyun mübarək olsun!
Günəşdən nur alsın torpağın, daşın,
Hörmətə, qüdrətə ucalsın başın,
Şən olsun həyatın, qohum, qardaşın,
Görüm a bəy, toyun mübarək olsun!
Ali məclisinə cavan çağında,
Hatəm süfrəsi aç toy otağında,
Arxalı dağ kimi el qabağında,
Görüm a bəy, toyun mübarək olsun!
Diqqət verin aşıqların səsinə,
Yasdı balabanın xoş nəğməsinə,
Nəmər lütf eyliyin qız yengəsinə,
Görüm a bəy, toyun mübarək olsun!
Atana, anana, nazlı yarına,
Bir bağ sal bağından elin barına,
Yara nəsillərə, oğlanlarına,
Görüm a bəy, toyun mübarək olsun!
Miskinli Vəliyəm keçdikcə çağlar,
Unutmaz tarixlər yadında saxlar,
Zaman-zaman deyər gələn qonaqlar,
Görüm a bəy, toyun mübarək olsun!

## NƏDƏN OLDU?

Ay nazənin, ala gözün sürməsi,
Qaşların tərzində yay nədən oldu?
Aləmə xoş gələn nuru, şöləsi,
Gözəllik köksünə pay nədən oldu?
Mən qəmli aşığam, sən mələkzada,
Gözəllik səndədi həddən ziyada,
Adəm ilə Həvva yoxkan dünyada,
Aşuqi məşuqə tay nədən oldu?
Miskinli Vəliyəm cahü-cəlalım,
Yolunda qurbandı dövlətim varım,
Mənə bir xəbər ver, ay dərdin alım,
Çeşmələr yox ikən çay nədən oldu?

## BİZİM ELDƏ

Qalır ildən-ilə ərməğan kimi,
Uca Şah dağında qar bizim eldə.
Laçınlar havada şikarın alır,
Qoymur oylağına sar bizim eldə.
Şux tərlan oylağı Şınıx dərəsi,
Qanlı dağla Qala kəndin bərəsi,
Koroğlu nərəsi, Cavanşir dəsi,
Sazəndə, xanəndə, tar bizim eldə.
Baxan heyran qalır Şəmkir çayına,
Hüsnü-təbiətin qüdrət payına,
Bir kamil bağbanın haqqı sayına,
Qonmur gül üstünə xar bizim eldə.
Yazda yaşıllanır Şamlıq meşəsi,
Baxdıqca açılır könül şüşəsi,
Açır qızılgülü, tər bənövşəsi,
Dərir, dəstə tutur yar bizim eldə.
Cənnətə bənzəyir meyvəli bağı,
Çobandağ, Əyrəmçə, Mahı yaylağı,
Şərbət kimi daşdan çıxan bulağı,

Olur sinəsindən car bizim eldə.
Miskinli Vəliyəm deyim təhrini,
Necə təsvir edim eşqin bəhrini,
Məcnun olur çəkən Leyli qəhrini,
Sevən ağ sinədə nar bizim eldə.

## EYLƏR – EYLƏR

Xeyri-şəri nə var pünhanü aşkar,
Gah acı, gah şirin dil eylər-eylər.
Pozulmaz əbədi bir mizanı var,
Sanyəni böyüdər il eylər-eylər.
Gədanı şah edər, şahı bir gədə,
Yaxşını, yamanı seçər cümlədə,
Nəzərin əyərsə, tək bir ləhzədə,
Dəstində zər olsa, gil eylər-eylər.
Aləmi laləzar, bir böyük bazar,
Bir yanda gur yanar, bir yanda buzlar,
Bir yanda nizamlar, bir yanda pozar,
Bir yanda bəm sazı, zil eylər-eylər.
Bir yan dağa baxar, bir yan arana,
Bir yan həqiqətdi, bir yan əfsana,
Bir yanda şənlikdi, bir yan virana,
Bir yanda dəryalar lil eylər-eylər.
Bir yandan boşalar, bir yandan dolar,
Bir yandan açılar, bir yandan solar,
Bir yan şadimandı, bir yan qan olar,
Bir yanda şeşpəri mil eylər-eylər.
Bir mehri ülfətin məhəbbətindən,
Bahar təranəsi təbiətindən,
Aləmlər sərvəri öz qüdrətindən,
Günəşin gücündən gül eylər-eylər.
Ey Miskinli Vəli, etmə günahı,
Haqqın dərgahında doğru tut rahı,
Dərdinə dərmanı şahların şahı,
Qəlbindən qaranı sil eylər-eylər.

## YAXŞI

Sədaqətlə yaxşı saxla əlində,
Hərgiz ələ düşməz həyata yaxşı.
Yazginən qəlbinə, heç unutmaynan,
Yay ata nəshətin həyata yaxşı.
Şairin adəti yaza gərəkdi,
Katibin ziynəti yaza gərəkdi,
Xalqın məhəbbəti  yaza gərəkdi,
Yazdı nüsrət verən həyata yaxşı.
Vəliyəm, sözlərim qala dünyada,
Yazalar, yadigar qala dünyada,
Yaranan ölməyə, qala dünyada,
Tarixlər boyunca həyata yaxşı.

## GÖZƏLLƏR

Səhər-səhər səyahətə çıxmısız,
Salmısız cahana saya gözəllər.
Səf-səf olub qatar-qatar yeriyib,
Nə dönübsüz siz durnaya gözəllər.
Zərnişandı, gözəllərin sağıdı,
Nərgizin yanağı gül yarpağıdı,
Gülgəzin sinəsi cənnət bağıdı,
Cərgəsində Telli, Maya gözəllər.
Vəli, gözəl hanı Səlminaz kimi,
Həcər, Əsmər, Nigar, Gülavaz kimi,
Əsli, Ceyran, Çiçək bahar, yaz kimi,
Gülzarı bənzədim aya gözəllər.

## VURĞUN

Sevilən oğludu Azərbaycanın,
Mehriban ellərin vüqarı Vurğun.
Fəxri-fərəhidi hər bir insanın,
Çiçəyin, güllərin vüqarı Vurğun.
Hər bir cümləsinin var həqiqəti,
Bahar fəsli kimi xoş təbiəti,
Ali məclislərin sözü, söhbəti,

Danışan dillərin vüqarı Vurğun.
Qəlbində yaşayır oğlan, qızların,
Səmada sayrışan şən ulduzların,
Ovçunun, maralın, dağın, düzlərin,
Ceyranın, çöllərin vüqarı Vurğun.
Miskinli Vəliyəm bir təmiz ada,
Mən də yetirəydim bu xoş murada,
Bəşərin sevdiyi küllü dünyada,
Qəlbində tellərin vüqarı Vurğun.

## APARIR

Zalım əcəl ataları ağladır,
Əldən alır iftixarın aparır.
Anaların sinəsini dağıdır,
Zülm eləyir can-ciyərin aparır.
Olarmı dünyadan getməyən canı,
Onu sarsıtmaya əcəl tufanı,
Dünyanın alimi, kamil insanı,
Ağlar qoyur, intizarın aparır.
Vəli, yaxşı düşün dövlətin, varın,
Sonu kəsir qalır tam arzuların,
Dünya mənim deyən süleymanların,
Saya gəlməz milyonların aparır.

## EY PUL

Göstərən hünəri əzəldən bəri,
Oxuyan, hər elmə çatansan, ey pul,
Sözlərin gövhəri, dillər əzbəri,
Şirin canlar alıb-satansan, ey pul.
Varlının şöhrəti, şanlı adısan,
Şahlar dostu, kasıbların yadısan,
Fitnəsən, fəsadsan, sehrü-cadusan,
Natiqlər nitqini tutansan, ey pul.
Bir camal göstərən aynadan sənsən,
Ölkələr yerindən oynadan sənsən,
Aləmdə çox qanlar qaynadan sənsən,

Dünyanı bir-birinə qatansan, ey pul.

Şanlı cəlalları quran da sənsən,
Uçuran, zərbələr vuran da sənsən,
Bəşəri qırdıran, qıran da sənsən,
Milyonlar qanına batansan, ey pul.
Sən üçün götürür bir ağır daşı,
Sən üçün başlayır qanlı savaşı,
Sən üçün öldürür qardaş qardaşı,
Tutduğun əməldən utansan, ey pul.
Birinə şirinsən, birinə acı,
Birinin başına qoyursan tacı,
Dərin dəryalardan alan xəracı,
Dağları kül edib atansan, ey pul.
Miskinli Vəlini gətirsən sana,
Mehriban elləri salma ziyana,
Köməksən, arxasan, cansan insana,
Ürəklər üstündə yatansan, ey pul.

## HAYIFSAN

Şagird oldun qulluq eylə ustada,
İblisdən dərsini alma hayıfsan.
Yaxşını, yamanı düşün dünyada,
İnsan cərgəsindən qalma hayıfsan.
Doğru dolan, qulluq eylə beşdərə[1],
Təbib olsan zəhər vurma neştərə,
Meyil vermə fitnə-fəsad işdərə,
Bais olub qələm çalma hayıfsan.
İnan, mərd igidlər ölsə acından,
Mərhəmət gözləməz namərd tacından,
Ağır cəza çəkmə dilin ucundan,
Canını odlara salma hayıfsan.
Eşitsən sözümü çox qazanarsan,
Unutma qəlbindən neçə ki, varsan,
Üzmək bacarmasan, itər batarsan,
Dərin dəryalara dalma hayıfsan.

---

[1] *Беш али кимсяня (Мящяммяд пейьямбяр (я.с.), Имам Яли, Щясян, Щцсейн вя Фатимя) нязярдя тутулур.*

Laçın quşlar şikar alsa havadan,
Çolpa bala uça bilməz yuvadan,
Eşitsən Vəlini əl çək davadan,
Döyülüb dərinə dolma hayıfsan.

## SƏBİRSİZ

Səbri olan qatarından üzülməz,
Qarışmaz cərgəyə, sana səbirsiz,
Səbirli düşünər, havayı gülməz,
Tez başlayar şər, böhtana səbirsiz.
Səbirli ustaddan dərsini alar,
Səbirsiz tay-tuşdan geridə qalar,
Səbri olan günbəgünə ucalar,
Batar çıxmaz heç bir yana səbirsiz.
Səbirli bəsləyər bağçanı-bağı,
Səbirsiz düşünməz axşam-sabahı,
Səbirli gözləyər dalı-qabağı,
Düçar olar çox ziyana səbirsiz.
Səbirli xətadan bir təhər keçər,
Səbirsiz zəhəri tələsik içər,
Səbirli yüz ölçər, bir dəfə biçər,
Dərhal düşər nahaq qana səbirsiz.
Səbirli ucalar, qalxar göylərə,
Səbirsiz xətalar gətirər sərə,
Miskinli Vəliyəm yazdım dəftərə,
İnsan olmaz hər divana səbirsiz.

## TAMAHKAR

Etmə xəyanəti, pozma ziynəti,
Ləkələmə adın-sanı, tamahkar.
Bilsən həqiqəti, alma nifrəti,
Zəli kimi sorma qanı, tamahkar.
Aldanma arağa, erkək ətinə,
Özün öz işini salma çətinə,
Dövlətin malını sat qiymətinə,
Haqqı, ədaləti tanı, tamahkar.
Düşün bu sözləri olginən halı,
Artıq can odudur dünyanın malı,

Ovçunu aldadır dağlar maralı,
Dərhal satır qız, oğlanı tamahkar.
Xalqa ziyan vurur alır nifrəti,
Ulayan bayquşun pisdir niyyəti,
Demişlər ev yıxan, ev tikməz qəti,
Odlara yandırma canı, tamahkar.
Nə səpsən torpağa çıxar üzərə,
Sıxma qəlbin, düşmə qəmə kədərə,
Miskinli Vəliyəm yazdım dəftərə,
Oxu, öyrən bu dastanı, tamahkar.

**DÜNYA**

Bu axan suların, əsən yellərin,
Gedir dumanların hayana, dünya.
Açan çiçəklərin, solan güllərin,
Varmı hesabını sayan, a dünya.
Bir yandan verirsən, ənahətin var,
Bir yandan alırsan əmanətin var,
Bir kəsə demirsən nə niyyətin var,
Sirrini etmirsən bəyan, a dünya.
Sirrini bilməyə qaşları hilal,
Yorulur düşüncə, çatışmır kamal,
Dayanmır o çərxin, pozulmur cəlal,
Əhsən bu qurğunu qoyana, dünya.
Özü özlüyündə həmişə qalır,
Bir böyük bazardı, dolur, boşalır,
Hesabını çəkir, verdiyin alır,
Alladır, kim görüb allana dünya?
Tarixlər keçirib yerində durur,
Yüz min hökmdarın boynunu vurur,
Mənəm deyənləri tez yerə vurur,
Bir həzəc oxuyur meydana dünya.
Ay, günəş, ulduzlar, göydə buludlar,
Dolanır dəryalar, dövr edir sular,
Bəşər gəlir, gedir nə qədər ki, var,
Baqidi müttəsil dayana dünya.
Çoxu gəldi gecə-gündüz yatmadı,

Çox at sürdü mənzilinə çatmadı,
Min öyüd ver, qulağına batmadı,
Bac vermədi Nuha, tufana dünya.
Çox şənliklər döndü yasa, qalmadı,
Baxmayanlar iltimasa qalmadı,
Musa Turdan getdi əsa qalmadı,
Fironu qərq etdi ümmana dünya.
Şah Abbaslar hanı, fironlar hanı?
Pələnglər, babəklər, bəbirlər hanı?
Qayimlər, qatillər, qadirlər hanı?
Cəmşidi-cəm hanı, həyana dünya?
Çoxu zalım olub sinə dağladı,
Çox ev yıxdı, çox qapılar bağladı,
Çoxu qan ağlatdı, çoxu ağladı,
Son qoymur soyğuna, soyana dünya.
Mürvət qaldı yazıları yazana,
Nə deyərlər doğru yoldan azana,
Nifrət el yoluna quyu qazana,
Rəhmət körpüləri qoyana, dünya.
Açan lalə, nərgiz, çəmənzar gedir,
İnsi-cinsi, bəşər hər nə var gedir,
Hüsnünə vurulan intizar gedir,
Heç olubmu səndən doyan, a dünya.
Miskinli Vəlinin bağlanmaz baxtı,
Dayanar ürəyi, qurtarar vaxtı,
Qətrə sudan olan qara torpaqdı,
Gül açа, al-yaşıl boyana dünya.

## GÜLƏRMİŞ

Yazda, yayda ağ geyinən dağlara,
Payız qəhr edəndə boran gülərmiş.
El köçəndə solan bir çəmənzara,
Yaylaq boş qalanda aran gülərmiş.
Xoryat sözü mərd ürəyin dağlayar,
Təbib görsə, dərdə dərman bağlayar,
Aşıq eldən ayrı düşsə, ağlayar,

Bayqular tapanda viran gülərmiş.

Göydəki laçınlar baş əyməz sara,
Sınmasa qanadı, düşməsə dara,
Zülmün kəməndində ağlayanlara,
Zülmət qılıncını vuran gülərmiş.
Tərəqqi çarxında insan ucalar,
Tənəzzül gərdişi ayağa salar,
Yoxsul qatarından üzülər, qalar,
Vara fəxr eyləyən hər an gülərmiş.
Hərə bir söz deyər bəxti yatana,
Fələk qürbət elə daşın atana,
Adamsız arada itib-batana,
Kömək arxasında duran gülərmiş.
Miskinli Vəliyəm haqqına naçar,
Biri bağlayanda, birisi açar,
Birisi qovduqca, birisi qaçar,
Qaçan ağladıqca, qovan gülərmiş.

## DEYİMMİ?

Ürəyimdə gizli, pünhan sözüm var,
Onu aşkar nazlı yara deyimmi?
Bilirəm desəm də, sözüm tutulmaz,
Üzü dönmüş beyilqara deyimmi?
Dolanım başına, dərdin mən alım,
Yolunda qurbandı dövlətim, malım,
Xəstəyəm, təbibsən bimürvət zalım,
Həsrətəm qoynunda nara deyimmi?
Miskinli Vəliyəm eşqi həvəsdə,
Fərhadam, Şirinsən şirin nar bəsdə,
Məcnunam, Leylisən gəl bulaq üstə,
Gətir bu dərdimə çara deyimmi?

## DANIŞAQ

Şair sualına cavab verməyə,
Min dərs alan bir xəyaldan danışaq,
Süfrə salaq, ilham alaq, saz çalaq,

Qurğu-büsat, hər cəlaldan danışaq.
Şirin ola, yar can deyə yarına,
Bir söhbəti dəyər dünya varına,
Sevgiyə mehriban, düz ilqarına,
Əsil-nəsil pak halaldan danışaq.
Aşıq Vəli, çək minnətin bir yana,
Tut məclisdən dəm söhbətin bir yana,
Gözü, könlü, məhəbbəti bir yana,
Ağıl, mərfət, huş, kamaldan danışaq.

## QOCA BƏXTİM

Qəlbimdə od yanır sözü deyəndə,
Ağzımda titrəyir dil, qoca bəxtim.
Yarası məndədi, çarası səndə,
Söyləyim dərdimi bil, qoca bəxtim.
Dara düşdüm, qaçdı dostum, köməyim,
Od tutub cəsədim, yandı köynəyim,
Hasilə gəlmədi arzu, diləyim,
Günüm mənə keçdi il, qoca bəxtim.
Ötdü zaman, tərsə düşdü növrağım,
Günüm zülmət oldu, söndü çırağım,
Suyunu verмədin, pozuldu bağım,
Qurudu budaqda gül, qoca bəxtim.
Bağ pozuldu, halım keçdi pərişan,
Baharım qış oldu, ağır zimistan.
Günə sərvət yoxdu, qayatə iman,
Hər yerdən üzüldü əl, qoca bəxtim.
Ölsün aşıq, əl üzərsə, elindən,
Naqabil söz gətirərsə dilindən,
Müxənnət qəhrindən, zalım əlindən,
Qəlbimdə qəm çalır tel, qoca bəxtim.
Baxan olmaz dərdiməndin sözünə,
Əhlikefin nə görünər gözünə,
Kimsə layiq bilməz özü-özünə,
Bir gün yola salar el, qoca bəxtim.
Həm qaynar, həm açar, həm solar güllər,
Həm gələr, həm gedər yeriyən ellər,

Yağar ağ yağışlar oynayar sellər,
Axar məzarıma lil, qoca bəxtim.
Unutmam qəlbimdə neçə ki, sağam,
Mürvət elə, gözü yaşlı dustağam,
Gülü xəzan olmuş solğun yarpağam,
Bir gün də olaram gil, qoca bəxtim.
Miskinli Vəliyəm çəkirəm möhnət,
İxtiyar sənindi, sahibi-qüdrət,
Qopanda qiyamət eləsən hörmət,
Eynimin yaşını sil, qoca bəxtim.

## NƏ QALDI – QALDI

Cəhd eyləyən, var qazanan, ad alan,
Əl atdı hər yana, nə qaldı-qaldı?
Ləl axtaran, dəniz gəzən, ya dalan,
Nə çıxartdı yana, nə qaldı-qaldı?
Saxlayacaq cəsədində sirri nə?
Sin səsinin işarəsi, sirri nə?
Kainatın çərxi nədi, sirri nə?
Tarixini sana, nə qaldı-qaldı?
Cansız nədi, nədi candan ayrılar?
Nə qarışar, nədi sandan ayrılar?
Vəli getdi nədi yandan ayrılar?
Həyatda nişanə nə qaldı-qaldı?

## MƏNƏM MƏN

Ruzi-əzəl gündən odlar içində,
Yanan, cismi qalan yarı mənəm mən.
Qəriblik qəhrindən payını alan,
Ayrı düşən nazlı yarı mənəm mən.
Gecə-gündüz illər boyu ağlayan,
Həmişə yas tutub qara bağlayan,
Sinəsini çalın-çarpaz dağlayan,
Qəlbində saxlayan narı mənəm mən.
Eldən cüda düşüb atılan daşı,
Çaylara qarışan qanlı göz yaşı,
Qəza kəməndində bəlalı başı,
Üz döşəyən mərdə sarı mənəm mən.

Dost bağında qızıl güllər bitirən,
Məhəbbəti mənzilinə yetirən,
Şikarını göz önündən itirən,
İtkin düşən bir tavarı mənəm mən.
Bəxti üz döndərib, illərlə yatan,
Fələk öz əliylə daşını atan,
Gəmisi qərq olub, dəryada batan,
Əldən gedən küllü varı mənəm mən.
Miskinli Vəliyəm söylüyüm necə,
Yanıb külə dönən, gəlməyən vecə,
Baharı qış olan, gündüzü gecə,
Zülmət keçən ruzigarı mənəm mən.

## NƏDƏNDİ?

Alır silahını atırsan nəyə?
Atdıran nədəndi, atan nədəndi?
Yaxşı insanları həqiqi rəyə
Çatdıran nədəndi, çatan nədəndi?
Hərdən ki, gedirsən, hərdən gəlirsən,
Gəzir kəndi, el, şəhərdən gəlirsən,
Seçirsən, alırsan zərdən, gəlirsən,
Satdıran nədəndi, satan nədəndi?
Vəli nəzər etdi hər gedişinə,
Xain xəyalına, kəc yerişinə,
Sər qatırsan cəngə, cədəl işinə,
Qatdıran nədəndi, qatan nədəndi?

## NƏSİHƏT

Doğru danış, el içində düz dolan,
Bəla tutmuş olar yoldan azanı.
Oğrunun, əyrinin çörəyi olmaz,
Atalar demişdi quyu qazanı.
Qonşunun, qohumun olma xaini,
Hər kəs əməyindən alar payını,
Şən istə elinin haqqı sayını,
Xalqına dost olan hörmət qazanı.
Cavan ola, qoca ola, pir ola,
Bəşəriyyət birdi, sözdə bir ola,
Qüdrət ola, qüvvət ola, gir ola,

Kamal ola, başa düşə havanı.

Nə olar ki, açılan gül solmaya,
Suyun kuzəsinə qanlar dolmaya.
Azğınlıq, lovğalıq, tamah olmaya,
Dünya dövlətləri etməz davanı.
Vəli söz deməyə qəhrəman olsun,
Şən eli, obası xoş dövran olsun,
Qoy yaxşılıq səndən xoş nişan olsun,
Unutmaynan xeyri-şəri yazanı.

## ÜZƏ

Altmışımda nəsə könlüm vurulub,
Bir qəddi qamətə, bir gülər üzə.
Xanəndə, sazəndə elə yaraşır,
Payəndaz döşənə yar gələ bizə.
Gözəl tovuz quşu, tovuz balası,
Yanaqlar açılmış dağlar lalası,
Dəstində həyatçün mey piyalası,
Başında məclisi gələ evmizə.
Vəli minnətdardı hər qədəminə,
Necə bülbül həsrət gül əndəminə,
Dostum, əlindəki eşqin cəminə,
Dayanam, qarşıda baxa göz-gözə.

## OLMASA

Bağban bağ bəsləsə itər əməyi,
Bəslədiyi bağın barı olmasa.
Bülbül fəğan eylər ağlayar nəyi?
Əgər qızılgülün xarı olmasa.
Nadanın məclisdə isbatı nədi?
Namərdin dostluğa hörməti nədi?
Bivəfa adamın mərfəti nədi?
Doğru sözü, düz ilqarı olmasa.
Aşıq Vəli sözü söyləyər kəsə,
Hər vaxt qiymət verər yaxşıya pisə,
Könlü müşkül olar çox batar yasa,

Hər kəsin vəfalı yarı olmasa.

## APARIR

Bax bu ana torpaq bəşərə candı,
Can verdiyi küllü canlar aparır,
İstəklisi, dostu, mehribanıdı,
Mehribandı, mehribanlar aparır.
Seçmir, ayrı tutmur yaxşı, yamanı,
Düz, əyrini, qanmayanı, qananı,
Bacını, qardaşı, ata, ananı,
Çəkilmir hesabı sanlar aparır.
Fikiri, məqsədi, işi belədi
Durub ilqarından dönmür əbədi
Fizulini, Nizamini, Səmədi
Çox alimlər, qəhrəmanlar aparır.
Qalaları, bürcü, barı dağıdır,
Karvanı, qatarı, varı dağıdır,
Səflər pozur, hökmüdarı dağıdır,
Səltənətli Süleymanlar aparır.
Miskinli Vəliyəm düşmüşəm bəndə,
Nişansız məzaram, torpağam mən də,
Növrəstə cavanlar düşür kəməndə,
Hayıf edir nahaq qanlar aparır.

## AŞIĞIN

Elinən yaradır, elnən yaşadır,
Eldi can-ciyəri, eli aşığın.
Eli elnən gedir, elinən gəlir,
Elinən gətirir əli aşığın.
Elinən qazanır, elinən yeyir,
Elinən əyilir, elinən əyir,
Elinən deyilir, elinən deyir,
Elinən danışır dili aşığın.
Elinən saz alır, elinən çalır,
Elnən yaşıllanır, elnən saralır,

Elinən yaşayır, elinən qalır,
Elin el aşığı Vəli aşığın.

## VİDALAŞIR
***(S.Vurğunun dəfn günündə yazılmışdır)***

Azərbaycan oğlu Səməd Vurğunun,
Ayrılıq günüdür el vidalaşır,
Böyük ölkələrdən gəlir dostları,
Deyirsən axışan sel vidalaşır.
O böyük sənətkar elin dostudur,
Şəhərin dostudur, çölün dostudur,
Bülbülün dostudur, gülün dostudur,
Bülbül vidalaşır, gül vidalaşır.
Qazanıb cahanda böyük hörməti,
Dillər əzbəridir, məclis ziynəti,
Hələ çox artacaq bu məhəbbəti,
Üzülməz əlindən, əl vidalaşır.
Xalqın məhəbbəti ondan üzülməz,
Axar sərin çeşmə sondan üzülməz,
İnsan cərgəsindən sandan üzülməz,
Fəsil qan ağlayır, il vidalaşır.
Miskinli Vəliyəm keçərəm candan,
Möhnətim yüz oldu dərdü hicrandan,
Bu böyük dahidən, ölməz insandan,
Məhəbbət ayrılmır, dil vidalaşır.

## KEÇİR

Bu dünya bir evdi, qapısı iki,
Bu qapıdan girən tez ordan keçir.
Elə bil körpüdü, ya da pəncərə,
Yaranan, göz açan, hər baxan keçir.
Hər ata, hər ana, hər qardaş, bacı,
Güclülər gücsüzdən alır xəracı,
Şahlar gəlir-gedir, boş qalır tacı,
Qalmır vəzir, vəkil, xan-xəban keçir.
Zalım ovçu haqsız qovur maralı,
Ananı baladan salır aralı,
Biri yasdı gedir, biri yaralı,

Hərə bir yol ilə cümlə can keçir.
Dünya meydanıdı bir böyük bazar,
Bir yanda gül, çiçək, bir yanda yanar,
Canlı-cinli, insi-cinsi hər nə var,
Bir yandan yaranır, bir yandan keçir.
Miskinli Vəlidən olsanız halı,
Düşünür qurğunu, cahü-cəlalı,
Nadanı tez pozur dünyanın malı,
Qanan bu dünyadan mehriban keçir.

## ZALIM

Deyən, qarın şişir, yağlanır boyun,
Qızır, qızışırsan yaman, a zalım.
Əməlin qarşında oynasa oyun,
Əlimdən çəkərsən aman, a zalım.
Malından yeyirsən, özün öyürsən,
Ağzına gələni elə deyirsən,
Pis söz danışırsan, qəlbə dəyirsən,
Gözə sovurursan saman, a zalım.
El döymək istəsən tez döyülərsən,
Əlli döyürsənsə, yüz döyülərsən,
Əyri döyülərsən, düz döyülərsən,
Könlünə gətirmə güman, a zalım.
Qudursan yeyəndə elin malını,
Deyər, qırar qabırğanı, qolunu,
İtirmə özünü, azma yolunu,
Düşmə qaranlığa, dumana zalım.
Bilsən eldi, sənin bağın, baharın,
Ürəyin, ciyərin, varlığın, varın,
İşığın, iqbalın, gözün didarın,
Kəm baxma ilqara, imana zalım.
Qanundan, qaydadan olmasan halı,
Çəkərlər hesabı düz çıxmaz dalı,
Döymə ağsaqqalı, olma havalı,
Yaman, bil, rast gələr yamana zalım.
Gəl sən ol ağıllı, olmaynan dəli,
Qəvvas dəryalarda axtarır ləli,

Kamil ovçu kimi Miskinli Vəli,
Oxunu düz qoyur kamana zalım.

## YERİNDƏ

Bir arif mənimlə ülfət eylədi,
Doğru sözü, düz ilqarı yerində.
Gövhəri, cövhəri hər bir kəlmədə,
Hörməti, şöhrəti, varı yerində.
Sözü danışmağa, cümlə qurmağa,
Hər bir kəlməsinə ziynət vurmağa,
İnsan cərgəsində başda durmağa,
Yaxşı çatır ixtiyarı yerində.
Ariflər yanında pozulmur halı,
Qəlbini aldatmır dünyanın malı,
İnsanlığı, mərifəti, kamalı,
El içində etibarı yerində.
İnsan elmi həqiqətdən ucalır,
Çox qüdrətdən, şux niyyətdən ucalır,
Hatəm kimi səxavətdən ucalır,
Onun da var yadigarı yerində.
Miskinli Vəliyəm bir bağ salmadım,
Bəsləyib, yetirib ilham almadım,
Sözdən qala qurdum aciz qalmadım,
Qəmdən hasar çəkdim barı yerində.

## DEYİRƏM

Dünyanın malına vermərəm səni,
Kamala başımın tacı deyirəm.
Elin qüdrətinə, gücüm, hünərim,
Min dərdimin bir əlacı deyirəm.
İnsanlıq yolunu düşünən bir baş,
Dostuma dost oldum, sirdaşa sirdaş,
Uşağa can bala, böyüyə qardaş,
Gəlin-qıza ana, bacı deyirəm.
Dünyamız şən olsun, edirəm dilək,
Bəzənsin, bağlarda gül dərsin mələk,

Oğru, əyri, xain yüz qursa kələk,
Tapmaz un ələyi, sacı deyirəm.

El gərək yaltağın daşını ata,
Nadanı haylaya naxıra qata,
Axmağa, sarsağa, fitnə-fəsada,
Çöl vəhşisi, el oğracı deyirəm.
Mərdə, mərifətə qurbandı canım,
Elmə, insanlığa qaynayır qanım,
Yalançı mollaya, naşı tarzanım,
Çalmaz zurnaçıya hacı deyirəm.
İblisi, ibnəni salaydım dərin,
Qatilin, qəddarın kəsəydim sərin,
Lotuya məzəli, yaxşıya şirin,
Zalıma zəhərdən acı deyirəm.
Miskinli Vəliyəm söyləyim halın,
Varlıdı, kasıbdı bilin əhvalın,
Dəliyə dəyməyin, xəsisdən alın,
Düşəndə doyurun acı deyirəm.

## GƏLƏNDƏ

Ay nazənin, bir danışıb dinsənə,
Mən sizə söhbətə, sözə gələndə.
Bu qədər olarmı qəddim əyirsən,
Çəkirsən özünü naza gələndə.
Gəl verək əl-ələ, çıxaq dağlara,
Al yanaq ziynətdi hər çəmənzara,
Qızılgül açanda enək bağlara,
Şeyda bülbül xoş avaza gələndə.
Vəli Kərəm kimi oda yanacaq,
Eşqin səyyahları adın anacaq,
Sən özün demişdin toy başlanacaq,
Qızılgül açanda, yaz a gələndə.

## SƏN DEDİN, MƏN DEDİM

Sən dedin: – Doymuram dünya malından,
Mən dedim: – Çəkdiyim bəsdi dünyada.
Sən dedin: – Gedərəm nəfsin dalınnan,

Mən dedim: – Səbrimi kəsdi dünyada.
Sən dedin: – Gözümü dikmişəm zərə,
Mən dedim: – Sözümü yazdım dəftərə,
Sən dedin: – Ucalım qalxım göylərə,
Mən dedim: – Quruca səsdi dünyada.
Sən dedin: – Hər yandan gətirə əlim,
Mən dedim: – Danışa, dürr tökə dilim,
Sən dedin: – Hər kəsə xoşdu əməlim,
Mən dedim: – Ellərə dostdu dünyada.
Sən dedin: – Ürəkdən sevirsən kimi?
Mən dedim: – Həqiqət açır qəlbimi,
Sən dedin: – Aləmə adil hakimi,
Mən dedim: – Eyləməz qəsdi dünyada.
Sən dedin: – Nə isə, Miskinli Vəli,
Mən dedim: – Düşünür axrı, əzəli,
Sən dedin: – Sevirəm əsil gözəli,
Mən dedim: – Mərifət şəstdi dünyada.

## CEYRANI

Ovçu insaf eylə tökmə qanını,
Qıyma qatarından qala ceyranı.
Yara vurub qəsd eyləmə canına,
Azad eylə ana-bala ceyranı.
Ananı itirsən diyarbədiyar,
Körpə bala ağlar, çəkər ahu-zar,
Gedəndə tapşırıb böyük sənətkar,
İncitməyin hər mahala ceyranı.
Vurğunun sözləri iz salır daşa,
Tapşırıb ellərə o başdan-başa,
Bəsləyib göstərə qardaş qardaşa,
Öpüb qucağına ala ceyranı.
Kənarda saxlayın atəşdən, nardan,
Tikandan, afətdən, borandan, qardan,
Qanlı ovçulardan, zalım şahlardan,
Qoymayın kəməndə sala ceyranı.

Qurdu, quşu göz evindən itirin,
Ətrafında qızılgüllər bitirin,
Oxşayın, öyrədin, dilə gətirin,
Tez yetirin bir kamala ceyranı.
Miskinli Vəli də gedər aradan,
Qalmaz bu dünyada hər addım atan,
Hanı Vurğun kimi yazıb yaradan?
Nəqş edə, tarixə sala ceyranı.

## MƏN DEDİM, SƏN DEDİN

Sən dedin: – Ləblərin şəhdi, şirindi,
Mən dedim: – Acıdı, canlar alandı!
Sən dedin: – Dünyaya saldığım ündü,
Mən dedim: – Şeirdi, ləldi, qalandı!
Sən dedin: – Təbəssüm yaxşıdı üzdə,
Mən dedim: – Məhəbbət görünür gözdə,
Sən dedin: – Cavanlıq qalarmı bizdə?
Mən dedim: – İnanma, sözdü, yalandı!
Sən dedin: – Vəlini salmırsan yada,
Mən dedim: – Atlıya çatmaz piyada!
Sən dedin: – Gözəllik külli-dünyada,
Mən dedim: – Bir düşün kimə qalandı!

## LALASIDIRMI?

O büllur buxağın, qaymaq dodağın,
Yanağın dağların lalasıdırmı?
Müjgan kirpiklərin keçdi sinəmdən,
Gözlərin canımı alasıdırmı?
Qoynunda bəslənən o bir cüt narın,
Xəstəyə dərmanı təzə nübarın,
Yasəmən tellərin, hilal qaşların,
Bu gözəllik səndə qalasıdırmı?
Miskinli Vəliyəm qəlbi durulan,
Qarşısında şən məclislər qurulan,
Qüdrətdən hüsnünə ziynət vurulan,
Yar tovuz quşunun balasıdırmı?

## MƏN İNANMADIM

Dedilər: – Yar yanar yarın halına,
Atdı məhəbbəti, mən inanmadım.
Dedilər: – Aldanmaz dünya malına,
Etdi xəyanəti, mən inanmadım.
Dedilər: – Bahardır gəzək bağları,
Dedim: – Kəm taleyin qəm olar yarı,
Dedilər: – Pozulmaz əhdi-ilqarı,
Çox oldu söhbəti, mən inanmadım.
Dedilər: – Bilirsən, boşalan dolur?
Dedim: – Çox görmüşəm açılan solur,
Dedilər: – Aləmdə hər zaman olur,
Haqqın ədaləti, mən inanmadım.
Dedilər: – Şöhrətin nədir nizamı?
Dedim: – Simu-zərdən alır ilhamı,
Dedilər: – Zalımı yerbəyer hamı,
Sevir, həqiqəti, mən inanmadım.
Dedilər: – Köçəcək Miskinli Vəli,
Dedim: – El saxlayar qiymətli ləli,
Dedilər: – Şerində əsli-əməli,
Yoxdu aqibəti, mən inanmadım.

## GƏZİRƏM

Çəkirəm intizar, yetmiş yaşım var,
Bulanmayan su dövranı gəzirəm.
Mənim də sevgilim, öz sirdaşım var,
Qədir bilən mehribanı gəzirəm.
Ellər qəhri çəkən, yata bilməyən,
Namusu, qeyrəti ata bilməyən.
Haqqı-ədaləti sata bilməyən,
Pak vicdanı, təmiz qanı gəzirəm.
Qəmlər məngənəsi sıxır qəlbimi,
Yanıram odlara səməndər kimi,
Kamil sənətkarı, bilən həkimi,
Dərdim üçün bir dərmanı gəzirəm.

Dərdimi biləninin qaralır qanı,
Deyirlər bağın var meyvəsi, hanı?
Ərzimi qananı, adil divanı,
Zəhmət bəhri gülüstanı gəzirəm.
Miskinli Vəliyəm gülləri solan,
Cəsədi qovrulan, gözləri dolan,
Həqiqət əlindən ixtiyar olan,
Mürvət əhli kərəm-kanı gəzirəm.

## DOSTLUQ

Mehriban dolana, düz yola gedə,
İnsana layiqdir hər anı dostluq.
Məhəbbət bəhrini gül-gülşən edə,
Hiyləgər pozmaya aranı dostluq.
Əldə əsas tuta bir məhəbbəti,
Seviləndə sevə, bilə hörməti,
Ola insanlığı, həm səadəti,
Edər hər bir dərdə çaranı dostluq.
Adəti, mərfəti, çoxdu neməti,
Xoşdu səadəti, şuxdu niyyəti,
Etməz xəyanəti, kini-küdrəti,
Gətirməz qəlbinə qaranı dostluq.
Dost dost qapısına qədəm qoyunca,
Deyər, gülər, söhbət edir doyunca,
Sarıdar, sağaldar ömrü boyunca,
Ağrını, acını, yaranı dostluq.
Aşıq Vəli eyib yoxdur sözündə,
Hər kimsə düşünə özü-özündə,
Nəsillər dost ola dünya üzündə,
Zər bəzər hər dağı-aranı dostluq.

## BAX – BAX

İblis əməlinə, ibnə sözünə,
Ağlar gözə, aha, amana bax-bax.
Min əngəl gətirən dünya üzünə,
Elmə, inkişafa, zamana bax-bax.

İnsandımı sıxan, əzən insanı?
Mənəm, mənəm deyib açan meydanı,
Süpürüb udmağa küllü dünyanı,
Ac gözlər etdiyi gümana bax-bax.
Şirin söhbətinən, gülər üzünən,
Yaxşı yola getməz əyri düzünən,
Düşmənə aldanan yalan sözünən,
Cəlladdan mərhəmət umana bax-bax.
Talayıb, toplayan dövləti, malı,
Qan tökən zalımın varmı kamalı,
Nədir işə salan bu qeylü-qalı,
Qiymət ver yaxşıya, yamana bax-bax.
Can qurbandı insan qədri bilənə,
Yaramazı yer üzündən silənə,
Son qoyacaq öldürənə, ölənə,
Gözlərindən qanlar damana bax-bax.
Miskinli Vəliyəm söyləyim mətin,
Xalqa ziyan vuran kəsər hörmətin,
Yanqır yaramazın, o pis niyyətin,
Başında qaranlıq dumana bax-bax.

## HEY QALA  QALA

Aşıq odur yaxşı yaza, yarada
Xalqların qəlbində hey qala, qala.
Onu ellər sevə külli dünyada,
Sözləri son qoya hey qala, qala.
Bu sözləri sırğa etsən yadına,
Haqsız yanma dilin, nəfsin oduna,
Qara ləkə vurma mərdin adına,
Namərdi odlara hey qala, qala.
Yüz nəsihət desə Miskinli Vəli,
Naşı baxar keçər, tanımaz ləli,
Oğru, əyri, naqis, nadan, ölməli,
Yaramazlar çəkər hey qala, qala.

## GÖDƏLƏNDƏ

Aşıq qocalanda nə pis olarmış,
Sazı dəmdən düşüb əl gödələndə.
Köhləni yorulan yolda qalarmış,
Dizlər tutulanda, qol gödələndə.
Ağıllı dəlidən ümid gözləməz,
Qanan qanmayana dərdini deməz,
Ayaq getməz, əl gətirməz, diş yeməz,
Dodaq gülə bilməz dil gödələndə.
Miskinli Vəliyəm yaxşı qananın,
Qulam qulluğunda canı yananın,
Üzünə kəm baxma ata-ananın,
Kövrək olur ömrü bil gödələndə.

## GƏLƏNDƏ

Qüdrətdən aləmə xalı sərilir,
Xoş baharın çəmənzarı gələndə.
Ürəklər sevinir, qollar gərilir,
Güloğlanın nazlı yarı gələndə.
Ağlayanda göz yaşımı silmədin,
Oxşayıb, öyrənib dərdim bilmədin,
Dindirmədin, güldürmədin, gülmədin,
Könlümü almadın barı gələndə.
Cavanlıq şövq salır tər çiçəklərə,
Qocalıq son qoyur ər oğlu ərə,
Güvənmə özünə, aldanma zərə,
Gün xoş keçir xeyirkarı gələndə.
Cavanlıqda yar könlünü yar alır,
Gün keçir qocalır qəlbi daralır,
Xəzan əsir, gül-çiçəyi saralır,
Dağlar susur, yatır qarı gələndə.
Miskinli Vəliyəm gəldim əfsana,
Yazıb-yaratmadım qala nişana,
Xəstəyəm, könlüm al zarafatyana,
Gəl aç, yar, yaramı sarı gələndə.

## DURNALAR
***(M.P.Vaqifə)***

Səbəb nədir məlul-müşkül gəzirsiz,
Dolanırsız bu diyarı, durnalar.
Qara bağrım şan-şan edib əzirsiz,
Çəkdirirsiz intizarı, durnalar.
    Ağlayırsan ayrı düşüb dəsindən,
    Elindən, günündən, yarış bəhsindən,
    Qərib nəfəsindən, qəmli səsindən,
    Öldürərsən dil azarı, durnalar.
Səyyad olan açıb torun qurmasın,
Ovçu olan qəsdinizdə durmasın,
Şahin quşlar qanlı caynaq vurmasın,
Pozmasın səfləri barı, durnalar.
    Mən qəmli aşığam, siz mələkzada,
    Qatarlanıb, qanad çalıb havada,
    Nəğmə deyib gedirsiniz Bağdada,
    Gözləyirəm ilk baharı, durnalar.
Miskinli Vəlini salsanız yada,
Bu sözləri unutmayın nəbadə,
Yetirin dostlara, yaysın dünyada,
Yaxşı saxlar yadigarı durnalar.

## ANALAR

Gələndə dünyaya baxar üzünə,
Balanın adını anar analar,
Qəlbini oxuyar özü-özünə,
Oxşayar dərdini qanar analar.
    Zəhmət çəkər gecə-gündüz bəsləyər,
    Şirin layla tutar, şirin səsləyər,
    Tez böyütmək, tez yetirmək istəyər,
    Balanı öz canı sanar analar.
Balanın qəhrindən qəsd edər cana,
Az qalar ki, olsun dəli, divana,
Axan göz yaşları qarışar qana,
Balasından olsa kənar analar.
    Ağlasa ağlayar, güləndə gülər,

Övlada ömründən kəsər, pay verər.
Naqabil kəs ana qədrin nə bilər?
Balanın halına yanar analar.
Analar çalışar qeydə qalmağa,
Böyüdüb, yetirib ilham almağa,
Qaranlıq yoluna işıq salmağa,
Saxlayar dəstində fanar analar.
Vəli söylər gözün ağı, qarası,
Ürəyinin, ciyərinin parası,
Balanın zərrəcə olsa yarası,
Dayanar ürəyi donar analar.

## GÖZLƏRİN

Muradım, istəyim, arzu, diləyim,
Qıyma qanlı yaşı süzə gözlərim.
Əriyər ürəyim, solar çiçəyim,
Dərdimi yetirir yüzə gözlərin.
Gözü yaşlı baxsa yarı həmdəmə,
Alışar odlara, qərq olar qəmə,
Yaram üstdən yara vurar sinəmə,
Axıdar qanımı düzə gözlərin.
Miskinli Vəliyəm canım al apar,
İtirən axtarar, axtaran tapar,
Könlümün evində tufanlar qopar,
Əlini əlimdən üzə gözlərin.

## NƏDİ?

Ömür keçər bir şığıyan ulduztək,
Sanyə nədi, saat nədi, il nədi?
Cavab verməz yüz min sözün birinə,
Nitq nədi, dodaq nədi, dil nədi?
Kimlər bu dünyadan şad olar gedər?
Tarixə nəqş olan ad olar gedər,
Cəmi məxluqata yad olar gedər,
Qohum nədi, qardaş nədi, el nədi?
Miskinli Vəliyəm düşdüm azara,
Təbibdən dərdimə olmadı çara,
Qəssal yudu, tez qoydular məzara,

İsti nədi, soyuq nədi, yel nədi?

## QALACAQ

Qazan ye malını, sür dövranını,
Gedirsən dünyanın varı qalacaq.
Gözün gözlədiyi könül muradı,
Dilin son kəlməsi yarı qalacaq.
Bilirsənmi bu dünyanın halını,
Xarabalıq gördüm çox cəlalını,
Dəryalarca yığsan dövlət-malını,
Nəfsin çoxdu, arzuları qalacaq.
Çoxlar bu dünyada eyləyir bəsi,
Mənəm deyənlərin kəsilir səsi,
Bülbülün nəğməsi, durnanın səsi,
Şahinlərin can şikarı qalacaq.
Fələk yaman yerdə qəsdimə durdu,
Hicran oxlarını sinəmə vurdu,
Gözəllər məskəni, igidlər yurdu,
Tərlan quşun oylaqları qalacaq.
Miskinli Vəlinin yaman çağıdı,
Gözündə oynayan qəm fərağıdı,
Şair sözü kainatın bağıdı,
Nəsillərdə yadigarı qalacaq.

## VERƏ BİLMƏZ

Diqqət ilə düzgün çəkib hesabı,
El üçün hər ağlı çaş verə bilməz,
İnsana kamalı, kamala ziynət,
Vəsməli-sürməli qaş verə bilməz.
Bəşər ədaləti el mehribanı,
Sərrafsan yaxşını, yamanı tanı,
Cəhldən aldadar insan insanı,
Bir haqqı nahaqqa daş verə bilməz.
Gələcəyi görməz qəflətdə yatan,
Qəlbindən düzlüyün daşını atan,
Dövləti aldadan, qanunu satan,

Həqiqət yoluna baş verə bilməz.

Oxunur Vəlinin ömrünün sonu,
Oddan köynəyidir, alovdan donu,
Mərdi əvəz etməz namərdin onu,
Çünki süfrə açıb aş verə bilməz.

## NECOLDU?

***(Riyaziyyatçı alim Qoşqar Əhmədlinin ölümü münasibətilə yazılmışdır)***

Aman fələk, aman sənin əlindən,
Bizim elin Qoşqar dağı necoldu?
Mehriban ellərin, mehriban oğlu,
Göz işığı, ürək yağı necoldu?
Altında qalanda qəmlər yükünün,
İrəngi saralar göydəki günün,
Alicənab oğlu vətən mülkünün,
Ali məclislərə saqi necoldu?
Qəmli könülləri güldürən gülən,
Ağlayan kəslərin göz yaşın silən,
İnsan qədri bilən, sevən, sevilən,
Məhəbbətin solmaz tağı necoldu?
Şirin gülən bir gün acı ağlayır,
Şahların başının tacı ağlayır,
Ata, ana qardaş, bacı ağlayır,
Mərd igidlər xoş növrağı necoldu?
Ağır yaralara qəm tökür duzu,
Vəlinin göz yaşı əridir buzu,
Alimlər səfinin parlaq ulduzu,
Doğma yurdun ilk mayağı necoldu?

## NEYLƏSİN

**(*Bu şeir sovet (rus) ordusunun Bakıda törətdiyi 20 Yanvar (1990) qırğını ilə bağlı yazılmışdır)***

Eşitdim Bakının matəm xəbərin,
Gözlərim qan-yaşla doldu, neyləsin?!
Analar, bacılar döydü özlərin,
Ağladı, saçların yoldu, neyləsin?!

Azərbaycan üzür qanda, ağlayır,
Yer də, göy də, asiman da ağlayır.
Cəm insanlar hər bir yanda ağlayır.
Bədəməl əlində qaldı, neyləsin?!
Dünya sərvətləri əzəldən bəri,
Adəmə yaranıb xeyiri-şəri.
Zalım zərbəsindən gənc gəmiləri
Qərq oldu qəzaya daldı, neyləsin?!
Aləmlər sərvərin düşündüm dərin,
Əslin-əməllərin, elmin, əsərin,
Məhəmməd peyğəmbər ən əzizləri,
Üç gənc oğul yola saldı, neyləsin?!
Diqqət ver tarixə, saysız insana,
Qopan qiyamətə, Nuha, tufana,
Dəryalar kükrədi, daşdı hər yana,
Su tutdu dünyanı aldı, neyləsin?!
Duyub-düşündükcə axır əzəli,
Haqsız qanlar töküb iblis əməli.
Xalqa can sağlığı arzular Vəli, -
Əməl azdı, xata oldu, neyləsin?!

*21.12.1990*

## DEYİRƏM

Namərd ilə köçün sürmə yaylağa,
Səni yurdda qoyub köçər deyirəm.
Xonun[1] olsa, mehribandı qaymağa,
Olmasa hörmətdən keçər deyirəm.
Mənim sözüm hərcayidən pünhandır,
Ariflər yanında ləli-mərcandır,
Baxarsan ki, gen günündə mehmandır,
Dar günündə səndən qaçar deyirəm.
Əlni vermə sən namərdin əlinə,
Yetənməzsən fitnəsinə, felinə,
Kənardan seyraqub döysə, belinə,
Doldurub qanından içər deyirəm.

---

[1] Xonun bal deməkdir. Burada balla qaymağın qarışdırılması nəzərdə tutulur.

Namərd tanımayar dostu, düşməni,
Beş qəpiyə alar, satar insanı,
Nə haqqı tanımaz, ilqar, imanı,
Məhəmməd dinindən keçər deyirəm.

Mən qaçağam hərcayidən, dəlidən,
Mətləbim istərəm ağam Əlidən,
Qiymətli bir sözdür alsan, Vəlidən,
Namərdə sirr vermə açar deyirəm.

## QOŞAYARPAQ QOŞMALAR

### MƏNİM MÖHNƏTİM

Ey ürək sirdaşım, dərk edir başım,
Sənin möhnətindir, mənim möhnətim.
Qiymətli qumaşım, ləlim, daş-qaşım,
Sənin sərvətindir, mənim sərvətim.
Qəlbimdə bir çiçək, açıla ürək,
Xoş ola gələcək, xoş ola dilək,
Şən məclisə gələk, şən olaq gülək,
Sənin minnətindir, mənim minnətim.
Vəli yanır oda, bir xoş murada,
Yalvarır arada qoca dünyada,
Bir kamil ustada, bir təmiz ada,
Sənin hörmətindir, mənim hörmətim.

### NECƏ CANDI

Tər məmə, tər sinə, tər əndamına,
Bax, necə cavandı, ax, necə candı.
Yanağı, dodağı lalə yarpağı,
Ətirlər saçandı, güldü, gülşəndi.
Gözləri xumarı qoy deyim barı,
Uca dağın qarı, fəslin baharı,
Qoynunda nübarı o bir cüt narı,
Xəstəyə dərmandı, təzə cavandı.
Vəli de, halına, hər cəlalına,
O mah camalına, xəttü-xalına,
Dağlar maralına, pür kamalına,
Pərvanəm dolandı odlara yandı.

## GƏRAYLILAR

### BOYLANA-BOYLANA

Yarım mənə vədə verib,
Gəlir boylana-boylana.
Hərdən-hərdən yana durub,
Gülür boylana-boylana.
Yardan götürməm gözümü,
Yana tutmaram üzümü,
Ürəkdə pünhan sözümü,
Bilir boylana-boylana.
Görüb sevdi Aşıq Vəli,
Ürkək gəzən tək gözəli,
Yuyunur, tər nazik əli
Silir boylana-boylana.

### MƏNƏM

Bir sahədə təlim verən,
Bir sahədə dəli mənəm.
Bir bazarda yer zibili,
Bir bazarın ləli mənəm.
Bir cəbhədə geri qalan,
Bir cəbhədə ilham alan,
Bir cəbhədə ölməz olan,
Bir cəbhədə ölü mənəm.
Bir cəbhədə kamil insan,
Bir ləhcədə ancaq nadan,
Bir cümlədə doğru-yalan,
Bir cümlədə Vəli mənəm.

### BAĞLI

Bu dünyada heç olarmı?
Mən tək bəxti qara bağlı.
Gələn gedir, köç olarmı?
Qışda qara, tara bağlı.

Mənə qəmdi gözəl çağlar,
Yağı görsə yanar, ağlar,
Sinəm üstə çarpaz dağlar,
Ürəyimdə yara bağlı.
Qəm eyləmə, Vəli, bəsdi,
Şirin cana etmə qəsdi,
Ayrılıq səbrimi kəsdi,
Yandım oda, nara bağlı.

## APARIR

Zalım əcəl necə qıyır,
Hilal kimi can aparır.
Körpələri ağlar qoyur,
Halı pərişan aparır.
Düşünürəm öz-özümə,
Qəmə qərq olan sözümə,
Dünya qaralır gözümə,
Dağları tufan aparır.
Hicran çalır öz surunu,
Yandırı yaşı, qurunu,
Anaların göz nurunu,
Yaş axıdır, qan aparır.
Qəza tora saldı mərdi,
Gəlməz səfərə göndərdi,
Ataları oğul dərdi,
Kababı giryan aparır.
Bax bu yola, et tamaşa,
Heç bir kimsə çıxmır başa,
Yelkəni toxunur daşa,
Qayığı ümman aparır.
Vəli, ömür çatdı sona,
Tez dəyişir dondan-dona,
Ölüm ki, var yoxdur ona,
Tapılmır dərman aparır.

## BİLMƏZ

Dünya kimi gözəl qızı,
Sevən aşiq ala bilməz.
İnci düzər telli sazı,
Həmişəlik çala bilməz.
    Dünya malı bir ağ zina,
    Dost dostuna olmaz qovğa,
    Qoyasan polad sandığa,
    Gələn gedər qala bilməz.
Aşıq Vəli qalıb naçar,
Biri bağlar, biri açar,
Biri qovar, biri qaçar,
Dayandırmaq ola bilməz.

## DAĞLAR

Aşıqların gəlir keçir,
Ələsgərin hanı, dağlar.
Gedən düşür, düşən köçür,
Bil hesabı-sanı dağlar.
    Ellərinin var həvəsi,
    Köysündə yaylar cümləsi,
    Mehmanındı xublar dəsi,
    Mərdlərin meydanı dağlar.
Çıx yamaca bahar vaxtı,
Sinən olmuş ellər taxtı,
Nəşəsi qəlbimdən axdı,
Könül mehribanı dağlar.
    Abi-kövsərdi bulağın,
    Ləzzət verir bal, qaymağın,
    Gəzmək üçün hər oylağın,
    Cənnətdi nişanı dağlar.
Şahin quşun yuvasında,
Şikar üçün davasında,
Yapalağın yuvasında,
Töküləcək qanı dağlar.

Sən görürsən gəlhagəli,
Köysündən sökülən ləli,
Dastan yazır Aşıq Vəli,
Eşidib fərmanı dağlar.

***22.03.1950***

## GETDİ

Necə deyim qəm yasından,
Uşaq ağlar, ana getdi,
Ayrı düşdü balasından,
Yazıq yana-yana getdi.
Qafil yerdən tutdu xata,
Kimsə yoxdu dada çata,
Gözü yaşlı yazıq ata,
Qaldı yana-yana getdi.
Vəli gördü ağır-ağır,
Hər şənliyə qəmlər yağır,
Ürək, ciyər, qarabağır,
Oldu şana-şana getdi.

## BİLMƏLİSƏN

Dilə alsan öz hünərin,
El gücünü bilməlisən.
Zərrələrin, qətrələrin,
Sel gücünü bilməlisən.
Eşidəndə bir-birini,
Gəzəndə dünya sirrini,
Görəndə acı-şirini,
Dil gücünü bilməlisən.
Əl atıb dağda, aranda,
Köklü ağac qoparanda,
Yerdən üzüb aparanda,
Yel gücünü bilməlisən.
Bu qüvvətə çatmaq üçün,
Ağır dağlar atmaq üçün,
Özünə yer tutmaq üçün,

Yol gücünü bilməlisən.
Toxumları gətirəndə,
Əkib, səpib bitirəndə,
Hər məhsuldan götürəndə,
Gül gücünü bilməlisən.
Bir açılan bir solanda,
Boşalanda, həm dolanda,
Yay, payız, qış, yaz olanda,
İl gücünü bilməlisən.
Yaşın çata düz əlliyə,
Boy atasan yüz əlliyə,
Diqqət versən gözəlliyə,
Əl gücünü bilməlisən.
Sərdə olsa pür kamalın,
Pozulmasa dəmli halın,
Çiçək açsa hər cəlalın,
Ləl gücünü bilməlisən.
Bu sözləri haxlayanda,
Alıb yadda saxlayanda,
Elmi, helmi yoxlayanda,
Hal gücünü bilməlisən.
Çörəkçidən sac alanda,
Dəryalardan bac alanda,
Şah başından tac alanda,
Qol gücünü bilməlisən.
Gələcəyi görə bilsən,
Əlvan çiçək dərə bilsən,
Xalqa ətir verə bilsən,
Gül gücünü bilməlisən.
Cəsarətin olsa sənin,
Sirrini bil hər gələnin,
Öz anandı, öz Vətənin,
Bil, gücünü bilməlisən.
Vəli, bir bağ sala bilsən,
Ondan ilham ala bilsən,
Həmişəlik qala bilsən,
Qal gücünü bilməlisən.

## OLSUN

İnsan oğlu insan gərək,
Yaxşılığı bilən olsun.
Ağlayanda könlün alan,
Göz yaşını silən olsun.
Ərzin alsın hər gələnin,
Dərdin alsın dərd bilənin,
Qəsdim budu göz dələnin,
Gözlərini dələn olsun!
Düzlük olsun bir hünəri,
Gizləməsin tapsa, zəri,
Yoldaşınan xeyri şəri,
Doğru, düzgün bilən olsun!
Meyil versin öz payına,
İnsanlıq haqqı sayına,
Yaxşı dostun harayına,
Yaman gündə gələn olsun!
Vəli, sinə dağlamasın,
Başa qara bağlamasın,
Ağlatmasın, ağlamasın,
Güldürənlər gülən olsun!

## DAĞLAR

Ovçu olub oylağına,
Gəzəydim hər yanı, dağlar.
Çıxaydım Çoban dağına,
Süzəydim dünyanı, dağlar.
Təzə yurda düşə mən də,
Çadır qura göy çəməndə,
Gülə-gülə yar gələndə,
Kəsəydim qurbanı, dağlar.
Yağlı kabab, sərin bulaq,
Beçə başlı, təzə qaymaq,
Şən süfrədə görə qonaq,
Hər neməti nanı, dağlar.
Könül doymur xoş diləkdən,

Göz götürmür daş tüləkdən,
Örpək örtür tər çiçəkdən,
Geyir yaşıl donu dağlar.
Keçi gəzir yanda əlik,
Əlçin qaya, göy meşəlik,
Saxlayacaq həmişəlik,
Qoynunda aslanı dağlar.
Baxam təkələr səsinə,
Meşədə cüyür dəsinə,
Verəm ellər cümləsinə,
Açam gövhər-kanı dağlar.
Ellərimə verdim vədə,
Arzu etdim hər cümlədə,
Çiçəklidə, Əyrəmçədə,
Xoş ola dövranı, dağlar.
Get Kəpəzə, Göy gölə bax,
Bir şeir yaz varaq-varaq,
Yada salar alma yanaq,
Arı kimi şanı, dağlar.
Qazax, Tovuz, Gəncə, Bərdə,
Şirin canı düşən dərdə,
Şəfa tapır Kəlbəcərdə,
Həkimi, loğmanı dağlar.
Talış, Qusar, Quba, Xaçmaz,
Laçın, Göyçə durar qaçmaz,
Halay vurub səflər açmaz,
Ağrıdı bir yanı dağlar.
Şah dağının köhnə qarı,
Ətrafında çəmənzarı,
Qatar-qatar buludları,
Seyr edir səmanı, dağlar.
Yer üzündə qoca Qafqaz,
Qatarından geri qalmaz,
Qəm-qüssəni yada salmaz,
Dünya Süleymanı dağlar.
Gəl qonaq qal Daşkəsəndə,
Qoşqar dağı o gülşəndə.
Gör nələr var o mədəndə,

Bil hesabı, sanı, dağlar.

Fərəhlənir gələn dağa,
Heyran olur gül yarpağa,
Cənnət deyir Xoşbulağa,
Görən bu ünvanı, dağlar.

Murov, Murğuz, Qonur, Qoşqar,
Çiçəkləndi güllü bahar,
Ellərini diyar-diyar,
Çağırır hər anı dağlar.

Həsən nənə, Həsən baba,
Könül açan badi-səba,
Qanlı, Qaltaq bizim oba,
Səndən alır canı, dağlar.

Qala kəndin itməz adı,
Yarımyaylaq xoş səfadı,
Qarabulaq bax buradı,
Doğma yurdum, tanı dağlar.

Dolanaydım meşələri,
Gətirəydim xoş xəbəri,
Otu, suyu, çiçəkləri,
Dərdlərin dərmanı dağlar.

Ayna kimi Şəmkir çayı,
Əks edir günəşi, ayı,
Gözəlliyi, haqqı-sayı,
Yazır min dastanı, dağlar.

Ətəyində bağça-bağa,
Bax güneydə gül yarpağa,
Ağ sürülər göy yaylağa,
Çəkir çobanını, dağlar.

Qoyun, quzu, mal mələşir,
Qoç döyüşür, at kişnəşir,
Yağış gəldi haray-həşir,
Qoparır tufanı, dağlar.

Hopop, doydaq, torağaylar,
Könül açan haqqı-saylar,
Coşur sellər, daşır çaylar
Hərdən edir qanı dağlar.

Göydə qartal qanad çalır,
Şahinlərin çox ucalır,
Laçınlara nəzər salır,
Süzdürür tərlanı dağlar.

Maralların dağdan aşır,
Gözəllik sənə yaraşır,
Daşda kəklik qaqqıldaşır,
Mat qoyur insanı, dağlar.

Gətir dəftəri, qələmi,
Yazım o nazlı sənəmi,
Dərir moruq, çiyələmi,
Gəzir gülüstanı, dağlar.

Diqqət ver durna səsinə,
Nazlı yarın qəmzəsinə,
Dəstə-dəstə sinəsinə,
Düzür al-əlvanı, dağlar.

Balabançı tutur dəmi,
Aşıq çəkmir dərdi, qəmi,
Şeyda bülbül gül əndamı,
Sevir qız-oğlanı, dağlar.

İstəyirəm bir gül dərəm,
Dostlara töhfə göndərəm,
Leyli, Məcnun, Əsli, Kərəm,
Şirin, Fərhad hanı, dağlar?

Miskin Abdal sözü qalır,
Şair Vurğun çox ucalır,
Ələsgəri yada salır,
Çağırır İmanı dağlar.

Aşıq Hüseyn, Aşıq Alı,
Deyir, yaxır hər cəlalı,
Köksündə dövləti, malı,
Başında dumanı dağlar.

Telli, Dilqəm olmur abad,
Əhməd yara qurmur həyat,
Xurda deyir şair Cavad,
Unutmaram onu, dağlar.

Ədalətdən ilham alım,
Mikayıla xoşdu halım,
Aşıq Söynü yada salım,
Şəmşiri, Qurbanı, dağlar.

Buludların haray salır,
Nurun yeddi irəng çalır,
Mənim təbim səndən alır,
Bu ləli, mərcanı, dağlar.

Bir pozulmaz ordu səndə,
Çox cəlallar qurdu səndə,
Qoy bəzəsin yurdu səndə,
Nəsillər məkanı dağlar.

Aşıq, sazı gətir dəmə,
Səfa verir dinləyənə,
Başdan-başa al qələmə,
Cənnətdi nişanı dağlar.

Səf-səf olan mələkzada,
Gözəllikdi bu dünyada,
Vəlini də salar yada,
Bu ellər məskanı dağlar.

## CEYRAN

Bu çöllərin ziynətidi,
Körpə quzu, bala ceyran.
Nə ola ki, bir dayana,
Dildən ərzim ala ceyran.

Getmə gözəllər sonası
Uçar könlümün xanası,
Dodaqları gül qönçəsi,
Yanaqları bala ceyran.

Qaçma aşığın səsindən,
Oxur eşqi-həvəsindən,
Yayın ovçu gülləsindən,
Hüsnünü daldala, ceyran.

Yay sürünü göy çəməndə,
Gözlə, düşərsən kəməndə,
Baş alıb hara gedəndə,
Bax qabağa, dala, ceyran.

Vəliyəm görüm yüz ilə,
Sürün durna tək düzülə,
Heç insaf deyil üzülə,
Qatarından qala ceyran.

## NİFRƏT

Zülm eləyən zülümkarın,
Üz tutduğu raha nifrət.
Alışıb yanmasa nara,
Yağdırılan aha nifrət.
Suyu səmtə axmayanda,
Sözü doğru çıxmayanda,
İşə düzgün baxmayanda,
Yağdırallar şaha nifrət.
Vəli, özün öyənlərə,
Mənəm-mənəm deyənlərə,
Xalqı söküb, yeyənlərə,
Bir daha, bir daha nifrət.

## ALARMIŞ

Şeyda bülbül  fəğan edir,
Gül köksünü xar alarmış.
Ala gözdən qan yaş gedir,
Al yanaqlar saralarmış.
Qəlbə qəmlər yerişəndə,
Seyrəqublar gülüşəndə,
Yar-yardan ayrı düşəndə,
Canı ahu-zar alarmış.
Vəli bağrı daşa dönər,
Gözləri qan-yaşa dönər,
Yarsız yazı qışa dönər,
Yanar, sönər qaralarmış.

## SƏNİNDİ

Sən deyirdin al yanağım,
Arxayın ol, yar, sənindi.
Könül sevən qoşa xalım,
Ağ sinəmdə nar sənindi.
Qoşa gəzək güllü bağı,

Xoş keçirək gözəl çağı,
Boyumdu Savalan dağı,
Çiçək, çəmənzar sənindi.
Tər qönçəsən, tər lalasan,
Solmayıb parlaq qalasan,
Vəliyəm, canım alasan,
Küllü ixtiyar sənindi.

## MƏNİM
### *(Qocalıq şeiri)*

Min səkkiz yüz doxsan dördəm,
Yetmiş səkkiz yaşım mənim.
Bu müddətdə, məsafədə,
Nələr çəkib başım mənim.
Cavanlığım bahar, yazım,
Əldən gedib xoş avazım,
Yasa batıb telli sazım,
Qəm olub sirdaşım mənim.
Dosta çatmır bir nişanam,
Az qalıram oda yanam,
Bacım, balam, atam, anam,
Ellərdi qardaşım mənim.
Xəzan vurub yerə salıb,
Yaşıl yarpağım saralıb,
Alan yoxdu düzdə qalıb,
Qiymətli daş-qaşım mənim.
Gələn dünya mehmanıdı,
Vəli gedər bir canıdı,
Məhəbbətin fərmanıdı,
Mənalı göz yaşım mənim.

## QALACAQDI

Yüz ev yıxan bir ev tikməz,
Yurdu viran qalacaqdı.
Zülm etməyən cəza çəkməz,
İşdən ilham alacaqdı.

Düz düşünən, yaxşı qanan,
Gülə, çiçəyə boyanan,
Sülhü sevən, dost qazanan,
Bil, qələbə çalacaqdı.
Vəli saymaz saymayanı,
Söküb, yeyib doymayanı,
Elə hörmət qoymayanı,
El gözündən salacaqdı.

## QOCALIQ

Qoymur gəzəm ellərimi,
Verməyir aman qocalıq.
Bəndə salır əllərimi,
Bağlayır yaman qocalıq.
Mayıl oldum mah camala,
Al yanağa, qoşa xala,
İnanmazdım üstüm ala,
Etməzdim güman qocalıq.
Bəxtim yatıb, əl gətirmir,
Dəryalardan ləl gətirmir,
Ayaq getmir, əl gətirmir,
Gözlərdə duman qocalıq.
Aparır dövlət-varımı,
Yad eyləyir dostlarımı,
Pozur əhdi-ilqarımı,
İtirir iman qocalıq.
Nə fikirdi, bu nə rəydi,
Ox atdı, qəlbimə dəydi,
Çoxlarının qəddin əydi,
Elədi kaman qocalıq.
Görürsənmi bu dünyanı?
Hey gələn, gedən karvanı,
Kəsmir ara, yoxdu sanı,
Keçdikcə zaman qocalıq.
Aşıq Vəli düşmə qəmə,
Vaxt gəlir son qoyur dəmə,
Necə qıyır zal Rüstəmə,
Çəkdirir aman qocalıq.

## OLDU

El içində düz dolandım,
Yaxşılığım yarım oldu.
Təmiz qəlbim, doğru sözüm,
Doğru etibarım oldu.
Yeri gəldi nəfsim əzdim,
Bir təmiz adımı gəzdim,
Yarın cəfasına dözdüm,
Səadət ilqarım oldu.
Özüm miskin, adım Vəli,
Həqiqətə dedim bəli,
Dilimin gövhəri, ləli,
Qaldı yadigarım oldu.

## KİMDİ?

Dostlar, dünya tarixini,
Doğru, düzgün bilən kimdi?
Ağır zülmət pərdəsini,
Yerdə, göydə silən kimdi?
Bir cəbhəni dayandıran,
Bir cəbhəni oyandıran,
Al, yaşıla boyandıran,
Gül üzünə gülən kimdi?
Doğru desək sən də, mən də,
Gələn gedir vaxt gələndə,
İki qardaş bir vətəndə,
Payı düzgün bölən kimdi?
Diqqət verən həvəsinə,
Əhsən deyir cümləsinə,
Düşən tarix lövhəsinə,
Həmişəlik qalan kimdi?
Vəli, düşün dərin-dərin,
Aşiqini gözəllərin,
Bu bəşərin, hər nəfərin,
Harayına gələn kimdi?

## GÜLMƏLİDİ

İnsanların növlərini,
Düşündükcə gülməlidi.
Bir el üçün hesab çəkən,
Öz adını bilməlidi.
    Titrətməyən, üşütməyən,
    Yıxılarmı huş itməyən,
    Böyük, kiçik eşitməyən,
    Dar qapıya gəlməlidi.
Paltarını geyənməyən,
Cümləni düz deyənməyən,
Cəmiyyəti bəyənməyən,
Gözlərini silməlidi.
    Söküb, yeyib doymayanın,
    Xalqa hörmət qoymayanın,
    Heç bir kəsi saymayanın,
    El gözünü dəlməlidi.
Axtarmayan, aramayan,
Telini düz daramayan,
Xeyrə, şərə yaramayan,
Bir dəfəlik ölməlidi.
    Qazan ki, qaynadı, bişdi,
    Yeməyin vaxtı yetişdi,
    Çömçə gəldi kimə düşdü,
    Payı düzgün bölməlidi.
Vəli baxır hesabına,
Deyir, yazır kitabına,
Kim nə töksə öz qabına,
Qaşığına gəlməlidi.

## KİMDİ?

Əl atıb dünya dərini,
Bəşər üçün açan kimdi?
Bilsən söylə xəbərini,
Qovan kimdi, qaçan kimdi?
    Meyil verən anasına,
    Tellərinə, şanasına,

Yurdum deyib xanasına,
Düşən kimdi, keçən kimdi?
Diqqət verən haqqı-saya,
Coşan selə, daşan çaya,
Geniş körpü bu araya,
Quran kimdi, keçən kimdi?
Qulluq edən təmiz ada,
Tez yetişər xoş murada,
Dost əlindən dolu bada,
Alan kimdi, içən kimdi?
Vəli kimi şirin canı,
Pak vicdanı, təmiz qanı,
Ədaləti, haqq divanı,
Sevən kimdi, seçən kimdi?

## KİMİ

***(Qoşqar Əhmədlinin xatirəsinə)***

Qoşqar getdi adı qaldı,
Necə Qoşqar dağı kimi.
Ayrılıq kəsdi aranı,
Bir amansız yağı kimi.
Qoşqar ölməz çəkmə dərdi,
Gələcəyi yaxşı gördü,
İnsanlara ətir verdi,
Gül, çiçək yarpağı kimi.
Elə insan olsa harda,
Bir iz salar o diyarda,
Yaradar da, yaşadar da,
Al günəş sayağı kimi.
Unutmazlar yaradanı,
Pak vicdanı, təmiz qanı,
Sevindirdi hər insanı,
Səadət növrağı kimi.
Vəli, düşün dərin-dərin,
Həyatını hər nəfərin,
Bir günü var baldan şirin,
Bir günü var ağı kimi.

***10.11.1975***

## TAMAH

Neçə dəfə eyləmisən,
Məni bəxti qara, tamah!
Neçələrin neyləmisən,
Salmısan azara, tamah!
Göndərib dağa-arana,
Yolda salıbsan borana,
Necə qıydın şux tərlana,
Tuş eylədin sar,a tamah!
Dolu paylar çöndərirsən,
Xeyri şərə döndərirsən,
Çoxlarını göndərirsən,
İtkin diyarlara, tamah!
Şöhrətə inandırırsan,
Həqiqəti dandırırsan,
Çoxlarını yandırırsan,
Gur ataşa, nara tamah!
Qəsd edirsən insanlara,
Eyləyirsən bəxti qara,
Vəlini çəkib bazara,
Satırsan aşkara tamah!

## OLSUN

Yaxşı dostum, xoş dövranım,
Sağ-salamat canım olsun!
Əhli-halım, nazlı yarım,
Sevən mehribanım olsun!
Yar yanında dolu payam,
El içində haqqı-sayam,
Açıq süfrəm, halal mayam,
Güllü gülüstanım olsun.
Sənətimdə qəhrəmanam,
Fəxr eyləsin atam, anam,
Vəliyəm, bir xoş nişanam,
Təmiz adım-sanım olsun.

## OLA

Əldə varın, yaxşı yarın,
Ürəyini bilən ola.
Özü doğru, sözü doğru,
Düz ilqara gələn ola.
    Eldə ucalda başını,
    Unutmaya sirdaşını,
    Ağlayanda göz yaşını,
    Qanan, yanan, silən ola.
Vəlini nazla öldürən,
Yar yara özün bildirən,
Bir ağladan, bir güldürən,
Bir üzünə gülən ola.

## SƏNDƏDİ

Dünya dolu gözəl olsa,
Mənim gözüm yar səndədi,
Yaşıl bağlar xəzəl olsa,
Könül sevən nar səndədi.
    Yolunda qurbandı varım,
    Sənsiz artır ahu-zarım,
    Sızıldatma yaralarım,
    Dərdə dərman var səndədi.
Vəliyəm nəzər diqqətim,
Əmrinə xoşdu xidmətim,
Onsuz solmaz məhəbbətim,
Bağlı olan bar səndədi.

## OLDU

Günəş kimi gül camalı,
Gözəl işıq salan oldu,
Ağ üzündə qara xalı,
Xətt yazılmış elan oldu.
    Yayıldı şanı, şöhrəti,
    Aləmi tutdu ziynəti,

Odu, eşqi, məhəbbəti,
Ürəyimdə qalan oldu.
Oda yandırdı Vəlini,
Tərk elədi öz elini,
Ayrılığın təbilini,
Qəm bəhrini çalan oldu.

## AYRI

Bülbül ötməz zimistanda,
Nəğmə deməz güldən ayrı,
Qəlbi yanan bir dahanda,
Nə söyləyir dildən ayrı.
Hər nə gətirsən xəyala,
Qatma başın qalmaqala,
İnsan çatammaz cəlala,
Ağıl, mərfət, əldən ayrı.
Xainlərin özü nədi?
Boşluq sevən gözü nədi?
Vəli sazı, sözü nədi?
Şən məclisdən, eldən ayrı.

## KÖNÜL

Bir dəm yuvasında yatar,
Bir dəm qanad çalar könül.
Bir dəm qəm-qüssəyə batar,
Bir dəm şikar alar könül.
Bir dəm qalxar ucalara,
Bir dəm düşər ahu-zara,
Bir dəm sığal verər yara,
Bir dəm oda qalar könül.
Bir dəm yelə mehman olar,
Bir dəm dönər yaman olar,
Bir dəm çiskin, duman olar,
Bir dəm eşqə dolar könül.
Bir dəm baxar yar yoluna,

Bir dəm qol salar qoluna,
Bir dəm yanar dost halına,
Bir dəm tədbir bular könül.
Bir dəm yazılar dəftərə,
Bir dəm oxunar əzbərə,
Bir dəm qaldırar göylərə,
Bir dəm yerə salar könül.
Bir dəm olur yekəxana,
Bir dəm insandı insana,
Bir dəm nur saçır cahana,
Bir dəm qəmə dalar könül.
Bir dəm xidmət eylər elə,
Bir dəm düşər dildən-dilə,
Bir dəm Vəli gedər belə,
Bir dəm torpaq olar könül.

## MƏN

Nazlı dilbər sənin adın,
Şirin-şirin anıram mən.
Eşqinə pərvanə olub,
Başına dolanıram mən.
Sevirəm ala gözünü,
Canımdan artıq özünü,
Gizlədirəm sirr sözünü,
Seyraqubdan danıram mən.
Vəli deyər bu dünyada,
Ləkə vurma təmiz ada,
Məhəbbətə, xoş murada,
İlqara inanıram mən.

## AY BÜLBÜL

Yenə gəldi bahar fəsli,
Dil açırsan can, ey bülbül.
Oxuyursan eşq həvəsli,
Öz gülünü an, ay bülbül.
Yola saldın zimistanı,

Fəğan edib üzmə canı,

Azad günü, xoş dövranı,
Yaz ömrünə sən, ay bülbül.
Yetişmisən xoş murada,
Bir məni də gətir yada,
Pərvanə tək düşdüm oda,
Qaldım yana-yana, bülbül.
Kədərlənmə sözlərimdən,
Od alarsan gözlərimdən,
Yaş yerinə gözlərimdən,
Axıdıram qan, ay bülbül.
Aşıq Vəli gözəl çağda,
Piltə kimi yanar yağda,
Sənin gülün var bu bağda,
Mənim yarım han[1] ay bülbül?

## OLAR

Zəhmətini qəbul etsən,
Bağda qızılgülün olar.
Pislə yaxşı yola getsən,
Danışmağa dilin olar.
Hər toxumdan götürəndə,
Əkib, səpib, bitirəndə,
Bağ salıb su gətirəndə,
Yaşılbaşlı gölün olar.
Vaxtsız ölən yaşa dolmaz,
Gələn gedər, gedən qalmaz,
Gədə oğlu kişi olmaz,
Kişi qızı gəlin olar.
Ağlın varsa, sən də varsan,
Özünə bir iş taparsan,
Zəhmət çəkər qazanarsan,
Qızıl kəsən əlin olar.
Vəlini salma dərinə,
Diqqət yetir sözlərinə,
Yarasan xeyir, şərinə,
Ellər sənin elin olar.

[1] *щаны*

## GÖRDÜM

Diqqət verdim hər çiçəyə,
Açılanı solan gördüm.
Su gəldikcə bir sənəyə,
Çox boşalan, dolan gördüm.
Biri gəzir, yoxdu huşu,
Biri saymır tayı-tuşu,
Göydə şikar alan quşu,
Əcəl vurub salan gördüm.
Biri toyda tutur dəmi,
Biri vayda çəkir qəmi,
Harda olsa ağlı, kəmi,
Can odlara salan gördüm.
Biri sinə dağlayanda,
Biri qara bağlayanda,
Biri yoxsul ağlayanda,
Birin varlı, kalan gördüm.
Biri işdə tökür təri,
Biri soyur, yığır zəri,
Gücü olan gücsüzləri,
Çəkib, didib, yolan gördüm.
Artıq yığan dövlət, malı,
Saxlayarmı canda halı,
Çoxlarının çox cəlalı,
Var ikən yox olan gördüm.
Elin şirin can aşığı,
Əziz, mehriban aşığı,
Sıxanda dövran aşığı,
Sazın qəmə çalan gördüm.
Yıxma könül xanasını,
Əldən alma şanasını,
Ulu şahlar anasını,
Ağ saçları yolan gördüm.
Əldə olsa ixtiyarı,
Viran edər hər diyarı,
Fitnə-fəsad, xainləri,
Qan tökən, can alan gördüm.
Mən biriyəm söz quranın,
Keşikdə möhkəm duranın,

Düzlüyündən dəm vuranın,
Peşəsini talan gördüm.
Vəli söylər bir xəbəri,
Sevir yaranmış bəşəri.
Gələn gedir, simuzəri,
Bu dünyada qalan gördüm.

**QALASINDAN**

Gəlin sizə xəbər verim,
Qoç Koroğlu qalasından.
Qanlı dağdan, Qala kənddən,
Bir də Divlər talasından.
Bu qala xana-xanadı,
Hər qapısı bir yanadı,
Albanlardan nişanadı,
Qanlar daman lalasından.
Budu Koroğlu dərəsi,
Paşalarla çəkən bəhsi,
Qayalardan gəlir səsi,
Çeşmələrin çalasından.
Qoşun üz-üzə dayanıb,
Qılınclar qana boyanıb,
Dağlar, daşlar oda yanıb,
Ana-bacı nalasından.
Yaman günə sinə gərib,
Yaxşı gündə çiçək dərib,
Dəlilərə çörək verib,
Telli, Nigar xalasından.
Ay gəlməyib, Günəş yaxıb,
Göy şaqqıyıb, şimşək çaxıb,
Leysan yağıb, al qan axıb,
Şəmkir çayı çalasından.
Qoç Koroğlu, ah, qocalıb,
Cünun sazın qəmə çalıb,
Çox analar ağlar qalıb,
Ayrı düşüb balasından.
Baş əyiblər dönə-dönə,

And içiblər bu Vətənə,
Aman vermərik düşmənə,
Keçə sərhəd arasından.
Vəli deyir qoldan-qola,
Tam birləşək düşək yola,
Bəlkə, millət azad ola,
Qanlı döyüş balasından.

## DAD ƏLİNDƏN

Harda olsa pis qonşunun,
Dad əlindən, dad əlindən.
Görən, bilən deyər onun,
Dad əlindən, dad əlindən.
Qanmazı dağın, aranın,
Yol kəsən üzüqaranın,
Qan-qalmaqal axtaranın,
Dad əlindən, dad əlindən.
Oğru qızın, küp qarının,
Utanmazın, aşarının[1],
Həyasızın, haşarının,
Dad əlindən, dad əlindən.
Bağlayan bəndin, bərənin,
Xeyri şərə döndərənin,
Dolu paylar əndərənin,
Dad əlindən, dad əlindən.
Xatası var kəlməsinin,
Qan-qadalı cümləsinin,
Yer üzündə beləsinin,
Dad əlindən, dad əlindən.
Harda olsa mərdimazar,
Başqasına quyu qazar,
Çox çətindir belə azar,
Dad əlindən, dad əlindən.
Yalançı, qarayaxanın,
Döyülüb işdən çıxanın,
Su bağlayıb ev yıxanın,

[1] *шяр данышан*

Dad əlindən, dad əlindən.

Dadanan hazır yeməyə,
Birliyə getməz köməyə,
Canı çıxar işləməyə,
Dad əlindən, dad əlindən.
Haqqı deyər Aşıq Vəli,
Düzəlməsə əyri əli,
Silək, ataq bədəməli,
Dad əlindən, dad əlindən.

## QALDI

Hayıf oldu canım getdi,
Sərim bu sevdada qaldı.
Saqi süzdü, hörmət etdi,
Aşiq öldü, badə qaldı.
Əldən getdi ixtiyarım,
Dağıldı dövlətim, varım,
Yasa döndü toy mağarım,
Nazlı yarım yada qaldı.
Dünyanın işi belədi,
Hərə bir dilək dilədi,
Aşıq Vəli cəhd elədi,
Şeir dedi, ada qaldı.

## SƏNİ

Dünya, necə bir gözəlsən,
Gələn sevir, bəli, səni.
Ala bilmir ağlı çaşır,
Düşünürmü dəli səni.
Ağlıkəmlər qəlbə dəyir,
Döyür, söyür, qəddin əyir,
Zərif insan zər bəzəyir,
Zəhmət təri ləli səni.
Dünya malı kimə qalır,
Qanlar tökür, canlar alır,
Əbəs yerə tamah salır,
Sora bilmir zəli səni.

Nə düşünür bilənlərin,
Ağlayana gülənlərin,
Mənim deyib gələnlərin,
Qəti tutmur əli səni.
Mənim deyən dünya mülkü,
Özü gedir, qalır kürkü,
Nə bilir, nə düşünür ki,
Təsvir edə Vəli səni.

## QOYNUNDA-QOYNUNDA

Qırx beş ildi mən aşığam,
Ellər qoynunda-qoynunda.
Dodaqlara yaraşığam,
Dillər qoynunda-qoynunda.
Sevilirəm, istənirəm,
Ucalıram, səslənirəm,
Bülbül kimi bəslənirəm,
Güllər qoynunda-qoynunda.
Hökmü olan versə əmir,
Başa kimi mənəm demir,
Gəlir, keçir, gedir ömür,
İllər qoynunda-qoynunda.
Dağ başını duman alır,
Şirin canı dərdə salır,
Yaşılbaşlı sonam qalır,
Göllər qoynunda-qoynunda.
Gələn gələr, baxar gedər,
Can odlara yaxar gedər,
Vəli düşər axar gedər,
Sellər qoynunda-qoynunda.

## ƏLƏSGƏRDİ

Telli sazı min dil açan,
Ələsgərdi, Ələsgərdi.
Könüllərə işıq saçan,

Ələsgərdi, Ələsgərdi.
Harda düşsə aşıq bəhsi,
Xoşa gələn hər kəlməsi,
Göylərə ucalan səsi,
Ələsgərdi, Ələsgərdi.
Şeir bağı güllü-gülşən,
Çiçəkləri əlvan-əlvan,
Neçə məclis yola salan,
Ələsgərdi, Ələsgərdi.
Aşıq olan birər-birər,
Sevir, yazır, edir əzbər,
Kamil ustad, sinədəftər,
Ələsgərdi, Ələsgərdi.
Ali işdə, alim yanda,
Qiymət alan imtahanda,
Ölməz insan bu cahanda,
Ələsgərdi, Ələsgərdi.
Aşıq Vəli, bu dünyada,
Tərif söylə təmiz ada,
Ustadını gətir yada,
Ələsgərdi, Ələsgərdi.

## BELƏDİ

Vidalaşaq, a dostlarım,
Vaxtı gələn can belədi.
Gedəcək gəlməz səfərə,
Bu çərxi-dövran belədi.
Düşündükcə əsirləri,
Gələn-gedən nəsilləri,
Lal olmuş şirin dilləri,
Natiqi imran belədi.
Vəli görüb pərvanalar,
Qaydadı oda yanalar,
Ağlayar dərdli analar,
Halı-pərişan belədi.

## AĞLAMA

Mən gedirəm qürbət elə,
Ayrılıqdı, yar, ağlama.
Yaman gündən qismətimiz,
Bəlkə, bizim var ağlama.
Güvən eşqin bulağına,
Əyilmə hicran dağına,
Məhəbbətin oylağına,
Yağsa boran, qar ağlama.
Düşmən gülüb at çaparsa,
Vəlini əsir aparsa,
Yerdə qığılcım qoparsa,
Göydə buludlar, ağlama.

# TƏCNİSLƏR

## YENƏ

Baharın əyyamı gələr, başa-baş,
Al, yaşıl bəzənər budaxlar yenə.
Qaynar çiçəkləri, açar gülləri,
Bəzənər yamyaşıl bu dağlar yenə.
Bu sinəmdi, bu yarası, bu dağı,
Ya insaf et, ya dəfn elə, bu dağı[1],
Leyli də, Məcnun da gəzmiş bu dağı,
Fərhad Şirin deyib budağlar[2] yenə.
Vəli ağlar, yandı oda sinəm, ə!
Tifil sızlar, nalə çəkər sinəmə[3],
Bir bivəfa yar əlindən sinəmə,
Çəkildi çal-çarpaz bu dağlar yenə.

## İNDİ

Dedim: – Mən əbəsəm səni sevməsəm,
Dedi: – Bir atam var, bir anam indi.
Dedim: – Mən qəribəm, tənha bir kəsəm,
Dedi: – Könül verim bir anam[4] indi?
Dedim: – Bir şikəstə qulunam, sənəm,
Dedi: – Ləblərimdən, səbr eləsən əm,
Dedim: – Həsrətindən əsirdi sənəm,
Dedi: – Kim səməndi bir ana mindi?
Dedim: – Sən Vəlini sevirsən, halal?
Dedi: – Söhbət açaq, danışaq halal,
Dedim: – Dərdimi bil, söz soruş, hal al,
Dedi: – Məni sevən bir ana mindi.

---

[1] *бу да аьы*
[2] *будур аьлайар*
[3] *синя ямя*
[4] *бир анамы?*

## YA TARİX

Qurulub kainat, küllü məxluqat
Dünya sirrin bilən varmı, ya tarix?
Biz naşı ovçuyuq ov bərəsində,
Oxumuzu ya atmarıx, yatarıx.[1]
Ustadımdan dərsim aldım bir sinə,
Biri əlif, biri beydi, birsi nə?
Üç ovum var, çatammadım birsinə,
Mən düşgünəm, yolum uzaq, yat, arıx.
Aşıq Vəli de sözünü hey qala,
Yanan sönər, sönən yanmaz, hey qala,
Müşkül işdi, varlığımız hey qala,
Sığınarıq sin içində yatarıx.

## SİNADƏR

Bir ağac bəslədim bağın ziynəti,
Ləzzəti pətəkdə bala sinadər.
Onun budağında iki meyvə var,
Gör hansı gərəkdi bala sinadər.
Könlüm arzu edir bir ana gəlsin,
Dərdimin dərmanı bir ana gəlsin,
Yüz min bala getsə bir ana gəlsin,
Yüz min də yetirir bala sinadər.
Vəli, al dərsini bir sin içində,
Bir sığın haqqına bir sin içində,
Sənə min dərd olar bir sin içində,
Aparsan özünnən bala sinadər.

## YANARA

Dilim nalə çəkir, yoxdur taqəti,
Dözə bilmir ayrılığa, yanara.
Tükənir qərarı, səbri-dözümü,
Nazlı yardan uzaq düşür yanara.
Əzəl gündən əsir düşdüm yara mən,
Həsrət çəkməz ləblərindən yar əmən,
Kimə deyim yaman günə yara, mən?

[1] *йа атарыг*

Aç yaramı başdan-başa, yan, ara.
Vəli, yarat nəsillərə gül əsər,
Bağban ölər, bülbül ağlar, gül əsər,
Layiq olur sənin kimi Güləsər,
Ya heyvaya, ya turunca, ya nara.

## YAR ALMASINA

Övladı yetirdin on səkkiz yaşa,
Meyli, məhəbbəti yar almasına.
Çoxları yar sevdi, döndü, usandı,
Çoxları can verdi yar almasına.
Yaxşı olar yar yarınnan hal ala,
Mən yar sevdim, yar söz verdi halala,
Qurban olum yaxşı dosta, halala,
Ölsə, bıçaq vurmaz yar almasına.
Vəli, gəlib, bir gün gedər can ana,
Can deyənlər cavab alar "can"ına[1],
Könül vermə hər dil bilməz canana,
Əhlihal olmasa yar, alma, sına.

## YA SƏNƏ

Bir isminə beş gözəllik yaraşır,
Dildə əzbər məhəbbətdi ya sənə.
Müşkü ənbər səndən alır ətrini,
Gül, yasəmən, tər bənövşə, yasənə.
Çək səməndin, bir sığal ver hey ata,
Oğul qəhri hərgiz çəkər hey ata,
Ver saqiyə, bağla sidqi həyata
Zərrə qoymaz dost qəlbinə yas ənə.
Aşıq Vəli, dost adına bir canım,
Qəbul eylə, var yolunda bir canım,
Sənsiz mənim xoş keçmədi bircanım[2],
Qərinələr gəldi, keçdi, ya sənə.

---

[1] *«ъан» сюзцня*
[2] *биръя аным*

## HEY DƏRİN-DƏRİN

Mərfət əhli mərd dolanır dünyada,
Məhəbbət düşünər hey dərin-dərin.
Zərrəsində min bir çiçək gül açar,
Pozulmaz bağında hey dərin-dərin!
Süsən sünbül, tər bənövşə, ha lala,
Dostlar dərə, dəstə tuta, hal ala,
Əmək sevən haram qatmaz halala,
Açar həqiqətin hey dərin, dərin.
Miskinli Vəliyəm gördüm Minada,
Bir dəryadı, iki qəvvas, min ada,
Hörmət qazan, düş tarixə, min ada,
Əslin də torpaqdı hey dərin-dərin.

## NƏ ZƏRAFƏTİ

İblisin, ibnənin, fitnə-fəsadın,
Kəsməz şər-böhtanı, nə zər afəti.
Yamanları yaman dərdə tuş olsun,
Gəlməsin qarşıya nəzər, afəti.
Sızıldadır cəsədimi yara hey,
Təbib gərək neştər vura, yara hey,
Kəsir səbrim, aman vermir yar, a hey,
Sıxır ürəyimi nə zərafəti?
Ər meydanda kal dayanmaz, nə dana,
Yaxşı düşün, bil qədrini nədana[1],
Aşıq Vəli həqiqəti nə dana,
İşlər, hökm versə, nəzər afəti[2].

## BAX-BAX

Arı bal çəkməyə qonar çiçəyə,
Bülbül gül ucundan bu dala bax-bax.
Nar məmələr baş vuranda köynəyə,
Az qalır canımı bud ala[3] bax-bax.

---

[1] *няди ана*
[2] *афятин нязяри (эюзялин бахышы)*
[3] *будур ала*

Əzəl gündən bəxtim oldu zil qara,
Uca dağda yolum düşdü zil qara,
Tökülübdü gərdən üstə zil qara,
Bulud kimi saçlar bu dala bax-bax.
Vəli ağlar nə yar gəldi, nə yazdı,
Ürək dərdli, könül qəmli, nəyazdı[1].
Yar al geyib nə payızdı, nə yazdı,
Həsrətindən döndüm bu «dal»a bax-bax[2].

## SİNƏSİNƏ

Çərx hərlənər, gərdiş eylər hər ayı,
Qış gələr dağların çağ sinəsinə.
Gedəndə al, yaşıl, gələndə qarı,
Çəkilər çarğatı ağ sinəsinə.
Çərx hərlənər, gərdiş eylər hər yazı,
Hər insana haqdan gələr hər yazı,
Dağlar səri açar çiçək hər yazı,
Dərər, sərər qızlar ağ sinəsinə.
Xeyir işə el yerisin dal-dala,
Hər sirrini hərcayidən dal-dala,
Aşıq Vəli haq əlindən dal-dala,
Çəkin hərcayının dağ sinəsinə.

## SƏNƏ MƏN

Bir sözüm var hilal qaşlı nazənin,
Heç bilmirəm necə deyim sənə mən.
Mina qamətinin hər qədəminə,
Bir qoç quzu qurban kəsəm sənə mən.
Bir gül üzüb gətirmişəm sən ilə,
Mən dözmərəm vədə versən sən ilə,
Arzum budur həyat quram sən ilə,
Şənliyinə ilham verəm sənə mən.

---

[1] *няйи аздыр*

[2] *«Дал» (د) щярфиня*

İnsafdırmı mən əriyim, azalım,
Həsrət çəkim, yar könülün az alım,
Qanın olsun, rəhmin gəlsin, a zalım,
Qoy qul olum ömrüm boyu sənə mən.
Nazlı yarım, gəldin çıxdın bu dağa,
Bülbül gül üzündən qonar budağa,
Bax sinəmdə bu düyünə, bu dağa,
İnsaf eylə, neyləmişəm sənə mən.
Aşıq Vəli gəlir, gedir bir başa,
Diqqət yetir, bax ayaqdan bir başa,
Utanıram deyəmmirəm birbaşa,
Qəbul etsən vurulmuşam sənə mən.

## İNDİ

Səhərin sübhündə bir dan ulduzu,
Gördüm işıq salır Həmayəm indi.
Dedim: – Gözəlliyi hardan alıbsan?
Dedi: – Həm ulduzam, həm ayəm indi.
Dedim: – Var baratım bir neçə sənə,
Dedi: – Şən həyatım bir neçə sənə,
Dedim: – Eşqin atın bir neçə sənə,
Dedi: – Gözəllikdə Həmayə mindi.
Dedim: – Qızılgülə gülür ha lala,
Dedi: – Bülbül həsrət çəkir hal ala,
Dedim: – Vəli qiymət verir halala,
Dedi: – Öz işindi, həm Ay əmindi[1].

## «-----------»[2] (iki dəfə öpmək)

Aşıq odur həm sevilə, həm sevə,
Elin səadətin ay edə «-----------».
Səyin, səliqəsin diyarbədiyar,

---

[1] *Ай да ялиндир ки, бу сянин юз ишиндир.*
[2] *Бурада рядиф ролуну инсан юпцшяркян додагларын ики дяфя (ики юпцшдя) алдыьы вязиййят ойнайыр. Додагларын щямин щярякятлярини сюзя чевириб йазмаг мцмкцн дейил, йалныз ифадя етмяк мцмкцндцр.*

Göstərə xidmətin ay edə «------------»

Kimə deyim, kimə yazım bu sanı,
Kimdi bilən, kimdi sayan bu sanı,
Ayaq torpağından ala busanı,
Əslin, həqiqətin ay edə «-----------».
Miskinli Vəliyəm hər birisinə,
Gələn gedir, qalmır hər biri sinə,
Məhəbbət oduna hər bir isinə,
Sevə sədaqətin ay edə «-----------».

## QOYMUŞAM

Yarım yatmamışam qoca dünyada,
Çalışıb, qazanıb qala qoymuşam.
Sinəm aynasına uca dünyada,
Qəmi, qəm üstündən qala qoymuşam.
Toplamışam, gətirmişəm odunu,
Bu ələyi, o tavağı, odunu[1],
Mən öləndə eşqin sönməz odunu,
Gətir qəbrim üstə qala qoymuşam.
Miskinli Vəlinin yarı Səkinə,
Yaram köz verəndə yarı[2] Səkinə,
Mənlə dedi, yazdı yarı Səkinə,
Şeirdən pozulmaz qala qoymuşam.

## GÖZLƏR

Bilməm qəsdi nədi canım almağa,
Çalışır, can atır hər anı gözlər.
Şikar keçməz, cığırından yayınar,
Ovçu bərəsində hər anı gözlər.
Bəsləyir, yetirir bir ana səni,
Dil istər hər zaman bir ana səni,
Bir gün aparacaq bir ana səni,
Məni də bu gözlər, hər anı gözlər.
Bu Leylidi, bu Məcnundu, bu dağı,

---

[1] *о да уну*
[2] *йарар*

Eşq ucunnan sındı ömrün budağı,
Bu Vəlidi, bu Səkinə, bu dağı,
Sevən aşiq içər hər anı gözlər.

## GƏLDİN

Müşküllər pənahı çatıb dadına,
Düşmüşdüm ayaqdan ayağa, gəldin.
Oda aşna oldun, şama pərvana
Piltə tək yandırdın a yağa, gəldin.
Haq buyurdu, həbib yazdı nə sində[1],
Var əməlim qarşı gələr nə sində[2],
Zəlil oldum nəsibimin nəsində[3],
Sən özün qaldırdın ayağa, gəldin.
Aşıq Vəli, ey gül əkdin, dər yada[4].
Bir ev tikdim, sonra düşdü dər[5] yada.
Qərq olmuşdum dənizlərdə, dəryada,
Şölə verən günəş, ay ağa, gəldin.

---

[1] *йашда*
[2] *гябирдя*
[3] *тярс ишиндя*
[4] *юзэяйя*
[5] *гапы*

# CIĞALI TƏCNİSLƏR

## GÖRÜNCƏ

Qəlbimdə od yanır, gözüm axtarır,
Mürvət əhli kərəm-kanı görüncə,
Aşıq deyər görüncə,
Dəymə qəlbim görüncə,
Ovçu əziyyət çəkir,
Bir ovunu görüncə.
Mərdi fikrim, zikrim, sözüm axtarır,
Açar süfrə, tökər nanı görüncə.
Alimdən dərs aldın anı bilməyə,
Sərrafsan gövhəri tanı bilməyə,
Aşıq deyər bilməyə
Oxu dərsin bilməyə,
Sərdə kamal gərəkdi,
Gördüyünü bilməyə.
Sınaq etsən sən insanı bilməyə,
Çox gəzərsən xoş nişanı görüncə.
Vəli, düz ilqarı ey arzu eylər,
Bağban bəslər barı ey arzu eylər,
Aşıq deyər ey arzu,
Könül eylər ey arzu,
Sevgi çatsın sevgiyə,
Ver qalmasın ey arzu.
Məzlum, məhbus olan ey arzu eylər,
Azad günü, xoş dövranı görüncə.

## DÜŞƏNDƏ

Könül çünki mindin eşqin atına
Sür səməndin, səlqəli düş düşəndə.
Mən aşığam düşəndə
Atlananda düşəndə
Yaxşı günü bilərsən
Yaman günə düşəndə.

Çağır, sına bircə-bircə dostları,
Tənəzzülə, sər qovğaya düşəndə.
Pəhləvansan gir meydana səlqəli,
Gərdiş eylə, bax hər yana səlqəli,
Mən aşığam səlqəli,
Səxa gördüm səlqəli,
Gözəl əhli-hal gərək,
Hər işində səlqəli.
El içində saxla sərin səlqəli,
Söyləyərlər bir məqamı düşəndə.
Miskin Vəli sözün söylər dahanda,
Şeyda bülbül fəğan eylər dahanda,
Mən aşığam dahanda,
Ərit sözü dahanda,
Başa bəla gətirər,
Saxla dili dahanda.
Nanü nemət ləzzət verir dahanda
Pozğun olur bir danəsi düşəndə.[1]
Zəhər dadar birdən nəsi düşəndə.

## YETİR

Şagird oldun qulluq eylə ustada,
Al dərsini öyrən hey başa yetir.
Mən aşığam hey başa,
Bax ayaqdan hey başa,
Kamil ayaqda qalmaz,
O çəkilər hey başa.
Ya can deyib heç bir dosta söz vermə,
Ya qurban sözünü hey başa yetir.
Al dərsini öyrən sinayə söylə,
Sirrini insana sinaya söylə,
Aşıq deyir sinayə,
Sin yazılıb sinayə,
Gələn gedir dünyadan,
Məskən salır sinayə.

[1] 32 dişin biri düşəndə ağızda tamlıq, nızam pozulur.

Sevil, dostlarına sinayə söylə,
Düz yeri yolunu hey başa yetir.
Miskinli Vəliyəm ey qismət olsun!
Halal, az əməyim ey qismət olsun!
Mən aşığam ey qismət,
Mədəd səndən ey qismət,
İnsan üçün yaxşıdı,
Halal əmək ey qismət.
Haqqım sin içində ey qismət olsun,
Dilimi dərk eylə hey başa yetir.

## AY NƏDƏN, NƏDƏN?

Cahanda insanın, həm şirin canın,
Dəyişir səfası ay nədən-nədən?
Aşıq deyər ay nədən?
Nəzərində aynədən,
Qaranlığa gecələr,
İşıq salır ay nədən?
Sirrin, sirr işlərin, narın, nihanın,
Seçir həqiqətin ay nədən-nədən?
Can ağrıyar qan axanda yaradan,
Diqqət yetir yaxındadı Yaradan,
Aşıq deyər yaradan,
Aç sarığı yaradan,
Əsdi səhər yelləri,
Nə gətirdi yara dan?
Yaxşı deyən, yaxşı yazan, yaradan,
Nəqş edir sənətin ay nədən-nədən?
Aşıq Vəli açır bağlı dər indi,
Tər çiçəkdi, tər nazik əl, dər indi,
Aşıq deyər dərindi,
Dərya dayaz, dərindi,
Ürək sirli qaladı,
Aç qaladan dər indi.
Sərin sərdən dərrakəsi dərindi,
Nəzərin, diqqətin ay nədən-nədən?

## BAĞLI

Çəkdim yar qəhrini, vüsalı müşkül,
Qəsiri, eyvanı hər yanı bağlı.
Aşıq deyər nə bağlı,
Nə bağçalı, nə bağlı,
Min bir yola düşmüşəm,
Nə açıqdı, nə bağlı.
Güzar etdim bir xanəyə tuş oldum,
Gəzib dolanıram hər yanı bağlı.
Nədi insan üçün həyat, a gözəl?
Atadan oğula həyat a gözəl!
Aşıq deyər ay ata,
Xoş gəlibsən, ay ata,
Gün nə üçün bütövdü?
Paralanır, ay, ata.
Yeridim, yetişdim həyata gözəl,
Nə yerdə, nə göydə hər yanı bağlı.
Vəli insanlığı o yana çəkdi,
Ata qəd əyildi, o yana çəkdi.
Aşıq deyər oy ana,
Əmdim südün, oy ana,
Bəxtim yatıb, ya mədəd,
Oyanmaya, oyana.
Atımı altımdan o yana çəkdi,
Ellər bəyənmədi hər yanı bağlı.

## ATANA

El içində yaxşı qıza, oğula,
Yaxşı danış yaxşı bir söz atana,
Mən aşığam atana,
Xoş gəlibsən atana,
Yaxşı övlad yetirdim,
Atan oldu atana[1].
Sağalmaz yaradı yaramaz övlad,
Ölməz, itməz, sata bilməz atana.

[1] *Ата-ана*

Bağban olan əkər, biçər qazanar,
Xain istər özgəsinə qaza nar.
Mən aşığam qazanar,
Qazan namus, qazan ar,
Süfrə salan, dər açan,
Səxa sevən qazanar.
Ovçu olan vurar, tutar, qazanar,
Görən, bilən əhsən deyər atana.
Miskinli Vəliyəm deyim başatan,
Diqqət yetir, bax ayaqdan başatan,
Mən aşığam başatan,
Sür dövranın başatan,
Eldə hörmət qazanmaz,
Düz dolanmaz baş atan.
Yaxşı yerdə məskən salsa başatan
Yaxşı övlad süzər, gəzər atana.

## NƏSİNƏ

Nəs ildə yarandım, nəs günə düşdüm,
Nəs saatda iras gəldim nəsinə.
Aşıq deyər nə sinə?
Mail oldum nə sinə?
Mən çalışdım düz ola,
İşim getdi nəsinə.
Nə sində nəsindən dərsimi aldım,
Nəs oxudum nəsi yazdım nəsinə.
Altımışda geri düşdüm, nə sindi?
Bəxtim yatdı, işim getdi nəs indi,
Aşıq deyər nə sindi?
Keçirdiyin nə sindi?
Xeyir işdi qabaqda,
Gəl danışma nəs indi.
Kamil ovçu nə ox atdı, nə sindi,
Maral keçdi nə dayandı, nə sindi.
Miskinli Vəliyəm deyim nəsə mən,
Nəs yol tutsam, tuş gələrəm nəsə mən,
Aşıq deyir nəsə mən,

Nəs olmadım nəsə mən,
Nəs gəzmirdim, bəs niyə,
Qarşı gəldim nəsə mən?
Nəs bitirdim, nəs yetirdim nəsə mən,
Nəs götürdüm, nəs apardım nə sinə?

## HEY ANA QƏRƏZ

Gözəl, şux niyyətin, xoş səadətin,
Hey çəkir həsrətin hey ana qərəz.
Aşıq deyər nə qərəz,
Eləyirsən nə qərəz,
Yaxşı övlad anaya
Nə qəsd edər, nə qərəz.
Qoynunda bəsləyir, görmək istəyir,
Hey verir diqqəti, hey ana qərəz.
Qətrə sudan keçdi qana, nə idi?
Beş ayında gəldi cana, nə idi?
Aşıq deyər nə idi?
Nə gətirdi, nə yedi?
Sıxan ana qəlbini,
Çox incidən nəyidi?
Balanı bəsləyir ana, nəyidi?
Hey edir xidmətin, hey ana qərəz.
Vəli, nədən arı şana bal anı?
İllər keçsə, heç dəyişməz bal anı.
Aşıq deyər bal anı,
Sev, sevindir balanı,
Tərbiyə ver, tam oxut,
Yaxşı yetir balanı.
Gör nə hərarətlə sevir balanı?
Hey çəkir zəhmətin, hey ana qərəz.

## BİRİSİN

Üç səs deyim, haxdı onu haxlayan,
Biri «hey»di, biri «yey»di, biri «sın».

Aşıq deyər birisin,
Üşüyürsən bir isin,
İki könül bir olsa,
Sevər biri-birisin.
Üç alimdi xeyri-şəri yoxlayan,
«Sey», «Rey»lə ikisi gözlər birisin.
Çək cəfasın, gör səfasın hey yarın,
Yer üzündə ağır dağlar hey yarın.
Aşıq deyər hey yarın,
Çək nazını hey yarın,
Günəş olun, zülmətin,
Qara bağrın hey yarın.
Könül sevsə, sənə deyər hey yarın,
Səndən qeyri sevməz özgə birisin.
Vəli sevdi şəhdi-şəkər, nə dadı?
Yarın yara nə imdadı, nə dadı?
Aşıq deyər nə dadı?
Dilim çəkmir nə dadı?
Namərdinən nan yesən,
Nə ləzzəti, nə dadı?
Bir insanda üç ləqəb var nədadı?[1]
Biri haqlı, biri haqsız, biri sin[2].

## SİNİ-SİN

Səyyahısan bu varlığın işinin,
Yaxşı öyrən sirrilərin sinisin[3].
Aşıq deyər sini sin,
Qarşılayır sini sin[4],
Nədir açan süfrəsin,
Dolu düzən sinisin?
Al qələmə təməlini, daşını,
De, yaz, yetir, ver xəbərin sini sin[1].

---

[1] *няди ады?*
[2] *гябир*
[3] *йахшысын*
[4] *гябир гябири*

Gərək bilsin ağlı başda olannar,
İlhamını hardan alır olan nar?
Aşıq deyər olan nar,
Olan atəş, olan nar,
Xeyrə-şərə yarayar
Əsil insan olannar.
Aləmdə xoş təbiəti olannar,
Hasil edir nemətlərin, sinisin.
Vəli, gedir arxasınca an anın,
Aç süfrəsin, düz nemətin, a nanın.
Aşıq deyər ananın,
An adını ananın,
Gündə yüz yol dur, dolan,
Dön başına ananın.
Üşüyürsən gir qoynuna ananın[2],
Dərin, dayaz səninkidi sin, isin.[3]

## MƏNDƏDİ

Pirimin nüsrəti ruzi-əzəldən,
Sərimin sevdası ayə məndədi.
Aşıq deyər məndədi,
Mədəni var məndədi,
Şerin, sözün sərvəti
Nə istəsən məndədi.
Misalı gözəldən, mənası ləldən,
Xublar iltiması ayə məndədi.
Dərsimi almışam sin əsərindən[4],
Kamal dəryasından, sin əsərindən[5].
Aşıq deyər sərindən,
Sərin gəlir sərindən,
Ad alar, iz salarsan,
Kamalından, sərindən.
Şeir xəzinəsi, sin əsərindən,

---

[1] *дцнйанын йашыны йаш хябяр вер.*

[2] *Торпаг мянасында*

[3] Əbədi yerin olan qəbirdə isin

[4] *Йяни Йасин сурясиндян*

[5] *Синя ясяриндян (гялб сюзцндян)*

Məna, müəmması, ayə, məndədi.
Vəli, nədi haqsız yaxşı yar atmaq?
Ox götürmək, nişan almaq, yar atmaq?[1]
Aşıq deyər yar atmaq,
Yara bir söz yaratmaq,
Ər aşıqlar işidi
Yaxşı yazıb yaratmaq.
Zərif inciləri yazıb yaratmaq,
Elmin ən əsası ayə məndədi.

**AYƏ-AYƏ**

Bilsən insan gəlib gedir dünyadan,
Gəzib dolanırsan min ayə-ayə.
Aşıq deyər min ayə,
Al dərsini min ayə,
İsmayılı İbrahim
Qurban demiş Minayə.
El içində bir ey bilən özünü,
Durar qulluğunda min ayə-ayə.
Bir guş versən, bir söz deyim bir sənə,
Bir kitabda min dəlil var, bir sənə.
Aşıq deyər bir sənə,
Mail oldum bir sənə,
Bilirsənmi alacaq
Bir can verən bir sənə.
Bir dostundu, bir hörməti bir sənə,
Birə hörmət eylə min ayə-ayə.
Miskin Vəli bir dost tutdu, bir dedi,
Bir eşitdi, bir anladı, bir dedi.
Aşıq deyər bir dedi,
Bir dərs alan bir dedi,
Ustadların ustadı,
Bir olana bir dedi.
İbrahim də od içində bir dedi,
Şükr sənə etdi Minayə, ayə.

---

[1] *Йары (йарымчыг) атмаг*

## AYAĞ-AYAĞA

Mən yox ikən bir qətrədən yaradan,
Sən salma nəzərdən ayağ, ayağa.
Aşıq deyər ay ağa,
Pənahımsan, ay ağa,
Üzmə məni qəmindən
Salma eldə ayağa.
Pak eylə qəlbimi çıxart yaradan,
Yandırma yanara, a yağa, yağa.
Bərəkəti, nüsrəti ver elə sən.
Əyri kəsi doğru yola elə sən.
Aşıq deyər eləsən
Mehribansan elə sən.
Həkimlərin həkimi
Dərdə dərman elə sən.
Mənə rəhmi, şəfaəti elə sən,
Məhşərdə, siratda ay ağa, ağa.
Miskinli Vəliyəm bir ana məni,
Yanar, yaxşı ağlar bir ana məni.
Aşıq deyər bir ana,
Tanrım məni bir ana.
Övladına can verən
Bir atadı, bir ana.
Qəssal yuyar, bükər bir ana məni,
Bürüyər cəsədim ay ağa, ağa.

## OYANA DAĞLAR

Qəmlər səhrasının səyyahı mənəm,
Yar gələr köksünə oyan, a dağlar.
Mən aşıq, yana dağlar,
Qıymaram yana dağlar.
Yanar, odlar sinəmi,
Yıxar yan-yana dağlar.
Ah çəkər alışar o nazlı sənəm,
Ağlar qan-yaş tökər, oyan, a dağlar.
Əsli-Kərəm bir atəşdir, qan alı,
Leyli-Məcnun gözü yaşdı qan alı.
Aşıq deyir qan alı,
Deyim dərdin qan alı.

Dərdə düşən dərdinə
Dərman üçün qan alı.
Şirin-Fərhad qanı açdı qanalı,
Silinməz iz saldı o yana, dağlar.
Sənan sızlar, yaxar qəlbim yara nar,
Sevən aşiq dağlar yarar yara nar.
Aşiq deyir, yara nar,
Yar yarına yaranar.
Nakam gedən aşiqlər
Ölməz ada yaranar.
Vəli sönməz yanar-yanar yara nar,
Bəlkə, qəbirdə də o yana, dağlar.

## DODAQDƏYMƏZ CIĞALI TƏCNİS

### YAXŞI

Sən yaxşı insansan yaxşılıq eylə,
İşindən işıq sal həyata yaxşı.
Aşıq deyər həyata,
Həya eylə həyata.
Yaxşı insan gərəkdi,
Ad qazansın həyata.
Yaxşı nəshət yaxşı de, yaz əlinlə,
Nəqş eylə tarixə, həyata yaxşı.
El içində eylik eylə hey yara,
Yar sarısa sayalanar hey yara.
Aşıq deyər hey yara,
Sarı, sağalt hey yara,
Əssin səhər yelləri
Sərin gəlsin hey yara.
Əldə neşdər cərrah yarar hey yara,
Sağaldar, yetirər həyata yaxşı.
Vəli sinəsindən yazdı, yetirdi,
Yazdı, yaraşdırdı, yazdı, yetirdi
Aşıq deyər yetirdi,
Dediyinə yetir, di!
Xəstə sızlar qar istər,
Yaxşı gəldi yetirdi.
Açıldı çiçəklər, yazdı, yetirdi,
Ətirlər saçıldı həyata yaxşı.

## GEDƏR-GƏLMƏZ CIĞALI TƏCNİS

### QƏDƏR

Yazan milyon əsər elmi sərasər,
Dildə əzbər edən min ayə qədər.
Mən aşığam nə qədər,
İstəyirsən nə qədər,
Yaxşı dostu unutma,
Canda can var nə qədər.
Ötkün sözü olan, kəskin iqbalı,
Nəsibi gətirən min ayə qədər.
Görəndə ziynəti söyləyən pəh-pəh,
Çəkəndə zilləti ay edər of-of.
Kamil olan yaxşı saxlar ustadın,
Al saqidən iç badəsin ustadın,
Mən aşığam ustadın,
Ləkələmə ustadın,
Şirin candan çox istər,
Əsil olan ustadın.
Mən sevirəm ustadların ustadın,
Boy atıb ucalan minayə qədər,
Olanda qüdrəti söyləyən pəh-pəh,
Alanda zərbəti ay edər of-of.
Yenə dağlar geydi, yar, alı gəldim,
Dər açdım yaramı yar alı gəldim,
Mən aşığam yaralı,
Göy qəddinə yar, alı,
Gözü yolda intizar,
Mənəm qəlbi yaralı,
Miskinli Vəliyəm yaralı gəldim,
Kim dözər bu dərdə Minayə qədər,
Güləndə söhbəti söyləyən pəh-pəh,
Görcək aqibəti ay edə of-of.

# DODAQDƏYMƏZLƏR

## AZALDI

Hansı canlı haqq işinə qarışdı?
Səda gəldi: xəznə kandan azaldı.
Nəydi haxdan gəldi dəryaya qərar?
Yenə dedin dərgahından azaldı.
    İnsan gəzən qeyrətidi, arıdı,
    Çiçək açdı şirə çəkən arıdı,
    Nəydi axı, hər işini arıdı?
    İllər keçdi qanı candan azaldı.
Vəli, sər əyildi, sirri nədəydi?
İllər keçdi xatirinə nə dəydi?
Dil dəhandan hərcayıya nə dəydi?
Dedin azdı, dil-dəhandan az aldı!

## NƏDƏNDİ?

Alır silahını atırsan nəyə,
Atdıran nədəndi, atan nədəndi?
Yaxşı insanları yaxşı diləyə,
Çatdıran nədəndi, çatan nədəndi?
    Zərin gətir zərgərinə satana,
    Qatil, qəddar ələ keçdi satana,
    Ellər deyər xalqa yalan satana,
    Satdıran nədəndi, satan nədəndi?
Aşıq Vəli gəzər dağı, aranı,
Yaxşı insan sakit eylər aranı,
Qal qaldıran qana qatar aranı,
Qatdıran nədəndi, qatan nədəndi?

## YENƏ

Yazda, yayda al geyinən dağları,
Qış gələr qarşıya qar alar yenə.

İstərsə gədəni, istərsə şahı,
Yazar çərxi-gərdiş, qaralar yenə.
    Yerin hərarəti cəng ələ çəkər,
    Leysan gələ çəkər, çən gələ çəkər,
    Qəza qəddin əyər, çəngələ çəkər,
    Açılan irəngin qaralar yenə.
Vəli, yaz dərsini, ha lala yetir,
Sidqi dilək dilə halala, yetir,
Açılar, qızarar ha lala[1] yetir,
Qalar sinəsində qaralar yenə.

## YENƏ

Eşqin gərdişini keşt eyliyənnər,
Geyər həsrətindən qaralar yenə.
İstərsə gədəni, istərsə şahı,
Yazar çərxi-gərdiş, qaralar yenə.
    Al-yaşıl geyinər İraqa gedər,
    Əyərlər qəddini iraq a gedər,
    Yayınar qarşından iraqa gedər,
    Yar çəkər qaşına qaralar yenə.
Şair sinəsindən yaza, yetirər,
Yar yara ərzini yaza, yetirər,
Dağlar al geyinər yaza yetirər,
Qış gələr qarşıya qar alar yenə.
    Vəli, atdın nə dayandı, nə dəydi,
    Nə kal qatdı, nə yetişdi, nə dəydi,
    Əğyarın istəyi, axı, nədəydi?
    Qaldı sinəsində qaralar yenə.

## HEY QALA, QALA

Həqiqəti dərk eyləyən dərindən,
Gərək dəryasında hey qala, qala.
Nəsihətdi ataların dediyi,
Yığasan yadında hey qala-qala.

---

[1] *лаля*

Yarı geydirəsən yaxşala[1] yaxşı,
Ərzini dilindən yaxşala[2] yaxşı,
Alsa da canını Yaxşala[3], Yaxşı,
Hicrandan çəkincə hey qala, qala.
Nazlı yarnan gər dəyərsə yan, ara,
İnan yanar, dildə çəkən ya nara[4],
Yarın sənnən əgər kəssə yan, ara,
Al canın atəşə hey qala, qala.
Yazda yaşıllanır yarala yaxşı,
Al yara yaraşır, yar ala yaxşı,
Qəddarın canını yar ala yaxşı,
Haqsız dil açınca hey qala, qala.
Yaxşılara layiq yaxşı yar atdı,
Yaxşı nişan aldı, yaxşı yar atdı,
Vəli yaxşı dedi, yaxşı yaratdı,
Yaxşı hasar çəkdi hey qala-qala.

---

[1] *йахшы ала – йахшы гырмызыйа*
[2] *йахшы ала – йахшы алмаг*
[3] *йахшы ала – гадын ады*
[4] *йа няря*

## MÜXƏMMƏSLƏR

### BOĞAZ

Mən əlindən dad çəkirəm,
Xasiyyətin yava boğaz.
İstədiyin gecikəndə,
Tez salırsan dava boğaz.
Sən yeməyə çox qoçaqsan,
Maşallah, mərhəba boğaz.
Sünürsən[1] küncə, bucağa,
Soxulursan qaba boğaz.
Bilirsənmi, dözəmmirəm?
Bu haqqı-hesaba boğaz.

Gündə üç dəfə yeməyə,
Eyləyibsən sən adəti.
Səhər balla yağ da yesən,
Günorta gəzirsən əti.
Yeyirsən cücə pilovu,
Deyirsən çaydı ləzzəti.
Şux gözəl də istəyirsən,
Sənə eyləsin xidməti.
Küsürsən yağ üzlüyüylə,
Qaynamasa tava boğaz.

Yağlı, üzlü olmayanda,
Dolandırırsan gözünü.
Qabağına şor gələndə,
Tezcə çəkirsən özünü.
Təam ləziz olmayanda,
Tez döndərirsən üzünü.
O dəyqə işə salırsan,
Artıq, həm əskik sözünü.
Söyürsən ata-anaya,
Qalmır nənə, baba boğaz.

---
[1] Soxulursan

Sən yedin, sən qurtardın,
Qapının malı qalmadı.
Ağ sürünün ağ əmliyi,
Yağı, motalı qalmadı.
Ağ düyünün ağ pilovu,
Arının balı qalmadı.
Qaysafanın, qayqanağın,
Qurtardı dalı qalmadı.
İnanmasan and içərəm.
Qurana, kitaba boğaz.
Fikir elə sən yeməmiş,
Bir şey qaldımı dünyada?
Yeyirdin çığırtmanı,
Damağın gəlirdi dada.
Olmayanda şükür elə,
Kartofluya, şora, cada.
Əgər şükür eləməsən,
Qarayara, qəfil qada.
Axtarginən həkimlərdə,
Tapma dərman, dava boğaz.
Miskinli Aşıq Vəlini,
Gətiribsən zara daha.
Baxmasan halal, harama,
Məni salarsan günaha.
Yeyərsən özgə malını,
Düşərsən qarğışa, aha.
Sən nəfsinə qadağa ver,
Qulluq eləmə tamaha.
O səni salar dərinə,
Olmaz təmiz hava boğaz.

## DÜNYA

De, kim qoydu bu təməli,
Kim bağladı tağı, dünya?
De, kim qurdu, kim saxladı,
Kim verdi dayağı, dünya?
De, kim aldı, kim gətirdi,

Bu rəngi, boyağı, dünya?
De, kim çəkdi zəhmətini,
Bəzədi otağı, dünya?
Kim getdi zülmətə qarşı,
Kim qoydu mayağı, dünya?
Səndə Ay, Günəş, buludlar,
Duman, çiskin, yel dolanır.
Çox sular, çaylar, çeşmələr,
Dərya, dəniz, sel dolanır.
Böyük ölkələr yerləşir,
Mahal, oba, el dolanır.
Hava, həyat, nazü-nemət,
Çiçək, çəmən, gül dolanır.
Kim bitirib, kim yetirib,
Belə böyük bağı, dünya?
Bir yaranan yaşıllanır,
Bir açılan bir də solur.
Biri itirir isbatın,
Biri tapır eşqə dolur.
Bəşəriyyət nə səbəbdən,
Bir-birini didir, yolur.
Bu varlığın hər məhsulu,
Aqibəti sənin olur.
Hər bir gülü, hər çiçəyi,
Hər açan yarpağı, dünya.
Kim gəldi tez yola saldın,
Səndə qalmağa qoymadın.
Sirr işlərin öyrənməyə,
Yada salmağa qoymadın.
Öz fikrinə qail olub,
İlham almağa qoymadın.
Camalına aşiq olan,
Deyib, çalmağa qoymadın.
Dərhal çəkdin sinəsinə,
Dağ üstündən dağı dünya.
Bir bağ salan, bağban olan,
Bol götürən barı gedir.
Yeyən, içən, meydan açan,

At çapıran yarı gedir.
Vuran, tutan, asan, kəsən,
Axıdan qanları gedir.
Can alanlar can da verir,
Hökmü, hökmüdarı gedir.
Çox az olur tarixinə,
Yandıran çırağı, dünya.

İskəndər zülmətə getdi,
Su gətirdi, canı hanı?
Dağ Yunis, Nadir və Namrud,
O Nuşirəvanı hanı?
Rüstəmi Zal necə oldu?
Firdovsi, Xaqani hanı?
Yeddinci göylərdə gəzən,
Elmilər sultanı hanı?
Çox milyonlar itiribsən,
Heç yoxdu sorağı, dünya.

De kim açır belə geniş,
Böyük ər meydanı sənə?
De kim deyir: – İnsi-cinsi,
Cümlə cinsi canı sənə?
Kim söyləyir əvvəl-axır,
Aşkarı, pünhanı sənə?
De kim çəkir, yekun vurur,
Bu hesabı, sanı sənə?
Kim bacarır başdan-başa,
Bu sayı saymağı, dünya?

De, nə bilir, nə düşünür,
Səndə bu cəlalı görən.
Bu qurğunu, bu büsatı,
Bu dövləti, malı görən.
Bu hüsnüdə bir gözəli,
Belə bir camalı görən.
Tez mat qalır, məcnun olur,
İtirir kamalı görən.
O tez çaşır, dərhal aşır,
Başından ayağı, dünya.

Kim gəldi, çox heyran oldu,

Sənin xaki turabına.
Əsərinə, kəsərinə,
Atəşinə, həm abına.
Çox baş yaran, kəllə cıran,
Yetə bilmir hesabına.
De, kim yazıb, kim yetirib,
Kim qol çəkib kitabına?
Sirdi, sirlər xəznəsidi,
Onun hər varağı, dünya.

Qoy mən deyim sən də eşit,
Əsli həqiqətinə bax.
Gecəyə bax, gündüzə bax,
Asana bax, çətinə bax.
Göy üzünün ziynətinə,
Şanlı əzəmətinə bax.
Yer üzündə torpaq kimi,
Bir bəşəriyyətinə bax.
Axır gəlir, baxır gedir,
Bacarmır qalmağı, dünya.

Şair şeri, təb əsəri,
Nəqş olur cahana qalır.
Düşür elə, dildən-dilə,
Yazılır dastana qalır.
Bir yaxşılıq, bir yamanlıq,
İki ad insana qalır.
Bir min üç yüz səksən dördə,[1]
Bu sözüm nişanə qalır.
Vəliylə də vidalaşır,
Saxlamır qonağı dünya.

## ZƏRNİŞAN

Ala gözün tuti kimi,
Şirindi dilin, Zərnişan.
İnci sədəf dırnaqların,
Nazikdi əlin, Zərnişan.

[1] *Tarix hicri ilə verilir*

Bir əlində tər bənövşə,
Süsən, sünbülün, Zərnişan.
Ətir verir yanağında,
Açılıb gülün, Zərnişan.
Dolanıb solu-sağına,
Oxur bülbülün, Zərnişan.

Nə maralda, nə ahuda,
Belə gözlər görməmişəm.
Belə ahu ovçusuna,
Yetsin qubar görməmişəm,
Belə gözəli sevəndə,
Qəm, ahu-zar görməmişəm.
Tər sinənin ağlığında,
Dağlarda qar görməmişəm.
Haqq sənə bir qələm çalıb,
Artıb cəlalın, Zərnişan.

Bu hüsnüdə gözəl olmaz,
Camalın bənzər qılmana.
Cumubsan eşqin gölünə,
Olubsan yaşılbaş sona.
Laçın kimi cilvələnib,
Yenə dönübsən tərlana.
Dişlərindi dürr danəsi,
Qaymaq bələnib dahana.
Car olubdu ləblərindən,
Nə şirin balın, Zərnişan.

Vəli deyər sən tək gözəl,
Dağı-aranda tapılmaz.
Axtarmışam Uruseti,
Nə də Kirmanda tapılmaz.
Padşahlara şüd eləsən,
Cümlə cahanda tapılmaz.
Bəlkə, ola irizvanda,
Ayrı bir yanda tapılmaz.
Heç gözəl sənə bənzəmir,
Qeyridi halın, Zərnişan.

**AŞIQ**

El içində səyi, rəyi,
Düz ola mərdana aşıq.
Şən süfrəyə kəm baxmaya,
Hörmət edə nana aşıq.
Gəlin-qıza bacı deyə,
Ağbirçəyə ana aşıq.
Öz qəlbində məhəbbəti,
Dilində dürdanə aşıq.
Keçə xublar cərgəsinə,
Qarışa insana aşıq.

Kamalıyla kamil ola,
Həmişə hörmət qazana.
Uşağa da, böyüyə də,
Eyləyə xidmət qazana.
Yaxşılığı başa düşə,
Bacara şöhrət qazana.
Başdan-başa hər işinə,
El verə qiymət qazana.
Görən deyə layiqi var,
Yaraşır dastana aşıq.

Miskinli Aşıq Vəlinin,
Təmiz ola tərbiyəsi.
Eşidəni heyran edə,
Sazı, sözü, zümzüməsi.
Hər tərəfə dalğalana.
Göylərə ucala səsi.
Həqiqətdən söhbət aça,
Ləzzət verə hər cümləsi.
Deyib, yazıb, yaratmağı,
İz sala cahana aşıq.

## QOŞAYARPAQ MÜXƏMMƏSLƏR

### YAXŞIDI

Bax gözələ, məh camala,
Yanağı lala yaxşıdı.
İnci dişi, qələm qaşı,
Gözləri ala yaxşıdı.
Dodağı südün qaymağı,
Dönüb zülala yaxşıdı.
Var maçı, qarğı saçı,
Tökülüb dala yaxşıdı.
Səhər durur, ziynət vurur,
O məhcamala yaxşıdı.

Özü cavan, mətləb qanan,
Bu gözəlin nazına bax.
Kitab əldə, şirin dildə,
Oxuyur, avazına bax.
Gör nə göyçək açıb çiçək,
Baharına, yazına bax.
Hər kim gördü, olmaz dərdi,
Söhbətinə, sazına bax.
Aşıq gərək dastan yaza,
Belə camala yaxşıdı.

Gəzib eldə, şirin dildə,
Nə görsəm onu yazıram.
Gözəlin, durna telini,
Nədir nişanı yazıram.
Ay gözəlim, dərdin alım,
Sənin tək canı yazıram.
Xəstəyəm, gör, can üstəyəm,

Düşər dərmanı yazıram.
Arı kimi sızıldaram,
Pətəkdə bala yaxşıdı.
Bax bu gələn, canlar alan,
Gözəllərin ülkəridi.
Həm səlfiraz, sinə bəyaz,
Dağların təzə qarıdı.
Mən dediyim, istədiyim,
Tər şamama nübarıdı.
Danışıram, alışıram,
Sinəmdə eşqin narıdı.
Bülbüləm bil, gül ucundan,
Qonmuşam dala yaxşıdı.
Qönçə dəhan, gülü-reyhan,
Ay boyu mina gözəlim.
Təbibim ol dərdimi bil,
Yetir dərmana, gözəlim.
Olma naşı, eşq ataşı,
Qalama canı, gözəlim.
Muradımdı, nə lazımdı,
Deyim inana gözəlim.
Vəli sözdə qiymətini,
Verir kamala yaxşıdı.

**SALATIN**

Göz ki, görür, müjdə verir,
Yolunda canı Salatın.
Deyir, çalır, ilham alır,
Səri, sevdanı Salatın.
O gül üzün, şirin sözün,
Gövhərin kanı Salatın.
Sevir, seçir, ölçür, biçir,
İnsan insanı Salatın.
Məhcamala, həm kamala,
Yazır dastanı Salatın.
Hər nə ki, var, hüsnü bahar,
Yetişdirir barı gözəl.

Özü gözəl, gözü gözəl,
Ağ bədənin qarı gözəl.
Var həvəsi, tər sinəsi,
Tər-təzə nübarı gözəl.
Kim bitirir, kim yetirir,
Belə bir cüt narı gözəl.
Ətri verir, bihuş edir,
Şahı, gədanı Salatın.

Ata-ana, xoş nişana,
Yetişdirir bala səni.
Boyu şüşə, tər bənövşə,
Çox istəyir lala səni.
Çox həzz alır, qələm çalır,
Gətirən xəyala səni.
Düzər sözə, deyər saza,
Söylərəm mahala səni.
Mələkzada var dünyada,
Behişt qılmanı Salatın.

Bu şux gözəl, bundan əzəl,
Gəzirdi bağı görmüşəm.
Tez od alıb, işıq salıb,
Könül çırağı görmüşəm.
Can üzər, yüyər, düzər,
Bəzər otağı görmüşəm.
Mən bu qızı, al qırmızı,
Gül tək yanağı görmüşəm.
Xəlq olub, yalqız gəlib,
Cümlə, cahana Salatın.

O peş görə, xudam verə,
Bundan uca bəxti sənə.
Bir oğlana, gözəl xana,
Zərü-rəxti, taxtı sənə.
Həmi camal, həmi kamal,
Həm gözəllik axtı sənə.
Mən ki, görüb yazdım tərif,
Oxuyum hər vaxtı sənə.
Getsən özüm, bax bu sözüm,
Qalsın nişana Salatın.

Sənin tək gül sevən bülbül,

Dolanır bağı gözləyir.
Üzür canı, tökür qanı,
Fərhad da dağı gözləyir.
Leyli gələ, bax bir yola,
Məcnun bulağı gözləyir.
Aşıq Vəli saçır ləli,
Qiymət almağı gözləyir.
Dur tez yetir, nəmər gətir,
Kəsmə aranı Salatın.

## QOŞAYARPAQ CIĞALI MÜXƏMMƏS

### GÖZƏL

Biri nuru, qəlbi duru,
Açır gövhər-kanı gözəl.
Daşı-qaşı, al qumaşı,
Hər ləli-mərcanı gözəl.
Təxti-bəxti, zərrü-rəxti,
Mənzili, məskəni gözəl.
Al yanağı, güllü bağı,
Xanası, eyvanı gözəl.
Hüsnü bahar, yaz,
Boyu sərfiraz,
Gəl əyləş bir az,
Əhli vəfadar,
Qoynu dolu nar,
Diyarbədiyar,
İşıq salır, ilham alır,
Gözəllər sultanı gözəl.
O, hal-hazır, yaxşı yazır,
Gözəli tanı mötəbər.
Üzü-gözü, doğru sözü,
Əhdi-peymanı mötəbər.
Səyi-rəyi, xoş diləyi,
Vicdanı, qanı mötəbər.

Zərrəsi tər, zərlə bəzər,
Səddi, səhranı mötəbər.
Xoşdu dövranı,
Geyir əlvanı,
Gəzir hər yanı,
Quş kimi uçur,
Könüllər açır,
Gur işıq saçır.
Zatı əsil pak, müddəsil,
Aşkarı, pünhanı gözəl.
Aşıq Vəli, var əməli,
Yazır bu dastanı verir.
Həqiqəti, xoş niyyəti,
Güllü gülüstanı verir.
Gör nə göyçək açır çiçək,
Dərdlərə dərmanı verir.
Hər nə ki var, hüsnü bahar,
Cansızlara canı verir.
Rəsmi-pərzadın,
Bu xoş muradın,
Kim çəkir adın,
Görür xidmətin,
Açır söhbətin,
Deyir hörmətin.
Bir mehriban, ruhi-canan,
Bəsləyir dünyanı gözəl.

**BƏXTƏVƏR**

Şirin dilli, ağır elli
Yaradıb Tarı[1], bəxtəvər.
Nazik belli, mah camallı,
Dağların qarı, bəxtəvər.
Oldum xəstə, sinə üstə
Bəstiyir narı, bəxtəvər.
Kimi alar, həmdəm olar,
Bir belə yarı bəxtəvər.

---

[1] *Танры*

Boyundu bəstə,
Eşqi həvəsdə
Olmuşam xəstə,
Tər sinən üstə
Bir cüt nar bəstə,
Dəhani püstə,
Gəl ikimiz söhbət edək,
Duraq üzbarı, bəxtəvər.
Gözüm görür, ətir verir,
Qızıl güllər var bağında.
Gəlir, gedir, xidmət edir
Çoxları solu-sağında.
Kimdi gələn, mehman olan
İndi bu gözəl çağında?
Mən ki, gəldim, mail oldum,
Gözüm qaldı yanağında,
Alma yanağın,
Qaymaq dodağın,
Büllur buxağın,
Bu gözəl çağın,
Aldım sorağın,
Yetişib bağın,
Gül hüsnünə səcdə qılır,
Yazın baharı, bəxtəvər.
Miskin Vəli, var kamalı,
Gördünmü canı dünyada?
Bir nə ola, qarşı gələ
Yaxşı cananı dünyada!
Görüşübən ayrı düşən
Çəkər fəğanı dünyada.
Mən ki, gördüm, olmaz dərdim
Bircə cananı dünyada.
Yaradıb dövran,
Təbibü loğman.
Dərdlərə dərman,
Qoynundu rizvan.
Olmuşam mehman,
Ay qaşı kaman,

Ay təzə cavan,
Gülsənsə, bülbülü istə,
İstəmə xarı, bəxtəvər.

## DİVANİLƏR

## GÖZLƏ-GÖZLƏ SƏN

Qəzəbindən qəhr eyləyər,
Yeli gözlə-gözlə sən.
Öz canını vermə suya,
Seli gözlə-gözlə sən.
İblis ilə yoldaş olma,
Nəfsinə qadağa ver.
Başına bəla gətirər,
Dili gözlə-gözlə sən.
Diqqət yetir həqiqətə,
Hörmət eylə hörmətə.
Hörmət səni yetirəcək,
Ada-sana, şöhrətə.
Naşı, nadan hədyan desə,
Sərraf almaz qiymətə.
Yaxşı saxla öz dəstində,
Ləli gözlə-gözlə sən.
Əmək bəhri əldə edir,
Hər neməti dünyada,

Həm yaxşı yaz, yaxşı yarat,
Yatma qəti dünyada.
Çalış qazan könüllərdən
Məhəbbəti dünyada.
Görən desin hər sözünə,
- Bəli-, gözlə-gözlə sən.
Naxış tutsa, zər gətirsə,
Sən olarsan bəxtiyar.
Yaxşı, yaman nə iş tutsan,
Söylənər diyar-diyar.
Bu aləmdə hökmün olsa,
Əldə varkən ixtiyar.
Öz xalqına hörmət eylə,
Eli gözlə-gözlə sən.
Mərifətli, məlahətli,
Söyləsin dillər səni.
Qoy öyrənsin, əzbər etsin,
Bülbüllər, güllər səni.
Nəslin Eymir, Miskinlidə,
Yetirib ellər səni.
Qədir bil, əmək itirmə,
Vəli gözlə-gözlə sən.

## BAYRAM GÜNLƏRİ

Yaxşı olsan öz yarına,
Yara bayram günləri.
Bir sığal çək tellərinə,
Dara bayram günləri.
Mərifətli, məhəbbətli,
Könül sevən gözəlin,
Axtar ağlın, sədaqətin,
Ara bayram günləri.
Qayğı çəksə, qeydə qalsa,
Pozulmasa arada,
Yar yarının təəssübün,
Gərək verməsin yada.
Həm sevsin, həm sevilsin,

Ad qazansın dünyada.
Satılmasın şan-şöhrətə,
Vara bayram günləri.
Ey Miskinli Aşıq Vəli,
Doğru danış sən canın.
Ayrılarmı məhəbbəti,
Ürəkdəki saf qanın.
Kamil olan bağ bəsləyər,
Qədrin bilər insanın.
Həsrət qoymaz sevdiyini,
Bara bayram günləri.

## BAYRAM GÜNLƏRİ

Ağa əzə, nökər gərək,
Dözə bayram günləri.
Kabab ola haqsız yana,
Közə bayram günləri.
Yaman gündən qurtarmaya,
Ax-vay ilə dolana,
Şirin canın bəylər üçün
Üzə bayram günləri.

Yoxsulların hamsı belə,
Açılmaz düyündədi.
Ağı-ağrı cəsədində,
Qamçının göyündədi.
Zəhmətinin bəhri-barı,
Varlının evindədi.
Yeyə, içə, deyə, gülə,
Süzə bayram günləri.

Diqqət yetir kasıblara,
Qazandığı bir vara.
Yemək üçün əl uzatsa,
Dərhal çəkərlər dara.
Əkir, biçir hər məhsulu,
Yığır, vurur anbara.
Nökər yenə pis görünür,
Gözə bayram günləri.

Ağaların məhəbbəti,
Şən süfrədə, aşdadı.
Kababdadı, şərabdadı,
Dolmada, bozbaşdadı.
Badə gəldi, mey süzüldü,
Bəylər, xanlar başdadı.
Məzələnə, divan tuta,
Bizə bayram günləri.

Zülmü-sitəm, istibdad,
Zalım çarın vaxtıdı.
Əzəl gündən qara gələn,
Kasıbların baxtıdı.

Miskinli muzdur Vəlinin,
Yazın, ölüm aktıdı,
Kəsin axsın qızıl qanı,
Düzə bayram günləri.

**SƏSLƏNİR**

Tarix boyu zəhmət sevən,
Ali insan səslənir.
Elmi hünər, işdə zəfər,
Neməti nan səslənir.
Heç kimsəni incitmə sən,
Doğru dolan, düz danış.
Həqiqəti yaxşı sevən,
Bir təmiz qan səslənir.

İnsanlığı tərk eləyib,
Nadanlığı gəzmə sən.
Baxdın gördün tağ düzülür,
Kərpic çəkib pozma sən,
Özündən fəqir kəsləri,
Mənəm deyib əzmə sən.
Qanun yazan hər tərəfə,
Verib elan səslənir.

Vəli, sözün haqlı-haqsız,
Səfi olandan gedir.
Aldadandan, aldanandan,
Doğru, yalandan gedir.
Göz yumandan, cib kəsəndən,
Döyüb alandan gedir.
Bu işlərə son qoyacaq,
Adil divan səslənir.

**GÖRMƏDİM**
***(Günəşə aid)***

Ömrü boyu bir gözəldə,
Qəti yalan görmədim.
Zərrə qədər öz işindən,

Geri qalan görmədim.
Canlı-cansız, insi-cinsi,
Heyran olur hüsnünə.
Gələn sevir, sevən gedir,
Bir rəy alan görmədim.

Özü cavan, mətləb qanan,
Bilmək olmur yaşını.
Zər bəzəyir bu dünyanın,
Torpağını, daşını.
Aləmlərə o ruh verir,
Uca tutur başını.
Belə gözəl xoş səfalı,
Nəğmə çalan görmədim.

Ey Miskinli Aşıq Vəli,
Sən bax hər cəlalına.
Hörmətinə, şöhrətinə,
Dövlətinə, malına.
Təmənnasız can yandıran,
Yaranmışın halına.
Bir bu qədər hörmət edib,
Yola salan görmədim.

## GÖZƏL

Ey gözəllər sərfərazı,
Mahi münəvvər gözəl.
Əsli, zatı, nuru-pakı,
Dillərdə əzbər gözəl.
Məlahətli, mənalıdı,
Sədaqətin, ziynətin.
Ustadın var, öz adın var,
Təmiz, mötəbər gözəl.

Kamil bağın bağbanısan,
Şən bülbüllər səndədi.
Lalə, nərgiz, tər bənövşə,
Qönçə güllər səndədi.
Yer üzünün ədaləti,
Kərəm əllər səndədi.

Doğrudan da həqiqətin,
Aləmi bəzər, gözəl.

Miskinli Aşıq Vəliyəm,
Harda düşdüm dara mən.
Söz isbata keçməyəndə,
Oldum bəxti qara mən.
Düşdüm ayaq torpağına,
Yalvara-yalvara mən.
Qulunam, keç günahımdan,
Aç üzümə dər, gözəl.

## GÖZƏL

Qəza gəldi, xəta tutdu,
Kim qaçar ondan, gözəl?
Durmuşam qulluğunda,
Buyur fərmandan, gözəl.
Boyun görüb heyran olub,
Düşdüm eşqin oduna,
Dərdimə dərman istərəm
Səntək loğmandan, gözəl.

İnsan gərək ürək sözün
Aşkar etsin dilində.
Canan deyib, can qoymuşam
Bir gözəlin yolunda.
Eşitmişəm sorağını
Canbağçanın elində.
Mən səni deyib gəlmişəm,
Azərbaycandan, gözəl.

Qəvvas olan ləl axtarar
Dəryalarda, dərində.
Sən kimi gözəl sevənin
Eşq olmazmı sərində?
Miskinli Aşıq Vəl iyəm,
Durdum vədə yerində.
Kəklik də can qurtararmı
Bir şux tərlandan, gözəl?

## DÜNYADA

Qansız, qatil, yaramazlar,
İşə qəddar dünyada.
Əzəl gündən pis götürüb,
Peşə qəddar dünyada.
Sıxır, əzir insanları,
Alar varın, vardatın.
Ac qurd kimi tez döşənir,
Leşə qəddar dünyada.

İnsan sevən hər havanı,
Kamil olan düz çalar.
Mənəm deyən, özün öyən,
Dara düşər tək qalar.
Yalançılar, talançılar,
Soyğunçular, lovğalar,
İnsan əti çəkib yeyir,
Şişə qəddar dünyada.

Əziz Vətən keşiyində,
Möhkəm dayan sən Vəli.
Qoyma ana torpağına,
Ayaq basa ölməli,
Ev yıxanın, qan tökənin,
Tez kəsilə əngəli,
Ziyançılar dəst quyuya,
Düşə qəddar dünyada.

## YÜKÜM

Həqiqətdən söhbət açım,
Gör nə xəbərdir yüküm.
Mehri ülfətdən yaranan,
Bir müqərrərdir yüküm.
Yer üzündə qalaq-qalaq,
Ağır qəmlərdir yüküm.
Xoş baharın töhfəsindən,
Tər çiçəklərdir yüküm.

El içində ad gətirdi,

Yazdığım dastan mənə.
Eşidənlər əhsən dedi,
Hər bir tərəfdən mənə.
Bəxş olunan nur kamaldı,
Ləli bədəxşan mənə.
Günəş kimi şölə verir,
Zərrəsi zərdir yüküm.
Əslim Eymir Aşıq Vəli,
Gözüm yatmaz dünyada.
Həqiqətə bəli deyən,
Dostu satmaz dünyada.
Yaxşı, təmiz ad qazanan,
İtib-batmaz dünyada.
Günbəgündən ucalacaq,
Ölməz əsərdir yüküm.

## MƏNƏ

Hava, həyat, nazü-nemət,
Can-ciyərdi el mənə.
Bala kimi qucaqladı,
Qolun gərdi el mənə.
Həm atadı, həm anadı,
Həm bacıdı, həm bala,
Hər birisi bir-birindən,
Mötəbərdi el mənə.
Həm canımdı, həm qanımdı,
Həm şöhrətdi, həm adım.
Həm arzumdu, həm diləyim,
Həm də könül muradım.
Həm duzumdu, həm çörəyim,
Həm də kamil ustadım.
Həm camaldı, həm kamaldı,
Həm də sərdi el mənə.
Miskinli Aşıq Vəliyəm,
Sazım qəmə çalmasın.
El var olsun, el yaşasın,
Eldən geri qalmasın.
Günbəgün ellər ucalsın,
Məni gözdən salmasın.
Həm gövhərdi, həm cövhərdi,

Həm də zərdi el mənə.

**ƏLDƏN GEDƏR**

Layiqincə bəsləməsən,
Gülüstan əldən gedər.
Mehribanlıq göstərməsən,
Mehriban əldən gedər.
Fitnə verib ev yıxasan,
El nifrət eylər sənə,
Azca ağlını itirəsən,
Xaniman əldən gedər.
Belə bir söz misal qalıb,
Bizə ata-babadan:
Quyu qazan özü düşər,
Məhrum olar havadan.
Haqsız yerə cəng eyləmə,
Xeyir gəlməz davadan.
Baş oynatma hər meydanda,
Şirin can əldən gedər.
Ey Miskinli Aşıq Vəli,
Aciz qalma arada.
Nəsihət de nəsillərə,
Qalsın həddən ziyada.
De, yaxşı yaz, yaxşı yarat,
Bir ad qalsın dünyada.
Sınar sazın sənə qalmaz,
Bu dövran əldən gedər.

**YÜKÜM**

Başı göylərə dirənən,
Uca dağlardır yüküm.
Qanlı qışdı, qasırğadı,
Boranlı, qardır yüküm.
Əsər yellər, donar sellər,
Ömrü boyu sərasər,
Aman vermir söz açmağa,
Tam buzlaqlardır yüküm.
Qəza tutar, qəsd eyləyər,
Qollarım bağlar mənim.

Dil qəfəsdə nalə çəkər,
Gözlərim ağlar mənim.
Ürəyimdə yaralar var,
Sinəmdə dağlar mənim.
Təbib yoxdu dərman edə,
Ağır azardır yüküm.
Miskinli Aşıq Vəliyəm,
Deyim dərdim sən də bil.
Bəxtim yatdı, daşım atdı,
Günbəgündən, ilbəil.
Yazıq canım od içində,
Alovlanır müddəsil.
Elə bil ki, sağərdəyəm,
Atəşi nardır yüküm.

## TEZ

Aşıq oldum saz götürdüm,
Səs saldım cahana tez.
Ziynət verdim hər çiçəyə,
Gülə, gülüstana tez.
Sənətdən şöhrət qazanım,
Düşüm dildən, dillərə.
Çəkim eşqin səməndini,
Gətirim cövlana tez.
Təbim oldu, şeir dedim,
Sözə verdim ziynəti,
Sevdim əziz ellərimi,
Qarşıladım hörmətin.
Sərraf görcək simu-zəri,
Üstə yazır qiymətin.
Arif baxır kamalına,
Ad verir insana tez.
Miskinli Aşıq Vəliyəm,
Dərinlərə dalmağa.
Qəlbi təmiz pak dostlardan,
Saf tərbiyə almağa.
Çalışaram, can ataram,
Dünyada iz salmağa.
Gələcəyə, nəsillərə,

Yazmağa nişana tez.

## OLMASA

Bir bağçadan bir gül üzmə,
Bir ixtiyar olmasa.
Əndamından ətir verən,
Təzə nübar olmasa.
İnanmasa, sınanmasa,
Bir gözələ can demə,
Bir məhəbbət, bir mərifət,
Bir etibar olmasa.

İstəyirəm bir söz deyəm,
Diqqət versən sən mənə.
Sözə baxsan xeyrin olar,
Yol göstərim mən sənə.
Hər yetənə bel bağlama,
Səni satar düşmənə.
Əsil insan, saf sədaqət,
Doğru ilqar olmasa.

Yaxşı eşit sən Vəlini,
Aciz qalma arada.
Kamil sənət sahibi ol,
Baş endirmə hər yada.
Ağır azar, acı ağrı,
Yoxsulluqdu dünyada.
Varı-dövlət, yaxşı övlad,
Yaxşı da yar olmasa.

## VERİR

Bəşər üçün həqiqəti,
Qadiri-sübhan verir.
Qüdrət verir, qüvvət verir,
Laləzar əlvan verir.
Canlı-cinli, insi-cinsi,
Pünhan, aşkar hər nə var,
Hava, həyat, nazü-nemət,
Kim verir, hardan verir?

Kəşfi-kamil mənəm deyən,
Diqqət yetir dünyada.
Sirrin öyrən, aşkar eylə
Bax günəşə, bax aya.
Səmadakı şən ulduzlar,
Sayrışır, gəlmir saya.
Deyən varmı kimsə onu,
Hesablayıb san verir.
Ey Miskinli Aşıq Vəli,
Nədir aldadan səni.
Bir alandı, bir satandı,
Tənəfdən asan səni.
Ağzın açıb hədələyən,
Edən bağrı qan səni.
Bir tərəfdən can aparır,
Bir tərəfdən can verir.

**TEZ**

Burda mənəm deyən aşıq,
Gəl girək meydana tez.
Sözlər qoşaq, məna dərin,
Başlayaq dastana tez.
Məharətlə söhbət açaq,
Eşidən əhsən desin,
Elə yaxşı söz danışaq,
Yayılsın hər yana tez.
Dəstində gəl zilə köklə,
Sinəndə dindir sazı.
Kəklik kimi qəhqəh çəkək,
Verək bülbül avazı.
Dəryaların, dənizlərin,
Mənəm desəm qəvvası.
Çəkinmə sən, hər ikimiz,
Atılaq ümmana tez.
Miskinli Aşıq Vəliyəm,
Güvənmədim vara mən.
Ellər üçün aşıq oldum,
İnsana, ilqara mən.
Həmi qulam, həm qurbanam,
Kamil ustadlara mən.

Yaxşılara mehribanam,
Yamanam yamana tez.

**MƏRD**

Kamalından, kamil olan,
Alar adı, sanı mərd.
Öz canından çox istəyər,
Atanı, ananı mərd.
Qüdrətindən, hörmətindən,
Ad qazanar dünyada,
Əsil işdə ədaləti,
Vicdanı mərd, qanı mərd.
Əsil olan mərifətdən,
Boy verər ustadına.
Ömru boyu el dolansa,
Ləkə vurmaz adına.
Bais olub zəhər qatmaz,
Şirin nemət dadına.
Hər yerdə başa çəkər,
Dostu, mehribanı mərd.
Ey Miskinli Aşıq Vəli,
Mərd dolanır dünyanı.
Öz qəlbindən iraq eylər,
Fitnə, şəri, böhtanı.
Bu aləmdə hökmü olsa,
Tutmaz haqsız divanı.
Aldanmaz dünya varına,
İncitməz insanı mərd.

**VERİR**

Yer üzündə gözəlliyi,
Ağıllı insan verir.
Düz düşünən, ölçən, biçən,
Anlayan, qanan verir.
Əmək sevən, ərinməyən,
Zəhmət çəkən, tər tökən,
Alim olan, iş bacaran,

Yazan, yaradan verir.

Düşüncəli kamil insan,
Çox ziynət verir zərə.
Dəryalarda, dənizlərdə,
Nə var çəkir üzərə.
Kainatı kəşf eyləyir,
Qalxır uca göylərə.
Elmi-hünər bizə xəbər,
Ərşi-əladan verir.

Ey Miskinli Aşıq Vəli,
Bu şövkətə, şana bax.
Qüdrətə bax, qüvvətə bax,
Meydana, cövlana bax.
Yarışa bax, yürüşə bax,
Elmə bax, insana bax.
Həyata xoş səadəti,
Güllü gülüstan verir.

## YA ƏLİ[1]

«Bey» bismillah əzbərimdi
«Xey» Xudadan, ya Əli.
Ən ibtida gəldi nida
Ərş-əladan, ya Əli.
Lövhi-qələm badi-əsər
Oldu dünya yox ikən.
Bir Cəbrail qalxdı göyə
Tək dəryadan, ya Əli.

Həlli ə'la, mayi abkə
Zülmətdəndi pərdəsi.
«Sey» sirridi səda gəldi
Cəbrail çəkdi bəsi.
Həqiqəti biləmmədi

*[1] Бу дивани тамамиля йанлыш олараг бязян Мискин Абдалын адына верилир. (Мясялян: «Мискин Абдал» кит., Бакы, Сяда, 2001, сящ. 283). Биз гятиййятля билдиририк ки, шеир Мискин Абдалын йох, Мискин Вялининдир. Чцнки бир нечя дяфя бу шеирля баьлы Мискин Вяли иля сющбятимиз дя олуб. 1990-ъы илдя биз диванини онун юз дилиндян магнитофон kasсетиня дя йаздырмышыг. Сяняткар шеири шия инанъына баьлы беля бир дини рявайятля ялагяли гялямя алдыьыны данышырды: Дини рявайятя (шиялярдя) эюря Аллащ-таала бцтцн варлыгда (истяр о дцнйада, истярся дя бу дцнйада) илк олараг Мящяммяд пейьямбярин (ə.s.) вя Имам Ялинин рущуну хялг едиб. О заман ки, Аллащ вящй мяляйи олан Ъябраили хялг етди ондан сорушду: - Сян кимсян, мян кимям? Ъябраил ъаваб верди: - Сян сянсян, мян дя мян. Ви yanlış cavaba görə Ъябраилин ганадлары йаныб дярйайа дцшдц. Бу вязиййят арада фасиля олмагла 2 дяфя тякрар олунду. 3-ъц дяфя йеня Ъябраил хялг олунанда Имам Ялинин рущу онун йанына эялди вя юйрятди ки, Аллат-таала сяня щямин суалы верядя беля де: - Сян Халигсян, мян мяхлуг. Сян Йарадансан, мян йаранмыш. Ъябраил 3-ъц дяфя беля дя етди. Бу дяфя онун ганадлары йаныб дярйайа дцшмяди вя мяляkляр аляминдя гярар тутду. Аллащ-таала ися онун ъавабындан хошланыб деди: - «Устадына рящмят». Ялийя ися гейбин щяр йанындан «Ящсян» сясляри уъалды. Дини рявайятя эюря «Устадына рящмят» кяламы да еля бурадан галыб.*

Tərsə düşdü kəlməsi.
Alışdı, yandı şahpəri
Oldu fərman, ya Əli.

Hər cümlədə tə'rif edir
Qur'anda ayət səni.
Cəm aləmdən, ənbiyadan
Yazır əsil zat səni.
Həbib özü təşbeh qıldı
Bir ayrı büsat səni.
Zahirində təvəllüdsən
Sirri-sübhan, ya Əli.

Yandı şahpər, endi suya
Nələr gətdi yadına.
Bir xoş kəlam, verdi salam
Yetirdi muradına.
Hax-talanın özü dedi:
– İrəhmət ustadına.
Hər tərəfdən səda gəldi
– «Əhsən, əhsən, ya Əli».

Əslim eymir, Miskin Vəli
Var, nihanda günahım.
Hər ayədə, hər kəlmədə
Göstəribsən irahım.
Puli-sirat, hax divanda
Sən ol mənim pənahım.
Vali sənsən, vəkil sənsən
Şiri-yəzdan, ya Əli.

## GƏL

Müşkülləri həll eyləyən
Yetiş dada ağa, gəl.
Qədəminə can qurbandı,
Sərimdə sadağa gəl.
Yerin göyün pərgarısan
İki aləm günəşi.
Gündüzüm zülmətə döndü
Bir işıq salmağa gəl.

Ədalətsiz yağı eylər
Dünyanı zindan mənə.

Asır, kəsir zoru olan
İsbat olub qan mənə.
Zalım pozur həyatımı
Zülmətdi hər yan mənə.
Mürvət eylə aç qapını
Günahsız dustağa gəl.

Miskinli Aşıq Vəliyəm
Ey qibləgahım mənim.
Qurtar zalımlar əlindən
Sən ol pənahım mənim.
Zərrə qədər bax bu işdə
Yoxdur günahım mənim.
Fitnə verib ev yıxandan
Qisasım almağa gəl.

## DODAQDƏYMƏZ DİVANİ

### GƏDƏ

Sən insansan, insanlığı,
Gəl eylə nişan, gədə.
Sakit əyləş, yaxşı danış,
Çəkin hədyandan, gədə.
Cəhd eylə sən həqiqətdən,
Layiqincə dərsin al,
Çək əlini, ziyan gələr,
Şəri-şeytandan, gədə.

Sidqi dillə sığın haqqa,
Tez yetişsin dada gəz.
Sənətkarsan el içində,
Səyyadsan səhrada gəz.
Dəryalarca, dənizlərcə,
Çalış yaxşı ada gəz.
Yaxşı yadigarlar qalar,
Yaxşı yazandan, gədə.

Aşıq Vəli el içində,
Gedirsən hər yana sən.
De, yaxşı yaz, yaxşı yarat,
Yayginən cahana sən.
Həqiqəti, nəsihəti,
Dərk elə insana sən,
Hərcayidən kənarda gəz,
Gen qaç nadandan, gədə.

# VÜCUDNAMƏ

## GƏLDİM

Ən ibtida torpaq idim,
Tərpənib cövlana gəldim.
Dörd mələyin zatındanam,
Dolana-dolana gəldim.
Əriyib yağ tək süzüldüm,
Eşqi həvəslə üzüldüm,
Heyranam necə düzüldüm,
O bir qətrə qana gəldim.
Qan oldum yerimdə qaldım,
Beş ayımda nəfəs aldım,
Doqquz ayda məskən saldım,
Sonra bu cahana gəldim.
Götürüb tutdular suya,
Bələdilər boydan-boya,
Dedilər tez verin maya,
Bu tifli-nadana gəldim.
Anam layla dedi, yatdım,
Hərdən yatanları oyatdım,
Maya əmdim, maya tutdum,
Az-az qana, cana gəldim.
Bir yaşda durdum ayağa,
İki yaşda eyvan, otağa,
Üç yaşımda oynamağa,
Gözlədi ata-ana, gəldim.
Dörd yaşımda dedim, güldüm,
Beş yaşda tərbiyə oldum,
Altı yaşda qulluq bildim,
Gətirdim nişana gəldim.
Yeddidə ver dəftərimi,
Səkkizdə bil hünərimi,
Doqquzda xeyri-şərimi,

Onda qana-qana gəldim.
On beşimdə dərsim aldım,
Gələcəyi yada saldım,
Elmin dəryasına daldım,
Dolandım ümmana gəldim.
İyirmidə bir oğlanam,
Qoy sevinsin atam, anam,
Düşmənimlə bil düşmənəm,
Bəslənib meydana gəldim.
İyirmi beşdə dərinəm,
Olarmı işdə ərinəm,
Çalışdım yaxşı görünəm,
Mərfətli insana gəldim.
Otuzumda bəzənmişəm,
Hər işimdə qazanmışam,
Gündə üç yol dolanmışam,
Mən süfrəyə, nana gəldim.
Keçdim otuz beş yaşıma,
Peşman oldum savaşıma,
Ağlım cəm olub başıma,
Düşməyin gümana gəldim.
Qırx yaşımda var kamalım,
Coşqundu əhvalım-halım,
Pozulmasa bu cəlalım,
Layiqdir qurbana gəldim.
Qırx beşimdə bu diləyim,
Ödənmiş əskik gərəyim,
Qocalığa necə deyim,
Gəlməsin bu yana, gəldim.
Əlli yaşıma dayandım,
Bədəndə zəiflik qandım,
Sanki qəflətdən oyandım,
Oyana-oyana gəldim.
Əlli beşdə geri qalar,
Ağılım, huşum azalar,
Oğul-uşaq gözdən salar,
Düşərəm dumana gəldim.
Altmışımda vaxt namazım,
Bir gün mənə olar lazım,
Qismət nədi, təqdir yazım,

Qail oldum ona gəldim.
Altmış beşdə yox nübarım,
Tökülüb qalmayıb barım,
Xəzan vurmuş yarpaqlarım,
Oldu şana-şana gəldim.
Yetmişimdə batdım yasa.
Gözlədim itməsin əsa.
Yaxın mənzil əsə-əsə,
Dolana-dolana gəldim.
Yetmiş beşdə dolaşıram.
Gün kimi dağdan aşıram,
Dildə kəlməni çaşıram,
O yana-bu yana gəldim.
Səksənimdə mən yatıram,
Qəmə-qüssəyə batıram,
Taqət yox duram-oturam,
Düşmüşəm zindana gəldim.
Səksən beşdə oldum xəstə,
Yatammıram döşək üstə,
Qocalıq təngi nəfəsdə,
Gətirdi amana gəldim.
Doxsanda artdı azarım,
Neyləsin dövlətim, varım,
Baxdım bağlanır bazarım,
Dolandım əfsana gəldim.
Doxsan beşdə oğul-uşaq,
Qonşu gəldi halallaşaq,
Çətin oldu halallaşmaq,
Hörmətli mehmana gəldim.
Yüz yaşında Vəli getdi,
Qəssal yudu, el götürdü,
Səfərim mənzilə yetdi,
Girdim dondan-dona gəldim.
Ellər qılmış namazımı,
Yazanlar yazmış yazımı,
Səs gəldi, açdım gözümü,
Bir qaranlıq dama gəldim.
Çırağımız haqdan yandı.
Gördüm üç kimsə dayandı.
Birisi Şahi Mərdandı.

Sitqim bağlıdı ona gəldim.
Gördüm sual ayağıdı,
Əməlim mənə yağıdı.
İşimin yaman çağıdı.
Düşdüm pərişana gəldim.
Toxdaq verirdim özümə,
Əməlim durdu üzümə,
Qüvvət versələr sözümə,
Axrata, imana gəldim.
Dolu badə içə bilsəm,
Şəkki, səfi seçə bilsəm,
Mən siratdan keçə bilsəm,
Qisməti rizvana gəldim.
Sirri qaldım sirr işlərə,
Əməlim olan dəftərə.
Qorxulu axır mənşərə
Sığındım sübhana gəldim.
Ömürün axır əvvəli
Diyəllər itirdik ləli.
Əslim Emir Miskin Vəli
Qul oldum Qurana gəldim.

## BAYATILAR

Mən aşıq oda məni,
Sən saldın oda məni,
Mən yarı çox sevirəm,
Qəlbində o da məni.

Mən aşığam odalı,
Yar yarından od alı,
Yarım məni sevməsə,
Yanar cismim, od alı.

Mən aşıq o daldadır,
Siyah zülf o daldadır,
Fələyin işinə bax,
Kül dönüb od aldadır.

Mən aşığam yaxşıya,
Yaxşı yara yaxşıya,
Yamana yaman olur,
Yaxşı olan yaxşıya.

Mən aşığam yaxşı dal,
Bar gətirər yaxşı dal,
Pislə pis yola getsən,
Yaxşı sevil, yaxşad, al.[1]

Mən aşığam a yaxşı,
Yaz kağıza a yaxşı,
Pisə yaxşı olursan,
Səbəb nədir, a yaxşı.

Aşıq deyər, dağların
Dərd gətirər dağların.
Gözüm, könlüm doymayıb
Səfasından dağların.

Aşıq deyər solanda,
Açılanda solanda.
Kimsə gülür, gül açır
Qan ağlıyır solanda.

Aşıq deyər bir də mən,
Bir dəm ucal, bir dəm ən[1].

---

[1] *йахшы ад*

Əcəl aman vermədi
Baxam sənə bir də mən.
Aşıq deyər bir də mən,
Doğulmazam bir də mən.
Bədən üryan, kəfən yaş
Bir məzardı, bir də mən.
Aşıq deyər kimsə sin,
Kim eşitdi, kim səsin?
Dünya qoymur saxlıya
Kimsə kimin kimsəsin.
Aşıq deyər simdədi,
Dünya neçə simdədi.
Gələn yollar yorğunu,
Dincəlməyi simdədi.
Aşıq deyər sindədi,
Dünya neçə sindədi?
İki sönməz çırağı,
Ay, Gün sinəsindədi.
Aşıq deyər neyləsin,
Gələn gedir neyləsin?
Dünya doldu dolanmaz,
Boşalmasın neyləsin.
Mən aşıq oda yandı,
Mən yandım, o da yandı.
Məcnun fəğan eylədi,
Alışdı oda yandı.
Mən aşıq Leyli sində
Cavandı Leyli sində.
Can verdi yazıq Məcnun
Xəyalı Leylisində.
Mən aşıq şirin qanı,
Dərdimi şirin qanı.
Fərhad ömrü puç oldu
Töküldü Şirin qanı.

---

[1] *ен*

# QIFILBƏNDLƏR

## DOLANIR

Bir işıqdı, bir qaranlıq, bir acı,
Bir şirindi, bir insana dolanır.
Bir qüdrətdi, bir mərifət, bir nəfis,
Bir xeyirə, bir ziyana dolanır.
Bir qanmayan, bir yarımçıq, bir qanan,
Bir doğrudu, bir əyridi, bir yalan,
Bir satandı, bir satılan, bir alan,
Bir yaxşıya, bir yamana dolanır.
Bir Vəlidi, bir qələmi, dəftəri,
Bir taleyi, bir qismətli, qədəri,
Bir alimdi, bir xanəsi, bir dəri,
Bir həqiqət, bir əfsana dolanır.

## NƏDİ?

Ustad, sən ki, söz deyirsən,
Söz nədi, insan nədi?
Adəmdən Xatəmədək,
Gərdişi-dövran nədi?
Min nəfər beş min nəfərə,
Verdiyi fərman nədi?
İyirmiylə başa vurur,
Onu bir oğlan nədi?
Əlli min qoşunu var,
İkidəndi səfləri.
Bir sərkərdə əmr verir,
Düzəldir o ləşkəri.
Min nəfər yüz min nəfərə,
Düzgün verir pərgəri.

Sözlərimi aydın eylə,
Nişanbanişan nədi?
Aşıq Vəli yetik oldu,
Sözün haqqı-sayına.
Bir nəfər yüz nəfərə,
Qail edir payına.
İnsanlığın pərgəridir,
Qaranlığa, ayına.
Açammasan yerbəyerdən,
Qalarsan heyran nədi?

**AY NƏDƏN OLDU?**

Əsası, mənası, təbi, təməli,
Dünyanın cümləsi ay nədən oldu?
Gövhəri, cövhəri, əsli, əməli,
Sirlər xəzinəsi ay nədən oldu?
Əsiri olmuşam bir məhəbbətin,
Çətinə əhsəndi, əhsənə çətin,
Kainatın, gözəlliyin, ziynətin,
Əmələ gəlməsi ay nədən oldu?
Danışmayan nəsi, çəkməyən bəhsi,
Sözünün cümləsi, verən həvəsi,
Dilində kəlməsi, dürrün danəsi,
Ayələr sinəsi ay nədən oldu?
Həqiqət elminə kim qoydu maya,
Getdi ziynət verdi ərşi-əlaya,
Məhəbbəti nə gətirdi araya?
Sevən sevilməsi ay nədən oldu?

Kim oldu sahibi elmi-kamalın?
Əyilməz vüqarın, pozulmaz halın.
Qurğunun, büsatın, cahü-cəlalın,
Mehribanlıq səsi ay nədən oldu?
Miskinli Vəlinin var məhəbbəti,
Sevir həqiqəti, unutmaz qəti,
Yerin, Göyün, Ayın, Günün ziynəti,
Bu nəzmin nəfəsi ay nədən oldu?

## SƏSLƏNİR

Guşuma bir səda gəldi,
Əcayibdən səslənir.
Bir dəryaya körpü saldım,
Yarısı qan səslənir.
Doqquz yola heyran oldum,
İki bəndərgahı var,
Dindirəndə bir diliylə,
Doxsan nişan səslənir.
Yeddi gəzdim, yeddi yazdım,
Yeddisin ayan dedim.
Səkkiz atdım, səkkiz tutdum,
Səkkizinə can dedim.
İki aldım, iki verdim,
İkisin pünhan dedim.
Bu sözlərim həcvi deyil,
Həqiqətdən səslənir.
Vəli deyir: - bir dəryadı,
Girmək olmaz gölü var.
Bir cəsədə heyran oldum,
Ayağı yox, yolu var.
Bir otaqdı dörd aynası,
Hər birinin gülü var.
On səkkizə sirri qaldım,
Bir qüvvətdən səslənir.

## BAĞLIDI

Söhbət aç dünyanın müşkülatından,
Nədir məhəbbəti sözə bağlıdı?
O nədir ki, mətləb alır yuxudan,
O nədir görünmür gözə bağlıdı?
O nədir ki, atəş olur, od olur?
O nədir axırı xoş murad olur?
O nədir ki, iki nişan ad olur?
Əyriyə bağlıdı, düzə bağlıdı.
Aşıq Vəli gəldi, getdi dünyadan,
O nədir ki, gəzir, çıxmır aradan?
Nədir götürdüymüz karvansaradan?
Həm aşkardı, həm də bizə bağlıdı?

## DÖRDÜ NƏ?

Hərə xəlq olmuşuq bir qətrə sudan,
Abi-atəş, xaki-baddı, dördü nə?
Səyahətdə səkkiz gözəl sevmişəm,
Yerdi, göydü, Aydı, gündü, dördü nə?
O nədir ki, sinəsindən dağlıdı?
Nədir belə qaralıdı, ağlıdı?
Səkkiz şey var cismi cana bağlıdı,
Hava, həyat, yemək, içmək, dördü nə?
O nədir bilinmir əvvəli, sonu?
Nəfəs var, canı yox neçədir donu?
Vəli, səkkiz şey var dolanır onu,
Gecə, gündüz, sudu, yeldi, dördü nə?

## KİM OLDU?

Gəl yaxşı düşünək küllü dünyanı,
Hasil edən bu cəlalı kim oldu?
İzzəti, hörməti, şöhrəti, şanı,
Bizə verən varı, halı kim oldu?
Varlığın mayası tutuldu nədən?
Sirrini bilirmi seyrinə gedən?
İbtida qan tökən, paxıllıq edən,
İşə salan qeylü-qalı kim oldu?
Kimsə bacarırmı saxlasın canı?
Qırır insanları, axıdır qanı.
İlhama gətirən son Süleymanı,
Atan, tutan Rüstəm Zalı kim oldu?
Haqlı qələm çəkən yaxşıya, pisə,
Fikirdən keçəni bilən nə isə,
Doğru yol göstərən ali məclisə,
Dərk eyləyən pür kamalı kim oldu?
Vəli, bu sevdaya düşmüsən nədi?
Əsəri başından çıxmır əbədi,
Varlıq min aləmsə, tək bir cümlədi,
Bu qurğudan olan halı kim oldu?

## LÖVHİ-QƏLƏM…

Lövhi-qələm nədən oldu ibtida?
Kimlər göz dikmişdi nuri-Əhmədə?
Həqiqətə bəli deyən kim oldu?
Guşuna gələndə xoş nəzmi-səda.
        Biri acı oldu, birisi şirin,
        Biri döndü tənqid etdi fikirin,
        Biri peşman oldu dəyişdi yerin,
        Sözüm həqiqətdir eyni məqsədə.
Kim idi özünü eylədi acı?
Şikəstə könlümün nədi əlacı?
Peyğəmbər nə günü qıldı meracı?
Necə ayə gəldi ya Məhəmmədə?
        Şiri-xuda Cəbrayılın ustadı,
        Şiri-Yəzdan, Heydər, Əlidir adı,
        Müşküllər pənahı, könül muradı,
        Doğru qullarına veribdi vədə.
Əzbərimdi Allah, Məhəmməd, Əli,
Fatma, Zəhra həqiqətin gözəli,
Həsənə, Hüseynə qul olan Vəli,
Meyli, məhəbbəti var beş kimsədə.

## BEŞ
### *(insan üzərində)*

Bir bağa bağban oldum
O bağın budağı beş.
Dünyanın şöhrətidir
Yanarsa çırağı beş.
Dolandım ətrafını
Heyran oldum müxtəsər.
Hər nişan meyvə gətirir.
Kökü birdi, tağı beş.
        Orda iki dürr gördüm,
        Çoxdur onun qiyməti.
        İksi alar, verə bilməz

Bax, böylədir adəti,
Biri alar, həm də verər
Bu bağ üçün ziynəti.
Alimi də aciz eylər
Dönərsə növrağı beş.
Miskinli şair Vəlinin
Sözünün mənası var.
Dalğalanan hər tərəfə
Coşan bir dəryası var.
Daşı yox, kərpici yox,
Qurulmuş xanası var.
Dörd budaqdı, hər budağın
Tökülən yarpağı beş.

## GÖRMÜŞƏM

Bir otağa girdim dörd aynası var,
Dörd də sifətini yəqin görmüşəm.
Hər birinin dörd gülünü sanadım,
Üç yerdən bağlanmış tağın görmüşəm.
Orada görmüşəm bir növrəs cavan,
Zənginli bağ salır o gülü rövşən,
Çəkir həsrətini bu cümlə cahan,
Öz gözümnən gözəl çağın görmüşəm.
Sən Vəliyə söylə aşikarını,
Cəfa çəkən dərir bəhri-barını,
İnsanlar çox sevir hər nübarını,
İşıq verən bir çırağın görmüşəm.

## DEYİŞMƏLƏR, YAZIŞMALAR

### GƏLMƏDİN
***(Miskinli Vəlinin Aşıq Şəmşirə məktubu)***

Şəmşir qardaş, xeyli keçdi aradan,
İlqar verdin bizim elə gəlmədin.
Sən təbibsən, mən xəstəyəm yaralı,
Səbəb nə oldu ki, belə gəlmədin.

May ayında söz vermişdin sən qəti,
Gəlmədin, səbəb də yazmadın nədi?
Ağır elim yollarını gözlədi,
İntizarım bilə-bilə gəlmədin.

Dostun, qohumların xoş xidmətinə,
İbtida görüşün məhəbbətinə,
Baba torpağının ziyarətinə,
Məclisimə gülə-gülə gəlmədin.

Uca dağlar başı qara bağlıdı,
Ağır ellər dövlət-vara bağlıdı,
Yaxşı insan düz ilqara bağlıdı,
Məni tutdun şirin dilə gəlmədin.

Sənətkar elindən üzərmi əli?
Eldir onun varı, axrı-əzəli,
Yolunu gözləyir Miskinli Vəli,
Aya söz vermişdin, ilə gəlmədin.

*Aşıq Şəmşirdən bu şeirə cavab gəlmir,*
*İkinci məktubda Miskinli Vəli yazır:*

### GEDƏRƏM

Dost məni çağırsa, vaxtsız ölümə,
Çatanda çəksələr, dara gedərəm.
Ömrü boyu yalan gəlməz dilimə,
Qiymət versəm, etibara gedərəm.

Kamal sahibiyəm boş deyil kasam,
Bimürvətəm dostu yada salmasam,
Əngəbud ha deyil tənəkdən asam,
Rəhm eyləyər intizara gedərəm.

Dosta xain çıxan təmiz qan deyil,
Dostluğu sevməyən heç insan deyil,
Dostun əziyyəti zimistan deyil,
Hesab edər ilk bahara gedərəm.

Gələcək düşünə sazımın simi,
Tarixdə dillənə açа qəlbimi,
Şərəfli qurbana qoç-quzu kimi,
Səs salmağa üzüqara gedərəm.

Miskinli Vəliyəm xanimanımnan,
Əl üzər bağımdan, gülüstanımnan,
Dost yolunda keçər şirin canınnan
Baş verməyə düz ilqara gedərəm.

## AŞIQ ŞƏMŞİRLƏ DEYİŞMƏ – I

**VƏLI**

Dilimin əzbəri, Şəmşir qardaşım
Güzar etsən bizə sarı yaxşıdı.
Elim həsrət çəkir səni görməyə,
Məclisimin iftixarı yaxşıdı.

**ŞƏMŞIR**

Əzizi guyəndan, şirin süxəndan,
Bu məktubun rəhgüzarı yaxşıdı.
Qəlbimin həbibi, dostu mehriban,
El görüşü, dost vüqarı yaxşıdı.

**VƏLI**

Sadiq aşiqisən saf məhəbbətin,
Duraq qulluğunda, edək xidmətin,
Gəl yazaq, yaradaq, çəkək zəhmətin,
Xalqa verək yadigarı yaxşıdı.

**ŞƏMŞIR**

Nur düşə cəm dostlar görüşən günə,
Şənliyi son qoya qəmlər yükünə,
İstərəm and içəm ana südünə
Dost yolunun boran, qarı yaxşıdı.

**VƏLI**

Qızıl mədəni var uca dağların,
Ətirli çiçəyi hər çəmənzarın
Elimli, savadlı, mərd oğlanların
Kamalı, səxası, varı yaxşıdı.

**ŞƏMŞIR**

Kamil ustadıdı elmi-kamalın,
Mətnini söyləyən hər bir cəlalın,
Doğma ovlağını Miskin Abdalın
Gözüm görsə, o diyarı yaxşıdı.

**VƏLI**

Yolunu gözləyir sevən ürəklər,
Sənən görüşməkdir arzu diləklər
Gözəllik köysündə əlvan çiçəklər,
Məhəbbət bağının barı yaxşıdı.

**ŞƏMŞIR**

Yazan kişi belə yazıb yazını
Müşkül işdi bir də görmək üzünü,
Xan oxuya Səməd Vurğun sözünü,
Dil açа Qurbanın tarı yaxşıdı.

**VƏLI**

Miskinli Vəlinin istiqanlığı,
Təmiz, tərbiyəli, pak insanlığı,
Ellərə xidməti, mehribanlığı,
Sədaqəti, etibarı yaxşıdı.

**ŞƏMŞIR**

Elimin verdiyi həm əmrə qulam,
Çıxmaram sözündən saralam, solam,
Xoşdu qulluğunda payıbənd olam
Şəmşirin də öz ilqarı yaxşıdı.

## AŞIQ ŞƏMŞİRLƏ DEYİŞMƏ – II

**ŞƏMŞIR**
Şair Vəli, küsmə, incimə məndən
Dostun, qohumların üzünə gəl bax.
Əzəl iltimasım bil budu sənə,
Bizim İstisuyun gözünə gəl bax.
**VƏLI**
Aşıq Şəmşir könlüm almaq istəsən,
Bir qədəm qoy bu diyara, əzizim,
Dərman eylə qeydə qalmaq istəsən,
Sağalsın qəlbindən yara, əzizim.
**ŞƏMŞIR**
Vurular qəlbiniz bu çəmənliyə
Ətirli, qönçəli yasəmənliyə,
Qayada qartala, daşda kəkliyə,
Gölün sonasına, qazına gəl bax.
**VƏLI**
Dost gərək dostunun qeydinə qala
Qəlbinə dəyibsə, könlünü ala.
Qiymət ver insana, elmə, kamala,
İşıq salır o rüzgara, əzizim.
**ŞƏMŞIR**
Var hələ Ketinin döşündə ağ qar,
Yay gələn qonağa saxlanır bu qar,
Bir yanında allı-güllü çəmənzar
Taxta yaylağının düzünə gəl bax.
**VƏLI**
Biz həsrət deyilik gülə-çiçəyə
Havaya, həyata, yemək-içməyə,
Almağa, verməyə, görüb bilməyə
Seyr etməyə çəmənzara, əzizim.
**ŞƏMŞIR**
Ağdaban elinə düşsə güzarın
Artar məhəbbətin, olar vüqarın,
Yolunu gözləyir öz qohumların
Onların ərkinə, nazına gəl bax.

**VƏLI**

Mən ki varam yaxşıların yarıyam,
Səadət bağında qəm xirdarıyam,
Dostun, qohumların intizarıyam
Gəl, gedim açılsın ara, əzizim.

**ŞƏMŞIR**

Xəbər gətir Abbasqulu qocadan
Çağır Miskin Rüstəmlini ucadan,
Bir günəş ol, sal ziyanı bacadan
Nə olar, Şəmşirin sözünə gəl bax.

**VƏLI**

Miskinli Vəlinin düz ilqarından
Günəş ol, çəkinmə dağlar qarından,
Sazından, sözündən, xoş baharından,
Min ilham ver insanlara, əzizim.

## AŞIQ ŞƏMŞİRLƏ DEYİŞMƏ – III

**VƏLI**

Nə müddətdir həsrətini çəkdiyim,
Gəldin, könlüm intizarı görüşdük.
Firqətindən göz yaşımı tökdüyüm,
Oldu mənnən dərdə yarı görüşdük.

**ŞƏMŞIR**

Öz qohum, qardaşım, elim, əqrəbam,
Qarşı gəldi şair Vəli görüşdük.
Əcdadım yaqublu, Miskindi babam,
Olduq sazla, söz deməli görüşdük.

**VƏLI**

Əvvəl başdan ilqar verən dilindən,
Bülbül kimi əl götürməz gülündən,
Adıbəlli Kəlbəcərin elindən,
Ünü gələn sənətkarı görüşdük.

**ŞƏMŞIR**

Bu bir səadətdir bəzmi-baratdı,
Möhnətin yükünü üstümdən atdı,
Yusifin köynəyi Yaquba çatdı,
Biz də onlar kimi, - bəli -, görüşdük.

**VƏLI**
Ədaləti, həqiqəti haxladı,
Doğru sözü, düz ilqarı yoxladı,
Sənətinin hörmətini saxladı,
Ağır ellər iftixarı görüşdük.
**ŞƏMŞIR**
Birdən boşalandı, dolandı sənə,
Mənim ipək meylim dolandı sənə,
Tarix min doqquz yüz dolandı sənə,
Gəldi altmış üçün ili görüşdük.
**VƏLI**
Qoymayan kimsəni yoldan azmağa,
Mərdin ayağından namərd qazmağa,
Mahir saz çalmağa, şeir yazmağa,
Şəmşirin var iqtidarı görüşdük.
**ŞƏMŞIR**
Çoxdan axtarıram Vətənim deyə,
Sahibkar itiyin axtarmaz niyə,
Qolboyun sarmaşıb can deyə-deyə,
Şad olsun Gədəbəy eli görüşdük.
**VƏLI**
Qarşısında günəşində, ayında,
Vəfalı dostların xaki payında,
Vəli, Şəmşir, Cəmil haqqı-sayında,
Məclisində can dostları görüşdük.
**ŞƏMŞIR**
Bu görüşə, yerə nur saldı fəza,
İntizar könlümüz yetdi muraza,
Şəmşir, Vəli, Cəmil ağız-ağıza,
Öpüşərək çox məzəli görüşdük.

## ŞAİR CAVADLA DEYİŞMƏ – I

**VƏLI**
Bir bağçadan bir gül üzmə
Bir ixtiyar olmasa.
Əndəmindən ətir verən
Təzə nübar olmasa.

İnanmasa, sınanmasa,
Bir gözələ can demə,
Bir məhəbbət, bir mərifət
Bir etibar olmasa.

**CAVAD**

Sən bir dağa seyrə çıxma
Fəsli-bahar olmasa.
Hər insana tez can demə
Düz etibar olmasa.
Müxənnəsə bel bağlama
İlqarından tez dönər.
Naşı sərraf qiymət bilməz
Əhli-xirdar olmasa.

**VƏLI**

İstəyirəm bir söz deyəm
Diqqət versən sən mənə.
Sözə baxsan xeyrin olar,
Yol göstərim mən sənə.
Hər yetənə bel bağlama
Səni satar düşmənə.
Əsil insan, saf sədaqət,
Doğru ilqar olmasa.

**CAVAD**

Arif olan naşı olmaz
Hax sözün ustadıdı.
Tarixləri yoxla dərin
Yaxşıların adıdı.
Nadürüstdə mürvət olmaz
Bil cəhənnəm odudu.
Düzlüyünən başa varmaz
Ər oğlu ər olmasa.

**VƏLI**

Yaxşı eşit sən Vəlini
Aciz qalma arada.
Kamil sənət sahibi ol
Baş endirmə hər yada.
Ağır azar, acı ağrı
Yoxsulluqdu dünyada.

Varı-dövlət, yaxşı övlad
Yaxşı da yar olmasa.

**CAVAD**

Yaxşı oğul atasının
Təmiz saxlar adını.
Halal şagird ta ölüncə
Unutmaz ustadını.
İnan Vəli, Cavad sevir
Haqqın min bir adını.
Qızıl güldən bülbül dönməz
Şöləsi xar olmasa.

## ŞAİR CAVADLA DEYİŞMƏ – II

**CAVAD**

Dağlar səfalıdır bahar əyyamı,
Dəhşətli deyilmi tar yeriyəndə?
Dəvə dözümlüdür düzdür cəfaya,
Bəs, qorxu deyilmi nər yeriyəndə?

**VƏLI**

Dəhşət olduğunu mən də bilirəm,
Dərəyə tökülür tar yeriyəndə.
Nə qədər coşsa da, bir sahibi var
Sarvan üstə minir nər yeriyəndə.

**CAVAD**

Ər oğlu ər odu bilə ahəngi,
Fərhad kimi çapa qayanı, səngi.
Saymaynan özünü elmin pələngi
Hər yaranmış qaçar nar yeriyəndə.

**VƏLI**

Mənəm bu sözlərin ahəngidəri
Şairlik elminin sədd İsgəndəri,
Alimlər yanında açaq dəftəri
Su töküb söndürrəm nar yeriyəndə.

**CAVAD**

Düzdə daylaq çapar, hamı at sürər,
«Tey»in, «yey»in mənasını kim bilər?
Cavad mətləbini hey «dal»dan dilər

Dağlar da bəzənir var yeriyəndə.

**VƏLI**

«Tey» təvəkkül, «yey» yaxşılıq deməkdir,
Doğru yolnan getmək halal əməkdir,
Miskinli Vəliyə Əli köməkdir,
Eyləyər düşməni xar yeriyəndə.

## YETGİN QƏŞƏMLƏ (QƏŞƏM MƏMMƏDOV) DEYİŞMƏ – I

**QƏŞƏM**

Həqiqətdən, mərifətdən, kamaldan
Dərs alana bir nişana qulam mən.
Dərsi azdan, müxənnəsdən, nadannan
Nə anlaram sürfəsində qalam mən?

**VƏLI**

Çox düşünüb az danışan dünyada
Həddini anlayan şux kamalam mən.
Dosta məhəbbətim həddən ziyada,
Təmiz, tərbiyəli, saf xəyalam mən.

**QƏŞƏM**

Dünya şöhrətidi zəkalı xəyal,
Dolanır cahanı həqiqət misal
Xoş olar əhli-dil eyləsə vüsal,
Düşünmə arada qeylü-qalam mən.

**VƏLI**

Ağır ellər gəzən fani dünyada,
Nəfsin, özün aldatmayan arada,
Meyli, məhəbbəti bir təmiz ada
Həqiqət aşiqi, pak, halalam mən.

**QƏŞƏM**

Alim məclisində olanda bəzək
Səxavət evinə olmalı dirək,
İzin ver dostluqda meydana girək
Sədaqət elmində pürkamalam mən.

**VƏLI**

Ellər aşiqidi şənliyin, varın
Torpağa can verən təmiz suların,
İnsanlıq elmini çox qananların

Zəndinə, zehninə bir zülalam mən.

**QƏŞƏM**

Əzəldən sevirəm mərd insanları,
Elmi, həqiqəti düz qananları
Torpaq köksə çəkir necə canları
Ədalət duyğulu bir sualam mən.

**VƏLI**

Aşıq oldum düşdüm eşqi həvəsə,
Haqlı el içində saldılar səsə,
Keçdim dildən-dilə, qarışdım dəsə,
Yazıldım tarixə, xoş iqbalam mən.

**QƏŞƏM**

Həyat bir dastandır söylənməz, bitkin
Ədəm pərdəsində sayılmır itkin,
Öz adım Qəşəmdir, ləqəbim Yetkin,
Əslim göyçəlidir, əhli-halam mən.

**VƏLI**

Miskinli Vəliyəm haqqı baratdan,
İlhamı havadan, abi-həyatdan,
Həqiqəti sevən kamil ustaddan
Varlıq alimindən dərsim alam mən.

## YETGİN QƏŞƏMLƏ DEYİŞMƏ – II

**QƏŞƏM**

Səxa çeşməsinin hafiz dayağı,
Nədir başındakı, varmı yanarı?
Fəza cövhər isə ərşin dayağı,
Nədir qarşındakı turunc yanarı?

**VƏLI**

Səxa çeşməsinin hafiz dayağı,
Haqtala özüdü başda yanarı.
Sirr içində yerin, göyün dayağı,
Nurdur qarşıdakı turunc yanarı.

**QƏŞƏM**

Neçə qurban getdi dəryala söylə?
Xaliqə üz tutub dəryala söylə,
Nəvana səmt qılıb dəryala söylə,

Necədir gəşd edən üzə yanarı?

**VƏLI**

İki qurban getdi dəryala bilsən,
Beşi on yeddiyə dərya ala bilsən,
Qibləyə üz döşə dəryala bilsən,
Günəşdir gəşd edən üzdə yanarı.

**QƏŞƏM**

O, nədir son günün olar yoldaşı?
Şərminə tökülür Yetgin yoldaşı,
Sözümün canı var dörddür yoldaşı,
Ürəkdən süzülür, dildən yanarı.

**VƏLI**

Əməlindi son gününün yoldaşı,
Vəli məzar üstdən düzdür yol daşı,
Can cənazə dörd götürən yoldaşı,
Ürək keçdi, dil kəsildi yanarı.

## YETGİN QƏŞƏMLƏ DEYİŞMƏ – III

**QƏŞƏM**

Dövran açıb söz oxuyan, ay aşıq,
Bir bağ gördüm hər nemətlər içində.
Əvvəl mənə meyvəsindən xəbər ver,
Can aparan həqiqətlər içində.

**VƏLI**

Əvvəl-axır dünya behişdir, aşıq,
Kamal tapar hər nemətlər içində.
Nə götürsən əməlindir meyvəsi,
Cərgə duran iki xətlər içində.

**QƏŞƏM**

Bu bağın təməli şirin, acıdır,
Dörd əsaslar təkcə onun tacıdır
Yeddi saqi madar bağın bacıdır,
Məruz qalıb beş qüdrətlər içində.

**VƏLI**

İnsan əməlində şirin, acıdır,
Dörd kitaba qulluq etmək tacıdır,
Yeddi gün var, ibadətin bacıdır,
Siludindir beş qüdrətlər içində.

**QƏŞƏM**

Neçədir bu bağın solmaz yarpağı?
Nədən hasil oldu yanar çırağı?
Bu bağda kim-kimə dedi sorağı?
Ara, Yetkin, sədaqətlər içində.

**VƏLI**

Üç yüz altmış altı ilin yarpağı,
Qüdrətindən hasil oldu çırağı
Haq buyurdu, nəbi verdi sorağı
Vəli bilir, bil, ayətlər içində.

## AŞIQ EMIRLI MƏHƏMMƏDƏLI VƏ QARDAŞI MISKINLI VƏLININ DEYIŞMƏSI

**MƏHƏMMƏDƏLİ**

Aşıq qardaş, gəl ikimiz,
Azərbaycandan danışaq.
Ana-bala məhəbbəti,
Ayrılmaz qandan danışaq.

**VƏLİ**

Aşıq qardaş, şən həyatdan,
Gözəl dövrandan danışaq.
Kainata günəş kimi,
İşıq salandan danışaq.

**MƏHƏMMƏDƏLİ**

Ölkədə varlıq boyunnan,
Eldə oğlan-qız toyunnan,
Məhsuldan, maldan, qoyunnan,
Bağdan, bostandan danışaq.

**VƏLİ**

Qardaş elləri oyadan,
Səhralar əlvan boyadan,
Oxuyan, yazan, yaradan,
Elmi qanandan danışaq.

**MƏHƏMMƏDƏLİ**

Emirli bax yaxşı görən,
Bağ bəsləyib gülün dərən,
Kimsəsizə çörək verən,

Süfrə açandan danışaq.

**VƏLİ**

Vəli sevir avazını,
Çəkir ellərin nazını,
Tarixdə şənlik sazını,
Yaxşı çalandan danışaq.

## AŞIQ TEYMURLA MISKIN VƏLININ DEYIŞMƏSI

**TEYMUR**

Yazır gedişatdan, yeni həyatdan,
Təbi dalğalanıb dolanda Vəli.
Gözümdə canlanır böyük ustadlar,
Sazında nəğmələr çalanda Vəli.

**VƏLİ**

Bir təklif olanda, eşqə dolanda,
Girəndə məclisə meydana Teymur.
Şirin saz çalanda, səs ucalanda,
Baxdıqca xoş gəlir insana Teymur.

**TEYMUR**

Dolandın dünyanı hər yana baxdın,
Cavanlıq dövründən yazmaqdı vaxdın,
Göl kimi qaynayıb, sel kimi axdın,
Şən ellərdən ilham alanda Vəli.

**VƏLİ**

Xoş baharı, bağça-barı dər indi,
Gül-çiçəyi, gözəl çağı dər indi,
Düşündükcə bir mayağı dər indi,
Qüdrət işıq salır hər yana Teymur.

**TEYMUR**

Deyib-yazmağına yoxdur bəhana,
Ürəkdən bağlısan sən gövhər-kana,
Şairlikdə ad yayıbsan cahana,
Xalqın şadlığında olanda Vəli.

**VƏLİ**

Ləkə yoxdur vicdanında, qanında,
Ustadların cərgəsində, sanında,
Pələng pəncəsinə şir meydanında,

Cəngə cavab verir aslana Teymur.

**TEYMUR**

Mən Teymuram çox məclisdə oluram,
Ulu Qorqud qopuzunu çalıram.
Ürəkdən şad olub ilham alıram.
Şeirlərin mənə gələndə Vəli.

**VƏLİ**

Deyir nəsihəti çox gözəl yazır,
Həm kəsmə, həm təsnif, həm qəzəl yazır,
Divani, təcnisi mükəmməl yazır,
Səd qoyub səs salır cahana Teymur.

## TAHIRLƏ DEYIŞMƏ

**TAHİR**

Könül nə düşmüsən möhnətə, qəmə,
Yatan bəxti bir oyadan olacaq.
Heç bildirmə nanəcibə sirrini,
Lütf eyləyən qadir, sübhan olacaq.

**VƏLİ**

Şair, gəl fikr eylə çərxi-gərdişi,
Tənəzzüldə bir zimistan olacaq.
Gələcək qarşına tərəqqi işi,
Baharında gül-gülüstan olacaq.

**TAHİR**

Şeytan iş tutanla gəzib, dolanma,
Doğrunu tərk edib, əyrini anma,
Əsilsiz uğrunda odlara yanma,
Sənə kömək duran mövlan olacaq.

**VƏLİ**

Bir gün minəcəksən bir köhlən ata,
Bir gün də qarşına gələcək xata,
Hər gün şükür eylə haqqı barata,
Əldən gedən, əldə qalan olacaq.

**TAHİR**

Əzazil insanın getmə yanına,
Yalandan and içər sənin canına,
Onu tapşır özün haqq divanına,
Ol köməkçin müşkül açan olacaq.

**VƏLİ**

Bir gün tərəqqidə çəkilsən başa,
Bir gün tənəzzüldə dolarsan yaşa,
Bir gün varlığına etsən tamaşa,
Bir gün dönüb, o da yalan olacaq.

**TAHİR**

Xəstə Tahirin də sözləri incə,
Mərfətsiz adamda olmaz düşüncə,
İnsanın yaxşısın, pisin seçincə,
Ömrümün baharı xəzan olacaq.

**VƏLİ**

Tərəqqidə sahib olsan cahana,
Tənəzzül salacaq dilə, dahana,
De rəhmət yaxşıya, nifrət yamana,
Ədaləti qələm çalan olacaq.

Bir gün düymələnmiş yaşıl yarpaqsan,
Bir gün qönçələnmiş gül tək parlaqsan,
Vəli, bir gün çürük qara torpaqsan,
Bir gün səndən məhsul alan olacaq.

## MİSKİN VƏLİYƏ HƏSR OLUNMUŞ ŞEİRLƏR

**Cəmil müəllim**

### GÖRDÜM

Aşıq Şəmşir, gəlib çıxdım Vətənə,
Dünyadan baş açıb qananı gördüm.
Sinə gərən hər meydanda çətinə,
Ellərin qəhrinə yananı gördüm.
Tarixə nəxş edən ölməz adını,
Gədəbəy elinin söz ustadını,
İnsan sərrafını, qohum, yadını,
Özünə mehriban sananı gördüm.
Baş əyməyən namərdlərə, iblisə,
Nifrət edən bəd niyyətə, xəbisə,
Uymayan şeytana, şərə, nəfisə,
Kamal dəryasında sonanı gördüm.
Çapdırır meydanda öz Qıratını,
Pozmayır halını, həm baratını,
Saxlayıb əlində söz xərratını,
Əyrini-üyrünü yonanı gördüm.
Həzin əsir dost bağına yel kimi,
Açıq qəlbi, məhəbbəti gül kimi,
Gəlir təlatümə axır sel kimi,
Qabarıb, kükrəyən ümmanı gördüm.
Fikiri, xəyalı dağdı, arandı,
Məqsədi, niyyəti tikib, qurandı,
Bəzən yağır, əsir sanki, borandı,
Qışın buzu kimi donanı gördüm.
Gözəldi arzusu, safdı niyyəti,
Hər sözü zər kimi dillər ziynəti,
Nəsihət verməkdir onun tinyəti,
Xəstələr təbibi loğmanı gördüm.
Cəmiləm deyirəm hamı canlıdı,
Ürəyim insaflı, təmiz qanlıdı,
Şairin fikiri həyəcanlıdı,
Əmirə müntəzir fərmanı gördüm.

## SƏN

Şair Vəli bahar olub elimi,
Yaşıl dona, gül-çiçəyə bəzə sən.
Ətir saçan bağçamızda gülümü
Bir dost kimi onu gəlib üzəsən.
Şad olasan öz sevdiyin dostlarla,
Arzum budur əyilməyən vüqarla,
Səadət, səxavət, min etibarla,
Qarış-qarış hər elləri gəzəsən.
Xain gözlər qoy işığa baxmasın,
Çeşməsi qaynayıb çaya axmasın,
Qəm hicranı qoy sinəni yaxmasın,
Yorulmayıb bu dünyada dözəsən.
Uçsun hər diyara qoy könül quşun,
Tufansız, boransız ötüşsün qışın,
Cəm olsun başında kamalın, huşun,
Könüllər mülkünü duyub sezəsən.
Yayılsın hər elə şanın-şöhrətin,
İnci tək düzülsün sözün, sərvətin,
Ürəkdə cürətin, qolda qüvvətin,
Nadanı, nakəsi vurub əzəsən.
Cəmil deyir qoyma kimsə azmağa,
Mərdin ayağından namərd qazmağa,
Verdiyi əhdini, andı pozmağa,
Salasan düz yola, dərin izə sən.

## TAPMIŞAM

Neçə illər gəlib keçdi aradan,
Axır gəlib süxəndanı tapmışam.
Dərs almamış «əlif» «bey»dən ibtida,
Vəli kimi gövhər-kanı tapmışam.
Görünür olmuşam tifili nadan,
Düz qoyulan təməlinə binadan,
Oxumadan alim olan anadan,
İşıq verən çıraqbanı tapmışam.
Görmüşəm yaxından uzaq durmuşam,

Ötəri əl verib, hal da sormuşam,
Heyif keçən günü bada vermişəm,
Bol məhsullu bu bağbanı tapmışam.
Gəldim ki, bir peşə, sənət öyrənəm,
Dedim ki, taleyi xoş olan mənəm,
Gözəl dodaqlarda dildə söylənəm,
Düz göstərən yol-ərkanı tapmışam.
Cəmiləm yaxşını, yamanı seçdim,
Cığırdan adlayıb yollardan keçdim,
Şair çeşməsindən su alıb içdim,
Pür kamalı, dür dəhanı tapmışam.

**BƏYƏNDI**

Aşıq Şəmşir məktubunu alanda,
Şair Vəli söhbətini bəyəndi.
Xəyal aləminə o qapılanda,
Pür kəmalı, qüdrətini bəyəndi.
Dinlədi sözünün hər kəlməsini,
Axtardı nöqtənin hər zərrəsini,
Elə bir dolandı yer kürəsini,
Əhsən deyib sənətini bəyəndi.
Böyük ustalıqla dediyin sözü,
Taxta yaylağına o geniş düzü,
Xəyala gətirib düşündü özü,
Vətənində dövlətini bəyəndi.
Oxudum sözünü anladı, qandı,
Kərəm kimi eşq oduna qalandı,
Dərya kimi coşdu, o dalğalandı,
Sözlərindən mərfətini bəyəndi.
İnsanın kamalı sözdə bilinər,
Varsa məhəbbəti gözdə bilinər,
Abırı-həyası üzdə bilinər,
El içində ülfətini bəyəndi.
Xəyalı dolandı aranı-dağı,
Kəlbəcərdə qarış-qarış torpağı,
Tər-tər boyu çıxan hər bir bulağı,
İsti suyun sərvətini bəyəndi.

O istəyir öz dostuna inansın,
Bərkdə-boşda imtahanda sınansın,
Nadan olsa el içində qınansın,
Mərd insanın şöhrətini bəyəndi.
Hər kəs əl atarsa onun sərinə,
Girəndə söhbətdə, sözdə, dərinə,
Heç kim yetməyibdir onun sirinə,
El içində hörmətini bəyəndi.
Çox sevir tərlanı alıcı quşu,
Cəmilin sərində kamalı, huşu,
Coşanda ilhamı, alanda guşu,
Sənətkarın adətini bəyəndi.

**Sahib Camal**

## DƏDƏLƏR

Şair Vəli, sən də bizim dədəsən,
Unudulmur, ulu olur dədələr.
Yer üzündə ən məhsuldar torpaqdır,
Münbit olur, sulu olur dədələr.
Qəlb yaşını gözlərində saxlayır,
El dərdini sözlərində saxlayır,
Öz dərdini özlərində saxlayır,
Etibarın yolu olur dədələr.
Alışmışıq qəlblərində göz yatır,
Tutuşmuşuq ürək yatmır, köz yatır,
Sinəsində milyon deyim söz yatır,
Ürəkləri dolu olur dədələr.
Ürəyimdə sənə olan heyrətin,
Çəkəmmərəm, surətini çox çətin.
Məhəbbətin, sədaqətin, qeyrətin,
Həm namusun qulu olur dədələr.
Bu gün yandım mən də sənin odunda,
Bir dost tapdın Sahib Camal adında.
Elə billəm, qalacağam yadında,
Balaların qolu olur dədələr.

## Aşıq Murad Niyazlının Miskin Vəliyə həsr etdiyi şeir
## AY BABA

Sən Miskinsən, sən Abdalsan, sən Vəli
Nə yaxşı dağlarda varsan, ay baba,
Sənət dünyasında açdın qol-qanad,
Qorqudlardan yadigarsan, ay baba.

Çox şükür ellərin cəh-cəlalına,
Təndir çörəyinə, beçə balına,
Hərdən yatıb kəhər atın yalına,
Ürəklərdə yaşayırsan, ay baba.

Sinən üstə dilə gəlsin telli saz,
Yada düşdü Qoç Koroğlu, Xan Eyvaz,
İgidlərə, gözəllərə tərif yaz
Unudulmaz sənətkarsan, ay baba.

Öyməliyəm gəl təriflə, öy məni
Qarşılasın aydın səma, göy məni,
Səhvim varsa, danla məni, döy məni
İxtiyarlı ixtiyarsan ay baba.

Ayaq saxla, göy çəməndə dincələk,
Dağ döşündən enək kəndə, dincələk,
Bir kölgə sal, qoy kölgəndə dincələk,
Yol üstündə şah çinarsan, ay baba.

Ruhuma doğmadır yazdığın əsər,
Gəlibdi, gedibdi çox sinədəftər,
Oymaq-oymaq dildə gəzir Ələsgər
Onun kimi bir vüqarsan, ay baba.

Çəhlimləri cığırlaşıb üzündə
Enişində, yoxuşunda, düzündə,
Aşıq Murad Niyazlının gözündə
Ya Savalan, ya Qoşqarsan, ay baba.

# D A S T A N L A R

## MISKIN VƏLININ CANBAĞÇA SƏFƏRI

Ustadlar dastanı ustadnamə ilə başlıyallar. Biz də deyək bir olsun. Xəbisin, xainin yeri qəbir olsun.

*Naqabil qanmazı işə buyurma,*
*Sözün yerə düşər, heç miqdar olmaz.*
*Hər nə ki kar görsən öz əlinlə gör,*
*Nadürüst işində cəfakar olmaz.*
*Özündən böyüyün saxla yolunu*
*Ədəbnən, ərkannan soruş halını,*
*Əmanət, əmanət qonşu malını*
*Yox istəyən qonşu özü var olmaz.*
*Soruşun qul Abbas halın necədi?*
*Gündüzlərin ay qaranlıq gecədi,*
*Sərv ağacı hər ağacdan ucadı,*
*Əsli qıtdı, budağında bar olmaz.*

Ustadlar ustadnaməni bir deməzlər iki deyərlər, biz də deyək iki olsun, düşmən gözü ovulsun:

*Qadir allah, budur səndən diləyim*
*Sən mərdi namərdə möhtac eyləmə.*
*Qeybi xəzinədən yetir ruzusun,*
*Sən mərdi namərdə mötac eyləmə.*
*Ədalət kanısan, kərəmin çoxdu,*
*Tənəli söz xəncər, nizədi, oxdu,*
*Qardaşın qardaşa vəfası yoxdu,*
*Qardaşı qardaşa möhtac eyləmə.*
*Namərd körpüsündən, ölsəm keçmərəm,*
*Karvan olsam, mənzilinə düşmərəm,*
*Əlindən camını alıb içmərəm,*
*Sağ əli sol ələ möhtac eyləmə.*
*Şair olan deyər sözün arısın*
*Arısı olmasa olsun yarısın,*
*Qoy lap alsın gözlərimin birisin,*
*Bu gözü o gözə möhtac eyləmə.*
*Dəllək Murad deyər sözün zatını,*
*Əl əldən ötkündü, işin çətini,*
*Qurda, quşa qismət elə ətini,*

*Atanı oğula möhtac eyləmə.*

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, yaxşılıq qalsın, yamanlıq heç olsun:

*Dəllal yüz dil töksə, sərraf tanıyar*
*Qızıl qiymətinə gil ola bilməz.*
*Əyridə həqiqət, səyridə diqqət,*
*Səfikdə sədaqət bil, ola bilməz.*

*Sazım əldən düşüb pas tutsa simi,*
*Sönməz alovlara yaxar qəlbimi,*
*Hər çala-çuxurda bir dərya kimi,*
*Səbəbli, sərvətli göl ola bilməz.*

*Duz-çörək tamını bilməyən nadan,*
*Soraqsız, çıraqsız gedər dünyadan.*
*Himar köhlən olmaz, keçi kərkədan,*
*Qatır boy atmaqla fil ola bilməz.*

*Dünyada bir iz sal, ürəklərdə qal,*
*Zəhmətdən zövqün al, qüdrətdən ucal,*
*Xaində doğru hal, zaildə kamal,*
*Naqisdə dürr tökən dil ola bilməz.*

*Vəli, de, yaz, yarat, onu yəqin bil,*
*İtirməz qiymətin keçsə yüz min il.*
*Ala qarğa laçın, boz sərçə bülbül,*
*Hər kol çiçək açsa, gül ola bilməz.*

Bəli, sizə kimdən deyim, Miskin Vəlidən. Miskin Vəli elə, doğrudan da, günü-güzarını miskin bir adam idi. Yarandığı gündən Allah-taala qara günü başından tökürdü. Anasının dediyinə görə o, doğulanda bir selləmə yağış yağmışdı ki, bütün əkini-tikini yuyub aparmışdı.

Vəlinin atası ağac ustası idi. Həm ev tikdirmək istəyənlərə ağac işi görər, həm də kürəkdən, tabaxdan, oxlovdan, filandan düzəldib satar, bir təhər ailəsini dolandırardı. Vəlinin iki yaşı olanda bir dəfə atası meşədə ağac kəsərkən ağac üstünə yıxıldı. Yazıq kişi elə onunla da canını tapşırdı. Vəli yetimliknən böyüyüb doqquz yaşına çatdı. Ağlı kəsər-kəsməz ailəni dolandırmaq üçün muzdurluğa başladı. O qapıda-bu qapıda görmədiyi yaman gün, eşitmədiyi pis söz qalmadı. Bir qarın çörək, bir geyim paltar üçün min bir dərdə dözməli oldu. Atalar deyib dünya elə dünyadı, kimiyə səfadı, kimiyə cəfadı.

Neçə il ötdü, bu neçə ildə Vəli neçə qapıda işlədi. Axır gəlib Zeynal bəyin qapısına çıxdı. Zeynal bəy fikir verib gördü ki, bu həm çox işləkdi, işə can yandırır, həm də halal adamdı, yalannan, əyriliknən işi yoxdu. Elə ki, Vəli Zeynal bəylə danışdığı işin muzdunu alıb daha ondan ayrılmaq istədi, Zeynal bəy dedi:

– Oğul, görürəm, sən halal adamsan. Gündə bir qapıda gün keçirməkdənsə, gəl elə biryolluq mənə nökər ol.

Doğrudan da, qapı sanamaqdan Vəlinin canı boğaza yığılmışdı. Fikirləşdi ki, elə yaxşı fürsətdi, qalıb burda nökərçilik etsin. Əgər görsə ki, bəy haqqını kəsir, onda çıxıb gedər. Bəli, o qalmaqla Vəli Zeynal bəyin qapısında qaldı. Bəy də onunla pis rəftar eləmədi, haqqını kəsmədi, qarnı dolusu çörək verdi, canı cırım-cındır paltardan qurtardı.

Payızın bir xoş günündə bəy başına beş-altı adam topladı. Onlara tapşırdı ki, hazırlaşsınlar gedib arandan qış üçün taxıl gətirəcəklər. Adamların hamısı nökər-nayib idi. Vəli də bunların içindəydi. Deyir, dərziyə dedilər köç, iynəsini taxdı yaxasına ki, mən hazır. Nökərin nəyi var idi ki, hazırlaşa. Bəy dedi hazırlaşın, dedilər biz hazırıq.

Əlqərəz, Miskinlidən arana yol başladılar. Zeynal bəyin Şəmkirdə Məşədi Səfər [1]adında bir dostu var idi. Gəlib onun evinə düşdülər. Məşədi Həmid evdə yox idi. Dedilər, Gəncəyə gedib, axşama harda olsa, gələr.

Zeynal bəylə Məşədi Həmid dədə-babadan dost idilər, o qədər qaynayıb-qarışmışdılar ki, bir evli kimiydilər. Məşədi Həmid yayda arandan yaylağa köç edəndə aylarla Zeynal bəyin evində qalardı. Zeynal bəyin də arana yönü düşəndə bu evə baş çəkməmiş getməzdi. İndi Məşədi Həmid evdə olmasa da, Zeynal bəy nökər-nayibi ilə keçib rahatlandılar, başladılar Məşədi Həmidin yolunu gözləməyə.

Gün əyilən vaxt Məşədi Həmid gəlib çıxdı. Qonaqlara xoş-beş elədi, hal-əhval tutdu. On-on iki yaşlarında bir oğlu var idi. Ona tapşırdı ki, atı həyətə bağlayıb, atın yəhər-yüyənini alıb aparıb buraxsın. Uşaq bayıra çıxdı, gördü ki, uşaqlar evdən bir az aralıda, yolda aşıq-aşıq oynayırlar. Atalar yaxşı deyib, molla aşı gördü,

[1] Nazlının atasının adı Məşədi Səfərdir.

quran yadından çıxdı. Uşaq atı yaddan çıxardı, qaçdı uşaqların yanına, başladı aşıq-aşıq oynamağa.

Bir xeyli keçdi, Məşədi Həmid nədən ötrüsə bayıra çıxmalı oldu, baxdı ki, at həyətdə bağlı qalıb, oğlu da yolda aşıq-aşıq oynayır. Bir ağız çağırdı, iki ağız çağırdı, uşaq başı oyuna qarışdığından eşitmədi. Cin vurdu Məşədi Həmidin beyninə. Bu əsnada Zeynal bəylə Vəli də bayıra çıxdılar. Zeynal bəy gördü Məşədi Həmid yaman hirslənib, getsə, uşağı yaman bərk vuracaq. Məşədi Həmid yönəldi yola, Zeynal bəy qışqırdı ki, əyə, hirsli başda ağıl olmaz geri qayıt. Vəli də istədi yüyürüb Məşədi Həmidi geri qaytara, amma bacarmadı. Məşədi onu itələyib yoldan kənar elədi. Çatmağı ilə uşağa sillə ilişdirməyi bir oldu. Uşaq bayaq ha, yumbalanıb yolun kənarındakı su arxına düşdü. Arxın suyu qurumuşdu, amma içində til daşlar var idi. Uşaq təpəsi üstə düşdüyündən başı daşa dəydi. Dəyməyi ilə də qan fışqırmağı bir oldu. Vəli yüyürüb uşağı qaldırdı. Baxdılar ki, uşağın qolu da çıxıb. Haray düşdü, həqiqətdə də uşaq ayaq üstə dura bilmirdi, qan axdıqca da sustalırdı, rəngi ağarıb kəfənə dönmüşdü. Məşədi Həmidin ürəyinə qorxu düşdü. Gördü uşağın halı, doğrudan da, yamandı. Daha hirs falan yeri deyil. Tez bir adam qaçırdılar, ara həkimi gətirdi. Ara həkimi davadan-dərmandan elədi, bir təhər qan kəsdi, hannan-hana uşaq da özünə gəldi.

Məşədi Həmidin rəngi sapsarı saralmışdı. Ürəyində özünü yamanlayırdı ki, bu nə iş idi mən tutdum. Bir tərəfdən uşağın halının çox pis olmağı, o biri tərəfdən də qonağın yanında belə bir vaqeə törətməyi onu peşman eləmişdi. Ancaq haraya çatacaqdı, iş işdən keçmişdi. Özünü öldürsəydi də, xeyiri yox idi.

Bəli, elə ki uşaq bir az özünə gəldi. Məşədi Həmid də, qalan adamlar da bir qədər toxtadılar. Yenidən keçib əyləşdilər. Zeynal bəy Məşədi Həmidi məzəmmət eləməyə başladı. Sonra söhbət səbrdən, səbirsizlikdən düşdü. Hərə öz fikrini dedi, səbirli olmağın faydasından, səbirsizliyin ziyanından neçə əhvalatlar danışıldı. Məşədi Həmid fikir verib gördü ki, balam, hamı danışır, ancaq bayaq uşağı arxdan çıxaran nökər ağzına su alıb durub, bir kəlmə də dinmir, elə camaata qulaq asır, dedi:

— Zeynal bəy, sənin bu nökərin nə əcəb danışmır, deyəsən, buna danışmağı qadağan eləmisən.

Vəli Zeynal bəydən qabaq cavab verdi:

— Ağa Məşədi, mən danışıram, qorxuram xoşuna gəlməyə.

Məşədi Həmid hirsli olsa da, baməzə adam idi, baməzə danışıqdan da xoşu gələrdi, oydu ki, dedi:

— Əyə, yoxsa atamıza-anamıza söyəcəksən?

— Yox, ağa Məşədi, Allah eləməsin.

Zeynal bəy Vəlinin hərdən bir şeir zad yazdığını bilirdi. Neçə kərə öz yoldaşlarına söz qoşduğunu da eşitmişdi. Anladı ki, indi də Vəli sözünü şeirlə demək istəyir, dedi:

— Məşədi Həmid, mən elə balaca kişi deyiləm ki, nökərim də sözü elə-belə, dillə deyə, onun üçün gərək bir saz ola. Sazın varsa desin!

Məşədi Həmid mətləbi başa düşdü. Amma indi sazı haradan alaydı. Zeynal bəyin cavabında zarafatyana dedi:

— Zeynal bəy, nökəri şair olanın qamçısı da saz olar. Qamçını ver sinəsinə basıb sözünü desin.

Hamı gülüşdü. Məşədi Həmid əl çəkmədi, dedi, bu dəfə də sözünü sazsız de, eybi yoxdu biz qəbul edərik. Onu maraqlandıran oydu ki, görsün nökər nə şeir deyəcək. Vəli gördü Məşədi əl çəkmir Zeynal bəyin üzünə baxdı, yəni deyim, ya deməyim.

Zeynal bəy dedi:

— Yaxşı Məşədinin könlünü sındırma, de gəlsin. Bu da çarıq ha deyil, sürtüləndə dərdini çəkəsən ki, yırtılacaq, ayağım yalın qalacaq…

Vəli sazsız, mizrabsız aldı görək nə dedi:

*Səbri olan qatarından üzülməz,*
*Qarışmaz cərgəyə, sana səbirsiz.*
*Səbirli düşünər, havayı gülməz,*
*Tez başlayar şər, böhtana səbirsiz.*

Məşədi Həmid fikirləşirdi ki, nökərin nə şeiri olacaq, yəqin ağlına gələni dal-dala düzüb, adını da şeir qoyub. Elə-belə maraq üçün dedirirdi ki, görsün nə zayıllayır. Amma baxdı ki, yox əşşi, nökər yaman deyir. Ona görə də diqqətlə qulaq asmağa başladı.

*Səbirli ustaddan dərsini alar,*
*Səbirsiz tay-tuşdan geridə qalar,*
*Səbri olan günbəgündən ucalar*
*Batar, çıxmaz heç bir yana səbirsiz.*

*Səbirli bəsləyər bağçanı, bağı,*
*Səbirsiz düşünməz axşam, sabahı,*
*Səbirli gözləyər dalı, qabağı,*
*Düçar olar çox ziyana səbirsiz.*
*Səbirli xətadan bir təhər keçər,*
*Səbirsiz zəhəri tələsik içər,*
*Səbirli yüz ölçər, bir dəfə biçər,*
*Dərhal düşər nahaq qana səbirsiz.*

Bu yerdə Məşədi Həmid dözə bilmədi:

— Ədə, zalım oğlu, elə məni deyirsən ki…

Vəli sözün möhür bəndini dedi:

*Səbirli ucalar, qalxar göylərə,*
*Səbirsiz xətalar gətirər sərə,*
*Miskinli Vəliyəm yazdım dəftərə,*
*İnsan olmaz hər divana səbirsiz.*

Söz məclisdəkilərin hamısının xoşuna gəldi. Zeynal bəy də zarafatyana qürrələndi:

— Məşədi Həmid, gör nökəri belə olanın ağası necə olar?

Məşədi Həmid də zarafatından qalmadı:

— Hə deynən, nökəri şair olanın toyuğu cüt yumurtlar, biri keçəl, biri saçlı.

Məşədi Həmid birdən nə fikirləşdi, nə fikirləşmədi üz tutdu Zeynal bəyə:

— Zeynal bəy, gəlsənə bu nökəri verəsən mənə çoban, gedib mənim sürümü otarsın. Onsuz da onunku işdəməkdi, ya dağda, ya aranda. Bir az da mən haqqını artıq elərəm.

Zeynal bəy dedi:

— Neynirsən onu, məgər sənə çobanmı yoxdur?

— Yox, sən ölməyəsən bunun ayrı ləzzəti var, qoy desinlər Xarçonun xançalı var, yəni qoy desinlər Məşədi Həmidin çobanı şairdi.

Bu sözə hamı güldü. Zeynal bəy dedi:

— Özünüz danışın, o Vəli, o da sən, əgər razılaşır qoy qalsın.

Vəli gördü Məşədi Həmid pis adam deyil, fikirləşdi ki, mənimki onsuz da qara gündü, bəlkə, Məşədi haqqını bir az artıq elədi, elə olsa, qalaram, dedi:

— Ağa Məşədi, mənə haq nə verərsən?

— Nə istəyirsən özün de!

— Nə istəyəcəyəm, bir qarın çörək, bir geyim paltar, qalanı baxır sənin insafına.

— Mənim insafım deyir ildə əlavə bu kişiyə sürüdən beş qoyun ver.

Vəli gördü bu yaxşı haqdı. Məşədi nainsaflıq eləmədi, daha çək-çevir eləməyin yeri yoxdu, razılaşdı. Xülasə, göftügu uzun çəkmədi, hər ikisi bu işə razılaşdı. Amma Məşədi Həmid düşündü ki, görüm yaxşını yamandan, əyrini düzdən ayıra bilirmi, bir iş görəndə yol-yoldaşını tapa bilərmi, soruşdu:

— Bala, yaxşını pisdən, pakı napakdan necə ayırarsan? Bir işin düzgün yolunu tapmaq üçün neylərsən?

Vəli dedi:

— Ağa Məşədi, olarmı sualına mən istəyən kimi cavab verim?

— Buyur, niyə olmur ki!...

Orda görək Vəli Məşədi Həmidə nə dedi, biz deyək, eşidənlər şad olsun:

*Dilə alsan öz hünərin,*
*El gücünü bilməlisən.*
*Zərrələrin, qətrələrin*
*Sel gücünü bilməlisən.*

*Eşidəndə bir-birini,*
*Gəzəndə dünya sərrini,*
*Görəndə acı-şirini*
*Dil gücünü bilməlisən.*

*Əl atıb dağda, aranda*
*Köklü ağac qoparanda,*
*Yerdən üzüb aparanda,*
*Yel gücünü bilməlisən.*

*Bu qüvvətə çatmaq üçün,*
*Ağır dağlar atmaq üçün,*
*Özünə yer tapmaq üçün*
*Yol gücünü bilməlisən.*

*Toxumları gətirəndə,*
*Əkib, səpib bitirəndə*
*Hər məhsuldan götürəndə*
*Gül gücünü bilməlisən.*

*Yaşın çata düz əlliyə,*

*Boy atasan yüz əlliyə,*
*Diqqət versən gözəlliyə,*
*Əl gücünü bilməlisən.*

*Vəli, bir bağ sala bilsən,*
*Ondan ilham ala bilsən,*
*Həmişəlik qala bilsən,*
*Qal gücünü bilməlisən.*

Söz hamının xoşuna gəldi. Məşədi Həmid Vəlini çox bəyəndi, gördü o, bunun düşündüyündən daha ağıllı sözlər dedi. Nökər olanda nə olar, ağıl Allah vergisidi, ağaya, nökərə baxmaz.

Bəli, Zeynal bəy taxılını aldı, tədarükünü gördü, yola düşüb Miskinliyə qayıtdılar. Vəli isə o qalmaq Məşədi Həmidin yanında qaldı, çoban Əhmədlə birlikdə onun sürüsünü otardı.

Onun atadan qalma bir sazı var idi. Saz da deyəndə, əslində saz deyildi, köhnə bir cürə idi, Allah bilir nə vaxtdan qalmışdı. Vəli sifariş göndərdi həmin cürəni dağdan ona göndərdilər, hərdən dınqıldadıb başını qatardı. Bundan düz sərasər beş il keçdi. Beş ilin tamamında Məşədi Həmid hər ildə Vəliyə beş qoyun verdi. Doğub artanı, o yan-bu yanı onun beş ildə qoyunlarının sayı artıb əllini ötdü. Deyir qoyunun oldu əlli, adın aləmə bəlli. Vəlinin kefi kök idi. İstəsəydi qoyunlarını da qabağına qatıb üzüyuxarı dağa haylar, gəlib özünə gün-güzəran qurardı, amma Məşədi Həmidin yanında işi yaxşı gedirdi. Bir də Məşədiyə dönük çıxmaq istəmirdi. Deyirdi, Məşədi deyər mənim çörəyimlə kişi olub, indi məni bəyənmir. Hələ bir müddət də çobanlıq etmək fikrindəydi.

Məşədi Həmid hər il yayda sürünü yaylağa çıxartdırar, payız düşəndə arana qaytartdırardı. Bu il də elə oldu. Sürü aranda Şəmkirin üç-dörd verstliyində yataqda saxlanırdı. Sürünü dağdan qaytardıqları on-on beş gün olardı. Məşədi Həmid iki adam göndərdi ki, sürüyə həyan olsunlar. Vəli ilə Əhmədi də ismarladı ki, bəs, qardaşım oğlunun toyudu, gəlib əl-ayaq versinlər. Deyir, lalın dilini yiyəsi bilər, qoyunu kəsib soymağı, doğramağı fərli çoban hamıdan yaxşı bacarar. Vəli ilə Əhmədi də Məşədi Həmid bundan ötrü çağırırdı. Elə ki, toy xəbəri Əhmədin qulağına çatdı Vəliyə dedi:

— Əyə, gedək bir-iki gün canımız bu sürüdən azad olsun, bir adamdan-zaddan görək.

Vəli dedi:

— Ay yazıq, elə fikirləşmə ki, Məşədi səni kefə çağırır. Deyir, dəvəyə dedilər, gözün aydın səni toya çağırırlar, dedi, haraya çağırırlar, çağırsınlar, mənim yüküm belimdədi. Bizi toyda iş görməyə çağırırlar.

Daha neyləməliydilər, yığışıb gəldilər Şəmkirə. Məşədinin qardaşı varlı-hallı adam idi, gözünün ağı-qarası tək bircə oğlu olmuşdu. İndi elə bir toy çaldırmaq istəyirdi ki, səsi aləmə yayılsın.

Məşədi Həmidlə qardaşı qonşu idilər, yəni gəl-get elə çətin deyildi. Toya bu tərəflərin ən məşhur aşığı Aşıq Məhəmməd çağırılmışdı. Məşədi Həmid qardaşı oğluna üç gün üç gecə toy eləyəcəkdi.

Bəli, camaat yığışdı, toy başlandı. Qoyunu kəsmək, soymaq, doğramaq işinə Vəli ilə Əhməd baxırdı. Toyun birinci günü keçdi, axşam oldu. Adətə görə camaatın bir hissəsi dağılsa da, bir hissəsi qalardı. Aşıq gecə yarıya qədər toyu davam elətdirər, dastan danışar, məzəli əhvalatlar söylərdi. Ancaq qaranlıq düşər-düşməz aşıq Məhəmməd sazı yığışdırdı. Dedi, ya Allah, axşamın xeyirindən sabahın şəri yaxşıdı, sabah davam elərik. Dedilər, a kişi, etmə, eləmə bu boyda camaat sənin başına yığışıb olmadı. Aşıq Məhəmmədi yola gətirə bilmədilər, dedi, sabah, vəssalam. Vəli ilə Əhməd də bu günlük iş-güclərini qurtarıb elə yenicə ya Allah, eləmişdilər ki, gəlib toyda otursunlar, bir az aşığa qulaq assınlar. Gördülər, Aşıq Məhəmməd sazı yığışdırdı. Camaatı belə qoyub yığışmağı Vəliyə yaman pis təsir elədi, üz tutdu Aşıq Məhəmmədə:

— Aşıq, özün istəmirsənsə, onda icazə ver, mən məclisi davam etdirim.

Aşıq Məhəmməd dönüb Vəliyə baxdı, gördü, başında motal papaq, ayağında çarıq, təhər-töhüründən hiss elədi ki, çobandı. Elə bil başına qaynar qazandan su tökdülər, öz-özünə dedi, gör, Aşıq Məhəmmədin məclisini kim aparmaq istəyir, dözə bilməyib dedi:

— Deyəsən, çobansan, hə…

— Çobanam, özü də lap zırınnan…

— Balam, onda arığın nə işi var girə qoruğa, vurub qol-qıçını sındıralar.

— Arıq da qoruğa elə vaxt girər ki, qoruğun sahibi holdurum-hop oynar, gözü dünyanı görməz.

Aşıq Məhəmməd gördü, çoban dil-dil ötür, onu maraq götürdü, dedi, qoy bir çalıb oxusun, görüm, nə çalıb oxuyacaq.

— Yaxşı, deyəsən, dilin çox uzundu, indi çal, oxu görək nə zayıllayacaqsan, amma sazı özün tap, mən hər çoban-çoluğa saz verən deyiləm.

Vəli bir göz qırpımında yerindən qalxdı, gedib cürəsini gətirib meydana girdi. Cürəni görəndə Aşıq Məhəmmədi gülmək tutdu:

— Deyirəm ki, kor atın da kor nalbəndi olar, sənin kimi aşığın da belə əntiqə sazı olar.

Cürə, doğrudan da, yaman gündəydi, elə bil Nuhu taxtda görmüşdü. Hər simi bir dil çalırdı, ancaq əlac yox idi. Aşıq Məhəmməd sazını vermirdi, ayrı yaxşısını da hardan tapaydılar.

İndi sizə kimdən deyim Məşədi Həmidin qızı Nazlı xanımdan. Nazlı xanım bir Nazlı xanım idi ki, cəmi dünyada tayı-bərabəri yox idi. Bir gözəldi, bir gözəldi ki, elə bil behişt alması idi. Üzü günəş, gözü xumar, sözü şəkər, dəhanı püstə, burnu hind fındığı, saçı gecənin zülməti kimi qara, ayı baxırdı ayı utandırırdı, günə baxırdı günü utandırırdı. Vəli çoxdan idi ki, Nazlıya məhəbbət yetirmişdi. Amma ürəyini açmağı heç yadına da gətirmirdi. Bir ayağının çarığına baxırdı, bir başının papağına baxırdı, sonra öz-özünə gülürdü ki, bu ürək zəhrimar da adamın sözünə baxmır ki, baxmır, onun da könlündən padşahlıq keçir. Adam tapmır, gedir gərək Məşədi Həmidin qızını sevə. Bu sirri indiyə qədər Əhməddən başqa heç kəsə deməmişdi, heç kəsə də demək fikrində deyildi. Düşünürdü ki, boş sevdadı, gəlib könlünə girib. Söz ürəyini deşəndə bircə dəfə Əhmədə demişdi, Əhməd onu lağa qoymuşdu:

— Aşna, deyəsən, könlündən koxalıq keçir ha. İştahın yaman itidi, şəkər boğazından keçsə, qorx ilişə, nəfəsini kəsə.

Nazlı xanımın sorağı hər yana yayılmışdı, neçə yerdən elçi gəlmişdi, kimisi bəy, kimisi tacir, kimisi nə bilim nə. Ancaq qız heç kəsi bəyənib getmirdi, neçə hörmət-izzət sahibi elçi gəldi, Məşədi Həmid kimə vermək istədi qız getmədi. Axırda Məşədi Həmidin acığı tutdu, dedi, can onun, cəhənnəm Allahın, kimə istəyir ona da getsin.

Nazlı xanım da ürəyində Vəlini sevirdi, ancaq bu sirri kimsəyə açmağa cəsarət eləmirdi, bilirdi ki, deyəcəklər bu boyda adamı qoyub gedib bir çarıqlı çobana məhəbbət yetirdi.

Bəli, indi Nazlı xanım da toydaydı. Elə ki, Aşıq Məhəmmədlə Vəli arasında söz-söhbət başladı Nazlı xanım intizarla sonunu

gözlədi. O zaman ki, Aşıq Məhəmməd Vəlinin cürəsinə lağ elədi, elə bil Nazlı xanımın ürəyinə xəncər saplandı. Məlul-müşkül Vəliyə baxmağa başladı.

Bir az çək-çevirdən sonra Vəli məclisi davam etdirməli oldu. Vəli başa düşdü ki, Aşıq Məhəmməd onun hər kəlməsinə qulp qoymağa çalışacaq. Ona görə də elə şey danışmaq qərarına gəldi ki, Aşıq Məhəmmədin danışmağa dili olmasın. Belə bir fənd elədi, keçən dəfə bir toyda Aşıq Məhəmməd «Qurbaninin nağılı»nı danışırdı. Vəli də haman toyda idi. Diqqətlə qulaq asıb sazlı-sözlü Aşıq Məhəmməd nə danışmışdısa hamısını yadında saxlamışdı. İndi başlayıb haman nağılı danışmağa başladı, məclis əhli Aşıq Məhəmmədlə Vəli arasındakı söhbəti maraqla izləyirdi. Gördülər, Vəli danışmağa başladı, diqqətlə qulaq asmağa başladılar ki, görək nə danışacaq. Aşıq Məhəmməd arxayındı ki, Vəli Allahın qanmaz çobanıdı, nə bilir saz nədi, söz nədi, indi səldir-bəldir danışacaq, o da sözünü kəsib Vəlini quru əppək yemişə döndərəcək. Vəli Aşıq Məhəmməd necə danışmışdısa, eləcə də danışırdı, lazım gələn yerdə də çox yaxşıca çalıb oxuyurdu. Havacatı filanı da yerindəydi. Bircə eyb cürədəydi ki, fərli-başlı səsi çıxmırdı. Aşıq Məhəmməd baxdı ki, balam, bu elə danışır ki, elə bil Aşıq Məhəmmədin ürəyini oxuyur. Bir söz də o yan-bu yana eləmir. Qaldı məəttəl, ha istədi ortaya bir mətik tullaya, əmələ gəlmədi.

Vəli Qurbaninin dastanını neçə saat danışdı, yenə qurtarmadı. Gördü, gecə gecədən keçib, daha qurtarmaq vaxtıdı, dedi:

— Camaat, daha bəsdi, arxasını sabah Aşıq Məhəmməd danışar.

Aşıq Məhəmməd köntöy söz tulladı:

— Aşıq Məhəmməd çoban-çoluq zurnasına züy tutmur!...

Vəli bu sözdən bərk təsirləndi, oydu ki, dedi:

— Aşıq, gəlsən deyişək.

Aşıq Məhəmməd şəstlə onun üzünə baxdı:

— Adə, sən iki eşşəyin arpasını bölə bilmirsn, mən sənin nəyinnən deyişim.

— Bölə bildim, bölə bilmədim sənə nə var. Hünərin var bu meydan bu şeytan.

Əlbəttə, Vəli ürəkli danışırdı. Fikirləşirdi ki, çoban adamdı, tutaq ki, Aşıq Məhəmməd onu bağladı, deyəcəklər çobandı daa,

uduzdu uduzdu. Ancaq işdi, o, Aşıq Məhəmmədi bağlasa, bunun ayrı ləzzəti olacaq.

Aşıq Məhəmməd bayaqdan elə bil cilov gəmirirdi. Bir yastı-yapalaq çobanın biri gəlib onun məclisində meydan sulamağı ona yaman yer eləmişdi. Bayaqdan fikirləşdi ki, ondan necə heyfini çıxsın. Ona görə indi Vəlinin bu təklifi lap ürəyindən oldu, dedi:

— Yaxşı, madam ki, belə yekə-yekə danışırsan sənin payını verərəm. Aşıq Məhəmməd sazını təzədən köynəkdən çıxardıb meydana girdi. Qabağa düşmək barədə yenidən cəngü-cidal başlandı. Aşıq Məhəmməd qabağa düşməyi özünə sığışdırmırdı, istəyirdi qabağa Vəlini salsın. Vəli də iki ayağını bir başmağa dirəyib deyirdi:

— Balam, qoyun otarmaq olsaydı, birinci qabağa mən düşərdim. Bu aşıq məclisidi, birinci sən deməlisən.

Əlqərəz, Aşıq Məhəmməd gördü yox, olan iş deyil, daş qayaya rast gəlib, Vəli höcətin biridi. Naəlac qalıb qabağa düşdü. Aldı görək nə dedi, Vəli ona nə cavab verdi:

*Ol Adəmdən Xatəmədək gərdişi-dövran mənim,*
*Din mənim, məzhəb mənim, yol mənim, ərkan mənim,*
*Gül mənim, bülbül mənim, sünbülü-reyhan mənim,*
*Yerdə insan, göydə qılman, ərşdəki aslan mənim*[1].

Vəli gözləyirdi ki, Aşıq Məhəmməd özündən deyəcək. Ancaq gördü yox, elə olmadı, Aşıq Məhəmməd əl atdı Xəstə Qasıma. Üstünü vurmadı, fikirləşdi ki, mən də Növrəs İmanın haman qıfılbəndi açmasını deyərəm, görüm Aşıq Məhəmməd nə deyəcək. Aldı Vəli:

*İbtidadan intəhaya gərdişi dövran mənim,*
*Nuri-Əhməd xəlq olanda axratı zaman mənim.*
*İrəy mənim, iqta mənim, qalibi-sübhan mənim,*
*Heydər mənim, Səfdər mənim, ol şahi-mərdan mənim,*
*Nuri-ənvər, şəmsi-qəmər, irahi-insan mənim.*

Aşıq Məhəmməd ümiddi idi ki, Vəli Xəstə Qasımdan nə bilir, ya İmandan nə bilir. Elə birinci kərəmdən cürəsini qoyacaq onun

---

[1] *Дейишмядя бязи бяндляр 4, бязи бяндляр 5 мисрадыр. Биз бу дастаны Мискин Вялинин дилиндян 1990-ъы илдя, онун 96 йашы тамам оларкян топламышыг. Жанры мцхяммяс олан бу шеирлярин бязи мисраларыны йашлы ашыг унутмушдур.*

qabağına ki, mən təslim. Aşıq Məhəmməd də cürəni beş-altı bölük edib verəcək aşbaza ki, sabah aparıb qazanın altına qalasın. Amma gördü iş ayrı cür oldu. Vəli dəyirmanın unnuğuna su bağladı. Əlacı kəsilib dedi:

— Əə çoban, öz kisən boşdu deyə özgəsinin kisəsindən oğurlayırsan.

Vəli cavab verdi:

— Aşıq qardaş, oğru oğruya, doğru da doğruya rast gələr. Neynək bizimki də belə düşüb.

Aşıq Məhəmməd gördü Vəliyə dil çatdıra bilməyəcək, dedi cəhənnəmə arxasını deyim, bəlkə, bilməyə. Elə onnan da iş qurtara gedə. Götürdü sözün mabədində görək nə dedi:

*Abi, ataş, xaki badan yaratdı Sübhan bizi,*
*Altı mindən altı yüzə isbat qılar üç yüzü,*
*Dörd yüz arxa bağlayar dəryada qırx dörd dənizi,*
*Yetmiş ikinin mən biriyəm, altmışın qırx səkkizi,*
*Beş içində altı Məkkə, səkkiz yüz fərman mənim.*

Aldı Vəli:

*Abi, ataş oddu, sudu, xaki-torpaq, badi-yel,*
*Altı mindən doqquz yüzdü həmdin nizamı bir il*
*Sünnət əmri nəki-məkrul dörd yüz qırx dörddü onu bil,*
*Bu eynidə xaliq verib dərsimi pünhan mənim.*

Aldı Aşıq Məhəmməd:

*Yeddi eyvan, səkkiz seyvan, qırx sütun bir ləngəri,*
*Yeddi ulduz, yeddi tuppuz, yeddi pus, yeddi dəri,*
*Bu hesabı cəm edənin başına əsər gəli.*
*Yeddi min qırxdan qabağa, səkkiz yüz dərddən bəri*
*Pir mənim, ustad mənim, yol mənim, ərkan mənim.*

Aldı Vəli:

*Yeddi eyvan cəhənnəmdi, səkkiz irizvan səda,*
*Ənbiyalar, övliyalar qırx sütun ləngər xuda,*
*Yeddi səri, yeddi məkki, yeddi pus, yeddi nida,*
*Yeddi min qırx keçən tarix səkkiz yüz dörddü cüda*
*Həm binasız, həm vəfasız nə olsa, görən mənim.*

Aldı Aşıq Məhəmməd:

*Bisti həşti nisb içində yar bizə isbat edər*
*Altı mindən altı yüzü otuz dördə zat edər,*
*Bir mürəkkəblə oxunan surəni kəlmat edər,*
*İncili Tövratü Zəbur, natiqi-Quran mənim.*

Aldı Vəli:
*İslamiyyət aləmində iyrim səkkiz hərif var,*
*Xaçpərəstdə altı artıq, otuz dördü aşikar,*
*Bir türbədə nəzər qılsa, heydəri-Düldülsuvar,*
*Bu eynidə nitqə gəlsə, əvf olunan can mənim.*

Aldı Aşıq Məhəmməd:
*Xəstə Qasım tikmədaşlı, sahibi-cümlə xəta*
*Var ümidim taci-meraca, bilməm kim eylər əta,*
*Açılar dəftər, görünər mənşər, bir şahsuvar illafəta*
*Əzmi-Qaf günahım olsa, əvf edər rəhman mənim.*

Aldı Vəli:
*Növrəs İman Göyçə elli, sitqi Şahi-Heydərə,*
*Ərş əladan vəhy gəldi, biz də yazdıq dəftərə.*
*Tifil ikən məh içində hökm qıldı əjdərə,*
*Yoxdu qorxum qurulanda ədalət divan mənim.*

Söz tamama yetdi. Aşıq Məhəmməd dedi:

— Əmbə, aşna, sən bu dəfə müftə yedin!

Vəli cavab verdi:

— Özgədən dedin, özgədən dedim, özündən de, özümdən deyim. Usta, ancaq deyirlər özgə atına minən tez düşər. Gərək yabı da olsa, öz atımıza minək.

— Hardadı səndə o fərasət, sən heç qatır da minə bilməzsən!

— Aşıq Məhəmməd, ağ eləmə, mən özümdən deyib borcumdan çıxaram, yenə sən borclu qalarsan.

— Sən bir boz-bulanıq çoban, o boyda Xəstə Qasıma qabaq özündən nə deycəksən ki?

— Aşıq, o qıfılbəndi Növrəs İman açıb, onu dedim, bu onun açması, o ki, qaldı ona qabaq söz deməyə mən öz borcumu verəjəm.

Aşıq Məhəmməd cavabında güldü. Yəni bu gülmək o idi ki, sən bu sözə nə qabaq deyə bilərsən ki? Daha söz güləşdirməkdən keçmişdi, Vəli cürəsini sinəsinə basıb üz tutdu Aşıq Məhəmmədə:

*Ol adəmdən çox əvvələ düzələn nizam mənim*
*Ələsdüdü aləmində verilən fərman mənim,*
*Bir taleyim nə gətirsə, yaxşı və yaman mənim,*
*La mənimdi, ləbbeyk mənim, uruhu insan mənim.*
*İzzət mənim, ləzzət mənim, nemət mənim, nan mənim.*

*Yeddi nəfər, yeddi səfər, yeddi dillər əzbəri,*
*Yeddi açar, yeddi bağlar, yeddi yazar dəftəri,*
*Yeddi piri, yeddi nuru, yeddinin var xəbəri,*
*Yeddi məkan, yeddi inam, yeddi iman sərvəri,*
*Əvvəl mənim, axır mənim, can mənim, cahan mənim.*

*Doğru yolu düz yerisəm, sərimə gəlməz xəta,*
*Öz işimi yaxşı bilsəm, sözüm keçər isbata*
*Xeyir əməlim saleh olsa, əlim çatar həyata,*
*Nəfsim məni aparmasa, yolum düşməz zulmata.*
*Kamal mənim, sual mənim, haq mənim, divan mənim.*

*Gələn mənəm, gedən mənəm, könul, yatma yuxuda!*
*Əlim boşdu, üzüm qara, zəlil, məlil, tər cida,*
*Dilim kəlmə gətirərsə, guşum alanda nida*
*Şəfaətçim Məhəmməddir, pənahım şiri-xuda,*
*Acı mənim, şirin mənim, dərd mənim, dərman mənim.*

*Əslim Eymir, Miskin Vəli, sığınmışam Sübhana,*
*Yeddi nəfər dörd pərgərin şöləsinə pərvana,*
*Məhəmmədə - «bəli» - deyib inanmışam Qurana,*
*Umudumdu, pənahımdı, qulam şahi-mərdana,*
*Nüsrət mənim, qiymət mənim, şövkət mənim, şan mənim.*

Söz tamama yetdi. Aşıq Məhəmməd işi belə gözləmirdi, düşündü ki, şər deməsən xeyir gəlməz. Birdən Vəli bunu bağladı, ondan sonra aləmdə biabır olacaq. Deyəcəklər ki, qırx ilin aşığı gedib bir çobana uduzdu, hörməti-izzəti düşəcək, hər yetirən başına bir qaxınc vuracaq. Deyişməyinə peşiman oldu, ama daha iş işdən keçmişdi. Durub məclisin ortasında deyəsi deyildi ki, daha

deyişməyək. Aşıq Məhəmməd bu dəfə özündən deməyi qərara gəldi. Ya mədəd deyib meydanı dolaşdı. Aldı Aşıq Məhəmməd:

*Səndən xəbər alım, ay çoban Vəli*
*O nədir çox gəzir, ayə, görünmür?*
*Gah yıxır, gah tikir qurğu-büsatı,*
*Gah salır üstünə sayə görünmür?*

Aldı Vəli:

*Al cavabın deyim, Aşıq Məhəmməd,*
*O fikirdir gəzir, ayə, görünmür.*
*Gah yıxır, gah tikir abad könlümü,*
*Gah salır üstümə sayə görünmür.*

Aldı Aşıq Məhəmməd:

*O necə meyvədir bağı pozulmaz?*
*Dərməyinən budağından üzülməz?*
*Hərcayının dəftərinə yazılmaz?*
*Ariflər saxlayır maya görünmür.*

Aldı Vəli:

*Şairin sözünün bağı pozulmaz,*
*Dərməyinən dəhanından üzülməz,*
*Hərcayının sinəsinə yazılmaz,*
*Ariflər saxlayır maya görünmür.*

Aldı Aşıq Məhəmməd:

*Məhəmməd, qəhrindən yata bilmədim,*
*O necə şikardır yetə bilmədim?*
*Bir bərəyə gəldim ötə bilmədim,*
*Hər kim gəlsə, o bərəyə görünmür.*

Aldı Vəli:

*Vəli, bu dünyada yatan olmayıb,*
*Kamınca mətləbə yetən olmayıb,*
*Ölüm bir bərədi ötən olmayıb,*
*Hər kim gəlsə o bərəyə, görünmür.*

Hər iki tərəfdən söz qurtardı. Vəli soruşdu:

— Aşıq, yenə sözün varmı?

Aşıq Məhəmmədin səsi indi bir az asta çıxırdı, elə bil kal qovun yemişdi, səsi tutulmuşdu, dedi:

— Yox, indi sən de!

Vəlinin fikri-zikri Nazlı xanımdaydı, ancaq üzə düşər deyə elə xəlvəti-xəlvəti baxırdı ki, heç kəs duyuq düşməsin. Bir də

gözucu baxdı, gördü Nazlı xanım qara gözlərini süzdürüb elə baxır, elə baxır elə bil ahu balasını bərədə görüb, əlində də bir qızılgül tutub. Meydanı dolaşmaq bəhanəsilə bir dəfə dövrə vurdu, fikir verdi, gördü qızılgülün üstündə üç yarpağı da var. Aşıq Məhəmməd Vəlini dinləməyə müntəzir dayanmışdı. Deyirdi, görüm nə deyəcək. Nazlı xanımın məclisdə olmağı, onun bu məlul halı Vəliyə təsir elədi. Ya Allah səndən mədəd deyib cürəsini sinəsinə basdı, üz tutdu Aşıq Məhəmmədə:

*Hərə xəlq olmuşuq bir qətrə sudan*
*Abi, ataş, xaki, baddı, dördü nə?*
*Səyahətdə səkkiz gözəl sevmişəm,*
*Yerdi, göydü, aydı, gündü, dördü nə?*

Aşıq Məhəmməd işarə elədi ki, arxasını da desin, hamısına birdən cavab verər. Ona görə də Vəli sözün mabədini dedi:

*O nədir ki, sinəsindən dağlıdı?*
*Nədir belə qaralıdı, ağlıdı?*
*Səkkiz şey var cismi cana bağlıdı,*
*Hava, həyat, yemək, içmək, dördü nə?*

*O nədi bilinmir əvvəli, sonu?*
*Nəfəs var, canı yox, neçədir donu?*
*Vəli, səkkiz şey var dolanır onu?*
*Gecə, gündüz, sudu, yeldi, dördü nə?*

Vəli sözünü qurtardı, Aşıq Məhəmməd bir udqundu, iki udqundu, bilmədi nə cavab versin, dedi:

— Bəlkə, birini də deyəsən!

Baş üstə, deməyi məndən, cavabı səndən.

Vəli götürüb ikinci qıfılbəndi görək Aşıq Məhəmmədə necə dedi. Biz deyək, eşidənlər qəm görməsin.

*Bir bağa bağban oldum*
*O bağın budağı beş.*
*Dünyanın şöhrətidir*
*Yanarsa çırağı beş.*
*Dolandım ətrafını*
*Heyran oldum müxtəsər,*

*Hər nişan meyvə gətirir,*
*Kökü birdi, tağı beş.*
*Orda iki dürr gördüm,*
*Çoxdur onun qiyməti.*
*İksi alar verə bilməz,*
*Bax, böylədir adəti.*
*Biri alar, həm də verər*
*Bu bağ üçün ziynəti.*
*Alimi də aciz eylər*
*Dönərsə növrağı beş.*
*Miskinli şair Vəlinin*
*Sözünün mənası var.*
*Dalğalanan hər tərəfə,*
*Coşan bir dəryası var.*
*Daşı yox, kərpici yox,*
*Qurulmuş xanası var.*
*Dörd budaqdı, hər budağın*
*Tökülən yarpağı beş.*

Aşıq Məhəmməd yenə cavab verə bilmədi. Özünə min lənət oxudu ki, axı, deyişməyə niyə girdi. İndi zurnası gedib İsfahana çatacaq ki, bəs, Aşıq Məhəmmədi bir çoban bağlayıb. Ancaq iş işdən keçmişdi, min ah-uf eləyəydi, bir yana çatası deyildi. Yerbəyerdən camaat dedi:

— Aşıq, uduzmusan, sazı ver!

Aşıq Məhəmməd ağ bir-qara bir, heç nə demədi, kirmiş sazı gətirib Vəlinin qabağına qoydu. Vəli gözünü hərləyib xəlvəti Nazlı xanıma baxdı. Gördü xudaya, Nazlı xanım elə şaddı, elə şaddı, elə bil ahu ovçu əlindən qaçmış balasına yetişib. Vəlininki buraya kimiydi, yəni Aşıq Məhəmmədi bağlamaq idi. Onun sazında filanda gözü yox idi. Yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi. Bir də Vəli fikirləşdi ki, tutaq Aşıq Məhəmmədin sazını aldı, bəs, toyu kim yola verəcək. Bir də gedib haradan aşıq tapasan. Sazı qaytarıb Aşıq Məhəmmədə verdi, gördü Aşıq Məhəmməd namusa boğulub sazı almaq istəmir. Bir nöynən onu vəziyyətdən çıxarmaq istədi, oydu ki, dedi:

— Aşıq Məhəmməd, gəlsən bu gündən dost olaq.

Aşıq Məhəmməd cavab verdi:

— Olaq deyirsən, olaq mən razı.

— Onda bu camaatın qabağında mən bu gündən səninlə dost oluram, ona görə də dost ərməğanı kimi bu sazı sənə verirəm.

Camaat yerbəyerdən Vəliyə sağ ol dedi. Aşıq Məhəmmədin də könlünü almaq üçün dedilər:

— Adam dost bəxşişini geri qaytarmaz.

Əslində Aşıq Məhəmməd sazı götürmək üçün bəhanə gəzirdi, intəhası abrının üstündən atlana bilmirdi. Elə ki, iş bu üzünə oldu, sazı aldı. Guya ki, Vəlinin və camaatın sözünü yerə salmadı. Vəli ilə Aşıq Məhəmməd əl verib dost oldular. Bu günlük məclis qurtardı. Camaat dağılışmağa başladı. Məşədi Həmidin on üç-on dörd yaşlarında bir oğlu var idi. Nazlı xanımın yanında dayanmışdı. Vəli onu çağırdı, cürəni verdi ki, aparıb çoban otağına qoysun.

Məşədi Həmidin ikimərtəbəli bir imarəti var idi. Birinci mərtəbədə bir otaq da çobanlar üçün ayırmışdı. Bu otağa çoban otağı deyirdilər. Vəli ilə Əhməd indi gedib sabah kəsiləcək qoyunları ağıla salıb rahatlamalı idilər ki, dağılıb getməsin. Ona görə də indi cürəni Məşədi Həmidin oğluna verirdi ki, aparıb otağa qoysun.

Bəli, Vəli ilə Əhməd qoyunları rahatladılar. Yornuq-arnıq gəlib yatdılar. Sübh tülküdurmazdan oyandılar, çünki iş-güc çox idi, tez durub görüləsi işləri görməli idilər. Məşədi Həmidin oğlu cürəni evin bir küncünə qoymuşdu. Əhməd çıxdı bayıra, Vəli də istəyirdi çıxsın, sonra dedi, qoy cürəni yerindən asım, əl-ayağa dolaşmasın. İstədi əl atıb götürsün, baxdı ki, cürənin siminə bir qızılgül keçrilib, qaldı məəttəl, dedi, yəqin Məşədi Həmidin oğlunun işidi. Bir də fikir verib gördü ki, balam, qızılgülün üstündə üç yarpaq var. Nazlı xanımın dünən əlində tutduğu qızılgül yadına düşdü, dedi, bəlkə o qızılgüldü. Ancaq bir ayağına baxdı, bir başına baxdı, özü öz fikrinə güldü. Dedi, atalar yaxşı deyib, ac toyuq yuxusunda darı görər. Nazlı xanım yəqin mənim papağımla çarığıma aşiq olub. Çox çək-çevirdən sonra bir şey ayırd edə bilmədi. Vallah, dedi, bir bəhanə ilə Nazlı xanımdan soruşacağam, qoy görüm bu qızılgül onunkudu, ya yox. Amma baxdı ki, qızılgül heç cürəyə yaraşmır. Elə bil çürük kötük üstə mirvari qoyublar. Bir az öz-özünə xəcalətləndi.

Əhməd getmişdi, Vəli qəsdən ləngiyirdi ki, bəlkə, toy yerinə getməmiş Nazlı xanımı görə. Doğrudan da, niyyətin hara mənzilin də ora. Nazlı xanım da səhər lap erkən durmuşdu. Öz aləmində

hamıdan tez qalxmışdı, həyətə düşdü. Vəli pəncərədən baxıb onu gördü, həm də gördü ki, ara xəlvətdi, fürsəti fövtə vermədi. Tez qızılgülü də götürüb bayıra çıxdı. Qızılgülü əlində elə tutmuşdu ki, elə bil ürəyini çıxarıb əlinə almışdı. Nazlı xanım hənirtiyə döndü. Sübhün toranında Nazlı xanım elə bil bədirlənmiş ay idi, çıxmışdı Vəlinin yolunun üstünə. Vəli dili tutar-tutmaz sabahın xeyir eləyəndən sonra qızılgülü göstərdi. Nazlı xanım da utandığından bənövşə kimi boynunu büküb yerə baxdı. Vəli dedi:

— Nazlı xanım, deyəsən, bu sizin qızılgüldü, düşmüşdü yola, mən tapıb götürdüm ki, özünüzə qaytarım.

Nazlı xanım qara gözlərini süzdürüb utancaq-utancaq cavab verdi:

— Hə, mənim qızılgülümdü, əgər tapmısansa, qoy sənin olsun!

Vəli qulaqlarına ininmadı, yəni doğrudanmı bu sözü deyən Nazlı xanım idi. Elə bir yeri, göyü ona bağışladılar. Orda Vəli ilə Nazlı xanım söz verdi, söz aldı, əhdi-peyman bağladılar. Nazlı xanım cibindən bir kisə qızıl çıxardı, uzatdı Vəliyə:

— Amma bir diləyim var, bunu götür, Aşıq Məhəmmədin acığına özünə bir yaxşı saz al.

Bu hal Vəliyə ağır təsir elədi, qızılı götürmədi, dedi:

— Həyati-mehribanım, qorxma, sənin xatirinə elə bir saz alaram ki, kürreyi-ərzdə misli tapılmaz.

Vəli bir mehri-məhəbbətlə öz sevgilisini başdan-ayağa süzdü. Nazlı xanımın gözəlliyi onun könlünü cuşə gətirdi, görək Nazlı xanıma nə dedi, Nazlı xanım nə eşitdi:

*O büllur buxağın, qaymaq dodağın,*
*Yanağın dağların lalasıdırmı?!*
*Müjgan kipriklərin keçdi sinəmdən,*
*Gözlərin canımı alasıdırmı?*

*Qoynunda bəslənən o bir cüt narın,*
*Xəstəyə dərmanı təzə nübarın,*
*Yasəmən tellərin, hilal qaşların,*
*Cismimi kəməndə salasıdırmı?*

*Miskinli Vəliyəm qəlbi durulan,*
*Qarşısında şən məclislər qurulan,*
*Qüdrətdən hüsnünə ziynət vurulan,*
*Yar tovuz quşunun balasıdırmı?*

Gəlib görən olar deyə Nazlı xanımla Vəli daha uzun danışmadılar, ayrılıb hərə öz işinə getdi.

Bəli, toy üç gün çəkdi. Üç ötdü, dördüncü gün Vəli ilə Əhməd yenidən qayıtdılar sürünün yanına. Bundan beş-on gün keçmişdi. Vəli ha istəyirdi Nazlı xanımla olan söhbəti gizlin saxlasın. Gördü yox, söz ürəyini deşir, deməsə, tablaya bilməz. Axır açıb necə vardısa Əhmədə danışdı. Əhmədlə çox götür-qoy elədilər ki, bəs, qızı necə elçiləsinlər, bir şey çıxmadı. Vəli dedi:

— Məşədi Həmid mənə qız verməz, o yekəlikdə bəyi, taciri qoyub qızını bir lüt çobanamı verəcək? Hələ üstəlik bilsə ki, qızı məni istəyir məni qovar, qızını da öldürər.

Əhməd üzəvari Vəliyə təskinlik vermək istəsə də, bilirdi ki, bu çətin sevdadır. Məşədi Həmid itə qız verər, ayağı patavalı çobana qız verməz. Bundan neçə gün keçdi. Günün birində Əhməd dedi:

— Vəli, vallah sənin ağlın yoxdu!

— Niyə ki!..

— Ağlın olsaydı Məşədi Həmidə çoban olmazdın.

— Necə bəyəm, onda sənin ağlın heç yoxdur, çünki sən məndən əvvəl məşədi Həmidə çoban durursan.

— Mənim ağlım var ki, çoban dururam, çünki çobanlıqdan savayı əlimdən ayrı bir iş gəlmir. Ancaq mən sənin yerinə olsam, gedib bir yaxşı saz alaram, aşıqlıq eləyib güzəran keçirərəm. Yoxsa gəlib quru qanqal kimi bu sürünün qırağını kəsdirmərəm.

Vəli elə bil yatmışdı, ayıldı. Fikirləşdi ki, ey dili-qafil Əhməd doğru deyir, qışın şaxtasında, yayın istisində, aranın küləyində, dağın çovğununda sürü dalınca yüyürməkdən bezar oldu. Aşıq Məhəmməddən onun nəyi əskikdi, camaat içində də hörməti-izzəti olar. Çomaq sürüməkdən əli qabar bağladı. Əhmədə dedi:

— Əhməd, sabah mən getdim.

Əhməd soruşdu:

— Hara?

— Hara nədi? Aşıqlıq eləməyə. Sən hara demisən ora!..

Səhəri gün tezdən Vəli çomağını qoltuğuna vurub birbaş gəldi Məşədi Həmidin yanına. Salam verdi, əleyk aldı. Məşədi Həmid soruşdu:

— Oğul, xeyir ola, bu nə gəlməkdi?

— Ağa Məşədi, xeyir olmamış nə olacaq, gəldim xəbər verəm ki, Əhməd tək qalıb, bir adam göndər ona yoldaş olsun.

— Yoldaş nədi, bəs, sən neynirsən? Çoban ola-ola nə yoldaş?

— Ağa Məşədi, mən bu günə qədər çoban idim, bu gündən oldum aşıq.

Məşədi Həmid qaldı mat-məəttəl, dedi, bəlkə, bunun başına hava gəlib, çöldə qurddan-quşdan qorxub. Vəli gördü Məşədi Həmid bir şey başa düşmədi, dedi:

— Ağa məşədi, Allah ömrünü uzun eləsin, indiyə kimi mənə yaxşılıqdan savayı özgə bir şey eləməmisən. Ancaq indi mən çobanlıq eləmək istəmirəm. Gedib bir saz alıb aşıqlıq eləyəcəyəm. Odur ki, gərək bir adam göndərəsən ki, Əhmədə həyan olsun.

Çox götür-qoydan sonra Məşədi Həmid fikirləşdi ki, yəqin Vəli bir həvəsdi düşüb, bir aya, beş aya peşiman olub qayıdar, dedi:

— Oğul, yaxşı, indiki iş belədi hara istəiyrsən get. Beş il sən mənə çobanlıq eləmisən, beş ay da mən sənə çobanlıq elərəm. Oğlumu göndərərəm həm sənin, həm də mənim qoynumu otarmaqda Əhmədə kömək elər.

Vəli dedi:

— Ağa Məşədi, mənim qoyunlarımı otarmaq lazım deyil.

— Necə bəyəm, özləri otdayacaq?

— Yox, mən öz qoyunlarımı bazara çıxarıb satacağam.

Məşədi Həmid gördü yox, Vəlinin höccətliyi tutub, dediyini eləyəcək, naçar qalıb dedi:

— Oğul, indi ki elədir, özün bilərsən.

Vəli oradan sürünün yanına qayıtdı. Öz qoyunlarını seçib bazara hayladı, hamısını satıb Şəmkirə gəldi. Xəlvəti Nazlı xanımla görüşdü, bütün hal-qəzyəni danışdı, halal-hümmət edib ondan ayrıldı. Əvvəl-əvvəl qərara gəldi ki, gedib bir saz alsın, özü də gərək elə bir saz ala ki, tayı-bərabəri olmaya, Nazlı xanımın ürəyincə ola.

Vəli çoban adam idi, nə bilirdi yaxşı sazı hardan almaq olar, kim qayırır. Fikr elədi ki, Aşıq Məhəmməddən yaxşısı yoxdu, gedib ondan soruşum. Yaxşı sazın yerini o bilər. Odur ki, birbaş

Aşıq Məhəmmədin yanına gəldi. Görüşdülər, hal-əvhal tutdular. Aşıq Məhəmməd soruşdu:

— Qardaş, xeyir ola, nə əcəb bizi yad eləmisən?

Vəli nə ki var idi hamısını danışdı. Axırda da dedi ki, bəs, istəyir bir yaxşı saz alsın. İndi gəlib ki, öz dostundan usta yeri öyrənə.

Aşıq Məhəmməd barmağını dişlədi, düşündü ki, bu öz ayağı ilə gəlib çıxdı, fürsəti fövtə vermək olmaz. Deyir, itlə dostluq elə, amma çomağını əlindən qoyma. Aşıq Məhəmməd üzdə özünü Vəliyə dost kimi göstərsə də, içindəki içindəydi. Vəlidən hayıf almaq üçün girəvə axtarırdı. İndi gəlib düşmüşdü əlinə.

İndi sizə kimdən deyim, Canbağçada şair Cahandan. Şair Cahan iyirmi-iyirmi iki yaşlarında cavan bir qız idi. Gözəllikdə bunun tayı-bərabəri hələ yer üzünə gəlməmişdi. Görməyən deyirdi görüm, görən deyirdi qulu olum, qulu olan deyirdi qurbanı olum, yolunda ölüm. Bir gözəldi, bir gözəldi şah görsə, behiştindən keçərdi, ac görsə doyardı, xəstə görsə sağalardı. Şair Cahanın şairliyinə də daha söz yox idi. Şair Cahan əhd eləmişdi ki, kim onu bağlasa, ona da ərə gedəcək. İndiyə kimi onun məclisinə neçə aşıq gəlib getmişdi, kimisi gücünü sınamağa, kimisi də Cahanın gözəlliyini eşidib onunla evlənmək eşqilə. Amma kim gəlmişdisə kor-peşiman geri qayıtmışdı, üstəlik sazını qoyub getmişdi. Şair Cahanın səsi-sorağı aləmə yayılmışdı. İndiyə qədər iyirmi iki aşığı bağlayıb yola salmışdı.

Bəli, elə ki, Vəli Aşıq Məhəmməddən saz yeri soruşdu Aşıq Məhəmməd dedi:

— Canbağçada Cahan eşitmisənmi?

Vəli cavab verdi:

— Heç Canbağça eşitmişəm ki, Cahan da eşitdim!

Vəli dağda, düzdə qoyun otaran adam idi, nə bilirdi şair Cahan kimdi. Aşıq Məhəmməd yəqin etdi ki, Vəli şair Cahanı tanımır. Ürəyində dedi, indi mən bunu göndərərəm Canbağçaya, gedər şair Cahanın yanına, keçər cənginə, yoluq qaza dönüb qayıdar. Yenə üz tutdu Vəliyə:

Deyirlər, Canbağçada bir usta Cahan var, elə saz düzəldir ki, xotkara ərməğan göndər. Əgər yaxşı saz istəyirsən, get onun yanına. Ancaq bir az uzaqdı.

— Yəni haradı ki?

— Canbağça deyilən yer Gürcüstan elindədi.

— Canı sağ olmuş, mən də elə bildim Çində, Hindistanda zaddadı. Gürcüstan budu, qulağımızın dibindədi ki…

Vəli Aşıq Məhəmmədlə xudahafizləşdi. Ordan Miskinliyə, öz el-obasına qayıtdı. Qərara gəldi ki, uzağı bir aya, iki aya yola düşsün Canbaxçaya, gedib Nazlı xanıma layiq bir saz alıb gətirsin.

Sizə kimdən deyim şair Cavaddan. Şair Cavad Vəlinin uşaqlıq dostu idi, uşaqlığın şirin çağlarında günləri bir yerdə keçərdi. Sonradan qəza elə gətirdi ki, Cavadgil Qabaqtəpəyə köçdülər. İndi on üç – on dörd il olardı ki, bir-birini görmürdülər. Bu on üç – on dörd ildə hər ikisi çox dəyişmişdi, görsəydilər, bir-birini tanımazdılar. Düzdü, soraqlaşıb bir-birindən hal-əhval tuturdular. Amma taleyin gərdişindən görüşə bilmirdilər. Elə ki, Vəli Miskinliyə qayıtdı, Cavada xəbər çatdı ki, bəs, deməzsənmi Vəli çobanlığı atıb aşıqlıq həvəsinə düşüb. Şair Cavadı maraq götürdü. O, Vəlinin hərdən şeirdən – filandan yazdığını bilirdi. Amma birdən-birə çobanlığı atıb aşıqlıq həvəsinə düşməsini anlaya bilmirdi. Fikirləşdi ki, hər şeyin təzəsi, dostun köhnəsi. Getsin həm bir Vəli ilə görüşsün, həm də görsün bu nə sevdadı düşüb. Aşıq paltarını geyindi, sazını çiyninə salıb düşdü yolun ağına. Ta ki gəlib Miskinliyə çatdı.

Bəli, Vəli evlərinə gəlib bir-iki gün qaldı. Onun bir nənəsi var idi, adına Zeynəb qarı deyərdilər. Zeynəb qarı ayrı bir evdə tək yaşayırdı. Məsləhət, məşvərətdən sonra Vəli gedib onun yanında qalası oldu. Dedilər, qoca qarıdı, həyanı – zadı yoxdu. Ölüb elər, camaat içində biabırçılıq olar, heç olmasa, yanında bir adam olsun. Vəli gəlib Zeynəb qarının yanında qalmağa başladı. Qarı qoca olsa da qıvraq idi, ancaq qulağı bir az ağır eşidirdi, bir də Vəli ilə danışmaqdan heç arası yoxuydu. Evə gəldi lal-dinməz oturardı. Zeynəb qarının günü o qapıda-bu qapıda söz gəzdirməkdə, qeybət qırmaqda keçərdi. Gündə, Allah bilir, neçə ev tikərdi, neçə evi yıxardı. Allahın ikicə cadını salmazdı ki, dişin arasında çeynəyəsən. Sərasər bir ay belə keçdi. Vəlinin qarnı isti xörək, əyni təmiz paltar görmədi. Zeynəb qarı Vəliyə yatmaq üçün bir mitil vermişdi ki, iysindən adamın bağır-öfkəsi ağzına gəlirdi. Evin səliqə-səhmanı da, Allah göstərməsin, bayquş yurdunu xatırladırdı. Evin bir tozu var idi, elə bil, pinti dəyirmançı un ələmişdi. Vəli bir istədi qayıda evlərinə, amma namusa boğuldu, dedi, deyəcəklər

qarı ilə yola getmədi, tək qoyub qayıtdı. Xülasə, içinə salıb bir təhər dözdü. Ancaq Vəlinin saz çalmağı qarını lap təngə gətirmişdi. Elə ki, Vəli cürəni alırdı əlinə, üzünü cəhənnəm alması kimi bozardırdı.

Bəli, elə ki, Cavad gəlib Vəligilə yetişdi, dedilər ki, Vəli Zeynəb qarıgildədir. Şair Cavad ordan Zeynəb qarıgilə gəldi, çağırdı:

— Ay ev yiyəsi!

Vəli bayıra çıxdı, gördü bir aşıqdı, çiynində də saz. Nə Vəli Cavadı tanıdı, nə də Cavad Vəlini. Cavad dedi:

— Qardaş, Vəli burdamı yaşayır?

Vəli cavab verdi:

— Bizdə Vəli çoxdu, hansını deyirsən?

— Əvvəl çoban imiş, indi istəyir aşıqlıq eləsin!

— Bəli, burda yaşayır.

— Kimdi?

— Mənəm.

— Allah qonağı istərsənmi?

— Allaha da qurban olum, qonağına da, buyur gəl!

Şair Cavad keçdi içəri, Zeynəb qarı, Allah bilir, hansı qapıda idi. Vəli oturmağa yer göstərdi, ürəyində də fikir elədi ki, xeyr ola, görəsən bu aşıq nədən ötrü gəlib. Cavad oturmadı, dedi:

— Oturmazdan əvvəl səninlə işim var.

— Çox əcəb, nə işin var buyur.

— Deyirlər, sən neçə il çoban olmusan, indi başlayıbsan aşıqlığa, bildiyin iki kəlmə şey yoxdu, nə birinə şəyird durubsan, nə aşıqlıq elmindən xəbərin var. Sən belə iş görməklə aşıqlığı bihörmət eləyirsən. İndi gəlmişəm sənnən deyişməyə, işdi cavab verə bildin sözüm yoxdu, aşıqlığını eləyərsən, yox cavab verə bilmədin kirmiş get çomağını götür.

Vəli gördü deyişməkdən ayrı əlac yoxdu, dedi:

— Yaxşı, nə olar, ya sənə verər Allah, ya mənə.

Şair Cavad bayaqdan sazı köynəyindən çıxarmışdı. Vəlinin bu sözünü eşitcək sazının zilini zil elədi, bəmini bəm, sinəsi üstə müstəkəm. Aldı gərək nə dedi, tərəfindən ərz edək, eşidənlər şad olsun:

*Aşıqlığın qaydasını bilməyən,*
*Saz götürüb hər meydanda danışır.*

*Bir kamil ustaddan dərsin almayan,*
*Heç utanmır arif yanda danışır.*

Vəli də cürəsini divardan götürdü, görək şair Cavada nə cavab verdi:

*Aşıqlıq elmindən xəbərdaram mən,*
*Saz götürüb hər meydanda gəzirəm.*
*Bir kamil ustaddan dərsim almışam,*
*Arif mənəm, arif yanda gəzirəm.*

Aldı Cavad:

*Dildə sümük yoxdu, deyir yalanı,*
*Mən tanıram dərsi dərin olanı,*
*Çomağa, çarığa yoldaş olanı*
*Həya bilməz canda, qanda danışır.*

Aldı Vəli:

*Gər həyan var unutmaynan özünü*
*Arif yanda çaşdırmaynan sözünü,*
*Yola salam sən kimisin yüzünü*
*Naşısansa, əl amanda gəzirəm.*

Aldı Cavad:

*Cavad deyər dəryalara dalmışam,*
*Cümlə ustadları xofa salmışam,*
*Neçə aşıqların sazın almışam,*
*İndi mənnən bir çoban da danışır.*

Elə ki, şair Cavad öz adını çəkdi, Vəli barmağını dişlədi. Bildi ki, bu şair Cavaddı özü də ya zarafat edir, ya da onu sınayır. Özünü saxlaya bilmədi, köhnə dostunun üstünə atdı. Görüşdülər, hal-əhval tutdular. Vəli dedi:

— Sözüm yarımçıq qaldı, qoy tamamlayım, deyir, söz yarımçıq qalsa, şeytan buynuz çıxarar.

Vəli götürüb sözün möhür bəndini belə tamamladı:

*Vəli çoban idi, olubdur aşıq,*
*Saza ziynət verir, sözə yaraşıq,*

*Güşt tutan önümdə, bil qalar yazıq*
*Mən sərrafam, gövhər-kanda gəzirəm.*

Deyişmə təzəcə qurtarmışdı ki, Zeynəb qarı haçalaq-yumalaq hardansa gəlib çıxdı. Elə bil altı aylıq karvandan gəlmişdi, içəri girən kimi yanını verdi yerə. Şair Cavad gördü ev tökülüb itir, qarının xətrinə dəyməmək üçün dedi:

— Zeynəb nənə, sən qoca qarısan, bu günnən belə səninki, yeməkdi, yatmaqdı. Gərək bir gəlin ola ki, qulluq eləyə sənin də, işdən, gücdən qulağın dinc ola.

Zeynəb qarı dedi:

— Neynək deyirsən?

— Gəlsən, Vəlini evləndirək!

Bayaq hal-əhval tutanda Vəli Nazlı xanımla olan söhbəti necə varsa, Cavada danışmışdı. İndi Cavad Zeynəb qarının ağzını aramaq istəyirdi ki, görsün gəlini yola verər ya yox. Elə ki, Cavad bu sözləri dedi, elə bil qarı yatmışdı ayıldı. Fikirləşdi ki, ey dili-qafil, doğrudan da, Vəli, bəlkə, bir halal süd əmmişini ala, onun da canı işdən-gücdən arxayın ola, gəlin qabağında qulluqçuluq edə. Oydu ki, dedi:

— Bala, mən razı, kimi deyir elçi gedim.

Cavad istədi qızın adını deyə, Vəli göz elədi ki, sən neynəmək istəyirsən, Zeynəb qarıya dedin, elə bil car çəkib aləmə dedin, söz-söhbət Məşədi Həmidin qulağına çatar, aləm bir-birinə qarışar. Ona görə də Cavad dedi:

— Kimliyini deyə bilmərəm, amma nişanələrini deyə bilərəm.

— Yaxşı, de görüm nişanəsi nədi, buna necə qız lazımdı?

— Qarı nənə, qulaq as, gör Vəliyə necə qız gərəkdi! Belə şeyi söznən demək olmaz, gərək saznan deyəsən!

Aldı Cavad:

*Nənə, bir söz deyim, sən də cavab ver,*
*Ən əzəl dünyada yar gözəl gərək.*
*Tovuz tamaşalı, sona cilvəli,*
*Qaşları sürməli qar gözəl gərək.*

Vəli Cavadı saxladı ki, bir dayan, mənim də sözüm var. Bir ay idi ki, Vəli Zeynəb qarının əlindən boğaza yığılmışdı, içi dolu idi, dərdini deməyə adam axtarırdı. Gördü bundan yaxşı fürsət yoxdu, dərdini deməsə, ürəyi partlar, üz tutdu Cavada:

— Sən gözəlin bir cürəsini dedin, indi icazə ver mən də başqa cürəsini deyim.

— Yaxşı, de görək, sən necəsini deyəcəksən!

Aldı Vəli:

*Cavad, sözlərinə cavab verirəm,*
*Yanaqları solan yar gözəl gərək.*
*Qocalmış, qartalmış, lap əldən düşmüş,*
*Saçları ağ olan qar gözəl gərək.*

Zeynəb qarı gördü, Vəli bir az köntöy getdi, amma bir şey başa düşmədi.

Aldı Cavad:

*Tərlan kimi silkinəndə binadan,*
*Seçilməyə yaşılbaşlı sonadan,*
*Belə gözəl tək-tək olar anadan*
*Məməsi sinədə nar gözəl gərək.*

Aldı Vəli:

*Budur gözəllikdə nişanın biri,*
*Günü keçmiş ola, caşa fikiri,*
*Əl qalında ola əndamın kiri,*
*Tecən məmələrdə bar gözəl gərək.*

Aldı Cavad:

*Tovuz tamaşalı, durna baxışlı,*
*Mələkə sifətli, əlvan naxışlı,*
*Mina gərdən ola, maral yerişli,*
*Belə nişanəsi var gözəl gərək.*

Aldı Vəli:

*Sözü deyən zaman fikirim çaşdı,*
*Çünki nənəm mənim ilə savaşdı,*
*Sinəsi gərməli, üzü qırtlaşdı,*
*Tərləyəndə axa kir gözəl gərək.*

Zeynəb qarı baxdı ki, deyəsən, bu sözün bir ucu gəlib ona çatır, amma bir söz demədi, axırını gözlədi.

Aldı Cavad:

*Pərişan olanda ürəyin qana,*
*Şuxluq edib ətrafında dolana,*
*Gözəlliyi şövqü sala cahana*
*Sinəsi meyvəli bar gözəl gərək.*

Aldı Vəli:

*Qulluğa buyursan, key qana sözü,*
*Beldən donqar ola zalımın qızı,*
*Çığnaya qonağı, görməyə gözü,*
*Yeyib-yata, pünhan yer gözəl gərək.*

Aldı Cavad:

*Min üç yüz əlli iki tarixdə yazdım,*
*Şirin ləhcəliydim, bülbül avazdım,*
*Cavadam seyr edib dünyanı gəzdim,*
*Namusu gözləyən ar gözəl gərək.*

Aldı Vəli:

*Unutmayın Vəli kimi sirdaşı,*
*Səksənə, doxsana yetişə yaşı,*
*Tökülə dişləri, ağara başı,*
*Dili lal, qulağı kar gözəl gərək.*

Zeynəb qarı baxdı ki, deyəsəni-zadı yoxdu. Vəli elə onu deyir. Bir istədi gözünü yuma, ağzını aça. Birdə qonağın yanında lənət şeytana dedi. Başladı məzəmmətə ki, bala, mən sənə nə pislik eləmişəm, indi ağlına gələni danışırsan. Evə gəlməyimə peşiman eləmisən, bir çürük cürəni basırsan qucağına, dınqıltısından qulağım quta gedir. Mən sənə nə yamanlıq eləmişəm onu de. İş belə olanda Vəli qərara gəldi ki, gərək ürəyini tamam boşalda, daha oxunu atıb yayını gizlətməyə. Başa sala ki, Zeynəb qarının günahı nədi. Ona görə də sazı sinəsinə basıb üz tutdu Zeynəb qarıya:

*Ana deyib durdum sənin yanında,*
*Heç məni yadına salmadın, nənə.*
*Şirinmi yatırsan xabın kanında,*
*Qayğıma, qeydimə qalmadın, nənə.*

Zeynəb qarı gördü cavab verməsə olmaz, gərək o da öz ürəyini boşalda. Saçından üç tel ayırıb basdı sinəsinə görək Vəliyə necə cavab verdi:

*Bir düşkün qarıyam incitmə məni,*
*Hər zaman qulluqda ola bilmirəm.*
*Deyimmi sözümü açıb sinəmi?*
*Necə oynuyum sağa-sola bilmirəm.*

Aldı Vəli:

*Buyuraram söhbətinən, sazınan,*
*Sən də qulluq eylə, işvə, nazınan,*

*Dəyişmərəm gəlininən, qızınan,*
*Heyif bir dərdimi bilmədin, nənə.*

Aldı Zeynəb qarı:

*Oğul, bir söz deyim sənə gəlginən,*
*Sözlərimin qiymətini bilginən,*
*Get ağlın kəsənin birin alginən.*
*Bundan qeyri tədbir bilə bilmərəm.*

Aldı Vəli:

*Könüldən çəkirəm qübar deyirəm,*
*Bir tuti qamətli dilbər deyirəm,*
*Vəliyəm sözümü aşkar deyirəm,*
*Sevdiyimi neçün almadın, nənə?*

Aldı Zeynəb qarı:

*Mən Zeynəbəm, sən baxginən üzümə*
*Bir qulluqçu lazım gəlir özümə,*
*Ha deyirəm baxan yoxdur sözümə*
*Sevdiyin gözəli ala bilmirəm.*

Söz tamama yetdi. Şair Cavad üç-dörd gün dostunun yanında qalıb qayıtdı Qabaqtəpəyə.

Bir aydan neçə gün keçmişdi ki, Vəli Şəmkirdən qayıtmışdı. Fikirləşdi ki, daha vaxtdı, Canbağçaya səfər etmək lazımdı. Onun bir qardaşı da var idi. Adı Məhəmmədəli idi. Məhəmmədəli Vəlidən beş-altı yaş böyük olardı. Özü ilə Məhəmmədəlini də götürdü. Cürəni evdə qoydu, çünki adam yanında çıxarmaqdan ar elədi. Xülaseyi-kəlam, iki aşığa bir saz götürüb yola düşdülər. İki gün o kənddə, bir gün bu kənddə axır gəlib bir kəndə çıxdılar. Gördülər, kənddə bir evdə bir vay-şivəndi ki, Allah göstərməsin, elə bil Kərbəla müsibətidi. Gəldilər bu hay-haray olan yerə. Öyrəndilər ki, bəs, deməzsənmi bu bir tacirin evidi. Tacirin cah-cəlalı, malı-pulu adnan söylənirmiş. Elə bu yaxınlarda tacir ölür. Onun iki oğlu var imiş. Qırxı çıxmamış tacirin oğulları başlayır atalarının mülkünü, pulunu bölməyə. Mülkü bölüb qurtarırlar. Elə ki, iş çatır pula biri deyir sənə çox oldu, o biri deyir yox sənə çox oldu. Bu deyir, o deyir, axırda tutaşası olurlar. Qardaşın biri tüfəngi çəkir, vurub o biri qardaşını öldürür. Vəli baxdı ki, bir ağbirçək arvad özünü şəhid edir. Allah göstərməsin, üzünü, başını bir günə salıb ki, sağ tutar yer yoxdu. Soruşdu ki, bu kimdi. Dedilər, tacirin arvadıdı, ölən də bunun oğludu. Doğrudan da, ağır dərdiydi. Ölən

oğul, öldürən oğul. Əl yetəsi yer yoxuydu. Bu hadisə Vəliyə çox ağır təsir elədi. Götürüb orda belə yazdı:

*Göstərən hünəri əzəldən bəri,*
*Oxuyan, hər elmə çatansan, ey pul.*
*Sözlərin gövhəri, dillər əzbəri,*
*Şirin canlar alıb satansan, ey pul.*
*Varlının şöhrətli, şanlı adısan,*
*Şahlar dostu, kasıbların yadısan,*
*Fitnəsən, fəsadsan, sehri-cadusan,*
*Natiqlər nitqini tutansan, ey pul.*
*Bir camal göstərən aynadan sənsən*
*Ölkələr yerindən oynadan sənsən,*
*Aləmdə çox qanlar qaynadan sənsən,*
*Dünyanı bir-birinə qatansan, ey pul.*
*Şanlı cəlalları quran da sənsən,*
*Uçuran, zərbələr vuran da sənsən,*
*Bəşəri qırdıran, qıran da sənsən,*
*Milyonlar qanına batansan, ey pul.*
*Sən üçün götürür biri ağır daşı*
*Sən üçün başlayır qanlı savaşı,*
*Sən üçün öldürür qardaş qardaşı,*
*Tutduğun əməldən utansan, ey pul.*
*Birinə şirinsən, birinə acı,*
*Birinin başına qoyursan tacı,*
*Dərin dəryalardan alan xəracı,*
*Dağları kül edib atansan, ey pul.*
*Miskinli Vəlini gətirsən sana,*
*Mehriban elləri salma ziyana,*
*Köməksən, arxasan, cansan insana,*
*Ürəklər üstündə yatansan, ey pul.*

Vəli ilə Məhəmmədəli dəfndə iştirak elədilər. Aşığa lazımdır ki, elin xeyirində, şərində iştirak eləyə. Elə ki, cənazə aparılıb dəfn edildi, camaat başsağılığı verib dağışılmağa başladı. Vəligil də oradan yol aldılar Canbağça səmtinə. Soruşa-soruşa haca gedib çıxmaq olar, onlar da soruşa-soruşa gəlib yolla Canbağça tərəflərə çıxdılar. Bir yerdə baxdılar ki, yol haçalanır, bilmədilər hara gedələr. Dedilər, həm bir az oturaq nəfəsimizi dərək, həm də bir Allah bəndəsi rast gəlsə, soruşaq görək hansı yolla getməliyik. Bəli,

bir az keçmişdi ki, gördülər bir adam qabağında da balaca bir naxır haylayıb örüşə aparır, dedilər:

— Qardaş, olarmı səni narahat eləyək?

Naxırçı cavab verdi:

— Niyə olmur ki, buyurun.

— Canbağçaya gedən yol hansıdır?

Naxırçı yolu göstərdi. Amma gördü bunlar heç buralar adamına oxşamırlar. Birinin də çiynində saz var. Yəqin etdi ki, aşıqdı. Dedi, yəqin şair Cahanla deyişməyə gedir, soruşdu:

— Qardaş, deyəsən buralar adamı deyilsiz?

— Yox, uzaqdan gəlmişik.

— Canbağçaya getməkdə xeyir ola.

— Gedirik usta Cahanın yanına saz almağa.

Naxırçı saz almaq sözünü belə başa düşdü ki, yəni onunla deyişib sazını almağa, amma bu usta sözünü heç anlaya bilmədi. Ona görə də soruşdu:

— Necə yəni usta Cahan, Cahan usta deyil ki…

— Necə yəni usta deyil?

— Cahan bir şair qızdı, aşıqlar əlindən zara gəlib, indiyə qədər iyirmi iki aşığın sazını əlindən alıb yola salıb. Özü də şərt qoyub ki, kim mənə uduzsa, gərək aşıqlıq eləməyə, kim də məni udsa, ona ərə gedib ömrüm boyu qabağında nökərçilik eləyəcəyəm.

Naxırçı belə deyəndə Vəli ilə Məhəmmədəli baxdılar bir-birinin üzünə. Vəli barmağını dişlədi. Anladı ki, aşıq Məhəmməd onu aldadıb, qəsdən Canbaxçanı nişan verib ki, Vəli gedib şair Cahanın cənginə keçsin, uduzub el içində biabır olsun, bir də əlinə saz almasın. Daha haraya yetəcəkdi, iş işdən keçmişdi. Məhəmmədəli dedi:

— Qardaş, daha hara gedək ki, gəl qayıdaq, bizim şair Cahanla nə işimiz.

Vəli bir aşağı fikirləşdi, bir yuxarı fikirləşdi, çox götür-qoydan sonra dedi, ölmək ölməkdi, xırıldamaq nə deməkdi. Buraya kimi gəlib burdan qayıtmaq kişilik deyil, gedib Cahanla deyişəcək. Udar lap yaxşı, uduzar da yenə qayıdıb çomağını götürər, çobanlığını eləyər. Vəli bir də özünə güldü ki, Aşıq Məhəmməd usta Cahan deyəndə o, elə bilmişdi ki, Cahan kişidi. Ancaq indi öyrəndi ki, bu qız imiş. Nə isə, Məhəmmədəli çox dedi, Vəli az eşitdi. Canbağçaya gedəsi oldular, axır ki gəlib kəndə çatdılar.

Kənddə bir evdə qonaq qalası oldular. Deyir, yer qulaqlıdı, bir saatın içində xəbər şair Cahana çatdı. Dedilər, bəs deməzsənmi kəndə iki aşıq gəlib, özü də filankəsin evinə düşüblər.

Kənd öyrəşmişdi, bir aşıq gələn kimi bilirdilər ki, şair Cahan onunla deyişməmiş buraxmayacaq. Odur ki, hamı tökülüb gəlirdi. İndi də camaat başladı yığışmağa. Bir saatın içində Vəli baxdı ki, içəri adamnan doldu.

Sizə deyim şair Cahandan. Cahan aşıq paltarı geyindi, başına papaq qoydu, belinə xəncər bağladı, əlqərəz tanınmamaq üçün özünü kişi qiyafəsinə saldı. Sazını da götürüb Vəli ilə Məhəmmədəlinin olduğu evə gəldi. Xoş gəldiniz eyləyib keçib sakitcə bir tərəfdə əyləşdi. Elə ki, şair Cahan içəri girdi, Vəli onun əlindəki sazı görüb şübhələndi, zənn eləyib gördü ki, balam, bu, qızdı, kişi patları geyinib, mətləbi başa düşdü. Amma üstünü vurmadı.

Ağsaqqalardan biri xahiş elədi ki, aşıqlar çalıb oxusunlar. Doğrudan da, camaat aşıqların başına yığışmışdı, elin adətinə görə indi gərək çalıb oxuyaydılar. Aşıq Məhəmədəli sazı köynəyindən çıxardı, bir-iki ağız oxumuşdu ki, Cahan soruşdu:

— Qardaş, haralar aşığısınız?

— Miskinlidən gəlmişik.

— Zər gətirmisiz, ya zər almağa gəlmisiz?

Aşıq Məhəmmədəli duruxdu, bilmədi nə cavab versin. Vəli bunu hiss elədi. Odur ki, cavab verdi:

— Zər gətirib zərgər aparmağa gəlmişik.

— İkiniz də aşıqsınız?

Yenə Vəli cavab verdi:

— Bəli, mən şəyirdəm, o aşıq usta.

— Sərrac bizsiz, aşıq sazsız olmaz. Bəs, niyə ikinizə bir sazınız var?

— Biri var, birini də burdan alarıq, olar iki.

— Burada bəyəm saz satırlar ki, alasız?

Düzdü, Cahanı görəndən Vəlinin ürəyi əsirdi. Deyir, Allahdan qorxmayan kafərdi. Amma elə ki, danışmağa başladılar, nədənsə bir az ürəkləndi. Düşündü ki, cəhənnəm, uduzaram da uduzaram, islanmışın sudan nə qorxusu, nə var deyəcəyəm. Ona görə də dedi:

— Yox, deyirlər burda bir şair Cahan var, iyirmi iki aşığın sazını alıb. Gəlmişik onu bağlamağa, fikirləşdik ki, daha onun sazını alacağıq, ikinci sazı özümüzə yük eləməyək.

Cahan baxdı ki, bu çox yuxarıdan getdi. Ürəyində dedi, eybi yoxdu, indi köpünü alaram, dedi:

— Birdən Cahan səni bağladı, onda neynərsən?

— Onda deyərəm aldığın iyirmi iki sazın hamısını bir-bir vur mənim başıma, ölərəm ölərəm, qalaram qalaram.

— Cahan, yəqin, saza qıyıb sənin başın kimi başa vurmaz.

Söz Vəliyə yaman toxundu, ancaq üstünü vurmadı. O da Cahanı sancmaq istədi:

— Cahan qorxusundan bura gəlir ki, bir mənim başıma da vura, ya vurmaya. Üç saatdı gəlmişik, ha gözləyirik gəlib çıxmır, Allah bilir, qorxusundan qaçıb harda gizlənib.

Vəli incə damardan yapışmışdı. Söz Cahana bərk təsir elədi, acığından rəng verib rəng aldı. İstədi deyə niyə yalan danışırsan, iki saatdı mən burdayam. Bir təhər hikkəsini boğdu. Yenidən üz tutdu Vəliyə:

— Mən Cahanın şəyirdiyəm, iş ki belə oldu gəlsəniz deyişək.

Vəli cavab verdi:

— Lap yaxşı, onda şəyirdlər deyişsin, ustalar da şair Cahan gəlsə, deyişərlər.

Şair Cahan ayağını dirədi ki, yox elə mən usta ilə deyişmək istəyirəm, Vəli dedi, olmaz, ustanın işi usta ilədi, şəyirdinki şəyirdinən. Axır Cahan razılaşdı, amma bu şərtlə ki, əgər Vəlini udsa, onda Məhəmmədəli ilə deyişəcək. Qız dedi:

— Yaxşı, indi ki, belə oldu deyişək. Ancaq mənim iki şərtim var. Birinci şərtim odu ki, uduzsan mən deyən bir yaxşı saz alıb verəcəksən. Həm də bundan sonra əlinə saz almayacaqsan. İkinci şərtim sənin udmağından asılıdır, əgər udsan deyərəm.

Vəli razılaşdı. Cahan təklif elədi ki, Vəli qabağa düşsün. Vəli dedi:

— Deyişməyi sən təklif eləmisən, özün də qabağa düş.

Daha çox cəhl eləyəsi olmadılar. Cahan sazı köynəkdən çıxardı. Vəli də Məhəmmədəlinin sazını aldı. Burda uzun bir deyişmə başlandı. Əvvəl-əvvəl hər iki tərəf bir-birinə hərbə-zorba gəlməyə başladı. Aldılar görək nə dedilər, qulaq asanlar nə eşitdilər.

Cahan arxayın idi ki, udacaq. Odur ki, sazı sinəsinə basıb Vəliyə belə dedi:

*Qışın çilləsində gədikdən aşsan,*
*Düşərsən covğuna, qara bilginən.*
*Gözün yumub əlçin qayadan uçsan,*
*Sağ cismini parça-para bilginən.*

Cavabında aldı Vəli:

*Bir adam səninlə ülfət eyləsə,*
*Onun əsil zatın ara bilginən.*
*Həqiqətdən, həcviyyatdan söyləsə,*
*Yaxındı, uzaqdı ara, bilginən.*

Aldı Cahan:

*Qışın çilləsinə bahar, yaz demə,*
*Ala qarğalara quba, qaz demə,*
*Səndən Məcnun olmaz, Leyli gözləmə,*
*Düşməginən hər diyara bilginən.*

Aldı Vəli:

*Bağban olsan, bəslə almanı, narı,*
*Sərraf bilər nədir əsl mirvarı.*
*Mətahının bağlı olsa, bazarı,*
*Onda öz bəxtini qara bilginən.*

Aldı Cahan:

*Qüdrətin əlindən içmişəm bada,*
*Xof etmirəm heç kimsədən dünyada,*
*Bir meydan açmışam bu Canbağçada,*
*Aşıqları gətdim zara bilginən.*

Aldı Vəli:

*Danışma məclisdə dəli, divana,*
*Nə mənada şama yanar pərvana,*
*Xəstəyəm qapına gəldim dərmana*
*Ağ sinədə bir cüt nara bilginən.*

Aldı Cahan:

*Cahanam, danışan imran dil mənim,*
*Bağça mənim, bübül mənim, gül mənim,*
*Qohum mənim, qardaş mənim, el mənim,*
*Səni çəkdirərəm dara bilginən.*

Aldı Vəli:

*Aşıq Vəli nə çəkirsən ahu-zar,*
*Tərlan oylağında olmazmı şikar,*
*Cümlə bu cahanın bir qüvvəsi var,*
*İşıq salır ürüzgara bilginən.*

Cahan bu dəfə hərbə-zorbanı gəraylı üstə dedi:

Aldı Cahan:

*Oğlan, əslin haralıdı?*
*Üz tutub bu yana gəldin?*
*Deyən, bəxtin qaralıdı,*
*Mənim tək ümmana gəldin.*

Vəli fikirləşdi ki, Cahan nə bilir, o, bura saz düzəltdirməyə gəlib, Cahanı usta bilib. Elə qoy desin ki, sənin adını eşidib deyişməyə gəlmişəm. Onsuz da gəlib bura çıxıb. Oydu ki, cavabında dedi:

*Qəvvazam azərbaycanlı*
*Üz tutub bu yana gəldim.*
*Miskin elli, mis mədənli,*
*Sənin tək ümmana gəldim.*

Aldı Cahan:

*Bura gəlibsən nə ada?*
*Əlimdən gedərsən dada,*
*Tora düşdün Canbağçada,*
*Bağrı dönər qana gəldin.*

Aldı Vəli:

*Mən gedirəm hər diyara,*
*Hələ düşməmişəm dara,*
*Ağ sinəndə bir cüt nara,*
*Dərdimə dərmana gəldim.*

Aldı Cahan:

*Cahan deyir dayanarsan,*
*Şirin candan usanarsan,*
*Düşdün odlara yanarsan,*
*Necə ki, pərvana gəldin.*

Aldı Vəli:

*Meydan üstə Aşıq Vəli,*
*Dağıtma huşu, kamalı,*
*Sənin tək dünya gözəli,*

*Bir ismi Cahana gəldim.*

Cahan gördü yox, deyəsən, bu asanlıqla təslim olmayacaq, cəngü-cidal uzun çəkəcək. Amma əlac nəydi, nə qədər lazım olsa, deyişməliydilər. Cahan çox arxayın tərpənirdi, elə bil Vəli ovcunun içindəydi, elə bir əlini yummağı qalıb, hərbə-zorbadan keçdi divaniyə, aldı dübarə:

*Qəfil düşdün kəməndimə,*
*Gəlirdin hannan gədə.*
*Gəl ikimiz cəng eləyək*
*Qaçma meydandan gədə.*
*Çox aşıqlar saz götürüb*
*Mənə meydan oxuyub*
*Cisminə lərzə salmışam,*
*Quruyub qannan gədə.*

Cavabında aldı Vəli:

*Qəza gəldi, xəta tutdu,*
*Kim qaçar ondan gözəl.*
*Durmuşam qulluğunda,*
*Buyur fərmandan gözəl.*
*Boyun görüb heyran oldum,*
*Düşdüm eşqin oduna.*
*Dərdimə dərman istərəm*
*Sən tək loğmandan gözəl.*

Aldı Cahan:

*Mən bir kamil səyyad kimi,*
*Bərələrdə duraram.*
*Sənin kimi çolpalara*
*Açıb torum quraram.*
*Yəqin bil ki, rüzgarına*
*Bircə zərbət vuraram.*
*Dərdinə dərman tapılmaz,*
*Təbib, loğmandan gədə.*

Aldı Vəli:

*İnsan gərək ürək sözün*
*Aşkar etsin dilində.*
*Canan deyib can qoymuşam*
*Bir gözəlin yolunda.*
*Eşitmişəm sorağını*

*Canbağçanın elində.*

*Mən səni deyib gəlmişəm,*
*Azərbaycandan gözəl.*

Aldı Cahan:

*Yeddi qat yer əzbərimdi,*
*Yeddi qat göydən danış.*
*Elmdə bir dərya mənəm*
*Verməərəm boydan danış.*
*Meydanıma çoxlaı gəlib*
*Dərbənddən, Xoydan danış.*
*Bac verib, bac almayıb*
*Şair Cahandan gədə.*

Aldı Vəli:

*Qəvvaz olan ləl axtarar*
*Dəryalarda, dərində.*
*Sən kimi gözəl sevənin*
*Eşq olmazmı sərində?*
*Miskinli Aşıq Vəliyəm,*
*Durdum vədə yerində.*
*Kəklik də can qurtararmı*
*Bir şux tərlandan, gözəl?*

Cahan qoşma dedi, Vəli cavab verdi, gəraylı dedi cavab verdi, divani dedi cavab dedi. Cahan gördü belə olmaz, işi daha da çətinə salmaq lazımdı, dedi:

— Yaxşı, indiyə kimi cavabından razı. İndi gəl qıfılbəndə keçək.

— Məsləhət səninkidi, nə istəyirsən, onu da de.

Cahan o qıfılbəndi dedi ki, iyirmi iki aşığın on dördünü o qıfılbəndlə bağlamışdı. Hələ o qıfılbəndi açan olmamışdı. Ya Allah deyib sazı sinəsinə basdı, görək həmin qıfılbəndi necə dedi, qulaq asanlar nə eşitdi.

Aldı Cahan:

*Bir otağa girdim bir cadası var,*
*Qırx səkkiz məhləyə dəydi qayıtdı*
*On ikisi zülüm edir aşkara,*
*Könlümün budağın əydi qayıtdı.*

Cavabında aldı Vəli:

*O bir ildi, ay qız, il hesabında*
*Qırx səkkiz həftəyə dəydi qayıtdı.*

*Üç ay zimistandı on iki həftə,*
*Cümlə könülləri əydi qayıtdı.*

Aldı Cahan:

*On dördü ağ geyər, on dördü qara,*
*On dördü dərd olur, on dördü çara,*
*Onlar gedib salam verdilər hara?*
*Doxsan altı qədəm qoydu qayıtdı.*

Aldı Vəli:

*On dördü ağ geyər, on dördü qara,*
*Gecə-gündüz söyləyirəm aşkara,*
*Qırx səkkizin iki həftə dübara,*
*Doxsan altı həftə saydı qayıtdı.*

Aldı Cahan:

*O nədi dünyada bulunmaz çara?*
*O nədi ki, bilmək olmaz aşkara?*
*O nədi ki, qiymət alır dübara?*
*Cahan da dilindən saydı qayıtdı.*

Aldı Vəli:

*Vəli, o ölümdü bulunmaz çara,*
*Kim kimin ürəyin bilər aşkara?*
*Nəsihətdi qiymət alan dübara,*
*Atalar dilindən yaydı qayıtdı.*

Camaat gördü Cahan nə dedisə, Vəli bircə-bircə hamısına cavab verdi, dedilər:

— Əşşi, sizin deyişməniz xan arşını kimi nə qədər uzanacaq.

Cahana dedilər ki, indi də gəlmə aşıq desin sən cavab ver. Cahan baxdı ki, ayrı əlac yoxdu, camaatın dediyini eləməsə, bihörmət olar. Həm də elə bir sözü də qalmamışdı. Ona görə də meydanı Vəliyə verdi…

Vəli, ya Əli səndən mədəd, deyib meydana girdi. Gördü, camaat təngə gəlib, daha qoşma, divani deməyin yeri yoxdu. Cahana üz tutdu:

— Aşıq, mən sənə elə birbaşa bağlama deyəcəyəm, daha aşıq-aşıq oynamağın yeri yoxdu.

Cahan cavab verdi:

— Özün bilərsən, meydan sənindi…

Aldı Vəli:

*Bir otağa girdim dörd aynası var,*
*Dörd də sifətini yəqin görmüşəm.*
*Hər birinin dörd gülünü sanadım,*
*Üç yerdən bağlanmış tağın görmüşəm.*

Cavabında aldı Cahan:

*O bir ilimizdir dörd də fəsli var,*
*Dörd də sifətini yəqin görübsən.*
*Hər bir ayın dörd həftəsin sanadım,*
*Üç ay-üç ay fəsli-tağın görübsən.*

Aldı Vəli:

*Orada görmüşəm bir növrəs cavan,*
*Zəngin bağlar salır o gülü rövşən,*
*Çəkir həsrətini cümlə bu cahan*
*Öz gözümlə gözəl çağın görmüşəm.*

Aldı Cahan:

*Gəldi yaz ayları növrəstə cavan*
*Zəngin bağlar salır o gülü rövşən,*
*Çəkir həsrətini cümlə yaranan,*
*Öz gözünlə gözəl çağın görübsən.*

Aldı Vəli:

*Sən Vəliyə söylə aşikarını,*
*Cəfa çəkən dərir bəhri-barını,*
*İnsanlar çox sevir hər nübarını,*
*İşıq verən bir çırağın görmüşəm.*

Aldı Cahan:

*Cahan da söyləyir aşikarını*
*Zəhmət çək, dadarsan bəhri-barını,*
*Sevirik dünyanın çox nübarını*
*Günəş kimi bir çırağın görübsən.*

Bu dəfə Vəli nə dedisə, şair Cahan hamısına cavab verdi. Vəli ikinci bağlamanı deyəsi oldu. Cahan hiss elədi ki, iş yaxşı getmir, deyəsən, biabır olacaq. Ancaq çarə yox idi, meydana girmişdi, gərək meydanı davam etdirəydi. Vəli bu dəfə bağlamanı divani üstündə dedi:

Aldı Vəli:

*Ustad, sən ki söz deyirsən,*
*Söz nədi, insan nədi?*

*Ol Adəmdən ol Xatəmə*
*Gərdişi-dövran nədi?*
*Min nəfər beş min nəfərə*
*Verdiyi fərman nədi?*
*İyirmiylə başa vurur*
*Onu bir oğlan nədi?*

Cahan gördü iş müşküldü, bağlamanı aça bilməyəcək. Sazı kökləmək bəhanəsilə çəkib simi qırdı, sonra da dedi:

— Aşıq, arxasını da de, bu saat simi bağlayıb hamısına bir yerdə cavab verəcəyəm.

Vəli bağlamanın arxasını dedi:

*Əlli min qoşunu var,*
*İkidəndi səfləri.*
*Bir sərkərdə əmr verir*
*Düzəldir o ləşkəri.*
*Min nəfər yüz min nəfərə*
*Düzgün verir pərgəri.*
*Sözlərimi aydın eylə*
*Nişan və nişan nədi?*

*Miskin Vəli yetik oldu*
*Sözün haqqı-sayına.*
*Bir nəfər yüz nəfəri*
*Qail edir payına.*
*İnsanlığın pərgəridir*
*Qaranlığa ayına.*
*Açammasan yerbəyerdən*
*Qalarsan heyran nədi?*

Cahan qaldı naçar. Bağlamanı aça bilmədi. Üz tutdu Vəliyə ki, aşıq, bəlkə, birini də deyəsən. Vəli razılaşdı. Götürüb o birisi bağlamanı ərz elədi:

*Bir işıqdı, bir qaranlıq, bir acı,*
*Bir şirindi bir insana dolanır.*
*Bir qüdrətdi, bir mərifət, bir nəfəs,*
*Bir xeyirə, bir ziyana dolanır.*

*Bir qanmayan, bir yarımçıq, bir qanan*
*Bir doğrudu, bir əyridi, bir yalan,*
*Bir satandı, bir satılan, bir alan,*
*Bir yaxşıya, bir yamana dolanır.*

*Bir Vəlidi, bir qələmi, dəftəri,*
*Bir taleyi, bir qisməti, qədəri,*
*Bir alimdi, bir xanəsi, bir dəri,*
*Bir həqiqət, bir əfsanə dolanır.*

Cahan yenə bağlamanı aça bilmədi. Daha təslim olmaqdan başqa əlacı qalmadı. Boynuna aldı ki, uduzub. Amma öz ürəyində fikir elədi ki, əgər bunun şəyirdi belədirsə, gör ustası necədir. Vəli dedi:

— Aşıq, söz vermişdin ki, uduzsan ikinci şərtini deyəcəksən. İndi şərtini de, bilək.

Cahan başından papağı götürdü, uzun, qara hörükləri dal gərdənində topuqlarına qədər töküldü. Sonra Vəliyə dedi:

— Aşıq, indi gördün ki, mən kişi yox, qızam.

Vəli cavab verdi:

— Bunu mən bayaq sən içəri girəndən bilirəm.

— Bilirsən lap yaxşı, deməli, arif adamsan. O ki qaldı ikinci şərtə, bu gecəni qalın burda, sabah ustan da, sən də gedərsiniz bizə, şərtimi deyərəm. Vəli baş üstə dedi. Camaat dağılışıb getdi. Vəli ilə Məhəmmədəli gecəni yatdılar. Səhər açıldı, sübh üzünüzə xeyirliyə açılsın. Hər ikisi çaydan-çörəkdən yeyib şair Cahangilə gəldilər. Xoş-beşdən sonra Cahan onları içəri dəvət elədi. Bağladığı aşıqların sazını evdə yığmışdı yan-yana. Öz sazını da götürüb onların yanına qoydu, sonra Vəliyə üz tutdu:

— Aşıq, əvvələn, sənə sözüm odu ki, bax burda iyirmi iki saz var, öz sazımı da üstə qoydum iyirmi üç oldu. İndi bunların hamısı sənə çatır. İkincisi də, şərtim belədir, mən əhd eləmişəm ki, hər kim məni bağlasa, ona da ərə gedəcəyəm, ömrü boyu qulluğunda duracağam.

Vəli dedi:

— Sazlardan iyirmi ikisi sənin, biri mənim.

Sazların içindən birini seçdi. Elə bir saz idi ki, xotkara göndərsən sənə xanlıq bağışlardı. Sonra ta muzdurluqdan başlamış Aşıq Məhəmmədlə Nazlı xanımla olan əhvalata qədər hamısını birbəbir Cahana danışıb axırda da dedi:

— Cahan, sənin gözəlliyinə söz yoxdur, mən heç sənin əlinə su tökməyə layiq deyiləm, ancaq Allahdan gizlin deyil, səndən nə gizlədim, mən öz qəlbimi vermişəm Nazlı xanıma. İndi mənim yolumu gözləyir. Əgər məsləhət bilsən, biz qardaş-bacı olarıq.

Cahan gördü Vəli ağıllı söz deyir, razılaşıb dedi:

— Yaxşı, indi ki iş belədir, bu gündən sən mənim qardaşım, mən də sənin bacın. O ki, qaldı Məşədi Həmidi razı salmaq məsələsinə, o mənim boynuma. İndi mən səninlə gedəcəyəm Miskinliyə, ağsaqqaldan-qarasaqqaldan da götürüb Məşədi Həmidin yanına elçi gedəcəyəm. Nazlı xanımı almamış geri döndü yoxdu.

Bəli, elə həmin gün yığışıb üçü bir yerdə Miskinliyə yola düşdülər. Ləngiyə-ləngiyə bir həftədən sonra gəlib Miskinliyə çatdılar.

Sizə deyim Aşıq Məhəmməddən. Aşıq Məhəmmədə xəbər çatdı ki, bəs deməzsənmi Vəli gedib Canbağçada şair Cahanı bağlayıb, hal-hazırda Cahan da onunla bərabər gəlib, Vəligilin evindədir. Hərçəndi Aşıq Məhəmməd məyus oldu, ancaq haraya çatacaqdı, fikirləşdi ki, yəqin, Vəli Aşıq Məhəmmədin onu aldatdığını hiss elədi, bundan sonra harda gəldi onun pisinə danışacaq, el içində xar eləyəcək, gərək vaxtında başının çarəsini qıla. Yol alıb Vəligilə gəldi. Şair Cahanla Aşıq Məhəmməd bir-birini yaxşı tanıyırdı, görüşdülər, hal-əhval tutdular. Deyir, bəzi insanın iki sifəti bir üzü olar, bəzi insanın da iki sifəti min üzü. Aşıq Məhəmmədin də iki sifəti min üzü var idi. Başladı ki:

— Vəli, qardaş, görürsənmi mən sənə salıq verdim ki, gedib şair Cahanı bağlayasan, sazını da alıb gətirəsən. Bilirdim ki, onda elə saz var ki, tayı-bərabəri yoxdu.

Vəli bir istədi olanı-qalanı deyə, Aşıq Məhəmmədin qəlbindəkini üzünə vura, amma, dedi, qonaqdı, deyəcək məni qapısından qovur, can onun cəhənnəm Allahın.

Elə ki, Aşıq Məhəmməd Cahandan nə üçün gəldiyini öyrəndi, düşündü ki, yaxşı fürsətdi, indi Vəliyə bir hörmət eləsin ki, aranı sazlasın. Cahana dedi, mən də elçi gedəcəyəm. Bu Cahan üçün göydəndüşmə oldu, çünki Məşədi Həmid Cahanı tanımaya bilərdi, ancaq Aşıq Məhəmmədi tanıyırdı. Aşıq Məhəmməd də onu yaxşı təqdim edər, Məşədi Həmid bilər ki, Cahan kimdi. Xülasə, Cahanla Aşıq Məhəmməd üç-dörd ağsaqqal da götürüb Məşədi Həmidin qapısına elçi gəldilər. Aşıq Məhəmməd Cahanı təqdim elədi. Məşədi Həmid onun adını eşitmişdi, necə lazımdısa, hörmət-izzətlə qəbul elədi, gəlişdərinin səbəbini soruşdu. Cahan dedi:

— Məşədi Həmid, sənin qızın Vəlini, Vəli də sənin qızını istəyir, indi gərək bu işə razı olasan. Allahın izni, bəndənin razılığı ilə mən onların toyunu eləyib qayıdam öz elimə-obama.

Sonra Cahan onunla Vəli arasında olan əhvalat necə var idisə, danışdı. Məşədi Həmid baxdı ki, vallah bu heç də Nazlıdan əksik qız deyil, gərək onun sözünü yerə salmaya, qızı da Vəlini istəyir. Amma ürəyində dedi, hələ səbr eləmək lazımdı, səbr Allahın adıdı. Bir yaxşı-yaxşı fikirləşsin, məsləhətləşsin görsün qohum-əqraba nə deyir. Odur ki, dedi:

— Şair Cahan, yəqin ki, mənim qapıma səndən hörmətli adam gəlməyəcək, ancaq mən də bir qohum-əqrəba ilə məsləhətləşim, görüm nə deyirlər. Həsini, yoxunu beş-üç günə deyər, sizə bir cavab verərəm.

Bəli, belə də razılaşdılar. Ancaq ürəyində Məşədi Həmidin bu işə o qədər də razılığı yox idi. Deyirdi, deyəcəklər, Məşədi Həmid adam tapmadı, qızını bir çobana verdi. Nazlıya evdən bayıra çıxmağı qadağan elədi, dedi, qızdı birdən qoşulub qaçar, onu el içində bihörmət elər.

Sizə deyim Vəlidən. Beş gün keçdi, on gün keçdi, Məşədi Həmiddən cavab çıxmadı. Vəlinin ürəyi dözmədi, Nazlını görmək istədi, xəbər göndərdi ki, filan vaxt filan bulağa suya gəlsin, onu görmək istəyir. Deyilən vaxt gəlib nə qədər gözlədisə, Nazlı xanım gəlib çıxmadı. Vəlinin xəbəri yox idi ki, Məşədi Həmid onu ev dustağı eləyib. Götürüb Nazlıya belə bir namə yazdı:

*Ürəyimdə gizli, pünhan sözüm var,*
*Onu aşkar Nazlı yara deyimmi?*
*Bilirəm desəm də sözüm tutulmaz,*
*Üzü dönmüş beyilqara deyimmi?*

*Dolanım başına, dərdin mən alım,*
*Yolunda qurbandı dövlətim, malım*
*Xəstəyəm, təbibsən bimürvət zalım,*
*Həsrətəm qoynunda nara deyimmi?*

*Miskinli Vəliyəm eşqi həvəsdə,*
*Fərhadam, Şirinsən, şirin nar üstə*
*Məcnunam, Leylisən, gəl bulaq üstə*
*Gətir bu dərdimə çara deyimmi?*

Yenə neçə gün keçdi, Məşədi Həmiddən bir xəbər-ətər çıxmadı. Vəli tab gətirmədi, deyir, eşqli başda səbr olmaz. Götürüb Məşədi Həmidə də belə bir namə yazdı:

*Mən sənə üz tutdum xubların xubu,*
*Sən də insaf elə, ayə, cavab ver.*
*Eşqin atəşinə yandırma məni,*
*Salginən üstümə sayə cavab ver.*
*Arifsən guşuma xoş gəlir sədan,*
*Sənə insaf versin qadiri-sübhan*
*Mətləb istəsən də, istə xudadan,*
*Sən ol Qurandakı ayə cavab ver.*
*Məhəbbət oduna yandırma məni,*
*Dost-düşmən içinə endirmə məni,*
*Tay-tuş arasında sındırma məni,*
*And verirəm ol xudayə cavab ver.*
*Mənim sözlərimdən incimə, küsmə*
*Saralmış bostanam, üstümdən əsmə*
*Bir kəlmə söz üçün il vədə kəsmə,*
*Vəli kimi mərdanəyə cavab ver.*

Məktub, doğrudan da, Məşədi Həmidə təsir elədi. Bu arada Cahan xanım yenə beş-üç ağsaqqal götürüb gəldi Məşədi Həmidgilə. Dedi ki, bəs, mən Vəlinin toyunu eləyib geri qayıtmalıyam. Xahiş elədi ki, işi ləngitməsin. Yazıya pozu yoxdur. Allah-taala bir qızın yazısını yazıb bir oğlana, istər çoban olsun, istər padşah. Allahın məsləhətindən bəndə qaça bilməz. Bu işə xeyir-dua verməkdən başqa çarə yoxdu.

Məşədi Həmid gördü Cahan xanım düz deyir, qismətdən qaçmaq olmaz, dedi:

— Cahan xanım, indiki iş belədir, mən razı, tale nə yazıb qismət də odu.

Bəli, toy tədarükü görüldü. Vəli əlli qoyunu satıb pulunu toy üçün saxlamışdı. Özünə yaxşı bir toy elədi. Cahan xanım toyda üç gün, üç gecə çalıb oxudu. Belə bir toy keçdi ki, səsi, sorağı hər yana yayıldı. Üç gün üç gecədən sonra Nazlı xanımı Vəliyə gəlin gətirdilər. Onlar uzun ömür sürüb xoşbəxt oldular. Siz də xoşbəxt olasız.

Ustad bu duvaqqapma ilə dastanı tamamladı:

*Bax gözələ, mah camala*

*Yanağı lala yaxşıdı.*
*İnci dişi, qələm qaşı,*
*Gözləri ala yaxşıdı.*
*Dodağı süd qaymağı*
*Dönüb zülala yaxşıdı.*
*Var maçı, qarğı saçı,*
*Tökülüb dala yaxşıdı,*
*Səhər durur, ziynət vurur,*
*O mahcamala yaxşıdı.*

*Özü cavan, mətləb qanan*
*Bu gözəlin nazına bax.*
*Kitab əldə, şirin dildə*
*Oxuyur avazına bax.*
*Gör nə göyçək açıb çiçək,*
*Baharına, yazına bax.*
*Hər kim gördü olmaz dərdi,*
*Söhbətinə, sazına bax.*
*Aşıq gərək dastan yaza*
*Belə camala yaxşıdı.*

*Gəzib eldə, şirin dildə*
*Nə görsəm onu yazıram.*
*Gözəlin, duran telin*
*Nədir nişanı yazıram.*
*Ay gözəlim, dərdin alım*
*Səni tək canı yazıram.*
*Xəstəyəm, can üstəyəm*
*Hanı dərmanı yazıram?*
*Arıyam, sızıldaram,*
*Pətəkdə bala yaxşıdı.*

*Bax bu gələn, canlar alan*
*Gözəllərin ülkəridi.*
*Həm sərfiraz, sinə bəyaz,*
*Dağların təzə qarıdı.*
*Mən dediyim, istədiyim,*
*Tər şamama nübarıdı.*
*Danışıram, alışıram,*
*Sinəmdə eşqin narıdı.*
*Bülbüləm gül ucundan*

*Qonmuşam dala yaxşıdı.*

*Qönçə dəhan, gülü-reyhan*
*Ay boyu mina gözəlim.*
*Təbibim ol, dərdimi bil,*
*Yetir dərmana, gözəlim.*
*Olma naşı, eşq ataşı*
*Qalama cana gözəlim.*
*Muradımdı, nə lazımdı*
*Deyim, inana gözəlim?*
*Vəli sözdə qiymətini,*
*Verir kamala yaxşıdı.*

# MISKIN VƏLININ DILINDƏN QƏLƏMƏ ALINMIŞ DASTANLAR

## XƏSTƏ QASIMIN DAĞISTAN SƏFƏRI

Ustadlar həmişə dastana başlamazdan əvvəl ustadnamə deyiblər. Biz də deyək bir olsun:

*Könül qulluq eylə kamil ustada,*
*Ustad görməyənin işi xam qaldı.*
*Neçə danəndələr köçdü yurdunnan*
*Yurdunda bir neçə ağlı kəm qaldı.*

*Təkəbbur məclisə salam eyləməz*
*Baş əyib, endirib ənam eyləməz,*
*Heç kəs bu dünyanı tamam eyləməz!*
*Tamama yetmədi natamam qaldı.*

*Ərəb at üstündə durdum deyənlər,*
*Bu dünya mülkünə yurdum deyənlər,*
*Asdım, kəsdim, yıxdım, qurdum deyənlər*
*Onlar da köçdülər quru dam qaldı.*

*Nanəcibə dedim: – Dur, məndən üzül*
*Müxənnəsə baxma, gözlərim, süzül*
*Nuh ömür eylədi min doqquz yüz il,*
*Elə bildi, bir gün bir axşam qaldı.*

*Qul Allahquluyam ay nəsib elə,*
*Şəcərdən baş verdi ay nəsib elə*
*İskəndər atlandı ay nəsib elə,*
*Nə Cəmşid əyləşib, nə də cam qaldı.*

Ustadlar ustadnaməni bir deməyib iki deyib, biz də deyək iki olsun, könlünüz şad olsun:

*Bir oğul ki, ata sözün tutmasın,*
*Yüz il damsa, ondan axar çay olmaz.*
*Göz açanda doğru yolla getməsə,*
*Dövlət tapıb axırında bay olmaz.*

*Bəd övlad göz açıb düşmən qazanı*
*Özünə dost tapar yoldan azanı.*
*Dərs oxuyub bu sözlərmi yazanı,*

*Yadigardı heç əməyi zay olmaz.*

*Bu bir sözdü ustadların yanında*
*Bir gün lazım gələr hax divanında.*
*Axtarsan, taparsan dürr məkanında*
*Yüz il saxla bir misqalı zay olmaz.*

*Bir insan ki, doğru yolla yerisə,*
*Bəla tutmaz onu çovğun bürüsə.*
*O kimsənin əsli, zatı var isə,*
*Yanlış olar, yol azana tay olmaz.*

*Şair Cavad bu sözlərin baməzə,*
*Əsl ariflər baxar əyriyə, düzə.*
*Haqq özü gündərib doğru yol bizə*
*Əyri yoldan bizə haqqı-say olmaz.*

Ustadlar ustadnaməni iki deməyib üç deyib, biz də deyək üç olsun, namərdin ömrü puç olsun:

*Yazda, yayda ağ geyinən dağlara,*
*Payız qəhr edəndə boran gülərmiş.*
*El köçəndə solan bir çəmənzara*
*Yaylaq boş qalanda aran gülərmiş.*

*Xoryat sözü mərd ürəyin dağlayar,*
*Təbib görcək dərdə dərman bağlayar.*
*Aşıq eldən ayrı düşsə, ağlayar.*
*Bayqular tapanda viran gülərmiş.*

*Tərəqqi çarxında insan ucalar*
*Tənəzzül gərdişi ayağa salar,*
*Yoxsul qatarından üzülər, qalar,*
*Vara fəxr eyləyən hər an gülərmiş.*

*Göydəki laçınlar baş əyməz sara,*
*Sınmasa qanadı, düşməsə dara,*
*Zülmün kəməndində ağlayanlara*
*Zülmət qılıncını vuran gülərmiş.*

*Hərə bir söz deyər bəxti yatana,*
*Fələk öz əliylə daşın atana,*
*Adamsız arada itib batana*
*Arxasında kömək duran gülərmiş.*

*Miskinli Vəliyəm haqqına naçar,*
*Biri bağlayanda birisi açar,*
*Birisi qovduqca birisi qaçar*

*Qaçan ağladıqca qovan gülərmiş.*

Ustadlar dilindən sizə hardan deyim, kimdən deyim, Tikmədaşda Xəstə Qasımdan. Zaman o zamanıydı ki, Qasım hələ Xəstə Qasım deyildi, eləcə Qasım adlı kasıb, cavan bir oğlanıydı. Yenicə həddi-büluğa çatırdı.

Qasımın uşaqlığında həm atası, həm də anası vəfat eləmiş, Qasım və bir bacısı yetim qalmışdılar. Yoxsulluqnan, çətinliknən bir təhər gün keçirib böyümüşdülər. Qasım çobanıydı, kəndin qoyunlarını otarıb hərədən beş-on şahı alar, bacısı ilə bir təhər gün keçirərdi.

Günlərin birində Qasım qəbristanlığın kənarında qoyun otarırdı. Kənddə ölü düşmüşdü. Ölünü basdırmaq üçün qəbristanlığa gətirirdilər. Adətə görə ölü düşəndə ehsan üçün halva çalar, lavaşa bükүb camaata paylardılar.

Nə isə, ölünü gətirdilər qəbristanlığa, camaat yığışdı ölünü basdırdılar qurtardılar. Başladılar halva paylamağa. Qasım səhərdən çörək yeməmişdi, bərk ac idi. Gördü, halva paylayırlar, sevindi. Fikirləşdi ki, bir tikə yeyərəm gözüm işığa gələr. Soruşdu ki, bəs, bu halvanın əvəzində nə verməк lazımdı. Dedilər:

– Bu halvanın əvəzi bir həmdi-surədir. Kim halvadan yesə, gərək həmdi-surə oxuya.

Qasım çoban adam idi, nə bilirdi həmdi-surə nədi, filan nədi. Soruşdu ki, bəs, həmdi-surə nədi. Bunu başa saldılar. Dedi:

– Yaxşı, əgər halvadan yeyib həmdi-surə oxumasan nə olar?

Cavab verdilər ki, onda Allah günaha yazar, cəhənnəmlik olarsan.

Qasım qaldı naçar. Dedi:

– Onda nə halvadan yeyərəm, nə də cəhənnəmlik olaram.

Amma Qasımın ürəyində özünə bərk acığı tutdu. Fikirləşdi ki, gör mən nə qədər axmağam ki, bir həmdi-surəni də söyrənməmişəm.

Nə isə, müxtəsəri Qasım halvadan yemədi, qaldı yenə ac. Camaat qəbristanlıqdan dağılışıb getdi. Bir az keçdi, bir yağış başladı ki, ucundan tut göyə çıx. Qasım qaçıb qəbristanlıqdakı künbəzlərdən birinin içinə girdi. Künbəzin bir küncündə oturub fikrə qərq oldu. Elə bu cür də onu şirin yuxu tutdu. Bir vaxt ayıldı, baxıb gördü ki, sən ölməyəsən künbəzin bir tərəfində daşın üstündə bir kömbə buğlanır, gözlərinə inanmadı. Dedi, ac ağacı sünbül

görər. Yəqin gözüm alacalanır. Bir də diqqətlə baxdı, gördü yox, zarafat-zarafat bu elə həqiqətən kömbədi ki, var. Dedi:

– Allah, kəramınə şükür, acın ruzisini bacadan salırsan.

Amma bir də fikirləşdi ki, görəsən, bu kömbə üçün də həmdi-surə oxumaq lazımdı ya yox? O yan-bu yan, götür-qoydan sonra dedi:

– Vallah, bu kömbə mənim qismətimə ki çıxıb, Allah qəzəb eləsə də, bunu yeyəcəyəm.

Yaxınlaşıb kömbəni əlinə götürdü, baxdı ki, bu bir möcüzə şeydi, üstü tamam dolu yazıdı. Qasım yazı-pozu bilmirdi, kömbənin üstünü oxuya bilmədi, başladı yeməyə. Təxminən üçdə iki payını yedi, qarnı doydu. Dedi, eybi yoxdu, qoy bu da qalsın, acanda yeyərəm.

Elə ki, Qasım kömbədən yedi, baxdı ki, ey dili-qafil, bütün yer, göy, dağ, daş, gül, çiçək dil olub onunla danışır. Yerin altını da bilir, üstünü də. Qasımın beyninə gəldi ki, daha çobanlığın daşını atsın. Qoyun-quzunu qabağına yığdı ki, gətirib hərəninkini özünə təhvil versin. Bir də baxdı gördü, yolla üç adam gedir. İkisi nisbətən yaşlıdı, amma biri yeniyetmə oğlandı, bığ yeri təzəcə tərləyib. Yaşlı adamlar qabaqdadılar, cavan oğlan isə arxadan gəlir, yeridikcə də yolun altına üstünə çıxır, az qalır ayaqları bir-birinə dolaşsın. Yaxınlaşıb bunlara salam verdi. Hal-əhval tutdu. Məlum oldu ki, bunlar ustadılar, arxalarınca gələn də şagirdləridir. Adına da Ləzgi Əhməd deyirlər. Soruşdu ki, bəs, o, niyə geridə qalıb? Dedilər, acdı. Elə bu əsnada Ləzgi Əhməd gəlib çatdı. Qasım soruşdu:

– Əə, can qardaş, bu nə haldı düşübsən?

Ləzgi Əhməd cavab verdi:

– Təsəddüqün olum, qardaş, bir sutkadır dilimin arasından su da keçməyib, acından ölürəm, bir şeyin varsa, ver yeyim.

Kömbənin üçdə bir payı Qasımın cibindəydi. Fikirləşdi ki, əgər bunu dansa, yalançılıq olar, Allah günaha yazar, yox əgər kömbəni versə, sonra Ləzgi Əhməd qayıdıb bunun üzünə ağ olar. Bir az götür-qoydan sonra qərara gəldi ki, Allahın verdiyi paydı, yəqin bu da bunun qisməti imiş, qismətdən qaçmaq olmaz. Dedi:

– Əə, ləzgi, de görüm əgər sənə çörək versəm, üzümə ağ olmazsan ki?..

Ləzgi Əhməd cavab verdi:

– Can qardaş, elə də şey olarmı, mənim bu günümdə mənə çörək verəsən, mən də sənin üzünə ağ olam?

Sözün qısası, Qasım kömbənin qalanını da verdi Ləzgi Əhmədə. Ləzgi Əhməd kömbəni yedikcə gözünə işıq gəldi, baxdı ki, əşşi, bu kömbə o kömbələrdən deyil, indi o, ərşin-gürşün hamısının sirrini bilir, yerin altından desələr altından, üstündən desələr, üstündən xəbər verir. Sinəsində şairlik təbi qaynayır. Birdən yadına gəldi ki, bu cür min bir əziyyətlə yaşamaqdansa gedib şairlikdən, aşıxlıxdan zaddan eliyər. Qayıtdı ustalara ki, daha mən sizinlə getmirəm, bu gündən şagirdliyi atdım. Ustalar qaldı mati-məəttəl. Dedilər, buna birdən-birə nə oldu, başına havamı gəldi.

Üz tutdular ki:

– Ay uşaq, sən dəli-zad olmamısan ki? Deyəsən, başına cin yığılıb.

Ləzgi Əhməd dedi:

– Mən nə dəli olmuşam, nə də başıma cin yığılıb. Amma sizinlə də getmirəm. Qayıdıb aşıqlıqla, şairliklə məşğul olacağam.

Ustalar çox dedi, Əhməd az eşitdi. Oradan bir baş qayıtdı Dağıstan vilayətinə.

İndi sizə deyim Qasımdan. Qasım da o gündən çobanlığın daşını atdı, oldu Xəstə Qasım. «Xəstə» ləqəbini ona görə götürmüşdü ki, istəsə bir adamın canına vahimə salar, onu xəstəhal eləyərdi.

Daha bu işıqlı dünyada Xəstə Qasımın bilmədiyi, bacarmadığı şey yox idi. Həm aşıqlıq edərdi, həm şairlik, həm mollalıq, həm qazılıq, həm alimlik. Gah kəbin kəsərdi, gah ölü götürərdi, gah ərşdən-gürşdən danışardı. Mollalara, qazılara, alimlərə göz verib işıq verməzdi. Bir məclisdə biri yalan söz söyləsə, ağzına vurardı. Lazım olanda şər kəsərdi.

Mollalar, qazılar, alimlər gördülər, yox balam, iş belə gedəsi deyil. Xəstə Qasım onları camaat arasında bihörmət eləyir, daha bunun əlindən zinhara gəliblər. Yığışıb tədbir tökdülər. Çox götür-qoydan sonra belə qərara gəldilər ki, Xəstə Qasımdan müşseyidə şikayət yazsınlar. Əlqərəz, elə də elədilər. Götürüb müşseyidə yazdılar ki, bəs, belə-belə, Xəstə Qasım adında bir adam peyda olub, nə bir məktəb oxuyub, nə bir təhsil görüb, nə də bir sənədi filanı var, amma min cür günah işlə məşğul olur. Həm ölü götürür,

həm şər kəsir, həm alimlik eləyir. Bizim də dediklərimizin hamısını yalan çıxardır. Allah buyurub peyğəmbər xəbər verənin ziddinə çıxır. Öhdəsindən gəlmək mümkün deyil. Xahiş elədilər ki, müşseyid tədbir görsün. Məktubu göndərdilər müşseyidə.

Müşseyid məktubu alıb oxudu, amma yazılanlara əhəmiyyət vermədi. Dedi, belə şey ola bilməz, yəqin bu adam ya dəlidi, ya da şitlik eləyir. Ancaq mollalar, qazılar, alimlər əl çəkmədilər, üç yazdılar, beş yazdılar. Axır müşseyid gördü yox, hənək hənək axırı dəyənək, od olmayan yerdən tüstü çıxmaz. Xəstə Qasıma xəbər göndərdi ki, əl-ayağını yığışdırsın. Xəstə Qasım buna məhəl qoymadı, yenə öz işinə davam elədi. Üstəlik cavab qaytardı ki, bəs, onun bütün alimləri, mollaları, qazıları ilə suallaşmağa hazırdır. Əgər Xəstə Qasıma şübhəsi varsa, çağırsın cəmi başbilən alimlərini, mollalarını, qazılarını. Müşseyidin öz yanında sorğu-sual keçirilsin. Allah kimə verər verər.

Müşseyid gördü ki, balam, bu, deyəsən, yekə işə oxşayır. Qaldı təəccübdə. Dedi, əşi, mənim mollalarım, qazılarım, alimlərim neçə il oxuyublar, Adəmdən Xatəmə qədər hər şeyi bilirlər, indi necə ola bilər ki, oxumamış bir çoban özünü hamıdan çoxbilmiş hesab edə. Deməli, burda nəsə var.

O birisi tərəfdən də xəbər gedib çatdı Şah Abbasa ki, bəs deməzsənmi Tikmədaş kəndində belə bir adam var, əvvəllər çobanlıq eləyib. Sonra birdən-birə ağlı nə buyurubsa, çobanlığı atıb, başlayıb alimliyə. Şah Abbas müşseyidə xəbər göndərdi ki, aydınlaşdırsın görsün o nə məsələdi. Bu biri yandan da Mirzəli xanı yanına çağırdı, buyruq verdi ki, bir neçə atlı da götürsün getsin Tikmədaşa. Xəstə Qasımı tapsın, gətirsin müşseyidin hüzuruna. Müşseyid aydınlaşdırsın görək bu nə işdi. Əgər Xəstə Qasımın günahı varsa, layiqincə cəzasını verərik.

Bəli, Mirzəli xan başında da bir neçə atlı yolu düşdü Tikmədaş kəndinə. Neçə gün yol getdilər, axır gəlib çıxdılar kəndin kənarına. Gördülər, bir adam cütlə yer əkir. Yaxınlaşıb salam verib əleyk aldılar. Mirzəli xan dedi, yaxşı oldu, elə bundan Xəstə Qasımın yerini-yurdunu soruşaram. Əslində cütlə yer əkən Xəstə Qasım özüydü. İntəhası Mirzəli xan onu tanımırdı. Mirzəli xan soruşdu:

– Əə, cütçü qardaş, sən Xəstə Qasımı tanıyırsan?

Xəstə Qasım cavab verdi:

– Tanı mənəm, bil mənəm!

Mirzəli xan soruşdu:

– Heç görməmisən?

Xəstə Qasım gördü yox, xan onu başa düşmədi, dedi:

– Gör mənəm, bil mənəm!

– Heç eşitməmisən də?

Xəstə Qasım gördü xan yenə onu anlamadı, dedi:

– Eşit mənəm, bil mənəm!

Mirzəli xan belə başa düşdü ki, cütçü Xəstə Qasımı tanımır, nə görməyib, nə də onun haqqında eşitməyib. Fikirləşdi ki, bu nə küt adamdı, Xəstə Qasımın sədası gedib Şah Abbasa çatıb, ancaq bu cütcü burdan bura onu eşitməyib də.

Mirzəli xan Xəstə Qasımdan ayrılıb başının adamlarilə Tikmədaş kəndinə üz tutdu. Gəlib kəndə çatdılar, soruşa-soruşa Xəstə Qasımın evini tapdılar. Xəstə Qasımın bacısı evdəydi. Soruşdular ki, ay bacı, Xəstə Qasımın evi buradırmı? Dedi:

– Bəli, buradır.

– Xəstə Qasım evdədirmi?

– Yox, cütə gedib.

– Qonaq qəbul eləyirsinizmi?

– Qonaq allah qonağıdı, buyurun gəlin.

Mirzəli xan başının adamları ilə keçib oturdu. Başladılar Xəstə Qasımı gözləməyə. Bir az keçmiş Xəstə Qasım gəldi. Üz tutdu qonaqlara:

– Qonaqlar, xoş gəlibsiniz!

– Sağ ol.

Mirzəli xan baxdı ki, əyə, bu bayaqkı cütçüdü. Soruşdu:

– Xəstə Qasım sənsənmi?

– Bəli, xan sağ olsun!

– Bəs, biz bayaq soruşanda kim olduğunu niyə dandın?

– Xan sağ olsun, nə vaxt dandım?

– Dedin, tanımıram, görməmişəm, eşitməmişəm.

– Mən elə demədim, xan. Mən dedim ki, tanı mənəm, gör mənəm, eşit mənəm, bil mənəm.

Xan mətləbi başa düşdü. Ürəyində fikirləşdi ki, həə, deyəsən, səndə nəsə var axı. Dedi:

– Xəstə Qasım, hal-qəzyə belədi, məni şah göndərib. Səni aparmalıyam Şeşpərin şəhrinə, müşseyidin yanına. Orda səni

mollalar, qazılar, alimlər imtahan eləməlidi. Çünki səndən şaha şikayət gedib. Yazıblar ki, heç bir təhsili olmayan, çobannıxnan məşğul olan bir adam gəlib indi alimlik eləyir, Quranın, şəriətin əleyhinə çıxır. İşdi imtahandan yaxşı çıxsan, sənə kağız-sənəd verərik. Gəlib necə qanunda var, o cür də nə istəsən elərsən. Yox, əgər imtahandan yaxşı çıxmasan, onda şah bilər, müşseyid bilər, sən bilərsən. Nə cəza istəsələr, onu da verəcəklər.

Elə ki, Xəstə Qasım məsələdən hali oldu, dedi:

– Xan sağ olsun, şah əmri allah əmri. Madam ki, şah əmr edib getməliyik.

Gecəni yatdılar, sabah açıldı. Sabah üzünüzə xeyirliyə açılsın. Xəstə Qasım fikirləşdi ki, ey dili-qafil, bu aşıq-aşıq oynamaq deyil ki. Orda alimlər var, ruhanilər var, qazılar, axundlar var. Birdən olmadı elə, oldu belə, biri məni bağladı. Şah boynumu vurdurdu. Burda mənim bacım var, nişanlım var. Qoy gedim bir kənd mollasının yanına, baxdırım görüm səfərim uğurludu, ya uğursuz. Bir neçə saatlığa Mirzəli xandan rüsxət istədi. Xan rüsxət verdi. Xəstə Qasım ordan mollanın yanına gəldi. Üz tutdu mollaya ki:

– Molla əmi.

Dedi:

– Bəli!

Dedi:

– Mənim bir səfərim var, olarmı bir o kitabı açıb baxasan, görək necə görsənir.

Molla Quranı açdı, əlini bir ayənin üstündə saxladı. Gördü, çox uğurlu gəldi. Amma mollanın Xəstə Qasımnan arası yox idi. O səbəbə ki, Xəstə Qasım mollaların ziddinə gedirdi, onlara göz verib işıq vermirdi. Bu mollanın da Xəstə Qasımı görməyə gözü yox idi. Odur ki, düzünü demədi. Dedi, qoy bəd deyim. Xəstə Qasımın ürəyinə qorxu düşsün. Başını qaldırdı ki:

– Xəstə Qasım, yaman bəd gəldi. Sənin bu səfərin çox qorxulu səfərdi, uğurun da xeyirliyə görsənmir.

Xəstə Qasımın diqqəti Qurandaydı. Molla kitabı açan kimi ayəni gözucu oxumuşdu. Bildi ki, molla yalan danışır, özü də niyə yalan danışır, dedi:

– Molla əmi, olarmı ürəyimə bir qatar söz gəlib, onu deyəm?

Molla bildi ki, Xəstə Qasımdan xeyirli söz çıxmayacaq. Ancaq əlacı yox idi. Dedi:

– De görək, nə deyəcəksən.

Xəstə Qasım sözünün əvvəlinə belə başladı:

*Bu gün mən bir molla gördüm,*
*Kəlamullah əlindədi.*
*Oxuyur əzbər Quranı*
*Kəlmeyi-yüsəbbeh dilindədi.*

Molla gördü yox, daş qayaya rast gəlib, fırıldağı baş tutmadı. Dedi:

– Dayan, bəlkə, səhv baxmışam, diqqətim başqa yerdə idi.

Bir də baxdı, məcbur olub düzünü dedi. Amma Xəstə Qasım bildirdi ki, sözü yarımçıq qoymaq olmaz, oydu ki, götürüb dalını belə dedi:

*Oxuram fərzi-sünnəti,*
*Bir kəsə qılmam minnəti*
*Səkkiz irizvan cənnəti*
*Şahlar şahının əlindədi.*

*Qıl namazın şükrün eylə,*
*Bil haqqını, zikrin eylə,*
*Qasım getmək fikrin eylə,*
*Gəlmək allah əlindədi.*

Xəstə Qasım özünü danladı ki, bu mollanın nəyinə baxdırırsan ki, sənə də yalan deyə, uğurunun üstündən bəd dillənə. Bilmirsənmi, bunlar sənə düz söz deməz.

Xəstə Qasım qayıdıb gəldi evə. Ayənin yaxşı çıxmağı onu bir qədər də ürəkləndirdi. Başladı səfər tədarükü görməyə. Elə ki, tədarükünü görüb qurtardı, atı yəhərlədi, sazı götürüb çiyninə saldı, gəldi Mirzəli xanın hüzuruna, dedi:

– Xan sağ olsun, mən hazır!

Xan adamlarına göstəriş verdi ki, qalxıb atlansınlar. Hamı qalxıb atını hazır elədi. Elə istəyirdilər «ya Allah» – deyib yola düşələr bir də Xəstə Qasım gördü ki, nişanlısı Güllü xanım yolun kənarındakı ağacın daldayında durub elə baxır, elə baxır elə bil anasını itirmiş körpə ceyrandı.

Xəstə Qasımla Güllü xanım bir xeyli vaxt idi ki, nişanlanmışdılar. Xəstə Qasım tədarük görürdü ki, beş günə-üç günə toy eləsin, Güllü xanımı gəlin gətirsin. Güllü xanımın məlul baxışlarını gördükdə elə bil Xəstə Qasımın ürəyinə xəncər soxdular. Fikirləşdi ki, şah qəzəbi əzrayıl qəzəbi, getdi, birdən

şahdı, qəzəbi keçdi, onu öldürtdü, onda nişanlısı da burda ağlar qalacaq. Ürəyi qövr elədi, dedi:

– Xan, başına dönüm, ürəyimə bir qatar söz gəlib, icazə ver onu deyim sonra gedək.

Xan icazə verdi. Xəstə Qasım sazı sinəsinə basıb nişanlısı Güllü xanıma üz tutub görək nə dedi:

*Nə baxırsan oğrun-oğrun,*
*Mənə biganələr kimi,*
*Durum dolanım başına,*
*Şama pərvanələr kimi.*
*Bağbanlar bəslər meyini,*
*Dönsün seyraqub löyünü,*
*Yıxıbsan könlüm öyünü*
*Top dəymiş qalalar kimi.*
*Gəl gedək Çinə, Maçına*
*Qurbanam siyah saçına.*
*Al məni qoynun içinə,*
*İstəkli balalar kimi.*
*Dost qapısında dustağam,*
*Tellərinə çox müştaqam*
*Yar əlindən düyün-dağam,*
*Dağdakı lalalar kimi.*
*Xəstə Qasım Tikmədaşlı*
*Könlü qəmli, gözü yaşlı,*
*Göldən uçdu yaşılbaşlı*
*Silkindi sonalar kimi.*

Mirzəli xan arif adam idi, soruşdu:

– Xəstə Qasım, bu sənin nəyindi?

Xəstə Qasım cavab verdi:

– Nişanlımdı, özü də hazırlaşırdım ki, bu yaxınlarda toy eləyim.

Mirzəli xan dedi:

– Görünür, Allahın buyruğu beləymiş, qismətdən qaçmaq olmaz. Gedək müşseyidin hüzuruna, əgər imtahandan yaxşı çıxdın, sənə mən özüm yaxşı bir toy çaldıracağam, yox əgər pis çıxdın, daha mənnik iş yoxdu.

Xülaseyi-kəlam, bir yerdə yola rəvan oldular. Bir mənzil getmişdilər, Xəstə Qasım geri baxdı, vətəndən, onun başı qarlı

dağlarından, yaşıl meşələrindən ayrılmaq ona ağır gəldi, qəlbi kövrəldi. Elə bil dağ-daş dilə gəlib onunla xudafafizləşmək istədi. Xəstə Qasım dözə bilməyib atın başını döndərdi. Dağlara, vətən torpağına üz tutub onunla bu cür xudahafizləşdi:

*Köç-köç oldu, köçdü ellər obalar*
*Başı qarlı çənli dağlar, qal indi.*
*İçən ölməz dərdə dərman suyundan,*
*Axar sular, tər bulaqlar, qal indi.*
*Bivəfasan, heç görmədim vəfan, yar,*
*Tifil ikən çox çəkmişəm cəfan, yar,*
*Mən öləndə kimlər sürər səfan, yar,*
*Allı-güllü ağ otaqlar, qal indi.*
*Bivəfasan, vəfan yoxdu dünyada,*
*Aşnanın sirrini verirsən yada,*
*Şamamanı dərdirirsən xoryada,*
*Səbzə-bostan, sarı tağlar, qal indi.*
*Xəstə Qasım tamam oldu sözlərim,*
*Eşq ucundan kabab oldu közlərim,*
*Qərib yerdə, yad ölkədə gözlərim,*
*Vətən deyib ağla, ağlar qal indi.*

Ordan yenə yol aldılar. Bir müddət getmişdilər, gördülər yavaş-yavaş axşam düşür. Günün qulağı yaxar-yaxmaz gəlib bir kəndin kənarına yetişdilər. Bu qərara gəldilər ki, gecəni kənddə qonaq qalıb sübh tezdən yola düşsünlər. Xəstə Qasım üz tutdu Mirzəli xana:

– Xan, bir xahişim var, olarmı ərz eləyəm?

Mirzəli xan buyurdu ki, olar.

– Mirzəli xan, sən xansan. Hansı qapını açsan ya qorxudan, ya hörmətə görə səni qonaq saxlayacaqlar. Ancaq mən elə qonaq qalmaq istəmirəm. Mənim qonaq qalmağım üçün iki şərt lazımdı.

Mirzəli xan soruşdu:

– O nə şərtlərdi elə?

– Birincisi odu ki, gərək məni allah qonağı saxlayalar. Allah qonağı saxlamasalar, mən o evdə qalmaram. İkincisi də odu ki, mən qonaq qaldığım evin sahibi gərək ibadət sevən ola.

– Yaxşı, bəs, onda neynəyək?

– Xan, əgər mümkünsə siz burda kəndin kənarında bir az gözləyin. Mən gedim özümə bir qonaq yeri tapım, sonra siz harda istəsəniz gedib qalarsız.

Mirzəli xan razılaşdı, başladı öz adamları ilə gözləməyə. Xəstə Qasım isə yan aldı kəndə ki, gəlib bir qonaq yeri tapsın. Kəndə yetişdi. Soruşdu ki, burda kim allah qonağı saxlayır. Kənddə bir hacı var idi, adına Hacı İsmayıl deyərdilər. Onun evini isnad verdilər ki, bəs, o kişi allah qonağı saxlayır. Xəstə Qasım gəlib çıxdı Hacı İsmayılın qapısına. Xəbər aldı, Hacı evdədirmi. Dedilər, iş üçün gedib, bir azdan gələr. Bir az gözlədi. Birdən gördü, kim isə gəlir. Özlüyündə yəqin elədi ki, bu gələn hacı olacaq.

Hacı uzaqdan gördü, bir adam darvazanın qabğını kəsib, dedi, yəqin, mənimlə işi var. Yaxınlaşdı, salam verdi. Gördü, əşşi, bu qəribə geyimli bir adamdı. Başında əmmamə, əynində aşıq paltarı, belində qurşaq, bir tərəfindən xançal asılıb, bir tərəfindən nizə, bir tərəfindən saz. Nə aşıqdan aşıqdı, nə molladan molladı, nə qoçudan qoçudu. Soruşdu:

– Bala, işin kimnəndi?

Xəstə Qasım dedi:

– Evin sahibiynən.

– Bu evin sahibi mənəm, nə sözün var?

– Hacı əmi, bir gecəliyinə məni allah qonağı saxlayarsanmı?

Hacı bir bunun başına baxdı, bir ayağına baxdı, dedi:

– Saxlamağına saxlaram, amma bir əhvalat danışım qulaq as, sonra qalarsan özün bilərsən, gedərsən yenə özün bilərsən.

Xəstə Qasım dedi:

– Hacı əmi, danış, qulağım səndədi.

– Oğul, deyirlər, bir dəfə bir cütçü yer əkirmiş. Birdən cütçünün qabağından bir tülkü çıxır. Cütcü tülkünü tutur. Tülkü dərisi baha qiymətə gedərmiş. Cütçü fikirləşir ki, yaxşı oldu, yeri əkib qurtararam, tülkünün dərisini soyaram, aparıb satıb bir kasıbçılığıma verərəm. Axtarır, tülkünün əl-ayağını bağlamağa bir şey tapa bilmir. Axır şalvarını çıxarır, tülkünü içinə salır, xançalını da çıxarıb şalvarının ortasından yerə çalır ki, tülkü qaçmasın. Amma cütçü o yana gedən kimi tülkü çabalayır, xançalı yerdən qoparır, şalvar qarışıq götürüb aparır. Cütçü yeri əkib qurtarandan sonra gəlir ki, tülkünü soyub aparsın, baxır ki, nə tülkü var, nə də şalvarla xançal. Başlayır axtarmağa. Bir ovçuya rast gəlir. Soruşur

ki, ovçu qardaş, mənim bir tülküm itib, onu görməmisən ki. Ovçu deyir:

– Tülkü nədi, a kişi, sən nə danışırsan? O necə tülküdü?

Ovçu deyir:

– Beli xançallı, dalı şalvarlı!

Ovçunu gülmək tutur, deyir:

– A kişi, dəli-zad olmamısan ki? Mən əlli ilin ovçusuyam, hələ indiyə qədər beli xancallı, dalı şalvarlı tülkü görməmişəm.

Hacı sözünə ara verdi, sonra dedi:

– Oğul, mən əlli ilin hacısıyam, hələ indiyə qədər səni sifətdə adam görməmişəm. Bilmirəm lotusan, mollasan, dərvişsən, aşıqsan, ya nəsən.

Xəstə Qasım bayaqkı məsəldən alımını almışdı. Elə bil başına qaynar qazandan su tökmüşdülər. Daha bir söz demədi. Üz tutdu geriyə. Birbaş Mirzəli xanın yanına gəldi. Mirzəli xan gördü, Xəstə Qasımın qanı yaman qaradı, çırtma vursan qanı tökülər. Soruşdu ki, nə olub. Xəstə Qasım əhvalatı danışdı. Mirzəli xan dedi:

– Xəstə Qasım, indi mən hansı evə getsəm, sən də o evə gedəcəksən.

Xəstə Qasım razılaşdı. Mirzəli xan adamları ilə bir yerdə hacı İsmayılın evinə gəldi. Hacı baxdı ki, gələn Mirzəli xandı, nökərə, qarabaşa hay vurdu. Xanı, adamlarını necə lazımsa qarşıladılar, samovar qaynadan kim, qoyun kəsən kim, plov qazanı asan kim. Xülasə, bir vurhavur düşdü. Qonaqlar əyləşdi. Ancaq Hacı gördü, o bayaqkı əcayib geyimli adam da Mirzəli xanın yanındadı. Üzə bir söz deməsə də, ürəyində qəzəbləndi ki, bu cinə-şeytana oxşaqlı şeyi haradan tapıb gətirdilər.

Mirzəli xan Xəstə Qasımı öz yanında əyləşdirmişdi. Ortalığa süfrə salındı, xörək gəldi. Hamı bismillah deyib əl uzatdı süfrəyə. Mirzəli xan baxdı ki, Xəstə Qasım yemir, səbəbini soruşdu. Xəstə Qasım dedi:

– Bu Hacı məni allah qonağı eləməyib, mən necə onun süfrəsində çörək kəsim.

Hacı bir Xəstə Qasımın sir-sifətinə, bir ger-geyiminə baxdı, üz tutdu Mirzəli xana ki:

– Mirzəli xan, sən xan adamsan, əməlli-başlı adamlarla oturub-durursan. Bu cinə-şeytana oxşar şeyi hardan tapıb gətirmisən?

Mirzəli xan dedi:

– Hacı, işin yoxdu, qoy, o, nə istəyir eləsin. Mən onu yanımdan heç yana buraxa bilmərəm. Çünki bu neçə gündə evimdən-eşiyimdən ona görə olmuşam.

Mirzəli xan çox dedi, Xəstə Qasım az eşitdi, süfrəyə əl uzatmadı, dedi:

– Mirzəli xan, sinəmə bir xanə söz gəlib, icazə ver deyim.

– Buyur.

Xəstə Qasım sazı köynəkdən çıxardı. Hacı qayıtdı ki:

– Lənət şeytana, süfrənin üstündə bu şeytan çömçəsini hardan çıxardı?

Mirzəli xan buyurdu ki, Hacı, işin olmasın, qoy sözünü desin.

Xəstə Qasım aldı təcnis üstündə görək nə dedi:

*Gözəllər gözəli şahi-gülbədən*
*Həsrət çəkdim mah camalın görüncə.*
*Aşıq deyər görüncə,*
*Zülfi-muyin görüncə,*
*Mərd igidə qurban ol,*
*Namərd üzün görüncə.*
*Mina boylu, tuti dilli dilbərim*
*Hilal qaşlar çəkilibdi, gör, incə.*

Hacı gördü Xəstə Qasım gözəldən, zülfdən danışır, dedi:

– Mirzəli xan, mən bayaqdan dedim, bu cini-şeytanı hardan tapıb gətirmisən. İndi bu Allahın süfrəsinin üstündə başlayıb gözəldən, dilbərdən, zülfdən danışır.

Xəstə Qasım soruşdu:

– Hacı, neçə yaşın var?

Hacı dedi:

– Altmış.

– Altmış ilin hacısısan, ancaq hələ yarımçıqsan. Bilmirsən, mən hansı gözəldən danışıram. Mən sən dediyin gözəllərdən danışmıram, gözəllər gözəlindən, yəni Məhəmməd peyğəmbərdən və imamız Əlidən danışıram. O adamlardan ki, Allah-taala insanı yaradanda ilk dəfə gözəlliyi onlara verdi.

Hacı susdu bir söz demədi. Xəstə Qasım sözün arxasını ərz elədi:

*Könül gedər həqiqətin evinə*
*Həqiqətin, mərifətin evi nə?*

*Aşıq deyər evi nə?*
*Xanəsi nə, evi nə?*
*Yığıb qəmlər yağışı,*
*Viran könlüm evinə.*
*Qədəm basma bir namərdin evinə*
*Gözü çıxar bir qonağı görüncə.*

Hacı gördü, yox, bu xına o xınadan deyil. Xəstə Qasım hacının onu qapıdan qovduğunu üzünə vurdu, başladı üzr istəməyə. Dedi, bir səhvdi eləmişəm, bağışla məni. Bu birisi tərəfdən də Xəstə Qasım fikirləşdi ki, nə düşmüsən bu çöllərə, nə gəzirsən hacının evində ki, səni də qapıdan qova. Ona görə də götürüb sözünü belə tamamladı:

*Çoxu gəldi, meyl elədi a vara*
*Yüz dolanan yenə qaldı avara.*
*Aşıq deyər avara,*
*Məcnun gəzər avara,*
*Uyma namərd felinə*
*Səni qoyar avara.*
*Xəstə Qasım, nə gəzirsən avara?*
*Ölüm yeydi bu günləri görüncə.*

Hacı bir daha üzr istədi, bildirdi ki, Xəstə Qasımı tanımayıb. Onlara yaxşı hörmət göstərdi.

Gecəni yatıb sübh tezdən yola düşdülər Şeşpərin şəhərinə. Neçə gün yol gedib axır ki, şəhərə çatdılar. Xəstə Qasım fikirləşdi ki, onun hüzuruna getdiyi hamısı böyük adamlardı, gərək özünü bir yaxşı sifətə sala. Belə qərara gəldi ki, gedib bir yaxşı saz alsın, üzünü-başını qırxdırıb təmizlənsin, sonra müşseyidin hüzuruna varid olar. Oydu ki, Mirzəli xandan icazə alıb əvvəl-əvvəl bir sazbəndin yanına gəldi.

– Sazbənd əmi, salam.

Sazbənd gördü qapıda bir adam peyda oldu, ancaq ömründə bu geyimdə, bu şəkildə adam görməyib. Oturub əlində saz düzəldirdi. Altdan yuxarı tərs-tərs Xəstə Qasıma baxdı, dedi:

– Əleykimə-salam, əə, qoçu!

Xəstə Qasım sazbəndin nə demək istədiyini başa düşdü, amma özünü o yerə qoymadı.

– Mən qoçu deyiləm.

– Yaxşı, əleykimə-salam, əə, dərviş!

– Mən dərviş də deyiləm.

– Yaxşı, onda əleykimə-salam, əə, molla.

Xəstə Qasım gördü yox, bu göftügu uzun çəkəcək. Ona görə də kəsəsi dedi:

– Usta, tələsirəm, mənə yaxşı bir saz ver, hesabını de, çıxıb gedirəm.

Sazbənd güman elədi ki, yəqin, bu təhər-tövürdə adam ağıllı-başlı adam olmaz, nə bilər sazın yaxşısı hansıdı, pisi hansıdı. Hayıf eləyib yaxşı sazı buna vermək olmaz. Yöndəmsiz bir saz götürüb verdi Xəstə Qasıma. Ustanın davranışından Xəstə Qasımın ağlı bir şeyi kəsmədi. Sazı alıb mizrabı simə bir vurdu, iki vurdu, gördü simlər çivisi çıxmış araba cırıltısı verir. Dedi:

– Usta, xahiş eləyirəm, mənə yaxşı bir saz ver, məni ləngitmə, getməliyəm.

Xəstə Qasım gördü, sazbənd öz işindədi, heç vecinə də almır ki, bu gecikir, getməlidi, ya yox. Bir tərəfdən də düşündü ki, bu məqamda cəhl eləməyin də yeri yoxdu. Gərək bir təhər şirin dillə ustanı başa sala, sazı alıb gedə. Çünki Mirzəli xan onu gözləyirdi. Sazbəndin verdiyi yöndəmsiz sazı sinəsinə basıb görək onu necə başa saldı:

*Usta, məni gözlərinə fəda qıl,*
*Səndən saz istərəm, amma saz ola!*
*Dindirəndə imran dillə danışa,*
*Şeyda bülbüllər tək xoşavaz ola!*

Usta gördü yox, bu, deyəsən, o, təsəvvür etdiyi kimi də deyil. Sazdan-sözdən başı çıxan adamdı. Diqqətlə qulaq verməyə başladı.

*Yamanı yamana, yaxşını mərdə,*
*Tərifini edim hər düşən yerdə,*
*Dolaşmaya simlər, vurmaya pərdə,*
*Gözəllər tək onda işvə, naz ola!*
*Xəstə Qasım, sözüm söylərəm əyan,*
*Elə car eylərəm, bəyanbəbəyan.*
*Qiymətin soruşsan, tamam on tümən,*
*Nə ondan çox ola, nə də az ola!*

Usta baxdı ki, bu çox arif adamdı, özü də sazdan-sözdən çox yaxşı başı çıxır. Ürəyində tutduğu işə peşman oldu, amma üzə

vurmadı. Yaxşı bir saz seçib Xəstə Qasıma verdi. Pulunu alıb,– yaxşı yol, –dedi. Xəstə Qasım oradan bir dəllək dükanına gəldi ki, üzünü qırxdırıb getsin Mirzəli xanın yanına. Baxdı, gördü dəlləkxanada növbədi, oturub gözlədi. Növbəsi gəlib çatanda dəlləyin qabağında oturdu. Dəllək yekəpər bir adam idi. Ülgücü bülövə sürtüb başladı Xəstə Qasımın başını qırxmağa. Ülgücü bir çəkdi, iki çəkdi. Xəstə Qasımın gözlərindən yaş axmağa başladı. Ağrının şiddətindən hər dəfə dəllək ülgücü çəkdikcə elə bil o dünyaya gedib gəlirdi. Güzgüdə fikir verdi, gördü başının heç yarısı qırxılmayıb, amma başı dümağ pambığın içərisindədi. Dəllək hər dəfə ülgücü çəkəndə başından kotan kimi bir şırım açır, sonra da kəsilən yerə pambıq döşəyir. Gördü ki, balam, belə getsə, başında sağ tutar qalmayacaq. Yapışdı dəlləyin biləyindən, qalxdı ayağa, dedi:

– Allah evini yıxmasın, başımdan tük biçib pambıq əkirsən.

Dəllək saldı səsinin yoğun yerinə, Xəstə Qasımı borclu çıxartdı. Xəstə Qasım baxdı ki, bununla elə-belə qurtarmaq mümkün deyil, dedi:

– Dəllək, Allah atana rəhmət eləsin, sən haqlısan, amma sinəmə iki kəlmə söz gəldi, qulaq as deyim:

*Şeşpərdə bir usta gördüm,*
*Baş qırxanda zol çıxardır.*
*Ətindən az-az götürür,*
*Dərisindən bol çıxardır.*
*Ayağını qoyur qoşa*
*Ülgücünü çəkir daşa,*
*Elə zorba gəlir başa,*
*Kənkançıya dol çıxardır.*

O zaman ki, Xəstə Qasım növbəyə oturmuşdu bir adam dişini tuta-tuta gəldi ki, usta ölürəm, bu zəhrimarı çək tulla, qoy canım qurtarsın. Dəllək onu oturtdu mizə, kəlbətini götürdü, bir güc gəldi, iki güc gəldi, diş çıxmadı. Çox çək-çevirdən sonra axırda basıb yazığın qolunu çıxardı. Ona görə Xəstə Qasım sözünün mabədinə belə davam elədi:

*Bir fitəsi vardı bezdən*
*Taqətimi kəsib dizdən,*
*Qanlı yaşlar tökür gözdən,*

*Diş çəkəndə qol çıxardır.*
*Ülgücünü çapışdırır*
*Suyu tasdan qapışdırır,*
*Kəsir, pambıq yapışdırır,*
*Başımızdan kol çıxardır.*
*Gedibdi ağlı huşundan*
*Xəbəri yox yoldaşından,*
*Sanki adamın başından*
*Tikmədaşa yol çıxardır.*

Usta gördü, bu adam əməlli-başlı şairdi, hələ yanında saz da var. Yəqin etdi ki, hər kimsə aşıqlığı da var. Məclis-mərəkə adamıdı. Öz-özünə dedi:

– Əgər bu söz-söhbəti gedib bir yerdə danışsa, vay mənim halıma, dilə-dişə düşüb aləmdə biabır olacağam. Aşıq tayfası da dildən yüyrək olar. Bitin ayağına birə bağlayır. Birinin üstünə də beşini qoyacaq.

Gördü, ayrı əlac yoxdu, başladı yalvarmağa:

– Aşıq, başına dönüm, bir qələtdi eləmişəm, bu söhbəti heç yerdə danışma.

Xəstə Qasım dedi:

– Yaxşı heç yerdə danışmaram. Bircə toyda danışaram, bircə də vayda. Amma aman ver sözü tamama yetirim.

Xəstə Qasım fikir vermişdi ki, dəlləyin ülgücünü tamam pas tutub, allah bilir, nə vaxtın ülgücü idi. Birdə hər dəfə Xəstə Qasım əlini cibinə atanda dəllək baxırdı ki, görsün cibindən pul çıxardır. Odur ki, sözünü böylə tamama yetirdi:

*Bu usta necə ustadı,*
*Ülgüc, büləyü pasdadı,*
*Xəstə Qasım can üstədi,*
*Elə bilir pul çıxardır.*

Elə ki, Xəstə Qasım saz aldı, bir təhər üz-başını qırxdırdı, üst-başını sahmana saldı birbaş Mirzəli xanın yanına gəldi. Bildirdi ki, müşseyidin yanına getməyə hazırdır. Birlikdə müşseyidin hüzuruna gəldilər. Mirzəli xan müşseyidə təqdim elədi.

Bəli, elə ki, müşseyid Xəstə Qasımı tanıyıb bildi, ona dedi:

– Oğul, budu, neçə vaxtdı səndən böyük şikayət yazılıb. Sən heç bir yeri oxumaya-oxumaya min cür işlə məşğul olursan. Alimlik, mollalıq, qazılıq edirsən. Hətta xəbər gedib Şah Abbasa

çatıb. İndi mənim hüzurumda səni imtahan edəcəklər. Cavab verə bildin, mən sənə elə bir sənəd verəcəyəm ki, nə işlə istəyirsən get məşğul ol, yox əgər cavab verə bilmədin özündən küs.

Müşseyid Xəstə Qasıma icazə verdi ki, gedib dincəlsin. Sabahı gün məclis qurulacaq, sual-cavaba hazır olsun.

Sizə kimdən deyim mollalardan, qazılardan, alimlərdən. Elə ki, Xəstə Qasımın gəlmək xəbərini eşitdilər səhəri gün tezdən hamısı tökülüb gəldi müşseyidin iqamətgahına.

Hamı cəm oldu, məclis quruldu. Müşseyid əvvəl mollaları hüzura çağırdı:

– Mollalar!

Mollalar yerbəyerdən cavab verdilər:

– Bəli, ağa müşseyid.

– Əvvəl siz Xəstə qasımı sorğu-suala tutacaqsınız. Neçə müddətdi şikayət yazırsınız, indi nə sualınız var verin.

Mollalar dedi:

– Ağa müşseyid, qoy bu, əvvəl-əvvəl bizə desin görək adı doğru-dürüst nədir?

Müşseyid təəccübləndi:

– Necə yəni, bunun adı Xəstə Qasım deyilmi?

Xəstə Qasım dedi:

– Ağa müşseyid, mollalar düz buyurur, mənim bir neçə adım var. Onlardan biri Baba Qasımdı, biri Dədə Qasımdı, biri Aşıq Qasımdı, biri Molla Qasımdı, biri Azar Qasımdı, biri də Xəstə Qasımdı…

– Oğul, bir düjün adı asmısan boynundan, neynirsən onları bu qədər?

– Ağa müşseyid, mənim adım Dədə Qasımdı ona görə ki, çoxlu atalar sözü deyirəm, Baba Qasımdı ona görə ki, mən yerin altını da bilirəm, üstünü də, Aşıq Qasımdı ona görə ki, aşıqlıq eləyirəm, Molla Qasımdı ona görə ki, mollalıq eləyirəm, Azar Qasımdı ona görə ki, bir adam mənimlə mübahisəyə girsə, cəhl eləsə, canına elə üşütmə salaram ki, onu azar tutar, Xəstə Qasımdı ona görə ki, istəsəm birinin canına vahimə salıb xəstələndirərəm.

Xəstə Qasım adının mənasını izah edəndən sonra mollalar sorğu-suala başladılar. Bir gün gecə-gündüz tamam onu imtahan elədilər, amma hardan sual verdilər Xəstə Qasım ordan cavab verdi. Axır dedilər:

– Sən deyirsən mən haq vergisiyəm, bir Quranı əlimizdə tutub barmağımızı müxtəlif ayələrin üstündə gəzdirəcəyik, sən kənarda dayanacaqsan. Əgər doğrudan da, haq vergisisənsə, Qurana baxmadan bizim barmağımızı hansı ayənin üstündə saxladığımızı deməlisən.

Xəstə Qasım razılaşdı, amma bildirdi ki, onlar əllərini Xəstə Qasım ayəni deyib qurtarana qədər onun üstündə saxlasınlar. Mollalar Quranı götürüb açdılar, istədikləri ayənin üstündə əllərini gəzdirməyə başladılar. Xəstə Qasım ayələri şeirlə deməyə başladı:

*Əzəl bismillahdı nameyi-allah,*
*Göydən yerə endi əhsənül-xaliq.*

Xəstə Qasım gördü, mollalar əllərini bir ayənin üstündə axıra qədər saxlamırlar. Bir ayəni deyib qurtarmamış o birisinə keçirlər ki, Xəstə Qasım çaşsın. Ona görə də ayələri bütöv deməyə macal tapmayıb onların hərəsinə bir misrada, ya da bir kəlmədə toxunmalı oldu:

*Doxsan min kəlməni tamam eylədi,*
*Orda nə buyurdu əhsənül-xaliq.*

*Dörd kitabdı dəlil gəldi aləmə,*
*Hərcət, həvvəst, hüddük onu bilənə,*
*Safəst, qərzəst, zəzil saldı aləmə*
*Fatəbərəkətdi əhsənül-xaliq.*

*Sureyi-əlhəmdə quruldu binnət*
*İrrəhman-irrəhim, ayeyi-rəhmət,*
*Yusəbbim, hülullah paki-zəlsifət*
*Ayeyi-Quranda əhsənül-xaliq.*

*Xəstə Qasım deyər fəhm edə bilməm,*
*Bəraət Yasindi fəhm edə bilməm,*
*Bu dünya işini fəhm edə bilməm,*
*Özün qismət eylə əhsənül-xaliq.*

Mollalar gördü, Xəstə Qasımı çaşdırmaq mümkün olmadı. Əlacsız qalıb sorğu-sualı qurtardılar. Müşseyid istədi onları mürəxxəs edə. Xəstə Qasım üz tutdu müşseyidə:

– Ağa müşseyid, axı, bunlar məni aftafanın ağzından salıb lüləyindən çıxardılar. Olarmı beş-altı kəlmə də mən bunlardan soruşum?

– Olar, buyur, ancaq de görüm, sən də onlardan bir sutkamı soruşacaqsan?

Xəstə Qasım cavab verdi:

– Xeyr, ağa müşseyid, mən sizin vaxtınızı çox ala bilmərəm. Bunların hamısından bir yerdə bir-iki qatar şeirlə beş-altı kəlmə söz soruşacağam.

Müşseyid mollalara işarə verdi ki, yerlərindən durmayıb suala cavab verməyə hazır olsunlar.

Xəstə Qasım üzünü mollalara tutub bu qıfılbəndi ərz elədi:

*On beş qazı bir səhrada əyləşib,*
*Hərənin bir taxtda xub qərarı var.*
*Nəyinən bağlanıb, nəynən açılıb?*
*Üç cəsəd, beş gərdən, altı səri var.*

Müşseyid baxdı mollalara:

– Mollalar, cavab verin!

Mollalar qaldı məəttəl, bir-birlərinin üzünə baxdılar.

Xəstə Qasım arxasını dedi:

*O nədir ki, gündə gedər üləma?*
*Neçəsi gedər, neçəsi gələr salama?*
*Zahirdədi, pünhan deyil aləmə,*
*Səddi beydi səddi həştad yolu var.*

*Bu sözlərdi Xəstə Qasımdan amal,*
*Aşıqlar baş tapmaz nə sahib kamal,*
*Yığılsa alimlər, şərqinən şimal*
*Aça bilməz, açsa zor hünəri var.*

Mollalar bir-bir əkilməyə başladılar. Müşseyid dedi:

– Neçə müddətdi kişinin əlindən yazırsınız ki, belə savadı yoxdu, heç nə bilmir, indi cavab verin.

Mollalardan səs çıxmadı. Xəstə Qasım dedi:

– Ağa müşseyid, bəlkə, bir başqasını deyim, ona cavab versinlər.

– Buyur.

Xəstə Qasım sazı sinəsinə basıb o birisi qıfılbəndi ərz elədi:

*İki əbru arasında*
*Altı kaf, yeddi lam gördüm.*
*Kafın, lamın mərkəzində*
*Sirri-Quran tamam gördüm.*

*Yüz min xandı, yüz min yavər*
*İntizarın açmaz dərhər,*
*Taxt üstə üç min peyğəmbər*

*6666 əməlini gördüm.*
*Bəyəndim çardeyi-məsimi,*
*Xalq bəyənsin xilasımı,*
*Sidqinən Xəstə Qasımı*
*Onda kəmtər qulam gördüm.*

Söz tamama yetdi. Müşseyid bir də baxdı ki, içəridə molla qalmayıb. Əmr verdi, mollalar hamısı geri qayıtdı. Üz tutdu onlara ki, siz indiyə qədər hökuməti aldatmısız, xalqı aldatmısız. İndi məlum oldu ki, sizin savadınız yox imiş. Bu gündən sizə mollalıq eləməyi qadağan edirəm. Bəratınız, qövlünüz, hər nəyiniz var tökün yerə. Mollalar dinməz-söyləməz sənədlərini tökdülər müşseyidin qabağına. Müşseyid buyruq verdi, mollalar mürəxxəs oldular. Müşseyid üz tutdu qazılara:

– Qazılar, hüzura!

Qazılar hamısı gəlib müşseyidin hüzurunda əyləşdilər.

– Nə sualınız var verin!

Qazılar sorğu-suala başladılar. Deyərlər, sorğu-sual bir gecə-gündüz davam elədi. Qazılar şəriətdən, qanundan, qaydadan, qeyri şeylərdən nə bilirdilər soruşdular. Nəhayət, sorğu-sualın başa çatdığını bildirdilər. Xəstə Qasım mollaları imtahan elədiyindən müşseyid fikirləşdi ki, yəqin, onun qazılardan da sorğusu olacaq. Ona görə də soruşdu:

– Oğul, sənin də qazılara sualın varmı?

– Bəli, ağa müşseyid, mümkünsə beş-altı kəlmə də mən soruşum.

– Buyur.

Aldı Xəstə Qasım görək qazılara nə dedi, onlardan nə soruşdu:

*Ay ağalar, ay qazılar,*
*Göy çadırda duran kimdi?*
*Haqqı, mizan-tərəzini*
*Puli-sirat quran kimdi?*

Qazılar qaldı məəttəl. Müşseyid dedi:

– Arxasını de, bala.

*Nanə qılın qul kafəni*
*Harda dörd mələk məkanı?*
*Dəryanın üstə kotanı*
*Fələk qoşub, sürən kimdi?*

Qazılar yenə cavab verməyib dedilər:

– Ağa müşseyid, bu ağlına gələni danışır. Kim dəryanın üstə kotan qoşub yer sürə bilər, axı, belə bir şey mümkün deyil.

Müşseyid üz tutdu Xəstə Qasıma:

– Oğul, cavab ver.

Xəstə Qasım sözünün mənasını izah elədi:

– Dünya yarananda əvvəl-əvvəl yetmiş min il çərx üstündə hərəkət etdi, otuz beş min il çınqıllı hərəkətdə oldu, otuz beş min il isə buzlu hərəkətdə, dünyada heç bir yaşayış olmadı. Elədirmi, ağa müşseyid?

– Bəli, elədir.

– Sonra Allah-taala işıqdan qaranlığı seçmək üçün Dərdail məlaikəni xəlq etdi. Gecə üçün ayı, gündüz üçün günəşi yaratdı, amma ay və günəş hərəkətsiz qaldı. Cənab Əli Allahın buyruğu üzrə aya və günəşə məqam verdi. Aya dedi, sən qərbdən, günəşə dedi, sən şərqdən hərəkət edəcəksən. Ay gecə hərəkət edəndə qorxdu, qaçmaq istədi. Ona görə də Allah-taala yeddi ülkər ulduzu yaradıb ona köməkçi və gözətçi verdi ki, daim ayın arxasınca gəzsinlər. Daha sonra Allah qurunu sudan ayırdı. Bütün yer üzü su idi. Allahın hökmü ilə yer üzünün üçdə birindən su çəkildi və quru əmələ gəldi. Daha sonra insan yer üzündə qərar tutdu və özünü dolandıra bilsin deyə fələyin hökmü ilə yer əkməyi öyrəndi. Bax, mən onu deyirəm ki, yer üzü əvvəl su idi, sonra həmin su olan yerdə torpaq əkildi, məhsul hasil edildi.

Müşseyid Xəstə Qasımın sözlərini təsdiq etdi. Xəstə Qasım sözünü tamama yetirdi:

*Xəstə Qasım bir deyilsən,*
*Sən insansan sirr deyilsən*
*Haqq sirrin bilən deyilsən,*
*Sirri səndən soran kimdi?*

Qazılar cavab verə bilmədilər, mollaların halını görmüşdülər, ona görə də canlarını titrətmə tutdu. Xəstə Qasım baxdı ki, qazılar tir-tir əsirlər, dedi:

– Ağa müşseyid, mənim bir adım ona görə Azar Qasımdır ki, mənim qorxumdan adamın canını titrətmə tutur, necə ki, indi bu qazıların canını tutub. Müşseyid dedi:

– Bəlkə, bir ayrısını deyəsən, ona cavab verələr.

– Baş üstə!

Xəstə Qasım ikinci qıfılbəndi dedi:

*Bir səhrada on yeddi qazı əyləşib*
*Onun taxt üstündə xub qərarı var.*
*Birisində doxsan iki əl gördüm,*
*Bir cəsəd, üç gərdən, altı səri var.*
*Səksən min molladı, səksən min seyid,*
*Səksən min xiyaban, səksən min meyid,*
*Yazıb cəmləyəni səksən min şahid*
*Səksən min şahidin beş məzarı var.*
*Beş məzardan qalxar yeddi əlamət,*
*Verməz bir-birinə macali-möhnət.*
*Hər kimdə istəsə kəndinə şöhrət*
*Zərrə qədər ona simu-zər var.*
*Xəstə Qasım sözün yetdi tamama,*
*Gün batan, gün doğan gəlsin salama.*
*Nə alim işidi, nə də üləma,*
*Təcnis mənasında zor hünəri var.*

Qazılar bu qıfılbəndə də cavab verə bilmədilər. Müşseyid acıqlandı:

– Siz də indiyə qədər hökuməti, camaatı aldadırmışsınız, bu gündən sizə də qazılıq etməyi qadağaq edirəm. Tökün sənədlərinizi hər nəyiniz var!

Qazılar qazılığa aid hər nə kağız-kuğuzları var idi tökdülər müşseyidin qabağına, onun göstərişi ilə hüzurdan mürəxxəs oldular. Müşseyid buyuruq verdi:

– Alimlər, hüzura!

Alimlər hamısı gəlib yerbəyer oldular, başladılar Xəstə Qasımı imtahan eləməyə. Elmin köklərindən, ərşdən-gürşdən hər nə bilirdilər sual verdilər. Müşseyid gördü, alimlər Xəstə Qasıma hardan deyirlər, ordan cavab verir, elə bil hər şeyi öz əli ilə yazıb. Yəqin elədi ki, doğrudan da, o, haqq vergisidi. Bir sutkanın tamamında alimlər bildirdilər ki, bəs, suallarını qurtardılar. Müşseyid soruşdu:

– Oğul, sənin bunlara nə sualın var?

Xəstə Qasım dedi:

– Ağa müşseyid, mənim sualım çox az olacaq.

– Buyur!

Xəstə Qasım üz tutdu alimlərə:

*Hikmət məskənində əyləşən alim*
*Əvvəl mənə yamənhudan xəbər ver!*
*Ərşin sütununda, merac evində,*
*Bu gün orda göftügudan xəbər ver!*

Alimlər onun sözünü kəsdilər:

– Ağa müşseyid, bu yalan danışır, qoy desin görək Allahın dərgahına kim gedib ki, bu gün orda nə söhbət getdiyini də bilə.

Müşseyid dedi:

– Bala, cavab ver!

– Ağa müşseyid, qoy onlar Quranın filan səhfəsini açsınlar.

Alimlər Quranın həmin səhifəsini açdılar. Xəstə Qasım dedi:

– Həmin səhifəni oxusunlar. Orda yazılıb ki, Allahın sağında neçə min mələkə əyləşib, solunda neçə min. Allah-taala yerə baxır, görür, onun yaratdığı bəndələr şər işlərlə məşğul olur, adam öldürür, oğurluq edir, yalan danışır, yol kəsir, nə bilim ayrı nə bəd işlərlə məşğul olur. Onda Allahın qəzəbi tutur, solundakı məlaikələrə deyir:

– Buraxın mənim qəzəbnak möcüzatlarımı, qoyun yer üzünü qəhr eləsin, bu insanları mənim gözüm görməsin.

Onda sağdakı məlaikələr deyir:

– Ya Allah, sən qadirsən, səbirlisən, yer üzünü, cəmi məxluqatı səbrlə yaratmısan. Beş nəfər axmağa görə dünyanı qəhr eləmək olmaz!

Allah-taala onların sözünü eşidir və dünyanı məhv etməkdən çəkinir. Bu söhbət hər gün Allahın dərgahında təkrar olunur, elədirmi?

Alimlər baxdılar gördülər, doğrudan da, Quranda bu cür yazılıb.

Dedilər:

– Elədir.

Xəstə Qasım sorğu-suala davam elədi:

*O kim idi yerə vurdu mayanı?*
*Yer istiykən bərkitdi səng qayanı?*
*Bir nöqtədi küllü-elmin bəyanı,*
*Həfti, həşti, sirri-dudan xəbər ver!*

*O kim idi zərnişanı oxudu?*
*O kim idi kimə kəfən toxudu?*
*Adəmdən qabağda siğə yox idi.*

*Vəzənvəşdü ənkəhdüdən xəbər ver!*

Burda Xəstə Qasım nigah məsələsinə toxundu. İlk dəfə Adəmlə Havvanın nigahını Allahın buyruğu ilə Cənab Əli oxudu və iki qanın halallığı ordan yarandı.

*O kim idi peyğəmbərə əshabə?*
*O kim idi apardılar qəssabə?*
*Xəstə Qasım yetik deyil hesabə,*
*Bərrü bəhrü səngi-sudən xəbər ver!*

Alimlər qaldılar naçar, sözü aça bilmədilər, mati-məəttəl baxdılar bir-birinin üzünə. Alimlər nə qədər Xəstə Qasımı incitsələr də, onların bu halını görəndə ürəyi yumşaldı, yazığı gəldi, ürəyində fikir elədi ki, yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi, bir yüngülvari sual da versin. Bəlkə, buna cavab verə vəziyyətdən çıxalar. Dedi:

– Ağa müşseyid, olarmı bir-iki sual da verim?

Müşseyid icazə verdi. Xəstə Qasım aldı görək nə dedi:

*Beş yaşından on beş yaşa varanda,*
*Beşin atdım, beşin tutdum, beşi nə?*
*Haqq tərəfdən doğru rahə yetişdim,*
*Mayil oldum ənbiyanın beşinə.*

*Ömrü bənzər dağ başında dumana,*
*Qətrə ikən sən də yetiş ümmana.*
*On beş şeydi vacib oldu insana*
*Beş sludin, beşi firudin, beşi nə?*

*Xəstə Qasım qaldı həyat içində,*
*Gələr, gedər sonu məmat içində*
*On beş şey sallandı salat içində*
*Beşi oruc, beşi namaz, beşi nə?*

Alimlər buna da cavab tapa bilmədilər. Müşseyid dedi:

– Alimlər, siz də hökuməti, camaatı aldatmısız, bu gündən sizə alimlik eləməyi qadağan edirəm.

Müşseyid onların da sənədlərini əllərindən aldı. Sonra xitab elədi Xəstə Qasıma:

– Oğul, sən haqq vergisi olduğunu sübut elədin. Mollalığa, qazılığa, alimliyə layiq olduğunu göstərdin. Daha mənim sənə şübhəm qalmadı. Səni doğan ananın üzü ağ olsun. İndi sənin əlinə sənəd verəcəyəm, o yerdə ki, Şah Abbasın hökmü işləyir, nə işlə istəsən məşğul ola bilərsən. Amma bir məsələ var. Üç sutkadı səni

mollalar, qazılar, alimlər imtahan eləyir. Olarmı bir-iki şey də mən soruşum?

– Bəli, niyə olmur ki, ağa müşseyid!

Müşseyid soruşdu ki, əvvəl kim yarandı, insan cəmiyyəti kimdən törəyib artdı. Xəstə Qasım cavab verdi:

*Əvvəl-əvvəl bu dünyaya*
*Adəm ata, Həvva gəldi.*
*Hökm olundu ilahidən,*
*Yerə abır-həya gəldi.*

– Yaxşı, bəs, Quran necə nazil oldu. Şahi-Mərdana kim dayəlik elədi?

– Ağa müşseyid, qulaq as:

*Kimlər idi qıldı sayə?*
*Kimlər əl götdü xudayə?*
*Məhəmməd əl-Mustafayə,*
*Kəlmə-kəlmə ayə gəldi.*

*On iki dəstdi gülümüz*
*Gətirdi kəlmə dilimiz,*
*Şahi-Mərdandı pirimiz*
*Salman ona dayə gəldi.*

– Bəs, o kimdi ki, behiştdən Allah-taala ona ənam olaraq libas göndərdi:

*Xəstə Qasım tutar yası,*
*Silinsin könlümün pası.*
*Behiştin bir dəst libası*
*Fatmeyi-Zəhrayə gəldi.*

Müşseyid yenə Məhəmməd əl-Mustafadan, Əlidən, Fatimeyi-Zəhradan, onlarla bağlı hədislərdən, çətin bildiyi yerlərdən suallar verdi. Xəstə Qasım səbrlə qulaq asıb sonra sualların hamısına bir yerdə belə cavab verdi:

*Gələndə bizlərə heydari-kərrar*
*Yetirdi Xeybərə Yadullahını.*
*Əgər ki, Cəbrayıl tutmasa şəhpər,*
*Seyfullah dağıdardı gavi-mahını!*

*Əli Düldül mindi, Məhəmməd Büraq,*
*Ərənlər sərdarı, ya çeşmi-çıraq*
*Abuzər Əlini eylədi qonaq,*
*Qırx yerdə əylədi mənzilgahını!*

*Yığıldı məxluqat, durdu üzbarı,*
*Fatimə onlara çox gördü karı.*
*And içdi allaha mən ollam tarı*
*Mövlə yan qoymayıb qədəmgahını.*
*Bəyənilsin Xəstə Qasım xilası,*
*Düldülün sahibi, Qəmbər ağası,*
*Cəbrayıl vəhy gətdi çəkmə bu bəsi,*
*Əli ərşdə vurur sənglahını.*

Müşseyid Xəstə Qasıma əhsən dedi, onu yanına çağırıb əlini sıxdı, alnından öpdü, sonra dedi:

– Yaxşı, oğul, məni agah et görüm sən, doğrudan da, məktəb oxumusanmı? Deyirlər, sən heç bir məktəb oxumamısan. Əgər oxumamısansa, bu qədər elmi, biliyi harda almısan?

Xəstə Qasım cavab verdi:

– Oxumuşam, ağa müşseyid!

– Hansı məktəbdə oxumusan?

– Əbu Talıb məktəbində.

– Onda qoy bu mollaları, qazıları, alimləri də göndərək gedib o məktəbdə oxuyub savadlarını artırsınlar.

Xəstə Qasım güldü:

– Ağa müşseyid, o məktəb hər adama qismət olmaz.

– Niyə ki?

– Çünki o, Məhəmmədlə Heydari-kərrar məktəbidir. O məktəbdə oxumaq milyonda bir adama nəsib olar.

Müşseyid yenə bir şey başa düşmədi. Xəstə Qasım bunu hiss eləyib fikrini sazla-sözlə izah elədi:

*İbtida ustaddan dərsim alanda*
*Qəlbimə yazıldı əhsənül-xaliq.*
*Oxuyub məktəbdə kamil olanda*
*Dilim dua qıldı əhsənül-xaliq.*
*Oxudum dərsimi aldım maşallah*
*Dərsin əzəlində dedim bismillah,*
*Ərrəhman ərrəhim təbərük allah*
*Hər elmin başıdı əhsənül-xaliq.*
*Xəstə Qasım bilir əlhəmdü xuda*
*Qəlbində lafəta olubdu nida.*
*O verdi dərsimi əzəl, ibtida,*
*Fikrimdə iz saldı əhsənül-xaliq.*

Müşseyid mətləbi başa düşdü. Orasını da deyək ki, Xəstə Qasımın saz çalmağı da onun çox xoşuna gəldi. Amma sənətdə saz-söz qadağan olunduğundan bayaqdan fikrində tutduğu sözü indi Xəstə Qasıma dedi:

– Bala, yəqin bilirsən ki, islamiyyətdə saz çalmaq və qeyri musiqi haramdır. Bax, o saz ki, çalırsan, deyirlər, onun deşiklərini şeytan açıb, amma sən çalırsan. Əgər bunu Allahın buyruğundan çıxmaq hesab etmirsənsə, gərək bu məclisdə elə bir şey çalasan ki, məclisə uyğun olsun. Özün bilirsən ki, bu ruhanilər məclisidir. Bu məclisə uyğun bir şey çala bilsən, inanarıq ki, doğrudan da, onu çalmaq sənə haram deyil.

Deyirlər, həmin məclis ruhanilər məclisi olduğundan Xəstə Qasım ilk dəfə orda ruhani havası çaldı və həmin hava üstündə Həzrət Əlinin şəninə bu şeiri oxudu:

*Ərşi zəmin, lövhi-qələm yox ikən*
*Varlığa hamıdan tez gələn, Əli!*
*Ustadlar ustadı özün olubsan,*
*Cəbrail məqamın düz bilən, Əli!*

*Sənin hörmətinə quruldu varlıq,*
*Həyatın zəmzəmi o suyi-dirlik,*
*Səndə nəqş olundu elm və birlik*
*Cəmi dillər ilə söz bilən, Əli!*

*Xəstə Qasım, zərbi-danəndən Əli,*
*Aləmi-zərridə demişəm bəli,*
*Bir ismin Əlidi, bir ismin Vəli*
*Cəmi pünhan dərdi tez bilən, Əli!*

Müşseyid gördü, doğrudan da, istər sazda çalınan hava, istərsə də, oxunan söz məclisin ahənginə çox uyğundur. Xəstə Qasıma «çox sağ ol» dedi. Ona saz çalmağı halal elədi. Öz naibini çağırıb məclis əhlinin gözü qarşısında elə bir sənəd yazdırdı ki, Xəstə Qasım istəsə mollalıqla, istəsə qazılıqla, istəsə alimliklə, istəsə aşıqlıqla məşğul ola bilərdi. Xəstə Qasım da müşseyidə minnətdarlıq elədi, ancaq onu da fikirləşdi, mollalar, qazılar, alimlər nə qədər pislik eləsələr də, onları bu halda qoymaq heç insafdan deyil. Onlara yazığı gəldi, dedi, mən onlara yaxşılıq eləyəcəyəm, sonra mənə pislik eləsələr də, özləri bilərlər. Qoy keçinin ölümü palıddan olsun. Oydu ki, dedi:

– Ağa müşseyid, ürəyimə bir xanə söz gəlib, olarmı ərz eləyəm?

Müşseyid izn verdi. Xəstə Qasım götürüb orda belə dedi:

*Dəli könül, mənnən sənə əmanət,*
*Demə bu dünyada qalım yaxşıdır.*
*Bir gün olar qohum-qardaş yad olar,*
*Demə ulusum var, elim yaxşıdır.*

*Bir məclisə varsan özünü öymə!*
*Şeytana bac verib kimsəyə söymə!*
*Qüvvətli olsan da, yoxsulu döymə!*
*Demə ki, zorluyam, qolum yaxşıdır.*

*Qoçaqdan olubsan qoçaq olginən,*
*Qadadan, baladan qaçaq olginən,*
*Aşıq ol, comərd ol, alçaq olginən,*
*Demə varım çoxdu, pulum yaxşıdır.*

*Xəstə Qasım kimə qılsın dadını,*
*Canı çıxsın özü çəksin odunu,*
*Yaxşı igid yaman etməz adını,*
*Çünki yaman addan ölüm yaxşıdır.*

Müşseyid soruşdu?

– Bala, nə demək istəyirsən?

Xəstə Qasım bir məclisdəkilərə baxdı, bir müşseyidə baxdı, sonra dedi:

– Ağa müşseyid, səndən bir xahişim var!

– Baş üstə, nə xahişin olsa, yerinə yetirərəm.

– Əgər izn versən, mollaları, qazıları, alimləri əfv edib onların sənədlərini özlərinə qaytaraq.

Müşseyid soruşdu:

– Bəs, onların cəzası? Axı, onları cəzasız qoymaq olmaz.

– Onda qoy mollalar hərəsi bir, qazılar hərəsi iki, alimlər hərəsi üç qızıl versin.

Müşseyid götür-qoy elədi ki, bunlar neçə ildi xidmət eləyiblər, bir tərəfdən də Xəstə Qasım özü xahiş edir, eybi yoxdu, deyilən şərtlə onları bağışlasın. Əmr verdi, mollalar hərəsi bir, qazılar hərəsi iki, alimlər hərəsi üç qızıl verdilər. Ustadlar deyir, burda neçə çanaq qızıl yığıldı, hamısı da Xəstə Qasıma çatdı.

Bəli, sorğu-sual qurtardı, məclis tamama yetdi, hamı dağıldı. Xəstə Qasım da istədi müşseyiddən rüsxət alıb öz evlərinə qayıtsın.

Müşseyid Xəstə Qasıma böyük ehtiram göstərdi. Bildirdi ki, hələ bir neçə gün Şeşpərin şəhərində qonaq qalmalıdır. Vaxt çatanda özü onu yola salacaq.

Xəstə Qasımı orda saxlamaqda müşseyidin məqsədi var idi. Bu məqsəd nəydi? Onun nə olduğunu burda qoyaq, sizə hardan xəbər verək Dağıstan vilayətindən. Dağıstan vilayətində kimdən Ləzgi Əhməddən. Elə ki, Ləzgi Əhməd Xəstə Qasımın verdiyi kömbədən yedi, ərşin-gürşün sirrini bildi, ona şairlik təbi verildi, daha dayanmayıb birbaş Dağıstana gəldi. Dağıstanda həm şairliklə, həm də aşıqlıqla məşğul olmağa başladı.

O zamanın adətinə görə bir vilayətdə güclü bir şair olardısa və o, Şah Abbasın bütün şairlərini bağlayardısa, onda həmin vilayət xərac verməkdən azad edilərdi. Ya gərək onu bağlayan bir şair tapılaydı, ya gərək vergi alınmayaydı. Elə ki, Ləzgi Əhməd ortalığa çıxdı ona qabaq nə bir aşıq, nə bir şair tapılmadı. Bir il, iki il axır Şah Abbas baxdı ki, balam, hənək-hənək axırı dəyənək, belə getsə, daha Dağıstan vilayəti vergi verməyəcək. Elan verdi ki, məmləkətdə olan cəmi şairlər, aşıqlar toplaşsın. Elə ki, onlar hamısı toplaşdı kimə daha çox ümidləri gəlirdisə, hamısını seçdilər göndərdilər Dağıstana Ləzgi Əhmədlə deyişməyə, ancaq bir nəticə hasil olmadı. Ləzgi Əhməd onların hamısını bağlayıb geri qaytardı. Yenə Şah Abbas harda yaxşı bir şair, ya aşıq sədası aldısa, göndərdi Dağıstana, yenə bir şey çıxmadı. Beləliklə, Dağıstan vilayəti yeddi il tamam Şah Abbasa xərac vermədi.

Şah Abbas vəzir-vəkilə, müşseyidə, cəmi əyan-əşrəfə elan vermişdi ki, harda ümidləri gələn, yaxşı bir şairdən, aşıqdan tapsalar, ya eşitsələr dərhal ona xəbər versinlər.

Bəli, elə ki, müşseyid Xəstə Qasımı tanıdı, gücünü gördü, fikirləşdi ki, Ləzgi Əhmədin öhdəsindən olsa-olsa bu gələ bilər. Oydu ki, Xəstə Qasımı Şeşpərində saxlayıb Şah Abbasa təcili xəbər göndərdi ki, bəs, mollaların, qazıların, alimlərin əlindən şikayət etdikləri adamı Mirzəli xan gətirdi, mənim hüzurumda imtahan elədilər. Məmləkətin cəmi başbilən mollalarını, qazılarını, alimlərini bağladı. Biz ona möhürlü-imzalı sənəd verdik ki, bu gündən istədiyi işlə məşğul ola bilər. Ləzgi Əhmədin də öhdəsindən gəlsə-gəlsə, bu gələ bilər.

Xəbər Şah Abbasa çatanda adam göndərib Mirzəli xanı hüzuruna çağırdı. Buyruq verdi ki, Xəstə Qasımı da götürüb

Dağıstan vilayətinə getməlisən. Orda Ləzgi Əhmədlə onu deyişdirməlisən ki, bəlkə, canımız dincələ.

Mirzəli xan, - bəçeşm, - dedi. Ancaq əlavə etdi ki:

– Şah sağ olsun, mən ona söz vermişəm ki, əgər mollalara, qazılara, alimlərə qalib gəlsə, ona icazə verəcəyəm özünə toy eləsin, çünki mən onu gətirəndə toya hazırlaşırdı. Özüm də onun toyunda iştirak etməliyəm. İcazə ver toyunu eləsin, üstündən iki-üç ay keçməmiş hara deyirsən gedək.

Şah Abbas icazə verdi. Mirzəli xan qayıdıb Şeşpərin şəhərinə gəldi. Xəstə Qasımı götürüb birbaş Tikmədaş kəndinə varid oldu. Şah Abbasın buyruğunu da ona çatdırdı. Xəstə Qasım göz üstə dedi.

Tikmədaşda Mirzəli xanın iştirakı ilə böyük bir toy məclisi quruldu. Yeddi gün-yeddi gecə toy edib Güllü xanımı Xəstə Qasımın evinə gəlin gətirdilər.

Mirzəli xan Xəstə Qasıma yenə üç ay möhlət verdi və bildirdi ki, üç ayın tamamında gəlib onu aparacaq Dağıstana. Özü İsfahan şəhərinə qayıtdı.

Elə ki, üç ay keçdi Mirzəli xan başının adamları ilə hazır oldu. Xəstə Qasım bilirdi ki, Mirzəli xan gələcək. Ona görə o da tamam-kamal səfərə hazır olub Mirzəli xanı gözləyirdi. Xülaseyi-kəlam, qohum-qonşu, dost-tanış yığıldı, halal-hümmət elədilər. Xəstə Qasım bir də baxdı ki, sevgilisi Güllü xanımla bacısı damın üstə çıxıb boyunlarını bükərək ona baxırlar. Könlü cuşə gəldi, ürəyi az qaldı sinəsindən çıxıb yerə düşsün, qürbət hissi elə bil bir külək olub gəlib doldu vücuduna. Öz-özünə dedi:

– Ey dili-qafil, Dağıstan bura deyil, ora deyil, neçə aylıq yoldu. Birdə yad səfər, bərbad səfər. Gəlin atlandı, ya nəsib, ya qismət. Nə bilir bu səfərdə başına nə gələcək, sağ-salamatmı qayıdacaq. Oydu ki, bir göz qırpımında sazı köynəyindən çıxardı. Sinəsinə basıb görək sevgilisinə, bacısına necə müraciət elədi:

*Mən gedirəm sizi kimə tapşırım*
*Dam üstündə duran sona kəkliklər?*
*Al-yaşıl geyinib zər bəzənibsiz,*
*Nə giribsiz donnan-dona, kəkliklər?*

*Gözəl kəklik daş başında səs eylər,*
*Qaqqaq çəkər bir-biriylə bəhs eylər,*
*Bilmirəm toy eylər, yoxsa yas eylər,*

*Əllər batıb qızıl qana, kəkliklər.*
*Gözəl kəklik dam üstündə durubdu,*
*Gərdən çəkib, necə boynun burubdu?*
*Bərəsində yoxsa ovçu görübdü?*
*Üz tutdular biyabana kəkliklər.*
*Hər ikiniz yaşılbaşlı sonasız,*
*Mənim gizli dərdim pünhan qanasız,*
*Ayrılırıq sağlığınan qalasız*
*Qasım gedir Dağıstana kəkliklər.*

Xəstə Qasım, Mirzəli xan və onun adamları yola düşdülər. Gəlib o yerə çatdılar ki, keçən dəfə Xəstə Qasım dağlara baxıb şeir demişdi. Daha burdan sonra Tikmədaşın bütün dağları gözdən itirdi. Mirzəli xan güman etdi ki, Xəstə Qasım keçən dəfə yolu düşəndə əvvəl-əvvəl sevgilisinə söz qoşdu, sonra gəlib dağlar gözdən ithaitdə dağlara şeir dedi, yəqin, indi də o cür edəcək. Amma sonra gördü yox, Xəstə Qasım çox fikirlidi, heç saz-söz yadına düşənə oxşamır, onu fikirdən ayırdı:

– Xəstə Qasım, deyəsən, bu dəfə heç dağlar yadına düşmədi!

Xəstə Qasım baxdı ki, bu keçən dəfə dağlara söz oxuduğu yerdi. Yenə döndü baxdı vətən dağlarına. Gördü, Mirzəli xan atın başını çəkib, yəni ki, gözləyir görsün Xəstə Qasım bir şeirdən, filandan deyir, ya yox. O da atının başını çəkdi, dağlara baxıb kövrəldi, gəraylı üstə dağlara bu cür salamat qal dedi:

*Nə aralı görünürsən*
*Dağlar, qal indi, qal indi.*
*Gül, çiçəyə bürünürsən,*
*Dağlar qal indi, qal indi.*

– Xəstə Qasım, bu dağlarda sənin nəyin qaldı, axı, heç bu barədə bir söz demirsən.

– Xan, qulaq as!

*Bağça qaldı, bağlar qaldı,*
*Sinəm üstə dağlar qaldı.*
*Güllü yarım ağlar qaldı*
*Dağlar qal indi, qal indi.*
*Bağlı qaldı toy libasım,*
*Anam yoxdu tuta yasım,*
*Ayrı düşdü Xəstə Qasım*
*Dağlar qal indi, qal indi.*

Söz tamama yetdi, yenidən yola rəvan oldular. Ancaq Xəstə Qasım Mirzəli xandan belə bir xahiş elədi ki, harda qəbristanlıq görsələr, icazə versin Xəstə Qasım orda namaz qılıb fatihə oxusun. Xan razılaşdı. Xəstə Qasım hər qəbristanlığın yanından keçdikcə dayanar, namaz qılıb fatihə oxuyardı. Gəlib böyük bir qəbristanlığın kənarına yetişdilər.

– Xan, olarmı borcumu verim?

Doğrudur, xan icazə vermişdi, amma ürəyində peşiman olmuşdu. Çünki xan fikirləşdi ki, ey dili-qafil, burdan Dağıstana neçə qəbristanlıq var. Bunların hər birinin yanında yarım saat, bir saat dayansalar, onda gərək neçə ay yol gedələr. Ona görə də dedi:

– Zalım oğlu, belə getsə, sənin ucbatından ömrümüz yollarda keçəcək, bilmirəm bu ölülərdən xəzinəmi istəyirsən?

Xəstə Qasım gördü yox, Mirzəli xan dünyanın öldüsündən-qaldısından hələ baş çıxarmır, onu maraqlandıran dünya malıdı, var-dövlətdi, dedi:

– Xan, sinəmə bir xanə söz gəlib, rüsxət ver deyim.

Xan cavab verdi:

– Deməyinə de, amma vaxtını bu ölülərə sərf eləmə!

Görək Xəstə Qasım orda Mirzəli xana nə dedi, onu necə başa saldı:

*Ey dünyanı dost tutanlar,*
*Dön bir qəbristana bax!*
*Üzün çevir haq tərəfə,*
*Huriyi-qılmana bax!*
*Bu dünya bir bivəfadı*
*Heç kəs olmaz bərqərar.*
*Hərə beş ərşin ağınan*
*Köçəllər, mehmana bax!*

*Gözlüyün halal, haramı*
*Şeytandan uzaq olaq.*
*Yandırın şamı-çırağın,*
*Behiştin bağın bulaq*
*Satın bu dünya malını*
*Axirətçün mülk alaq.*
*Süleymana qalmayan dünya*
*Qalmaz heç insana bax!*

Xəstə Qasım gördü, Mirzəli xan dərin fikrə gedib, gözlərini də zilləyib yerdə qatarlaşıb yol salan qarışqalara baxır. Qəbristanlığın kənarında köhnə bir dam yeri var idi. Divarları tamam uçmuş, bircə divarların himi qalmışdı. Allah bilir, neçə yüz ilin himi idi. Bir az aralıda qarışqalar özlərinə yuva tikirdilər. Qatarlaşıb himin boş torpağından yuvalarını tikmək üçün daşıyırdılar. İndi Mirzəli xan Xəstə Qasıma qulaq asa-asa gözlərini həmin qarışqalara zilləmişdi. Oydu ki, Xəstə Qasım sözünü böylə tamama yetirdi:

*Göydən enərsə bir balıq,*
*Tex axtarar suyunu.*
*Bir gədanı şah qoysalar,*
*Tez tapacaq tayını.*
*Qarışqalar hücum çəkər,*
*Sökər himin layını,*
*Xəstə Qasım qıl tamaşa*
*Boş qalan meydana bax!*

Doğrudan da, söz Mirzəli xana ağır təsir elədi. Tutduğu işə peşiman oldu. Xəstə Qasıma dedi ki, bundan sonra sənə icazə verirəm, harda istəyirsən, nə üçün istəyirsən dayan, özün bildiyini tut.

Oradan yola düşüb çox getdilər, az getdilər gedib bir dağlıq yerə çıxdılar. Allahın qəzasından Mirzəli xanın atı xəstələnmişdi, daha yol yerimək istəmirdi, qaldılar naçar. Axır bu qərara gəldilər ki, birtəhər yaxınlıqdakı kəndə kimi getsinlər. Oradan fərli-başlı bir at tapıb alsınlar. Bir qədər yol gəlib kəndə çatdılar. Bu erməni kəndi idi. Soruşdular ki, bəs, kənddə kimdə yaxşı at var. Dedilər, Hazar keşişdə. Mirzəli xan başının dəstəsi ilə gəldi Hazar keşişin evinə. Bu haman Hazar keşiş idi ki, bu tərəflərdə yeddi para kəndin ağası idi.

Bəli, Hazar keşiş Mirzəli xanı allah kimi qarşıladı. Çünki bu yerlər də Şah Abbasa tabe idi. Mirzəli xanın Şah Abbasa yaxın olduğunu biləndə az qaldı ayaqlarına yıxılsın. Ona say-seçmə bir at verdi. Mirzəli xan nə qədər elədisə, pulunu almadı. Həm də güc-bəla onları axşam evində qonaq saxladı. Axşam oldu, süfrə açıldı. Hazar keşiş soruşdu:

– Ay xan, başına dönüm, bəs, heç demədin hara gedirsən?

Mirzəli xan hara getdiklərini, nə üçün getdiklərini Hazar keşişə danışdı. Elə ki, Hazar keşiş Xəstə Qasımın şair olduğunu, Ləzgi Əhmədlə deyişməyə getdiyini bildi bir onun ayağına baxdı, bir başına baxdı, ağlı bir şey kəsmədi. Dedi:

– Mirzəli xan, yəni bir adam tapa bilmədinmi, Ləzgi Əhmədlə deyişməyə aparaydın?

Söz Xəstə Qasıma yaman toxundu, amma hələ dinmədi, axırını gözlədi. Mirzəli xan başladı Xəstə Qasımı tərifləməyə. Hazar keşiş yenə Xəstə Qasımı aparmağın əbəs olduğunu söylədi. Başladı öz şeirlərindən deməyə, indiyə qədər otuz doqquz aşıq bağladığını söylədi.

Doğrudan da, Hazar keşişin həm aşıqlığı, həm də şairliyi var idi. Özü də çox güclü şair idi. İndiyə qədər otuz doqquz aşıq bağlamışdı.

Elə ki, Hazar keşiş həddini aşdı, daha dözə bilmədi, dedi:

– Hazar keşiş, otuz doqquzunu bağlamısan, qırxa bircəciyi qalıb, gəlsən məni də bağlayasan qırx ola.

Hazar keşiş güldü:

– Bala, sən hələ uşaqsan, get ağzının qatığını sil.

Mübahisə düşdü. Mirzəli xan gördü, mübahisə uzun çəkəcək, dedi:

– İki saat cəng edənə qədər biryolluq deyişin qurtarsın getsin, Allah kimə verər verər.

Bu təklifə hər ikisi razılaşdı. Şərt bağladılar ki, əgər Xəstə Qasım uduzsa, Hazar keşişə bir çanaq qızıl verəcək, özü də sazı atıb ömrü boyu nökərçilik edəcək, yox əgər Hazar keşiş uduzsa, yeddi para kəndinin bütün kişilərinə sünnət etdirəcək, bütün qadınları çadra örtəcək, özləri də dönüb müsəlman olacaqlar. Xəstə Qasım keşişə nə qədər dedi ki, birinci o qabağa düşsün, olmadı. Xəstə Qasımı uşaq hesab elədiyindən qabağa düşmədi. Əlqərəz, Xəstə Qasım birinci deməli oldu. Hazar keşişə bildirdi ki, daha bazar açmağın yeri yoxdu, bircə qatar söz deyəcək, əgər keşiş aça bilsə, Xəstə Qasım məğlub olmuş hesabındadır. Hazar keşiş razılaşdı. Xəstə Qasım sazı köynəyindən çıxarıb zilini zil, bəmini bəm eləyib görək Hazar keşişə nə dedi:

*Ol Adəmdən Xatəməcən gərdişi-dövran mənim,*
*Din mənim, məzhəb mənim, yol mənim, ərkan mənim.*
*Gül mənim, bülbül mənim, sünbülü reyhan mənim,*
*Yerdə insan, göydə qılman, ərşdəki aslan mənim.*

Hazar keşiş belə hesab eləyirdi ki, Xəstə Qasım çarıqdan-çuruqdan, toyuqdan-cücədən danışacaq. Fikirləşirdi ki, hələ uşaqdı, nə bilir dünyada nə var, nə yox. Ancaq gördü yox, iş deyəsən, bir az qəlizə düşdü. Bu ərşdən, gürşdən, Adəmdən, Xatəmdən danışır. Sözə cavab tapa bilmədi. Öz-özünə dedi, qoy arxasını da dedirim, bəlkə, ona qədər bir şey fikirləşib tapdım. Üz tutdu ki:

– Xəstə Qasım, arxasını da de, mən də biryolluq hamısına bir yerdə cavab verərəm.

Xəstə Qasım davam elədi:

*Abi ataş, xaki baddan yaratdı sübhan bizi,*
*Altı mindən altı yüzə isbat qılır üç yüzü,*
*Dörd yüz arxa bağlayar dəryada qırx dörd dənizi,*
*Yetmiş ikinin mən biriyəm, altmışın qırx səkkizi,*
*Beş içində altı Məkkə, səkkiz yüz fərman mənim.*

Hazar keşiş gördü sözün arxası daha ağır gəlir, amma əlacı yox idi, dinməyib sakitcə qulaq asdı.

*Yeddi eyvan, səkkiz seyvan, qırx sütun, bir ləngəri,*
*Yeddi ulduz, yeddi tuppuz, yeddi pus, yeddi dəri,*
*Bu hesabı cəm edənin başına əsər gəli,*
*Yeddi min qırxdan qabağa, səkkiz yüz dörddən bəri*
*Pir mənim, ustad mənim, yol mənim, ərkan mənim.*

*Bisti həşti nisb içində yar bizə isbat edər*
*Altı mindən altı yüzü otuz dördə zat edər,*
*Bir mürəkkəblə oxunan surəni kəlmat edər,*
*İncilü Tövratü Zəbur, natiqi-Quran mənim.*

*Xəstə Qasım Tikmədaşlı, sahibi cümlə xəta,*
*Var ümidim taci-meraca, billəm ki, eylər əta,*
*Açılar dəftər, görünər mənşər, bir şahsuvar illə-fəta*
*Əzmi-Qaf günahım olsa, əfv edər, rəhman mənim.*

Hazar keşiş cavab tapa bilmədi. Üç günün içində Hazar keşişin yeddi para kəndinin bütün kişilərinə sünnət elədilər, arvadları çadra örtdü, xaçı atıb dönüb müsəlman oldular. Üç gündən sonra Mirzəli xan, Xəstə Qasım və Mirzəli xanın adamları yola düşüb gəlib Dağıstana çatdılar.

Bəli, elə ki, onlar soruşa-soruşa Ləzgi Əhmədin yaşadığı yeri öyrəndilər, birbaş gəldilər haman yerə. O birisi tərəfdən də Mirzəli xan vilayətin hakiminə xəbər göndərdi ki, bəs, gəlsin, Ləzgi Əhmədlə deyişdirməyə aşıq gətirib. Ləzgi Əhməd onların gəldiyini

eşitdi. O saat da sazını götürüb gəldi Mirzəli xanın hüzuruna. Özünə çox arxayın idi ki, hər kim olsa, bu aşığı da bağlayıb sazını alacaq, üzü üstə geri qaytaracaq.

Əlqərəz, məclis quruldu, eşidib bilən hamısı tökülüşüb gəldi. Xəstə Qasım Ləzgi Əhmədin adını eşitsə də, kim olduğunu bilmirdi. Xəbəri yox idi ki, bu haman Ləzgi Əhməddir ki, vaxtilə kömbənin üçdə birini ona vermişdi. Elə ki, Ləzgi Əhməd ortalığa gəldi, Xəstə Qasım baxdı ki, bu haman adamdı. Ürəyində güldü, arxayın oldu ki, Ləzgi Əhməd uduzacaq, çünki kömbənin çoxunu Xəstə Qasım yemişdi, azını ona vermişdi. İstədi him-cim eləyə ki, Ləzgi Əhməd, çox haray-həşir salıb özünü biabır eləmə, üzü sulu sazı ver, təslim ol, vəssalam. Yaxınlaşıb zarafatyana dedi:

– Ləzgi Əhməd, kömbənin azını yemisən, uduzacaqsan ha…

Amma Ləzgi Əhməd mətləbi başa düşmədi. Əvvələn, xəbəri yox idi ki, vaxtilə qəbristanlığın yanında yediyi kömbə adi kömbə deyil, Allah vergisi imiş. Onun təbinə gələn hər şeyin hikməti bu kömbədədir. Elə bilirdi ki, elə vergidi, allah verib. İkincisi də, xəbəri yox idi ki, Xəstə Qasım kömbənin çoxunu özü yeyib, azını ona verib.

Əvvəl-əvvəl Ləzgi Əhməd Xəstə Qasımı tanımadı. Ona görə də soruşdu:

– Aşıq, adın nədir?

Xəstə Qasım cavab verdi:

– Xəstə Qasım!

– Hə, xəbərin gəlib bura da çatıb. Mollalara, qazılara, alimlərə doy gəlibsən, burası yaxşı. Amma neçə ay yol basa-basa öz ayağınla gəlib keçmisən cəngimə, burası, deyəsən, bir az pis olacaq! De görüm, hardan gəlmisən?

Xəstə Qasım fikirləşdi ki, yer-yurd deməyin mənası yoxdur, elə birbaşa özünü Ləzgi Əhmədə tanıtsın ki, bəlkə, işini qana, dedi:

– Sənin kömbə yediyin qəbristanlığın yanından!

Ləzgi Əhməd onun kim olduğunu başa düşdü, ancaq özünü o yenə qoymadı, guya ki, Xəstə Qasımın nə demək istədiyini başa düşmədi.

– Mən min qəbristanlığın yanında min dəfə kömbə yemişəm. Gərək onda hamısını bir-bir hesaba alıb yazaydım.

Xəstə Qasım gördü yox, Ləzgi Əhməd özü qəsdən tanışlıq vermək istəmir. Ürəyində dedi, eybi yoxdu, canın cəllad əlində – mərd olsan bağışlar, namərd olsan qılınclar.

Camaat gördü Xəstə Qasımla Ləzgi Əhməd arasında qəribə söhbət gedir, lakin heç kəs bir şey anlaya bilmədi.

Ləzgi Əhməd dedi:

– Xəstə Qasım, deyirlər, sən özünü çoxbilmiş hesab edirsən, ona görə həm də adını Dədə Qasım qoymusan.

Xəstə Qasım onun sözündəki rişxəndi başa düşdü, amma özünü o yerə qoymadı:

– Bəli, elədi ki, var!

Ləzgi Əhməd gülümsündü, yəni ki, sənin Dədə Qasım olmağına hələ çox var, bu, axirətdə də mümkün olan şey deyil. Oydu ki, hərbə-zorbaya keçdi:

*Sənin adın Dədə Qasım,*
*Yandıracam oda Qasım.*
*Ləzgi Əhmədin əlindən*
*Gedəcəksən dada Qasım.*

Xəstə Qasım baxdı ki, daha dayanmaq vaxtı deyil, Ləzgi Əhmədə cavab verməsə həddini aşacaq. O da sazı sinəsinə basdı:

*Əhməd, belini dağa ver,*
*Gəl hirsinə qadağa ver!*
*Qurtarsan Xəstə Qasımdan*
*Bir ye, beş də sadağa ver.*

Ləzgi Əhməd gördü bu, birə beş cavab qaytarır, qəzəbi daha da artdı, dedi:

– Yaxşı, daha cəhl eləməyin yeri yoxdu, düş qabağa nə söz deyirsən de, cavabını al!

Xəstə Qasım razılaşdı:

– Əvvəl sən başlamısan, elə də davam et, cavabını verim!

Ləzgi Əhməd nə qədər etdisə də, Xəstə Qasım əvvəl meydanı ona verdi. Ləzgi Əhməd dedi:

– İndi ki, belədir, onda hünərini sına.

Belə deyib Ləzgi Əhməd sazı sinəsinə basdı. Ləzgi Əhmədlə Xəstə Qasım arasında uzun bir deyişmə başladı:

Ləzgi Əhməd:

*Səndən xəbər alım, ay Dədə Qasım,*
*Kim xəta eylədi, qaldı üstə suç?*

*Kim kimə buyurdu, kimdən gətirdi?*
*Neçə yaşındaydı qurban gələn qoç!*

Xəstə Qasım dedi:

– Əşşi, bu uşaq tapmacasıdı ki…

Ləzgi Əhməd bərk hirsləndi:

– Uşaq tapmacasıdı, böyük tapmacasıdı, cavab ver, aşığın sözü qurtaranda neynim-neynim çağırar.

Xəstə Qasım:

*Al cavabın verim, ay Ləzgi Əhməd,*
*Qabil xəta etdi, qaldı üstə suç.*
*Cəbraildi İsmailə gətirdi,*
*İki yaşındaydı qurban gələn qoç.*

Ləzgi Əhməd:

*Necə quşdu ildə bir yumurta salar?*
*Onun yumurtası nə üstə qalar?*
*Hansı ölən zaman hansı sağalar?*
*Ona kimlər deyər, dur, buradan uç!*

Xəstə Qasım:

*Simuruğdu ildə bir yumurta salar,*
*Onun yumurtası qar üstə qalar,*
*Ana ölən zaman bala sağalar,*
*Cəbrail ona der, dur buradan üç!*

Ləzgi Əhməd:

*Ləzgi Əhməd, heç vəsfindən doymazlar*
*O nədi ki, götürərlər, qoymazlar?*
*Kimlərdi ki, məzarı yox, yumazlar?*
*Bu nə qonhaqondu, bu nə köçhaköç?*

Xəstə Qasım:

*Xəstə Qasım heç vəsfindən doymazlar,*
*O ölüdür götürərlər, qoymazlar,*
*Atəşpərəstlərin məzarı yox, yumazlar,*
*Dünya qonhaqondu, ölüm köçkahöç.*

Söz tamama yetdi. Ləzgi Əhməd nə dedisə, Xəstə Qasım hamısına cavab verdi. Ləzgi Əhməd bununla qurtarmaq fikrində deyildi, istəyirdi başqa qıfılbənd deyə. Odur ki, soruşdu:

– Xəstə Qasım, elə iki kəlməylə qurtaraq, yoxsa yenə deyim?

Xəstə Qasım dedi:

– Ləzgi Əhməd, meydan sənindir, sən özün bəsdir deyənə qədər mən sənə cavab verməyə hazıram.

– Yaxşı, onda al gəldi!

Ləzgi Əhməd:

*Səndən xəbər alım, ay Dədə Qasım,*
*O nədir ki, bu dünyanı gəzər hey?*
*Nə kağızdır mürəkkəbsiz yazılar?*
*Nə qələmdir mürəkkəbsiz yazar hey?*

Xəstə Qasım:

*Al cavabın deyim, ay Ləzgi Əhməd*
*Aydı, gündü bu dünyanı gəzər hey.*
*Könül kağız, mürəkkəbsiz yazılar*
*Dil qələmdir, bu dəftəri yazar hey.*

Ləzgi Əhməd:

*O nədir ki, heç gəlmədi imanə?*
*O kimdir ki, heç düşmədi gümanə?*
*O kimdir ki, qəsd eyləyir insanə?*
*O kimdir ki, oldu candan bezar hey.*

Xəstə Qasım:

*O iblisdir heç gəlmədi imanə,*
*O münkürdür heç gəlmədi gümanə,*
*Əzraildi qəsd eyləyər insanə,*
*Əyyub oldu öz canından bezar hey.*

Ləzgi Əhməd:

*O nədir ki, silinməzdir qarası?*
*O nədir ki, heç olmadı çarası?*
*Nə qədərdir yernən göyün arası?*
*Ləzgi Əhməd bu dəftəri yazar hey?*

Xəstə Qasım:

*Ürəkdir ki, silinməyir qarası,*
*O ölümdür heç olmadı çarası,*
*Yüz doxsan min il yernən göyün arası,*
*Xəstə Qasım o dəftəri pozar hey.*

Ləzgi Əhməd gördü, Xəstə Qasım o fikirləşdiyi qədər də dayaz deyilmiş, daş qayaya rast gəlib. Buna batmaq çətin olacaq, dedi:

– Xəstə Qasım, atalar üçəcən deyib, birini də deyim üç olsun.

Xəstə Qasım cavab verdi:

– İstəyirsən üçünü yox, üç yüzünü de, ixtiyar sənindi, mənimki cavab verməkdi.

Ləzgi Əhməd meydanda bir az gəzişdi, sonra üz tutdu Xəstə Qasıma:

*Səndən xəbər alım, ay Baba Qasım,*
*O nədir ki, dürlü-dürlü halı var?*
*Nədən hasil oldu ərşin arğacı?*
*O nədir ki, toxunmamış xalı var?*

Aldı Xəstə Qasım:

*Sənə cavab verim, ay Ləzgi Əhməd,*
*Bahardır ki, dürlü-dürlü halı var.*
*Nurdan xəlq olundu ərşin arğacı,*
*O buluddur toxunmamış xalı var.*

Aldı Ləzgi Əhməd:

*O nədir ki, dayanıbdır dayaqsız?*
*O nədir ki, boyanıbdır boyaqsız?*
*O nədir ki, doğar əlsiz-ayaqsız?*
*Üç ay keçər ayağı var, əli var.*

Aldı Xəstə Qasım:

*Göy bir çadır dayanıbdır dayaqsız,*
*Ayla gündür boyanıbdır boyaqsız,*
*Qurbağadır doğar əlsiz, ayaqsız,*
*Üç ay keçər ayağı var, əli var.*

Aldı Ləzgi Əhməd:

*Ləzgi Əhməd deyər nədi dalalar?*
*Nə qumaşdı satan olmaz alalar?*
*O nədir ki, dimdiyindən balalar?*
*O nədir ki, qanadında xalı var?*

Aldı Xəstə Qasım:

*Xəstə Qasım deyər, yaşdı dalalar*
*O ağıldı satan olmaz alalar,*
*O buğdadı dimdiyindən balalar*
*Kəpənəkdi qanadında xalı var.*

Söz tamama yetdi. Ləzgi Əhməd baxdı ki, iş müşküldür, nə dedisə, Xəstə Qasım hamısına birbəbir cavab verdi. İstədi deyə ki, bir qatar da deyim, ancaq namusa boğuldu. Çünki özü demişdi ki, atalar üçə qədər deyib.

Xəstə Qasım hiss elədi ki, Ləzgi Əhmədin yenə ürəyində sözü var, amma şərtinin üstündən qaçmağa çəkinir. Ona görə də onu vəziyyətdən çıxarmaq üçün dedi:

– Ləzgi Əhməd, mən Tikmədaşdan basa-basa bura gəlmişəm, istəyirəm bir əməlli-başlı deyişək, sən isə iki kəlmə ilə qurtarmaq istəyirsən. Bir də bu qədər camaatı bura yığmışıq, elə beş-on kəlmə ilə qurtarsaq, deyərlər bu, aldım qoz, satdım qoz oldu ki:

Elə bil Ləzgi Əhmədin üstünə gün doğdu, dedi:

– Yaxşı, madam ki, sən istəyirsən, deyim. Nə olar, atalar üç deyib bu dəfə dörd eləyək.

Bunu deyib Ləzgi Əhməd meydanı dolandı, uzun bir gərdiş eləyib üz tutdu Xəstə Qasıma:

*Səndən xəbər alım, ay Xəstə Qasım*
*Nə şəhərdir yerdən ərşə yolu var?*
*O nə qurddur quzular ilə gəzər?*
*Qurd quzunu yeyə bilməz, feli var.*

Aldı Xəstə Qasım:

*Al cavabın verim, ay Ləzgi Əhməd,*
*Könül şəhrin yerdən ərşə yolu var.*
*O şeytandır insanlar ilə gəzər,*
*Yeyə bilməz, ancaq yaman feli var.*

Aldı Ləzgi Əhməd:

*O nədir ki, özü vardır, səri yox?*
*O nədir ki, ildə doğar əri yox?*
*O nədir ki, qanadı var, pəri yox?*
*O nədir ki, coşar, qeylü-qalı var?*

Aldı Xəstə Qasım:

*Soxulcandır özü vardır səri yox,*
*O ağacdır ildə doğar əri yox,*
*Yarasadır qanadı var, pəri yox,*
*Axar sellər coşar, qeylü-qalı var.*

Aldı Ləzgi Əhməd:

*O nədir ki, özü vardır zatı yox?*
*Nə xələtdir tikişi yox, qatı yox?*
*O nə şeydir dəvəsi yox, atı yox?*
*Ləzgi Əhməd, bir tükənməz yolu var.*

Aldı Xəstə Qasım:

*O küləkdir özü vardır zatı yox*
*O tuluqdur tikişi yox, qatı yox,*
*Aydı, gündü dəvəsi yox, atı yox*
*Xəstə Qasım, bir tükənməz yolu var.*

Bundan sonra Ləzgi Əhmədin daha sözü qalmadı. Xəstə Qasım israr etdi ki, əgər sözü varsa, desin. Ancaq Ləzgi Əhməd dediyini demişdi, sözü yox idi. Oydu ki, meydanı Xəstə Qasıma verdi. Doğrudur, Xəstə Qasım özünə arxayın idi, çünki kömbənin çoxunu yediyini bilirdi. Amma gördü, Ləzgi Əhməd də Ləzgi Əhməddi, kömbədən dadıb, mollaların, qazıların tayı deyil. Elə ki, gördü, Ləzgi Əhmədin sözü qurtardı, meydanı ona verdi, sazı sinəsinə basıb görək nə dedi, Ləzgi Əhməd nə cavab verdi:

Aldı Xəstə Qasım:

*O kimdir ki, otuzunda cavandır?*
*On beşində qocalanı uludur.*
*O nədir ki, dili ayrı, sözü bir?*
*O hansı dəryadır içi doludur?*

Aldı Ləzgi Əhməd:

*O aydır ki, otuzunda cavandır,*
*On beşində qocalanı uludur,*
*O qələmdir dili ayrı, sözü bir,*
*Elm dəryası hər dəryadan doludur.*

Aldı Xəstə Qasım:

*O nədir ki, qışda dağlar bürünür?*
*O nədir ki, əl dəyməmiş hörülür?*
*O nədir ki, hər canlıya verilir?*
*O nədir ki, o da onun quludur?*

Aldı Ləzgi Əhməd:

*O qardır ki, qışda dağlar bürünür*
*O könüldür məhəbbətlə hörülür,*
*O ölümdür hər canlıya verilir,*
*O ilqardır iman onun quludur.*

Aldı Xəstə Qasım:

*O nədir ki, haqq yanında nahaqdır?*
*O nədir ki, yerə, göyə dayaqdır?*
*O kimdir ki, yatmayıbdır, oyaqdır?*
*Xəstə Qasım hər elmdən halıdır.*

Aldı Ləzgi Əhməd:

*Böhtan sözdür haq yanında nahaqdır*
*Haq nəzəri yerə, göyə dayaqdır,*
*Haq özüdür yatmayıbdır, oyaqdır,*
*Bu sirlərdən Ləzgi Əhməd halıdır.*

Xəstə Qasım bu dəfə nə dedisə, Ləzgi Əhməd hamısına cavab verdi. Mirzəli xanın ağlı müşseyidin hüzurundakı əhvalata getmişdi. Orda o qədər molladan, qazıdan, alimdən biri də Xəstə Qasımın bir kəlməsinə cavab verə bilməmişdilər. Amma indi nə deyildisə, Ləzgi Əhməd cavab verdi, özü də meydanda elə gərdiş eləyirdi ki, elə bil Şah Abbası taxtda görüb. Mirzəli xanın canına qorxu düşdü, çünki Xəstə Qasımı Şah Abbasa o tərifləmişdi ki, elə bil zərgər zərini tərifləyirdi. Fikirləşdi ki, birdən olmadı elə, oldu belə, Xəstə Qasım uduzdu, onda gərək Mirzəli xan Şah Abbasın üzünə çıxmaya. Xəstə Qasıma göz-qaş elədi ki, bəs, nə oldu, deyəsən, xəmir çox su aparır. Xəstə Qasım Mirzəli xanın mətləbini başa düşdü. Meydanı dolanmaq bəhanəsilə Mirzəli xana yaxın gəldi, xan başa düşməsə də, elə-belə ortalığa söz atdı:

– Xan sağ olsun, müşseyidin alimləri haq kömbəsi yeməyiblər.

Ancaq Xəstə Qasım düşündü ki, doğrudan da, dərinə getmək lazımdır, belə şeylər Ləzgi Əhməd üçün tapmaca kimi şeydir. Ona görə də bu dəfə Ləzgi Əhmədi çətinə salmağı qərara aldı:

*Dörd dərviş istərəm, Əhmədi Ləzgi,*
*Dünyanın boyunca yaşı bir ola.*
*Yeməz, içməz zikir, şükür eyləyər,*
*Onların kəlməsi, işi bir ola.*

Ləzgi Əhməd baxdı ki, iş müşkülə düşdü. Belə şeyi nə eşidib, nə də bilir. Mizrabı simə sürtə-sürtə başladı fikirləşməyə. Xəstə Qasım sözün arxasını dedi:

*Bir otaq istərəm gümüşdən kanı*
*Onun kərpicini gətirən hanı?*
*Bir heyvan istərəm qırx iki canı,*
*Başı qoltuğunda, döşü bir ola.*

*Bir nər istərəm ki, götürə dağı,*
*Ovsarını çəkə Əliynən Nağı,*

*Altmış min bostanı, yetmiş min tağı*
*Səksən min binanın daşı bir ola.*
*Xəstə Qasım deyər neçə min neçə,*
*Səksən min darvaza, doxsan min küçə,*
*Bir alim istərəm bu sirri aça,*
*Hər biri min kəlmə, başı bir ola.*

Ləzgi Əhməd bağlamanı aça bilməyib naçar qaldı. Məcbur olub sazı Xəstə Qasımın qabağına qoydu. Onun uduzmağına hamıdan çox Mirzəli xan sevindi, çünki Şah Abbasın yanında etibarı birə beş artacaqdı. Xəstə Qasıma dedi:

– Xəstə Qasım, Şah Abbas sənə nə verəcək özü bilər, mən isə sənə üç yüz qızıl verirəm. Yüzü özünün, yüzü nişanlının, yüzü də bacının.

Amma o məclisdə Xəstə Qasım Ləzgi Əhmədin sazını götürməyib özünə qaytardı, özü də zarafatyana dedi:

– Ləzgi Əhməd, burdan Tikmədaşa neçə günlük yoldur, mən bir sazı zorla aparıb çıxara bilərəm, sazını mənə yük eləmə.

Hamı alicənablığına görə Xəstə Qasıma afərin dedi. Məclis şadi-xürrəm başa çatdı.

Bəli, o gündən Dağıstan vilayəti yenidən Şah Abbasa xərac verməyə başladı. Şah Abbas üstəlik yeddi ilin xəracını da aldı. Xəstə Qasıma isə çoxlu ənam göndərdi.

Ustad dastanı bu duvaqqapma ilə tamamladı:

*Biri nuru, qəlbi duru,*
*Açır gövhər-kanı gözəl.*
*Daşı, qaşı, al qumaşı*
*Hər ləli, mərcanı gözəl.*
*Təxti, bəxti, zərü-rəxti,*
*Mənzili, məskəni gözəl*
*Al yanağı, güllü bağı,*
*Xanası, eyvanı gözəl.*
*Hüsnü bahar, yaz*
*Boyu sərvinaz,*
*Gəl əyləş bir az,*
*Əhli vəfadar,*
*Qoynu dolu nar,*
*Diyarbədiyar,*
*İşıq salır, ilham alır,*

*Gözəllər sultanı gözəl.*

*O, hal-hazır, yaxşı yazır,*
*Gözəli tanı mötəbər.*
*Üzü-gözü, doğru sözü,*
*Əhdi-peymanı mötəbər.*
*Səyi, rəyi, xoş diləyi,*
*Vicdanı, qanı mötəbər.*
*Zərrəsi tər, zərlə bəzər,*
*Səddi, səhranı mötəbər.*
*Xoşdu dövranı,*
*Geyir əlvanı,*
*Gəzir hər yanı,*
*Quş kimi uçur,*
*Könüllər açır*
*Gur işıq saçır,*
*Zatı əsil, pak, müddəsil,*
*Aşkarı, pünhanı gözəl.*

*Miskin Vəli, var əməli*
*Yazır bu dastanı verir.*
*Həqiqəti, xoş niyyəti,*
*Güllü gülüstanı verir.*
*Gör nə göyçək açır çiçək,*
*Dərdlərə dərmanı verir.*
*Hər nə ki var, hüsnü bahar*
*Cansızlara canı verir.*
*Rəsmi-pərzadın,*
*Bu xoş muradın,*
*Kim çəkər adın,*
*Görür xidmətin*
*Açır söhbətin,*
*Deyir hörmətin,*
*Bir mehriban, ruhi-cahan,*
*Bəsləyir dünyanı gözəl.*

# CƏLALİ KÜRDOĞLU[1]

Ustadlar dastana başlamazdan əvvəl ustadnamə deyərlər. Biz də ustadlar dilindən bir ustadnamə deyək:

*Fənd eləmə, felli dərviş,*
*Belə kar eyləmək olmaz.*
*Yıxıbsan könlüm evini,*
*Mürğü zar eyləmək olmaz.*
*Söylə dərdin bilənlərə,*
*Dərd başına gələnlərə,*
*Hər üzünə gülənlərə,*
*Etibar eyləmək olmaz.*
*Qurbaniyə gətir məzə,*
*Dərd üstündə dərdim təzə*
*Dərd biləni dərdbilməzə,*
*Giriftar eyləmək olmaz.*

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun:

*Kişi olub el içində dolanmaz,*
*Çəkəcək aləmdə sərsə qal indi.*
*Nadansan, qanmırsan xeyir-şərini,*
*Niyə qurdun mənə, sarsaq, al indi?*
*Müxənnətin ayağına, dərinə,*
*Xəstə olan yalvaracaq dərinə,*
*Əqlin çaşdı, niyə düşdün dərinə?*
*Kim deyirdi sənə sar saqal indi.*
*Abdullayam, düşdüm ala bilmirəm,*
*Qara xəttim olub ala bilmirəm.*
*İpəkdən, zərbafdan ala bilmirəm,*
*Yaraşır qəddinə, sarsaq, al indi.*

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, namərd ölüb heç olsun:

*Sərrafam, bazarım xiridar istər,*
*Bihudə sursatım bazara vermə.*

---

[1] *Бу дастанын хейли фяргли вя щяъмъя нисбятян кичик варианты «Азярбайъан халг дастанлары» (Бакы, 1980) китабында «Шящри вя Мещри» ады иля чап олунмушдур.*

*Bir dərdə salaram əlacın olmaz,*
*Cismini çarasız azara vermə.*
*Aləm bilir, köşək çəkməz nərinən,*
*Xəcil olur sənətində ərinən,*
*Meydan açma sən ər oğlu ərinən,*
*Hələ dərs al dinlə, yaz, ara vermə.*
*Qabağa sıçrama, dala düşərsən,*
*Düşməmisən, qeylü-qala düşərsən,*
*Lal eylərəm müşkül hala düşərsən*
*Bivədə cismini məzara vermə.*
*Həqiqət elmində keçək isbata,*
*Məna verək ərşə, həm kainata*
*Bir dastan bağlayaq hər hürufata,*
*Tərdəst ol, məzarın qaz, ara vermə.*
*Şıx Alıyla cəng eyləyən xar oldu,*
*Verdi sazın, el içində ar oldu,*
*Nadanın əlindən o bezar oldu,*
*Qaç, fürsət canından bezara vermə.*

Bəli, sizə hardan deyim, hardan xəbər verim Türkmən vilayətindən, Türkmən vilayətində Sərsəbil adında bir şəhər varıydı. Bu şəhərdə Saleh adlı bir sövdagər yaşayırdı. Saleh sövdagərin malının, pulunun, var-dövlətinin sayı-hesabı yoxuydu. Amma bu kişi səxavətdə, mürüvvətdə, insaf-imanda ad-san çıxarmışdı. Çarəsizə əl tutardı, ac görsə, doyurardı, dilənçi görsə, pay verərdi, yolçu görçə, qonaq edərdi.

Saleh sövdagərin aman-zaman, gözünün ağı-qarası, dünya ümidi bir oğlu varıydı. Oğlunun yolunda malını istəsələr əsirgəməzdi, canını desələr, verərdi. Bəli, elə ki, uşaq doğuldu qohum-qonşu, dost-tanış yığıldı, yaxşı bir şadyanalıq elədilər. Uşağın adını da Şəhri qoydular. Gün günə söykəndi ay oldu, ay dolanıb il oldu. Şəhri böyüyüb beş yaşına çatdı. Saleh sövdagər oğlunun tərbiyəsi üçün bir dayə tutmuşdu. Dayənin işi-gücü uşaqnan məşğul olmaq idi. Uşaq da bütün mehr-məhəbbətini dayəyə salmışdı.

Bahar fəslinin gül gülü, bülbül bülbülü çağıran vaxtıydı. Dünyayi-aləm cana gəlmişdi. Dayə Saleh sövdagərdən urusxat istədi ki, uşağı aparıb gəzdirsin. Ta ki uşağın könlü bir az açılsın. Saleh sövdagər urusxat verdi. Dayə Şəhrini də götürüb şəhərin

kənarına gəzməyə çıxdı. Şəhərin kənarı meşəlik, güllük-çiçəklik idi. Dayə bir daşın üstündə oturdu, uşaq da oynamağa başladı. Bir qədər keçdi, baharın xoş havasında dayəni bərk yuxu tutdu, uşaq qaldı başdı-başına. Bu çiçəkdən o çiçəyə, o çiçəkdən o birisinə, axır gəlib yaxınlıqdakı meşəyə çıxdı, ha o yana getdi, ha bu yana getdi, uşaq meşədə azdı, bir cığırı tutub o qədər getdi ki, bu həndəvərdən tamam uzaqlaşdı.

Xeyli vaxt keçdi, birdən dayə sərsəm yuxudan ayıldı, baxdı ki, qara gəlsin, nə uşaq var, nə də bir səs-səmir. Elə bil dayəni şimşək vurdu. Qalxıb ora qaçdı, bura qaçdı, çağırdı, neylədi uşaqdan bir əsər-əlamət görünmədi. Canına qorxu düşdü, dedi, ey Allah, bu nə iş idi mənim başıma gətirdin. Saleh sövdagərə bir övlad verdin, onu da mənim təqsirimdən yox elədin, indi mən sövdagərə nə cavab verəcəyəm. Xülasə, dayə çox axtardı, çox çağırdı, uşağı tapa bilmədi, axır axşamçağı ağlaya-ağlaya gəlib sövdagərə xəbər verdi ki, bəs, hal-qəzyə belə-belədi. Səs-küy düşdü, camaat yığışdı, gedib Şəhrini axtardılar, amma tapa bilməyib kor-peşiman geri qayıtdılar.

Sizə deyim zərgər Məsimnən. Zərgər Məsim çox qabil bir usta idi. Varı-halı da başından aşırdı. Amma övlad sarıdan Allah-taala onu bədbəxt eləmişdi. Bu işıqlı dünyada bircə övlad qismət eləməmişdi ki, yurdunda ocaq yandırsın. Övlad dərdi gecə də, gündüz də zərgər Məsimin yadından çıxmırdı. Bəli, zərgər Məsim başqa şəhərə daş-qaş almağa getmişdi, indi Sərsəbilə qayıdırdı. Meşənin içində yolnan gedərkən bir də gördü, bir uşaq səsi gəlir, uşaq hər kimdisə fəryad edir. Atın başını çəkdi, gördü, yoldan xeyli aralıda bir uşaqdı, yanında da heç kəs yoxdu. Atdan düşüb uşağa yaxınlaşdı, ha ora-bura baxdı ki, görsün bu uşaq kimnəndi, gördü, yox heç kəs yoxdu. Uşağın lap yanına gəldi, ay uşaq yiyəsi, –deyə oranı-buranı çağırdı, cavab verən olmadı. Daha uşağı tək qoyub getmək olmazdı. Ata mindi, uşağı da qucağına alıb yola düşdü. Dedi, gedib şəhərdə axtararam, sahibini tapıb verərəm.

Nə isə yol boyu uşağın fikri heç Məsimin başından getmirdi. Çox götür-qoydan sonra öz-özünə dedi ki, ey tanrı, hikmətinə min şükür, alan da sən, verən də sənsən, mənim övladım yox idi, bəlkə, elə bu uşağı mənə övlad göndərmisən. Zərgər Məsim bu qərara

gəldi ki, uşağı evinə aparsın, arvadıyla da məsləhətləşib onu özlərinə övlad eləsinlər.

Bəli, uşağı evə gətirdi, hal-qəzyəni arvadına danışdı, arvadı dedi:

– A kişi, Allahın kərəminə şükür, onu bizə göndərib ki, biz öləndən sonra yurdumuz boş qalmasın. Allah verənə bəndə şükür deyir.

Bu minvalnan Şəhri bir müddət zərgər Məsimin evində qaldı. Bir gecə Məsim yuxu gördü. Yuxusunda gördü ki, bir adam ağ atın belində, ağ geyimdə, başında ağ papaq, üzündə ağ niqab, əlində ağ qamçı Məsimin qabağında durub dedi:

– Ey Allahın günahkar bəndəsi, sahibini tapıb uşağı qaytar.

Bu sözləri deyib həmən adam yox oldu. Zərgər Məsim səhər qalxdı, amma yuxuya əhəmiyyət vermədi. İkinci gün yenə həmən yuxunu gördü, yenə əhəmiyyət vermədi. Üçüncü gün gecə yatanda yenə həmən ağ atlı adam Məsimin yuxusuna girdi və dedi:

– Ey Allahın günahkar bəndəsi, sənə sonuncu dəfə deyirəm, sahibini tapıb uşağı qaytar. Uşağı qaytarsan səni xoşbəxtlik, qaytarmasan bədbəxtlik gözləyir.

Məsim hövlnak yuxudan ayıldı, arvadını dümsükləyib qaldırdı, yuxusuna danışdı. Qərara gəldilər ki, Allah əmrindən çıxmaq olmaz. Uşağın sahibini tapıb onu qaytarmaq lazımdı.

Sabah açıldı, səhərlər üzünüzə xeyirliyə açılsın, zərgər Məsim düşdü şəhərin canına ki, bəs, kimin uşağı itib. O qapı sənin, bu qapı mənim. Axır ki, gəlib Saleh sövdagərin evinə çıxdı. Elə ki, uşağın onun olduğunu bildi, adam göndərtdirib uşağı evdən gətirtdi, Saleh sövdagərə gözaydınlığı verib uşağı ona qaytardı.

Bəli, o vaxtdan Saleh sövdagərlə zərgər Məsim bir dost oldular, daha bunların arasından su da keçəsi olmadı.

Bu hadisədən az müddət keçdi, bir gün arvadı Məsimə xəbər verdi ki, bəs, boynuna uşaq düşüb. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə keçdi. Zərgər Məsimin arvadı yükünü yerə qoydu, onun bir qızı dünyaya gəldi. Yaxşı bir şadlıq keçirdilər. Qızın adını Mehri qoydular. Zərgər Məsimlə Saleh sövdagər əhd-peyman bağladılar ki, Mehrini Şəhriyə versinlər, ta ki, onların dostluğu qohumluğa çevrilsin.

Bundan on beş il keçdi. Mehri ilə Şəhrinin günü çox vaxt bir yerdə keçirdi. Onlar bir-birini elə sevirdilər ki, elə bil gül bülbülə, bülbül də gülə aşiq olmuşdu.

Deyir, qəza işi qaçılmazdı, yarananı torpaq gözləyir. Günün birində zərgər Məsim bərk naxoşladı, ölüm başının üstünü aldı. Saleh sövdagəri yanına çağırıb qızını, ev-eşiyini ona tapşırdı. Özü isə bu fani dünya ilə vidalaşdı.

Elə ki, zərgər Məsim öldü, Saleh sövdagər bir müddət yas saxladı. Günlərin birində arvadı ona dedi:

– A kişi, bu dünya bivəfadı, bu gündən sabaha etibar yoxdu. Bir də gördün əcəl gəlib qapını kəsdi. Gəl Mehri ilə Şəhrinin toyunu eləyək. Heç olmasa, dünyadan nakam getməyək.

Saleh sövdagər gördü, arvadı çox ağıllı söz danışır, razılaşdı. Qərara gəldi ki, toy tədarükü görüb yaxşı bir toy eləsin. Fikir elədi ki, bunun üçün əvvəl-əvvəl bir səfərə çıxsın, lazım olanları satsın, lazım olanı alsın. Başladı səfər tədarükü görməyə. Tədarükünü görüb qurtardı. Böyük bir karvan Sərsəbildən yola düşdü. Son vaxtlar Saleh sövdagər hara səfər edirdisə, Şəhrini də özü ilə aparırdı. Onun üçün ki, alqı-satqı işlərini öyrənsin, ta ki onun sənətini davam elətdirsin.

İndi sizə deyim Cəlali Kürdoğlunnan. Cəlali Kürdoğlu qoçaq, vurub-tutan bir adamıydı. Başına böyük bir dəstə də toplayıb qaçaqlıq, quldurluq edirdi. Bu dağ mənim, o dərə sənin, bu kənd mənim, o şəhər sənin, yerini-yurdunu bilən olmazdı. Yetdiyinə yetərdi, yetmədiyinə bir daş atardı. Türkməndə məmə yeyəndən pəpə yeyənə hamı onun əlindən zinhara gəlmişdi. Cəlali Kürdoğlu insaf bilməzdi, mürvət bilməzdi, kim qabağına keçdi soyub buraxardı, xoşu da gəlməyəndə öldürərdi. Varlı deməzdi, kasıb deməzdi, at görsə nalını sökər, cütçü görsə cütünü alar, dərviş görsə paltarına tamah salar, qaysavadan pay umardı.

Elə ki, Saleh sövdagərin karvanı şəhərdən çıxdı, neçə mənzil yol gedib tamam şəhərdən uzaqlaşdı. Deyir, sən saydığını say, gör fələk nə sayır. Cəlali Kürdoğlu başının adamları ilə karvan gedən yolun üstündə güdükdə durmuşdular. Gözləyirdilər, görsünlər bir bəndəyi-bəşər gəlib keçəcəkmi, soyub buraxsınlar. Bir də baxdılar ki, uzaqdan bir karvan gəlir, dedilər, Allah kor yapalağınkını yuvada yetirdi, adam gözləyirdik, karvan gəldi. Bəli, yolu mühasirə elədilər. Elə ki, karvan gəlib çatdı bir göz qırpımında Cəlali Kürdün

dəstəsi karvanın başının üstünü aldı. Saleh sövdagər gördü iş müşküldü, əl tərpətməyin yeri yoxdu. Cəlali Kürdoğlu əmr verdi, karvanda nə yaxşı şey vardı götürdülər. Sonra bütün karvan əhlini bir yerə yığıb üst-başlarını yoxlamağa başladılar. Kimin üstündə nə var idi götürdülər. Axır gəlib çıxdılar Şəhriyə.

Bəli, Şəhri Mehrinin bir şəklini çəkdirmişdi, həmişə də həmən şəkli özü ilə gəzdirərdi. Elə ki, şəkli gördü, Cəlali Kürdün ağlı başından getdi. Baxdı ki, bu bir qızdı, bir qızdı şah görsə şahlığından keçər. Ha istədi bunun kim olduğunu öyrənə Şəhridən bir söz ala bilmədi. Ancaq nə fayda, keçəl harda, dərd də orda. Cəlali Kürdoğlunun Yaradanqulu adında keçəl bir buyruqçusu vardı. Özü də Sərsəbil şəhərindən idi. Üç-dörd il olardı ki, allahdan da, bəndədən də bezib bir qarın çörək ucbatından Cəlali Kürdoğlunun dəstəsinə qoşulmuşdu. Sərsəbildə tanımadığı adam, açmadığı qapı yox idi. Saleh sövdagəri də yaxşı tanıyırdı, amma quldurda nə iman. Şəkli görən kimi tanıdı. Bəs, dedi, bu Mehridi, özü də həmən bu oğlanın nişanlısıdı. Cəlali Kürdoğlu bir Şəhriyə baxdı, bir şəklə baxdı, güldü:

– Həə, bunun nişanlısı idi, oldu indi mənim. Daha bundan sonra onun adını çəkməyi hər kəsə qadağan eləyirəm.

Şəhri dedi:

– Cəlali Kürd, işdah dil altındadı, könlünnən, deyəsən, koxalıq keçir, sən Mehrini ala bilməzsən.

Cəlali Kürd bir istədi əl atıb Şəhrinin hulqumunu üzsün, amma səbrini basdı. Dedi, görüm bu gədə nə demək istəyir, dedi:

– Necə yəni? Xoşnan olmaz zornan alaram… Kim mənim əlimin üstə əl qoyacaq?

– Əvvələn, Mehri sənə gəlməz, sonrası da mən qoymaram sən onu alasan. Ya ölərəm, ya da Mehrini sənə verməərəm.

Bu sözə Kürdoğlu doyunca güldü. Üz tutdu adamlarına, dedi:

– Mən bu oğlanı öldürmək istəyirdim, amma indi öldürməyəcəyəm, görüm necə qoymayacaq ki, mən Mehrini alım. Onu buraxın çıxıb getsin.

Bəli, Cəlali Kürdoğlunun adamları bütün karvan əhlini qılıncdan keçirdilər, Saleh sövdagəri də həmçinin. Təkcə Şəhrini azad elədilər ki, çıxıb getsin.

Şəhri oradan ağlaya-ağlaya birbaş Sərsəbilə gəldi. Bütün əhvalatı Mehriyə danışdı. Xeyli ağlayıb sızlayandan sonra Allaha təvəkkül deyib sakitləşdilər.

Cəlali Kürdoğlu adamları ilə karvanda hər nə var idisə, yığışdırıb dağlara çəkildi, yeddi gün, yeddi gecə yeyib-içib kef çəkdilər. Yeddi günün tamamında birdən Mehri Cəlali Kürdoğlunun yadına düşdü. Keçəl Yaradanqulunu yanına çağırıb əmr elədi ki, onun atını, yaraq-yasağını hazırlasın. Sonra Mehrigilin evinin yerini-yurdunu yaxşı-yaxşı öyrənib atını mindi. Təkəm-təkcə Sərsəbil şəhərinə yola düşdü.

Elə ki, gəlib zərgər Məsimin evinin həndəvərinə çıxdı atdan düşüb gözləməyə başladı ki, görsün eşiyə-bacaya bir çıxan olurmu, xəbərdən-ətərdən öyrənsin. Bir də baxdı ki, evdən bir qız çıxdı, çiynində sənək suya getməyə başladı. Baxan kimi tanıdı ki, bu haman şəkildəki qızdı.

Mehri bir də baxdı bir bədheybət adam yedəyində at, belində qılınc ona yaxınlaşır. O saat anladı ki, bu Cəlali Kürdoğludur, çünki Şəhri ona demişdi ki, yəqin bu yaxınlarda Cəlali Kürd onun arxasınca gələcək. Cəlali Kürdoğlu Mehri xanıma yaxınlaşıb görək nə dedi, Mehri xanım ona nə cavab verdi:

Aldı Cəlali:

*Suya gedən qəmzəli qız,*
*Bir xəbər ver ellərindən.*
*Susamışam, su ver içim,*
*Kafur kimi əllərindən.*

Aldı Mehri xanım:

*Əslin Kürddür haramzada,*
*Bizlər su vermərik yada,*
*Namus, ilqar gedər bada,*
*Su iç qalma yollarından.*

Aldı Cəlali:

*Kürd olduğumu danmaram,*
*Ölsəm, səndən usanmaram,*
*Heç dözmərəm, dayanmaram,*
*Əmməyincə ləblərindən.*

Aldı Mehri xanım:

*Sənəyim yerə qoyaram,*
*İki gözünü oyaram,*

*Sən Kürdoğlunu söyərəm,*
*Hər nə çıxsa dillərindən.*

Aldı Cəlali:

*Gəl danışma belə sözü*
*Sinəm üstə qoyma közü,*
*Sən ol mənə əmiqızı,*
*Bir buta ver tellərindən.*

Aldı Mehri xanım:

*Səhərin dan ulduzuyam,*
*Dillərin şirin sözüyəm,*
*Mehriyəm, Məsim qızıyam,*
*Nahaq gəldin ellərindən.*

Aldı Cəlali:

*Sən ki özünü öyürdün,*
*Könlünə daşlar döyürdün,*
*Mən Kürdoğlunu söyürdün,*
*Lal olmamış dillərindən.*

Aldı Mehri xanım:

*Bulaq başındakı sözlər,*
*Bağrımın başını közlər,*
*Vədə verən, əlbət, gözlər,*
*Su iç qalma yollarından.*

Elə ki, söz tamama yetdi, Cəlali Kürdoğlu dedi:

– Mən əvvəl istəyirdim sənə tanışlıq verəm, əmbə indi iş elə oldu ki, sən özün məni tanıdın, kim olduğumu bildin. Bil və agah ol, mən buraya səndən ötrü gəlmişəm. Allahın buyruğu, bəndənin razılığı ilə səni özümə ömür-gün yoldaşı eləmək istəyirəm. İndi gərək sən də bu işə razı olasan.

Mehri xanımın canına qorxu düşmüşdü, bilirdi ki, Kürdoğlu vəhşinin, quldurun biridir, nə din qanır, nə iman. Kefi kəsdi, bir də gördün Mehri xanımı aldı atın qucağına, kefi haraya istədi apardı. Odu ki, istədi bir nöynən Kürdoğlunu başınnan eləyə. Dedi:

– Cəlali Kürdoğlu, sən igid bir adamsan, səsin, sorağın aləmə yayılıb. Mən də nişannılıyam, bu gün-sabah toyumuzdu. Bəs, sonra deməzlərmi Cəlali Kürdoğlu qız tapmadı, gəlib özgəsinin nişannısını aldı. Axı bu sənin ad-sanına yaraşmaz.

Atalar yaxşı deyib: «Çörəyi ver çörəkçiyə, bir çörək də üstəlik». Cəlali Kürdoğlu kimi adamlara yüz nəsihət, min nəsihət elə, qanan şey döyül. Cəlali Kürdoğlu cavabında dedi:

– Ay qız, Mehri xanım, sən nişannısan, ya nişannı döyülsən, mənim üçün fərq eləməz. Mən səni almalıyam, vəssalam. Əvvəli haqq əmri, sonra da yan dəmiri. Razı olarsan, elçi göndərərəm. Halal-hivə toy edərik, toynan apararam. Razı olmazsan bir qolburmasıdı, sənin canındı, götürüb basaram atın yəhərinə, zornan apararam.

Bu söz Mehri xanımı bir az ürəkləndirdi, ürəyində dedi, hələ deyəsən, bu dəfə Kürdoğlunun əlinnən qurtara biləcəyəm. Dalını da Allah saxlasın. Amma yenə Kürdoğluya üz tutdu:

– Kürdoğlu, gəl bir şərt kəsək. Elə burda deyişək, əgər mən bağladım, sən bu fikrindən əl çək. Yox əgər dediyim sözlərə cavab verdin, onda möhlət ver fikirləşim.

Cəlali Kürdoğlu ürəyində belə götür-qoy elədi ki, qoy Mehri xanım sözünü desin, cavab verə bilər daha yaxşı, verə bilməz ağa durur, Ağacan durur. Zor onun, söz onun. Nə istəsə eləyər. Oydu ki, Mehri xanımın şərtinə razılaşdı. Görək orda Mehri xanım Kürdoğluya nə dedi, Cəlali Kürdoğlu nə cavab verdi. Biz deyək, eşidənnər şad olsun.

Aldı Mehri xanım:

*Cəlali Kürdoğlu, səlam eylərəm,*
*Əvvəl həqiqətin neçə yolu var?*
*Üç yüz altmış altı nədi dünyada?*
*Onlar kimdi əllərində dolu var:*

Aldı Cəlali:

*Bizə gəldi salam, əleyki-salam,*
*Deyim həqiqətin iki yolu var.*
*Üç yüz altmış altı gün hesabıdı,*
*O qırxlardı əllərində dolu var.*

Mehri xanım belə hesab eləyirdi ki, Cəlali Kürdoğlu ona cavab verə bilməyəcək, amma gördü yox, deyəsən Kürdoğlunun da qabında bir şey var. Götürdü görək sözün dalını necə dedi:

*Kim idi almadı öz boynuna suç?*
*Kim idi soyundu, oldu xırxapuç?*

*Nədi iki başı, gözü olan üç?*
*Onu bilməyənin nə kamalı var?*

Cavabında aldı Cəlali:

*Şeytandı almadı öz boynuna suç,*
*Hatəm peyğəmbərdi oldu xırxapuç.*
*Fəslin iki başı, ayı var üç-üç,*
*Əlbət, bilməyənin nə kamalı var.*

Aldı Mehri xanım:

*O nədi ki, yarı sudu, yarı qan?*
*O nədi ki, gözləri var bir xırman?*
*Onlar kimdi gəldi oldu iki can?*
*Söylə iki canın neçə dili var?*

Aldı Cəlali:

*O ürəkdi, yarı sudu, yarı qan,*
*Lütya balıq gözləri var bir xırman,*
*Adəm, Həvva gəldi oldu iki can,*
*İki canın yetmiş iki dili var.*

Aldı Mehri xanım:

*Dərin-dərin dəryalara dalasan,*
*Şirin canın eşq oduna salasan,*
*Qorxum budur Şəhri əlindən alasan*
*Bu yetim Mehrinin müşkül halı var.*

Aldı Cəlali:

*Dərin-dərin dəryalara dalmışam,*
*Şirin canım eşq oduna salmışam,*
*Bil ki, səni Şəhri əlindən almışam,*
*Kürdoğlunun yetmiş iki feli var.*

Söz tamama yetdi. Kürdoğlu dedi:

– Mehri xanım, şərt bağladın, sual verdin, cavabını aldın, de görüm indi sözün nədi?

Mehri xanım başladı yalvarmağa. Çox yalvardı, az yalvardı, gördü, xeyri yoxdu. Daşda insaf var, Cəlali Kürdoğluda yoxdu. Yüz yalvar, min yalvar, Kürdoğlu nə Allah tanıyır, nə Tanrı. Koroğlu deyib igiddik yüzdü, öl qutar, öldür qutar, kəs qutar, kəsil qutar, bas qutar, basıl qutar, qaç qutar, hər nə isə qutar, canın arxayın olsun. Mehri xanımın canına bir qorxu düşmüşdü, bir qorxu düşmüşdü ürəyi nanə yarpağı kimi əsirdi. Fikr elədi ki, hələ

birtəhər canını Kürdoğlunun əlindən qurtarsın, sonrası da allah kərimdi. Oydu ki, dedi:

– Yaxşı, Kürdoğlu, urusxat ver gedim fikirləşim. Allah yazanı bəndə poza bilməz.

Başınızı nə ağrıdım, Mehri xanım ilan ağzından çıxmış kimi bir təhər canını qurtardı. Kürdoğlunun son sözü bu oldu ki: «Yaxşı get, amma bu gün-sabah razı oldun olmadın gəlib sənə aparacağam». Kürdoğlu ordan geri döndü. Mehri xanımın su-zad yadınnan çıxdı, birbaş Şəhrinin yanına gəldi. Şəhri baxdı ki, Mehri xanım bir haldadı, bir haldadı, elə bil, bahar buluddudu, bir him gəzir boşalsın. O saat əhvalı duydu. Bildi ki, Kürdoğlu gəlib, özü də xeyirriyə gəlməyib. Elə həmən dediyi sözdən ötrü gəlib.

Şəhrini görüncə Mehri özünü saxlaya bilmədi, atdı özünü onun üstünə, elə bil, bu saat Mehrini yüz illik yola göndərəcəkdilər. Kürdoğlu dedi:

– Mehri xanım, de görüm, Kürdoğlu nə dedi, sən nə cavab verdin. Bilirəm Kürdoğlunun əlindən çıxıb gəlmisən.

Mehri xanım Kürdoğlu ilə olan əhvalatı ipdən-sapa necə var idisə o kimi də danışdı. Şəhri gördü, iş xarabdı. Kürdoğlu dinsizin, imansızın biridi. Özü də dediyini eləyəndi. Beş gün-üç gün sonra bir də gördün başının dəstəsini də yığdı, gedib Mehri xanımı zor-xoş apardı. Kimin ağzı nədi cınqırını çıxara. Kürdoğlu torpağını torba ilə daşıtdırar. Ürəyi qübar elədi, ona elə gəldi ki, bu saat Kürdoğlu gəlib Mehri xanımı onun əlindən alıb aparacaq. Könlü cuşə gəldi. Mehri xanımın uzun hörüklərini saz eləyib sinəsinə sıxdı, aldı görək nə dedi. Əvəzində deyək var olasız:

*Bir kimsə yox dərdə yana,*
*Yarım alacaq oldular.*
*Yanaram eşqin oduna,*
*Yarım alacaq oldular.*

Mehri xanım sevgilisinin halını belə görüncə daha da pis oldu. Gözünün yaşı sel kimi axıb al yanaqlarınnan süzəlləndi. Amma fikirləşdi ki, heç olmasa sevgilisinə bir təsəlli versin. Oydu ki, cavabında dedi:

*Gəl ağlama, cavan yarım,*
*Qorxma, yar, allah kərimdi.*
*Artırmaynan ahu-zarım,*
*Qorxma, yar, allah kərimdi.*

Aldı Şəhri:

*Otağım qaldı laləzar,*
*Canımdan olmuşam bezar.*
*Bəlkə, sənə qızıl bəzər?*
*Yarım alacaq oldular.*

Aldı Mehri xanım:

*Köməkdi mərdlər ağası,*
*Yarandı alma parası,*
*Toy olmaz, tutarıq yası,*
*Qorxma, yar, allah kərimdi.*

Aldı Şəhri:

*Mən Şəhriyəm qürbət elli,*
*Bağçalarım qaldı güllü*
*Mehrim, sənsən iki dilli,*
*Yarım alacaq oldular.*

Aldı Mehri xanım:

*Mehriyəm bezar canımdan,*
*Dərdim uzaq dərmanımdan*
*Bəzənnəm qızıl qanımdan,*
*Qorxma, yar, allah kərimdi.*

Söz tamama yetdi. Şəhri dedi:

– Mehri xanım, zalım güclü, tanrı kərəmsiz. Bizim Kürdoğluya gücümüz çatmaz. Deyəsən, fələk səni məndən ayıracaq. Gəl heç olmasa, halal-hümmət eləyək.

Bu sözə Mehri daha da kövrəldi, sözlə cavab verə bilmədi. Ona görə də sazla cavab verdi:

*Sənə deyim, Şəhri yarım,*
*Ölüncə dönmərəm səndən.*
*Heç boşa getməz ilqarım,*
*Ölüncə dönmərəm səndən.*

*Səni sevərəm canımdan,*
*Quş keçə bilməz yanımdan,*
*Keçsəm də, qızıl qanımdan,*
*Ölüncə dönmərəm səndən.*

*Mehri qəsd eylər özünə,*
*Gəl sən inan bu sözünə,*
*Ox dəysin düşmən gözünə*
*Ölüncə dönmərəm səndən.*

Mehri sazla dediyi kimi sözlə də dedi ki:

– Şəhri, eşit və bil. Mən səndən qeyri heç kəsə getmərəm. Qalsam səninəm, ölsəm, qara torpağın, vəssalam.

Şəhrinin dayəsi ki, neçə il idi bu evdə yaşayırdı və Şəhrini cəmi dünyada hər şeydən çox istəyirdi, bayaqdan pəncərədən bu iki sevgilinin halını seyr edib lap pəjmürdə olmuşdu. Hal-qəziyədən də xəbərdar idi, bayıra çıxdı. Gəlib Şəhriyə dedi:

– Bala, bəlkə, bir gedib Cəlali Kürdoğluya şirin dillə deyəsən, lap lazım gəlsə yalvarasan. Birdən adamdı insafa gəldi, sənnən nə gedəcək. Deyir, islanmışın sudan nə qorxusu.

Bu söz Şəhrinin ağlına batdı. Dedi, cəhənnəm, Kürdoğludu, gedib yalvar-yaxar edərəm, qoy lap öldürsün. Onsuz da Mehrisiz yaşamaq ölümdən betərdi.

Bəli, Mehri ilə də götür-qoy edib bir at mindi. Yola süvar olub Kürdoğlunun dalınca düşdü. Bu dağ mənim, o daş sənin, axır gəlib onu tapdı.

Kürdoğlu baxdı ki, uzaqdan bir atlı gəlir. Adamlarına əmr elədi, bir göz qırpımında Şəhrinin başının üstünü aldılar, gətirdilər Kürdoğlunun yanına. Kürdoğlu gördü ki, bu Şəhridi, dedi:

– Əə, sövdəyər oğlu, sən hara, bura hara, xeyir ola.

Şəhri üz tutdu Kürdoğluya:

*Başına döndüyüm qardaş*
*Nazlı yarım alma mənim.*
*Yaradanı yəqin bilsən*
*Nazlı yarım alma mənim.*

Şəhrinin gözü Kürdoğlunun üzündəydi, ha deyirdi, görüm söz ona təsir edəcək ya yox. Amma söz, elə bil, çibin vızıltısıydı. Kürdoğlunun bu qulağınnan uçub o qulağına gedirdi. Şəhri bir ürəyində özünü danladı ki, əşşi sən bilmirsənmi bu Kürdoğlu kimdi, gəlib ona niyə yalvarırsan, quldurda nə insaf. Ancaq sözü yarımçıq qoymadı. Aldı görək dalını necə dedi:

*İgid kəsməz dostluğunu*
*Mərd dəyişməz yasdığını,*
*Güzəşt eylə basdığını,*
*Nazlı yarım alma mənim.*

*Sevmə qaşların qarasın,*
*Deşmə ürəymin yarasın*
*Keçirmə Şəhri çırasın,*

*Nazlı yarım alma mənim.*

Söz daşa, kəsəyə təsir elədi, Kürdoğluya yox. Kürdoğlu dedi:

– Əə, sövdəyər oğlu, maşallah sənin yaxşı şairliyin də varmış, buna görə də sənə bir batman qızıl düşür. O da padşah xəzinəsində, bizdə olsa, verərdik. O ki qaldı Mehriyə, şərtimiz şərtdi. Kişi sözündən qaçmaz. Mən söz vermişəm Mehrini alım. Sən də söz vermisən özünü öldürəsən.

Şəhrinin dünyayi-aləmdə əli hər yerdən üzüldü, kor-peşiman geri qayıtdı. Nə tədbir fikirləşdisə, bir şey çıxmadı. İstədi Mehrini də götürüb yad bir yerə getsin, amma bir də götür-qoy elədi ki, xeyri yoxdu. Kürdoğlu yerin altında da olsa, üstündə də onu tapacaq, Mehrini də əlindən alacaq.

Sizə deyim Cəlali Kürdoğlundan. Bundan beş gün keçdi, üç gün keçdi, düzünü Allah bilir. Mehri xanım təzədən Kürdoğlunun yadına düşdü. Keçəl Yaradanqulunu yanına çağırdı:

– Əə, keçəl, neynirsən?

– Neyniyəsiyəm, ağa, sənin canına dua oxuyuram.

– Əə, keçəl, mənim canıma yüz dua oxumaqdansa, dərdimə əlac eləsən yaxşıdı.

– Ağa, o nə dərddi elə, bu keçəl başı onun yolunda sadağa eləyim.

– O elə dərddi ki, söznən desəm, dilim yanar, gərək saznan deyəm.

– Ağa, keçələ fərq eləməz, ya söznən de, ya saznan. Ya da istəyirsən, laldili danış, keçələ bir işarə bəsdi.

– Yaxşı, onda qulaq as:

*Göydən bir cüt sona endi,*
*İki gölün arasına.*
*Yar-yardan ayrı düşəndə*
*Ağlar, sızlar çarası nə?*

Kürdoğlu ağzını açan kimi keçəl mətləbi qandı. Bildi ki, Mehri xanım Kürdoğlunun yadına düşüb, dedi:

– Ağa, madam ki, sən saznan dedin, icazə ver, mən də saznan deyim.

– Sənin icazəni çoxdan vermişəm, saznan yox istəyirsən lap zurnaynan de.

Aldı keçəl:

*Bizim yerlər yemlik olar,*

*Quzu otlar əmlik olar,*
*Qız məməsi dəmlik olar,*
*Qismət olsun yiyəsinə.*

Kürdoğlu dedi:

– Keçəl, bu işin dərmanını tapsa, tapsa ancaq sən tapa bilərsən. Bir qulaq as:

*Bağ-bağçada güllər bitir,*
*Güllər bitir, bülbül ötür*
*Təbibsən, dərmanı gətir,*
*Bağla sinəm arasına.*

Aldı keçəl:

*Bizim ellər otdu olar,*
*Qoyun otlar süddü olar,*
*Qız məməsi dadlı olar*
*Qismət olsun yiyəsinə.*

Aldı Cəlali:

*Kürdoğluyam ərzim aldım,*
*Canımı odlara saldım,*
*Könül ağlar həsrət qaldım*
*Qaşlarının qarasına.*

Aldı keçəl:

*Yaradanqulu ocağına*
*Qurban dolu bucağına,*
*Yarın aldı qucağına*
*Getdi dağlar arasına.*

Cəlali Kürdoğlu saznan dediyi kimi söznən də dedi:

– Keçəl, Mehri üçün darıxmışam, onnan mənə bir xəbər…

– Ağa, o mənim işimdi. Keçəli göndər suya, üstəlik çörəyini də gətirsin.

Bəli, keçəl Yaradanqulu oradan birbaş yol aldı Sərsəbil şəhərinə. Elə ki, Sərsəbilə çatdı təğyiri-libas oldu, əyninə bir cırım-cındır paltar tapıb geydi, başına şeytanürküdən bir papaq qoydu, bir ayağı yalın, bir ayağında cırıq çarıq. Üzünə də bir az tozdan-torpaqdan sürtdü, özünü tanınmaz hala saldı, guya ki neçə ilin dilənçisidi. Yön aldı Mehrigilin məhləsinə, məhləyə çatanda başladı o qapı sənin, bu qapı mənim dilənməyə. Axır gəlib Mehrigilin qapısını döydü:

– Ay ev yiyəsi, mənə bir pay.

Mehri xanım bayıra çıxdı. Baxdı ki, bir dilənçidi, allah göstərməsin, görəndə adam deyir, elə ağzımdakı tikəni çıxarım buna verim. Ancaq elə ki Yaradanqulu gözlərini qalxızıb Mehri xanımın üzünə baxdı Mehri xanım onu tanıdı. Gördü ki, bu Yaradanqulunun gözləridi ki var. Yaradanqulunun bir gözləri var idi, elə bil Şümrü itələyib yerində durmuşdu. Baxanda adamın bağrı yarılırdı. Amma Mehri xanım özünü elə apardı ki, guya onu tanımadı. Özü də bildi ki, Yaradanqulunu Kürdoğlu xəbər aparmağa göndərib. Oydu ki, hiyləyə əl atdı. Yaradanquluya bir tümən verib dedi:

– Dilənçi qardaş, indi az oldu, inşallah toydan sonra gələrsən, sənə bir ovuc pul verərəm.

Mehri xanım bu sözü deyəndə elə bil Yaradanquluya padşahın xəzinəsini bağışladılar. Ürəyində dedi: «Aha, yaxşı oldu, indi öyrənim görüm nə toydu». Soruşdu:

– O nə toydu elə?

Mehri xanım dedi:

– Cəlali Kürdoğlu ki eşitmisən haa…

– Hə xanım, onu tanımayan kafərdi!

– Bax bu yaxınlarda mənim onunla toyum olacaq, onda gələrsən, nə istəsən verərəm.

– Xanım, dilənçinin payı nə olar, ya bir çömçə aş, ya da bir nimçə bozbaş. Aşın yanığı, bozbaşın da suyu.

– Adə, ağzını yava-yava qoyub danışma. Bu sənə yetim toyu zadı deyil. Cəlali Kürdoğlunun toyudu.

Mehri xanım Kürdoğlunu arxayın salmaq istəyirdi ki, tələsməsin. Ta ki o, Şəhri ilə fikirləşib bir tədbir görə bilsin. Birdən deyirdi, Kürdoğlu onların fəndini başa düşər. Gəlib tez-tələsik zornan onu aparar.

Deyir, keçəlin bici, padşahın gici, ikisindən özünü gözlə. Yaradanqulu özünü bicliyə qoyub soruşdu:

– Xanım, birdən bir bığıburması çıxdı, Kürdoğlunnan qabağa düşdü, səni apardı. Onda bəs necə olacaq?

Mehri xanım cavabında dedi:

– Ədə, hələ Kürdoğlunun qabağına keçən olmayıb. Analar elə oğul doğmayıb ki, Kürdoğlunun qabağına keçə. İkincisi də mən ondan başqa heç kəsə gedən deyiləm.

Bəli, əzizlərim, Mehri xanım keçəl Yaradanqulunu arxayın etdi ki, Kürdoğludan başqa heç kəsə getməyəcək. Yaradanqulunun çiçəyi çırtladı. Ürəyində sevindi ki, bu xəbəri Kürdoğluya çatdırar, əvəzində yaxşı bir nəmər alar. Ona görə də daha dayanmayıb düşdü yolun ağına. Üç günlük yolu bir günlük eləyib gəlib çıxdı Cəlali Kürdoğlunun hüzuruna. Cəlali Kürdoğlunun gözü yoldaydı. Gözləyirdi ki, keçəl ha budu gəldi, ha odu gəldi. Bir də baxdı ki, keçəl gəlir, özü də elə gəlir ki, elə bil yayınnan çıxmış oxdu. Bildi ki, nəsə var. Amma bəlli deyil xeyirdi, ya şərdi. Yaradanqulu çatar-çatmaz Kürdoğlu onu yaxaladı:

– Əə, keçəl, yardan mənə xəbər. Şərdi başın sadağa, xeyirdi xələtin məndə.

Keçəlin sevindiyindən salam-kəlam yadından çıxdı, üz tutdu Kürdoğluya:

*Mehri yardan xəbər gətdim*
*Ağa bir xələt, bir xələt.*
*Qulluq etməz zatı qələt,*
*Ağa bir xələt, bir xələt.*

*Qızıl düymə sağındadı,*
*Şamamalar tağındadı,*
*Yar yarın sınağındadı,*
*Ağa bir xələt, bir xələt.*

*Geymişdi kolxana cuna,*
*Ağ əllərə əlvan həna,*
*Keçəl başa qızıl xana*
*Ağa bir xələt, bir xələt.*

*Atım öldü naldan düşdü,*
*Yazıq canım dildən düşdü.*
*Yaradanqulu haldan düşdü*
*Ağa bir xələt, bir xələt.*

Yaradanqulu əhvalat necə olmuşdusa, birbəbir hamısını danışdı. Axırda da dedi: «Ağa, arxayın ol, Mehri xanımın fikri-zikri səndədi, səndən başqa heç kəsə gedən deyil». Bəli, Kürdoğlu bu sözə tamam inandı. Bir ovuc qızıl çıxarıb tökdü Yaradanqulunun keçəl başından:

– Əə, keçəl, yığışdır, Allaha dua et. Ye, iç, kef çək. Mehri xanımnan toyum olanda sənə bir dağarcıq pul verəcəyəm, gedib darğalıq elərsən.

Bəli, Kürdoğlunun kefi kökəldi, əmr verdi, bir şadyanalıq məclisi quruldu. Kürdoğlu keçəl Yaradanqulunu başda oturtdu. Yeyib, içib halı şah taxtına çıxandan sonra Kürdoğlunun saz, söz yadına düşdü. Ürəyi cuşə gəlib görək məclis əhlinə nə dedi. Əvəzində deyək, kefdə olasız:

*Könlüm istər uca dağlar qarını,*
*Gün vurub ərisin səlbəsəl bu gün.*
*Mehri yardan mənə xəbər gəlibdi,*
*Şad olsun qoşunum elbəel bu gün.*

*Qurban olum qıynağıma, qoluma*
*Gecə-gündüz fikrim gedir yanına,*
*Yaradanqulu, gətirəydin yanıma*
*Sanayaydım birçək, telbətel bu gün.*

*Nanəciblər bilməz namus, arını*
*Bülbül qoymaz gül üstündə xarını,*
*Get, Kürdoğlu özün gətir yarını*
*Gətirməsən bu dünyadan öl bu gün.*

Sizə deyim Mehridən. Yaradanqulu gedən kimi Mehri qaçıb gəldi Şəhrinin yanına ki, bəs, belə-belə, Yaradanqulu dilənçi sifətində gəlmişdi, yəqin, Kürdoğlu xəbər aparmağa göndərib. Məsləhət-məşvərətdən sonra Mehri ilə Şəhri belə qərara gəldilər ki, bu günə-sabaha bir də gördün Kürdoğlu qapını kəsdirdi. Vaxtında tədbir görmək lazımdı. Axır belə fikir elədilər ki, getsinlər Türkman paşası Səlim paşanın yanına. Hal-qəzyəni danışıb ondan pənah istəsinlər. Deyirlər, Türkman paşası çox mərd adamdı. Yəqin, onları darda qoymaz. Axşam oldu. Mehri ilə Şəhri bütün gecəni oyaq qaldılar, ilan vuran yatdı, Mehri ilə Şəhri yata bilmədi. Səhərin toranı çalar-çalmaz qalxıb Türkman paşasının yanına yola düşdülər.

Bəli, elə ki Yaradanqulu haman xəbəri gətirdi, Kürdoğlu arxayın oldu ki, Mehri ondan qeyrisinə getməyəcək. Dedi, yəqin, Şəhriyə də baxır, mənə də. Mənim adım-sanım, qoçaqlığım cəmi aləmdə məşhurdu. Məni qoyub Şəhriyə ərə getməz ki. İkinci tərəfdən də bilir ki, Şəhriyə bir qulaqburması verərəm ki, dədəsi qəbirdən xortlayıb çıxar. Bir həftə ötdü, iki həftə ötdü, üçüncü həftə Kürdoğlu dedi, bir Mehri xanımın dalınca gedim. Daha işi

tezləşdirmək lazımdı. Oydu ki, dəstəsini başına yığdı, elə ki hamı cəm oldu, Kürdoğlu üz tutdu dəstəsinə:

*Bahar uçar könül quşu*
*Bu dağların havasına.*
*Qanad çalar tülək, tərlan*
*Uçar, qonar yuvasına.*
*Qızıl almalar işdəmiş,*
*Dörd bir yanın naxışdamış,*
*Yol düşmüş karvan işdəmiş,*
*Mehri xanım obasına.*
*Olan Kürdoğluna oldu,*
*Peymanam qan ilə doldu*
*Mehri yar saraldı-soldu,*
*Dağlar düşdü arasına.*

Kürdoğlunun adamları bildilər ki, Kürdoğlu onlarla bir yerdə Mehri xanımın arxasınca getmək istəyir. Hamısı yerbəyerdən dedi:

– Ağa, bilirsən ki, biz sənin yolunda ölümə hazırıq. Haraya istəyirsən, gedək.

Kürdoğlu başının dəstəsi ilə Sərsəbil şəhərinə rəvan oldu. Gəlib şəhərin kənarına yetişdilər. Kürdoğlu dedi:

– Gəlin bir burada gözləyək, Yaradanqulu gedib bir xəbər öyrənsin.

Amma sonra Kürdoğlu fikirləşdi ki, elə özü də getsə, yaxşıdır. Gedib Mehri xanımla görüşsün, alışıb verişsin ki, bəs, nə vaxt elçi göndərsin, toyu nə vaxt eləsinlər. Xülasə, dəstə qaldı şəhərin kənarında. Kürdoğlu Yaradanqulunu da yanına alıb şəhərə varid oldu. Elə ki, gəlib bir pinəçi dükanının qabağına yetişdilər, keçəl dedi:

– Ağa, başmağım cırılıb, icazə ver onu yamadım sonra gedək. Belə Mehri xanımın yanına getmək yaxşı deyil.

Kürdoğlu gördü, doğrudan da, Yaradanqulunun başmağı yaman gündədi. Bu halda onu Mehri xanımın yanına göndərmək ayıbdı. Dedi:

– Yaxşı, onda sənə bir təzə başmaq alaq. Bunu tulla getsin, yamatmaq uzun çəkər.

Hər ikisi içəri girib pinəçidən xahiş elədilər ki, yaxşı bir başmaq versin. Pinəçi başmağı verdi, amma qiymətini elə baha dedi ki, Kürdoğlunun gözü çıxdı kəlləsinə, qaytıdı ki:

– Əə, imanını da bunun üstünə qoyma, adam kimi qiymət de. Biz tələsirik, gedəcəyik.

Pinəçi qəzəbləndi:

– A kişi, mən belə verirəm, xoşundu al, xoşun deyil yaxşı yol.

Bu dəfə Yaradanqulu dilləndi:

– Əə, qeyrətin olsun…

Pinəçini od götürdü:

– Görürəm, bir sən qeyrətlisən, bir də Kürdoğlu. Bir qız istəyirdi, o da qaçıb əlindən çıxdı.

Pinəçi Kürdoğlunu tanımırdı, elə adını eşitmişdi. Əgər bilsəydi ki, bu Kürdoğludu dilini dinməzinə qoyardı.

Kürdoğlu qəzəbləndi, istədi, irəli yeriyib pinəçinin başını bədənindən ayırsın. Keçəl işi duydu, him elədi ki, səbr elə, qoy görək bu nə deyir. Deyəsən, işin içində iş var. Üz tutdu pinəçiyə:

– Əə, qız nədi, filan nədi, sən nə danışırsan?

– Qız da qızdı da… Dəvə zad olmayacaq ki…

Yaradanqulu gördü, şirin dilini işə salmasa, pinəçidən fərri bir şey öyrənə bilməyəcək. Kürdoğluya him elədi ki, bayıra çıxsın, pinəçi ilə o özü danışacaq. Kürdoğlu bayıra çıxdı. Yarandanqulu pinəçi nə qədər demişdisə, bir az da artıq pul çıxarıb verdi. Yağlı dilini işə saldı. Bir dəqiqənin içində pinəçini muma döndərdi. Elə ki, gördü pinəçi yola gəldi, soruşdu ki, qardaş, o, nə qız haqq-hesabıdı elə. Pinəçi nə var idisə, hamısını qoydu keçəlin ovcuna. Bəli, elə ki, keçəl əhvalatı öyrəndi, çıxdı bayıra ki: «Qılıncın qında çürüsün, Kürdoğlu, qız əldən çıxdı». Kürdoğlu soruşdu:

– Necə yəni əldən çıxdı?

– Necəsi zadı yoxdu, Mehri xanım Şəhriyə qoşulub qaçdı Türkmən paşasının yanına.

Dünyayi-aləm Kürdoğlunun başına daraldı. Başa düşdü ki, Mehri xanım onu aldadıb. Hannan-hana özünə gəldi. Keçəl Yaradanqulu ona toxdaq verib dedi:

– Ağa, olmasın o qız, düz dünya dolu qızdı. Lap istəyirsən sənə padşah qızı alaq.

Kürdoğlu cavab verdi:

– Keçəl, səninki elə saman altdan su yeritməkdi, o da tutar tutar, tutmaz da tutmaz. Amma mənimki kişilikdi, söz verdim gərək eləyəm. İndi deyirsən bir qızdan ötrü məmə yeyəndən pəpə yeyənə hamı desin Kürdoğlu qorxaqdı, bir qız istəyirdi, onu da əldən verdi.

Qorxusundan arxasınca gedə bilmədi. Günü bu gün yola düşürük Türkman paşasının yanına. Adam kimi qızı istəyirik. Razı oldu oldu, olmadı onda bir qılıncdı bir də Türkman paşasının başıdı.

Keçəl qeyri bir söz demədi. Bildi ki, deməyin xeyri yoxdu. Ordan şəhərin kənarına qayıtdılar. Kürdoğlu adamlarını başına yığıb dedi. Görək nə dedi, necə dedi:

*Üzəngi vurun atlara,*
*Gəzək biz elbəel bu gün.*
*Qana qataq çölü, düzü*
*Dolanaq çölbəçöl bu gün.*

*Hanı paşa, verin dərsin,*
*Hökmümüz daşa yerisin,*
*Qoşun Türkmanı bürüsün*
*Düzülək dalbadal bu gün.*

*Bağban olub bar istərəm,*
*Turunc istər, nar istərəm,*
*Kürdoğluyam, yar istərəm,*
*Paşa öldür, ya öl bu gün.*

Kürdoğlunun dəstəsində yeddi yüz bir adam varıydı. Yeddi yüzu qılınc vuranıydı, amma bircə keçəl Yaradanqulu qılınc görəndə ürəyi yarılırdı. Onunku alıb aldatmağıydı, fəndinə keçdin evin yıxıldı.

Elə ki, Kürdoğlu sözünü qurtardı, hamı yerbəyerdən dilləndi:

– Kürdoğlu, özün bilirsən ki, biz sənin yolunda ölməyə hazırıq, hara deyirsən, ora da gedək.

Bəli, dəstə yol aldı, gecəynən, gündüznən yatmayıb, yeməyib gəlib çatdılar Şamdərya şəhərinə. Bu o şəhər idi ki, Türkman paşası orada əyləşirdi. Gəlib şəhərin kənarına yetişdilər. Kürdoğlu dedi:

– Gəlin burda əylənək. Bir məktub göndərək Türkman paşasına. Bəlkə, adamdı qandı, deyəndə ki, qızı ver, verdi, onda daha cəng eləməyin yeri yoxdu. İşdi əgər qanmaz onda qandırarıq.

Keçəl Yaradanqulu az-çox yazı-pozu bilirdi. Kürdoğlu dedi, Yaradanqulu yazdı. Kürdoğlu paşaya yalvardı ki, məni yaxşı tanıyırsan, gücümə də bələdsən. Gəl, qızı ver, sakit qayıdıb gedək. Yoxsa Şamdəryanın torpağını torba ilə daşıtdıracağam. Keçəl məktubu yazıb qurtardı. Kürdoğlu dedi:

– Keçəl, məktubu aparmaq sənin boynuna.

Keçəl Yaradanqulu bəçeşm eləyib məktubu soxdu qoltuğuna, ya allah deyib paşanın sarayına yola düşdü.

Keçəli yolda, Kürdoğlunu da adamları ilə şəhərin kənarında qoyaq. Sizə deyim kimnən, Mehri ilə Şəhridən, bir də Türkmən paşasından. Elə ki, Mehri ilə Şəhri Şamdərya şəhərinə yetişdilər, birbaş gəldilər Türkman paşasının sarayına. Sarayın qabağında dayandılar, qapıçının ovcuna bir onluq qızıl basdılar ki, bəs bizim ərzimiz var, onu paşaya çatdır. Qızıl onluğu görəndə qapıçı az qaldı imanını bazara çıxarsın, dedi:

– Nə qulluğunuz var, buyurun.

Şəhri dedi:

– Paşaya ərz elə ki, Sərsəbildən bir qıznan bir oğlan Kürdoğlunun əlindən qaçıb sənə pənah gətiriblər. Əgər mümkünsə, bizi öz yanında saxlasın.

Qapıçı gedib xəbəri necə var elə də Səlim paşaya çatdırdı. Səlim paşa Cəlali Kürdoğlunu yaxşı tanıyırdı. Bilirdi ki, haramzadanın biridi. Bu xəbəri eşitsə, bir qələt çıxardacaq. Düzdü, paşa Kürdoğludan qorxmurdu, amma yenə fikirləşdi ki, azacıq aşım, ağrımaz başım, hər yoldan ötəni sarayda saxlamaq olmaz. Kürdoğlu adamyeyən deyil ki. Gedib şəhərdə bir ev tapıb qalsınlar. Qapıçı xəbəri Mehri ilə Şəhriyə çatdırdı. Onlar hər ikisi başa düşdülər ki, paşa onları başından eləmək istəyir. Ona görə də Mehri götürüb paşaya belə bir məktub yazdı:

*Verməynən zalıma, möhnətdən qurtar,*
*Paşam, salma çöldən çöllərə məni.*
*Leyli, Məcnun, Əsli, Kərəmdən betər*
*Paşam, salma çöldən-çöllərə məni.*

*Uca dağlar hərgiz saxlar qarını,*
*Kamil bağban sevər bağın barını*
*Satmaram sevginin düz ilqarını,*
*Paşam, salma çöldən-çöllərə məni.*

Mehri fikirləşdi ki, bəlkə, Kürdoğlu paşaya bir xəbər göndərib, bir şey boyun olub, paşa da razılaşıb. İndi o səbəbə görə onları qəbul eləmək istəmir. Oydu ki, sözün dalısını götürüb belə yazdı:

*Qurban olum qılıncına, soyuna,*
*Gəl, sən baxma Kürdoğlunun toyuna.*

*Qəza vurdu düşdüm müşkül oyuna,*
*Paşam, salma çöldən-çöllərə məni.*
*Öz bağımda bağbanım var, bağım var,*
*Namusum var, qeyrətim var, arım var,*
*Mən Mehriyəm, Şəhri kimi yarım var*
*Paşam salma çöldən-çöllərə məni.*

Məktubu yazıb tamam elədi. Verdi qapıçıya ki, aparıb Səlim paşaya çatdırsın, qapıçı nəm-nüm elədi ki, xəbəri bir dəfə apararlar. Paşanın acığı tutar, dərimi dabanımdan çıxarar. Mehri gördü, qapıçı yenə nəsə umur, tamahı həzrət Əlinin qılıncından itidi. Əlacı kəsildi, bir onluq qızıl da basdı qapıçının ovcuna. Qapıçı onluğu görüncə məktubu bayaq ha, havada qapıb yayından çıxmış ox kimi özünü verdi Səlim paşanın yanına. Paşa məktubu alıb oxudu. Elə ki, məsələdən hali oldu, bildi ki, bu qıznan oğlan bir-birlərini sevirlər. Kürdoğlunun əlindən qaçıb paşaya pənah gətiriblər, bayaq dediyi sözə peşiman oldu. Öz-özünə dedi, bu namərddikdi ki, iki növrəstə cavan hardan hara səni deyib gələ, sənə qısıla, onları qəbul eləməyəsən. Əmr verdi, Mehri ilə Şəhrini gətirdilər. Paşa baxdı ki, bunlar bir-birinə elə yaraşır, elə yaraşır, elə bil bir almadılar yarı bölünüblər. Allah-taala bütün camal-kamalını, hüsnü-xəttini, qəddi-qamətini bu iki cavana verib. Hardan, nə üçün gəldiklərini yerli-yataqlı bilmək istədi. Şəhri əhvalatı birbəbir paşaya nağıl elədi. Paşa dedi:

– Bu gündən mənim yanımda sarayda qalırsız. Sizə özüm toy eləyəcəyəm. Kürdoğlu quş olub sizin həndəvərinizə də səkə bilməz. Heç nədən qorxub eləməyin.

Mehri ilə Şəhri sarayda qalmaqda olsun, sizə deyim keçəl Yaradan-quludan. Keçəl Yaradanqulu bir at mindi, məktubu da cibinə qoyub Səlim paşanın sarayına yola düşdü. Səhərin gözü təzəcə açılmışdı. Mehri ilə Şəhri pəncərənin qabağında durub yollara baxırdılar. Vətən, el-oba yadlarına düşmüşdü. Bir də baxdılar ki, uzaqdan bir atlı gəlir, amma atın üstündə elə oturub ki, elə bil, İmam Söyün yetimidi. Atlı gəlib yaxınlaşanda bir də baxdılar ki, ey dili-qafil, bu kim ola, kim olmaya, Keçəl Yaradanqulu ola. O saat hər ikisi mətləbi qandı. Bildilər ki, Yaradanqulu bura koxalıq istəməyə gəlmir, Kürdoğlunun xəbərini gətirib ki, Mehrini paşadan alsın. Şəhri dedi:

– Mehri xanım, mən bir gedim Yaradanqulunun qabağına, görüm Kürdoğludan nə xəbər gətirib.

Şəhri düşüb Yaradanqulunun qabağına gəldi:

– Yaradanqulu, xeyir ola, sən hara bura hara, yoxsa başına dərman almağa gəlmisən?

Yaradanqulu Şəhrini tanıdı, dedi:

– Yox, bu dəfə iş səninkidi. Kürdoğlu sənin başına bir quruş qiymət qoyub, kim öldürsə, verəcək. Öldürən tapılmasa, özü öldürəcək.

Keçəl nə üçün gəldiyini Şəhriyə anlatdı. Bildirdi ki, Kürdoğlu öz dəstəsi ilə şəhərin kənarında dayanıb, əgər paşa Mehrini verməsə, Kürdoğlu müharibə eləyib qızı aparacaq. Şəhrinin canına qorxu düşdü. Fikirləşdi ki, paşa onun qohumu deyil, qardaşı deyil. Onnan ötrü müharibə eləyib qan tökməz. Mehrini Kürdoğluya verəcək ki, başı dinc olsun. Kürdoğlu sakit çıxıb getsin. Halı pərişan oldu, dünya başına dolandı. Mehrinin yanına gəlib gərək öz dərdini ona necə ərz elədi:

*Qoşunlar səf-səf düzüldü,*
*Paşam bizi elə verər.*
*Tamam şəhəri bürüdü,*
*Paşam bizi ələ verər.*

Mehri işin nə yerdə olduğunu bildi. Ancaq Şəhriyə təsəlli verməkdən başqa əlacı qalmadı. Götürdü, cavabında belə dedi. Biz deyək, eşidənnər var olsun:

*Sənsən mənim cavan yarım,*
*Paşam bizi ələ verməz,*
*Aralıqda düz ilqarım,*
*Paşam bizi ələ verməz.*

Aldı Şəhri:

*Ov qaçanda dizə verər,*
*Ovçu ziynət gözə verər,*
*Kürdoğlu ona xəznə verər,*
*Paşam bizi ələ verər.*

Aldı Mehri:

*Tac zərdəndi, mis ki deyil,*
*İrz, qeyrət əbəs ki deyil,*
*Paşa binamus ki, deyil*
*Paşam bizi ələ verməz.*

Aldı Şəhri:

*Əlimdən alsalar yarım,*
*Mən gedim kimə yalvarım*
*Şəhriyəm, yox havadarım,*
*Paşam bizi ələ verər.*

Aldı Mehri:

*Elə sözlər gəlməz ara,*
*Dərdimə tapılar çara,*
*Mehriyəm sinəmdə yara*
*Paşam bizi ələ verməz.*

Bəli, elə ki Yaradanqulu məktubu paşaya yetirdi. Paşa məktubu oxuyub mətləbdən xəbərdar oldu, hirs vurdu beyninə, dedi:

– Get, Kürdoğluna deynən düz-dünya dolu qızdı. Ona nə yaraşar ki, başqasının sevgilisini əlindən alsın. Ağlı kəsirsə, sakitcə çıxıb getsin. Yox, ağlı kəsmirsə, onda bəri başdan kəlmeyi-şəhadətini oxusun.

Mehrinin xəbəri yox idi ki, paşa keçələ nə deyəcək, Kürdoğluna nə xəbər göndərəcək. Dedi, birdən paşa fikrini dəyişər, onları ələ verər. Gəlib özünü atdı Səlim paşanın ayaqlarına ki: «Paşam, amandı, bizi ələ vermə». Paşa Mehrinin bu halını görüb, doğrudan da, pərişan oldu. Üz tutdu Mehri xanıma görək necə arxayın saldı:

*Heç kəsilməz mərd igidin kölgəsi,*
*Qorxma, Mehri balam, başım girovdu.*
*Çox da desən canım gedər ötəsi,*
*Qorxma, Mehri balam, canım girovdu.*

*İşdərə yön verən çərxi-fələkdi,*
*Qan gözüm önündə lələk-lələkdi,*
*Kürdoğlunun başı mənə gərəkdi,*
*Qorxma, Mehri balam, başım girovdu.*

*Bu gün ötər çox işlərin xatası,*
*Yabılar da köhlənlərə çatası,*
*Türkman paşa yetim Mehri atası,*
*Qorxma, Mehri balam, başım girovdu.*

Söz tamama yetdi, paşa dillə də Mehri xanımı arxayın elədi ki, başını verər, amma onları ələ verməz.

Bəli, keçəl Yarandanqulu paşanın yanından çıxıb birbaş Kürdoğlu olduğu yerə gəldi. Kürdoğlunun gözü yoldaydı, gözləyirdi ki, görsün, keçəl nə xəbər gətirəcək. Elə ki keçəli gördü, istədi, ağzını aça, amma keçəl aman verməyib Kürdoğlunu qabaqladı:

– Ağa, paşa səni gözləyir.

– Əə, keçəl, nədən ötrü?

– Deyir, quldur-qaçaq qanı yaxşı dadır. O qədər çöldə-bayırda təmiz havada gəzirlər ki, qanlarının tamı da dəyişir, olur bal kimi. Elə qaçaq-quldur axtarırdım, başını üzüb qanını içəm, özü öz ayağı ilə gəlib çıxıb.

– Əə, keçəl, bir adam dilində de görüm, paşa nə dedi. Sən keçəl dilində danışırsan.

Yaradanqulu paşa ilə olan əhvalatı necə varsa, danışdı. Dedi, paşa deyir, ağlı kəsirsə, çıxıb getsin, dava-dalaş eləməyək. Yox, əgər ağlı kəsmirsə, atım yəhərli, qılıncım hazır. Kürdoğlu necə istəyir, elə də eləyək.

Kürdoğlunun cin başına vurdu. Dedi, indi mən paşanın qılıncını da, atını da ona göstərərəm. Hay vurdu başının dəstəsinə. Dəstə bir anda şəhərə yeriyib Səlim paşanın sarayını üzük qaşı kimi mühasirəyə aldı. Səlim paşa əvvəldən işini bilirdi, əmr vermişdi, cəmi qoşun hazır olmuşdu. Kürdoğlu adam göndərdi ki, paşa meydana çıxsın. Səlim paşa dava libasını geydi, tamam-kamal hazır oldu, atını sürüb Kürdoğlunun qabağına yeridi. Amma paşanın qəsdi buydu ki, Kürdoğlunu dilə tuta, nahaq qan tökülməyə. Ona görə də Kürdoğluya üz tutub görək nə dedi, necə dedi, Kürdoğlu ona necə cavab verdi. Əvəzində biz deyək, kefdə-damaxda olasız.

**Aldı Səlim paşa:**

*Qəza vurar, xəta tutar*
*Bax Allaha qayıt geri,*
*Tufan qopar, gəmin batar*
*Bax Allaha qayıt geri.*

**Aldı Cəlali:**

*Adım bəlli, özüm igid,*
*Bu sevdadan qayıtmaram.*
*Dost qəm çəkər, yad olar şad*
*Bu sevdadan qayıtmaram.*

**Aldı Səlim paşa:**

*Hər ürəyin öz sevgisi,*
*Hər ocağın öz tüstüsü,*
*Hər yuvanın öz istisi*
*Bax Allaha, qayıt geri.*

**Aldı Cəlali:**

*Qılıncım çıxar qınından,*
*Fələk dönər nizamından,*
*Qorxmam paşa fərmanından*
*Bu sevdadan qayıtmaram.*

**Aldı Səlim paşa:**

*Pənah gəldi Mehri bizə,*
*Paşa dönük çıxmaz sözə,*
*Dərd artırma dərdimizə,*
*Bax Allaha, qayıt geri.*

**Aldı Cəlali:**

*Mehri Kürdoğlu butası,*
*Başında igidlər xası,*
*Xan yıxası, xotkar bası,*
*Bu sevdadan qayıtmaram.*

Söz tamama yetdi. Paşa meydanda atını bir sağa sürdü, bir sola sürdü. Bir istədi, əmr versin, dava başlansın. Sonra lənət şeytana dedi. Nahaq yerə qan tökülməyini istəmədi. Dedi, bəlkə, Cəlali Kürdoğlunu dilə tutum, qayıdıb getsin. Yenə şirin dilinən üz tutdu Cəlaliyə:

*Xəta gələr bil başına,*
*Bu sevdadan qayıt, qardaş.*
*Sözlərin gəlməz xoşuma,*
*Bu sevdadan qayıt, qardaş.*

Cavabında aldı Cəlali:

*Qovğa açaram başına,*
*Mehri yarı ver qayıdım.*
*Zəhər qataram aşına,*
*Mehri yarı ver qayıdım.*

Aldı Səlim paşa:

*Gücün bəlli, qoşunun az,*
*Yaxşı düşün, bir qulaq as,*
*Yamanlıqdan bir şey çıxmaz*
*Bu sevdadan qayıt, qardaş.*

Aldı Cəlali:

*Gücüm artıq, qoşunum çox*
*Qorxaq ilə heç işim yox,*

*Çaxaram sinənə bir ox*
*Mehri yarı ver qayıdım.*

Aldı Səlim Paşa:

*Vardır başının xatası,*
*Eyləyirəm iltiması,*
*Verib Mehrini atası*
*Bu sevdadan qayıt, qardaş.*

Aldı Cəlali:

*Kürdoğlunun ad-sanı var,*
*Meydanda ac aslanı var,*
*Gör, bir neçə tufanı var*
*Mehri yarı ver qayıdım.*

Söz tamama yetdi. Paşa gördü, daş qayaya rast gəlib. Kürdoğlu bildiyini dədəsinə də verən deyil. Yenə istədi davanı başlasın. Bu dəfə də lənət şeytana dedi. Fikr elədi ki, atalar üçətən deyib. Qoy bir də Kürdoğlunu yoxlasın. Bəlkə, Allah ürəyinə insaf verdi. Meydanda gərdiş eləyib yenə üz tutdu Kürdoğluya, görək üçüncü dəfə Cəlali Kürdoğlunu necə öz fikrindən daşındırmaq istədi, Kürdoğlu onun təklifini necə rədd elədi.

Aldı Səlim paşa:

*Budur sənə deyim sözümün canı,*
*Əl çək bu sevdadan, qayıt, Kürdoğlu.*
*Mərd igidlər düşməz ayrı sevdaya,*
*Əl çək bu sevdadan, qayıt, Kürdoğlu.*

Aldı Cəlali:

*Qızılını mən çəkərəm tucunan,*
*Mən Mehrini aparmağa gəlmişəm.*
*Əvvəli xoşunan, sonra gücünən,*
*Mən Mehrini aparmağa gəlmişəm.*

Səlim paşa gördü, şirin dil Kürdoğluya təsir eləmir, hədə-qorxuya keçdi. Dedi, bəlkə, hədə-qorxuynan Kürdoğlunu başa salım:

Aldı Səlim Paşa:

*İldırım nisbətdə üstünə gəlləm,*
*Fələk kəməndi tək canını allam,*
*Bu saat dəstənə bir talan salam,*
*Əl çək bu sevdadan qayıt, Kürdoğlu.*

Aldı Cəlali:

*Qırram qoşununu, etmə gümanı,*
*Özünmü sevibsən qaşı kamanı?*
*Yıxaram evini, tökərəm qanı,*
*Mən Mehrini aparmağa gəlmişəm.*

Aldı Səlim paşa:

*Övlad bildim o qaşları kamanı,*
*Yüz il keçsə, saymam sən tək düşmanı,*
*Qaydadır ki, ağ yel basar dumanı*
*Əl çək bu sevdadan qayıt, Kürdoğlu.*

Aldı Cəlali:

*Kürdoğluyam, qılınc saya gətirrəm,*
*Çox baş olar mən meydandan itirrəm,*
*Laçın kimi caynağıma götürrəm,*
*Mən Mehrini aparmağa gəlmişəm.*

Paşa gördü, yox, Kürdoğlu dediyindən dönmür ki, dönmür. Davadan başqa əlac yoxdur, dedi:

– Kürdoğlu, qoçaq adamsan, gəl camaatı hədər yerə qırğına verməyək. İkimiz tutaşaq, ya sənə verər Allah, ya mənə.

Kürdoğlu razılaşdı, hər ikisi davaya hazır olub üzbəüz gəldilər, dava başlandı. Gah bu ona güc gəldi, gah o buna. Axırda paşa «Allahü-əkbər» nərəsi çəkib topuzu Cəlali Kürdoğlunun başına elə ilişdirdi ki, Cəlali Kürdoğlu atın ayaqlarının altına dığırlanıb düşdü. Paşa aman verməyib onun başının üstünü aldı, xəncəri çıxardı ki, başını bədənindən ayırsın. Kürdoğlu yalvarmağa başladı:

– Paşa, sən igid adamsan, mənə aman ver, nə desən, qulluğunda hazıram.

Paşa dedi:

– Sənə aman verərəm, ancaq iki şərtim var.

Cəlali Kürdoğlu dedi:

– Nə şərt desən, razıyam. Şərtini de.

– Birinci şərtim odu ki, gərək bu quldurçuluğun, talançılığın daşını atasan. Camaatla yaxşı rəftar eləyəsən.

– Buna razı, ikinci şərtini de.

– İkincisi də gərək xəzinənin yarısını yoxsula, yetimə paylayasan. Yarısını da Şəhri ilə Mehriyə verəsən.

– Ona da razı, ayrı?

Paşa dedi:

– Ayrı şərtim-zadım yoxdu, indi amandasan.

Bəli, əzizdərim, Türkman paşası Cəlali Kürdoğluya aman verdi. Cəlali Kürdoğlu o gündən qaçaqçılığın, quldurçuluğun daşını atdı. Öz adamlarından ikisini ayırdı, gedib onun xəzinəsini nə ki var, gətirdilər, yarısını yoxsula, yetimə payladılar. Yarısını da verdilər Şəhri ilə Mehriyə. Amma Şəhri xəzinəni götürməyib Kürdoğluya qaytardı.

Mehri ilə Şəhri Səlim paşanın ayağına düşüb ona minnətdarlıq elədilər. Geri qayıtmaq üçün urusxat istədilər. Paşa urusxat verdi. Onlara iki atlı da qoşdu ki, Sərsəbilə qoyub qayıtsın. Özü də toy nəməri üçün onlara yeddi dəvə yükü qumaş, yeddi kisə qızıl bağışladı.

Mehri ilə Şəhri oradan Sərsəbilə qayıtdılar. Yaxşı bir toy elədilər. Yeddi gün, yeddi gecə qonağı-qaranı, yetimi-yesiri yemək-içməklə doyuzdurdular.

Axırda da aşıq bu duvaqqapma ilə məclisi tamamladı:

*Qızılgül sənə mayildi,*
*İstəyir görə bənövşə.*
*Qoymazlar ömrü uzana,*
*Gözəllər dərə bənövşə.*
*Şuxluq ilə oynayıban,*
*Sədr üstə sərə bənövşə.*
*Əcayibdi, qoxun bənzər*
*Mişkə, ənbərə, bənövşə.*
*Bağlamışam dəstə-dəstə,*
*Aparım yara, bənövşə!*[1]

[1] *Устад сяняткар шеирин архасыны унудуб.*

## YETIM SÖYÜN[1]

Ustaddar dilinnən bir ustadnaməynən dastanımıza başdıyax:

*Bir kəs ki fənadan ünvansız keçə,*
*Diriykən yandırmaq nara lazımdı.*
*Dəyər əməldədi, şərəf gedərgi,*
*Cəsəd xakdan qeyri hara lazımdı?*
*Hikmətdən tikildi xilqət əndamı,*
*Axırda qalacaq bacasız damı,*
*Elə hökm eylə ki, yad etsin hamı,*
*Sində cismin mura, mara lazımdı.*
*Görmədim aləmin sonadək şadın,*
*Alı sazda, sözdə tapdı imdadın.*
*Ucalsa, obada şərəfli adın,*
*Nə dəfinə, nə də xara lazımdı.*

Ustadnamə bir olmaz, iki olar, biz də deyək iki olsun.

*Dedim, könül nanəcibdən kənar gəz,*
*Bulunmaz odlara atacaq səni.*
*Nanəcibə bel bağlama dünyada,*
*Düşmən bazarında satacaq səni.*
*Nanəcib, yaltaqla sən çıxma yola,*
*Başına gətirər bulunmaz bəla.*
*Quyruğun kəsməklə qurd olmaz tula,*
*Nəsildən xaindi tutacaq səni.*
*Növrəs İman olmaginən diləfkar,*
*Qarğa laçın olmaz yüz olsa şikar,*
*Müxənnət adama etmə etibar,*
*Axır dar günündə atacaq səni.*

Ustadnamə iki olmaz üç olar, biz də deyək üç olsun, xain gözü ovulsun.

*Qafil könül, bir məclisə varanda,*
*Ver qadağa acı dilə, danışma.*
*Hərcayı söyləmə, hərcayı demə,*
*Laf eyləyib gülə-gülə danışma.*

---

[1] *Бу дастаны Мискин Вялинин дилиндян йазыйа аларкян биз мягсядли олараг Азярбайъан дилинин гярб диалектиня аид лящъя хцсусиййятлярини гисмян сахладыг.*

*Aşıq gərək hər məclisdə sayılsın,*
*Sözünü eşidən qansın, ayılsın,*
*Kəlmə çıxart, şirin cana yayılsın,*
*Aşırıb sözünü zilə danışma.*

*Mənə demə sözün azğın, axmağın,*
*Xoşlanılmaz aralıqdan çıxmağın,*
*Layiq deyil başa qaxınc qaxmağın,*
*Öz eybini bilə-bilə danışma.*

*Yazıq Söyün, əhdin yetir yerinə,*
*Könül bağla aşıqların pirinə,*
*Çək sözünü həqiqətə, dərinə,*
*Hər qədirbilməzə belə danışma.*

Bəli, sizə hardan deyim, kimnən deyim, İsfahan, nisfi-cahan şəhərinnən. İsfahan şəhərində kimnən, Şah oğlu Şah Abbasdan. Günnərin birində Şah Abbasın kefinin duru vaxtıydı. Vəzir, vəkil, əyan-əşrəf başına toplaşmışdı. Şirin söhbət eləyirdilər. Birdən Şah Abbasın ağlına nə gəldi, nə gəlmədi, dedi:

– Mənim indiyə qədər nə əyağım dəyməmiş, nə gözüm görməmiş elə bir yer yoxdu.

Şah Abbas belə deyəndə onun hörmətli sərkərdələrindən Becan qayıdır ki:

– Qibleyi-aləm sağ olsun, sənin dediyinə mən inanmıram, elə şey ola bilməz.

Şah Abbas sözünün üstündə durur, deyir elədi ki, var. Burda yenə Becan dincəlmir, qayıdırkın:

– Şah sağ olsun, çox iri getdin, yəni sən haqqı-taala xəlq eləmiş bu yekə dünyanın hər yerini gəzif, hər yerini də görüfsən? Mən bilən, şah sağ olsun, bir yer var, oruyu sən nə gəzmiyifsən, nə də görmüyüfsən.

– Əyə, Becan, görünür ki, sən mənnən çox yer gəzif, çox yer görüfsən?

– Di, indi çox, az. Mən də özümə görə gəzmişəm. Əmə, şah sağ olsun, acığın tutmasın, hökm sənin əlindədi, bir yer deyim, düzünü de görüm sən oruyu gəzifsən, ya yox?

Şah Abbas xəbər aldı:

– Becan, de görüm o haradı ki, oruyu mən nə gəzmişəm, nə görmüşəm.

Becan dedi:

– Şah sağ olsun, Alxaz çimənniyi deyilən bir yer var, de görüm oruyu görüfsən, ya gəzifsən?

Becan belə deyəndə şah qayıdıf deyirkin:

– Becan, canın üçün sən deyirsən, mən eşidirəm.

Becan qayıdır ki:

– Şah, görürsənmi? Deyirsən, mən o yer yoxdukun oruyu gəzməmiş, görməmiş olam.

Şah Abbas fikirrəşir ki, əşşi, nətəri ola dünya mənim əlimdə ola, iyirmi dörd kral dövlətin hamısını gəzmiş olam, əmə Alxaz çimənniyini görmüyəm. Əmr verir ki, hazırlıq görülsün, bəs, şah gəzməyə çıxacaq. Bəli, hazırlıq görülür, atdar yəhərrənir, xurcunnar dolur, kim silah-əsləhəsi hər nəyi var götürür. Şah Abbas böyük bir dəstəynən Alxaz çimənniyini gəzməyə çıxır.

Bəli, yola düşüllər. Təhmə ciloy, yaşıl otdar, köhlən atdardı, minif gedillər. O yerə çatıllar ki, daha burdan Alxaz çimənniyi başdıyır. Alxaz çimənniyinə şah çatanda baxıf görürkün, doğrudan da, bir səfalı yerdi, baxdıqca adamın baxmağı gəlir. Şah çox maraqlanır. Becana deyir:

– Sağ ol, əyə, Becan, nə yaxşı oldu ki, sən bunu mənə dedin, hancarı indiyətən buruyu mən görməmişəm.

Şah Abbas çox şadi-xürrəm atı xırdaca-xırdaca sürüf gedirdi. Bir vaxt qabağa baxanda görürkün, bir ceyran başıaşağı otduyur. Şah ceyranı görəndə əmr verir ki, qoşun ceyranı əhatə eləsin. Bu ceyran mənim səfərə çıxanda birinci şikarım olduğuna görə onu elə əhatə eliyəsiniz ki, ceyranı diri tutax.

Bəli, nolajeydi, şah əmriydi. Vəzir vəkilə söykənir, vəkil qoşun başçısına söykənir, bu ona, o, o birinə. Atdarı da diz-dizə, qabırğa-qabırğaya elə söyküyüllər ki, bir vaxt ceyran başını qaldıranda görürkün, hər tərəf üzük qaşı kimi əhatə olunuf. Ceyran baxır ki, qaçmağa yer yoxdu, sağa-sola nəzər salır, görür ki, şahın atı çox havalıdı. Əgər keçmək varsa da, şahın atının qarnının altından keçə bilər. Yoxsa ayrı yerdən çıxış yolu yoxdu.

Əmə şah əmr vermişdi ki, ceyran hər kimin yanından keçif qaçsa, boynu fərmandadı.

Ceyran sağa-sola bir qıloy eliyir, qatı yaydan ox çıxan kimi şahin atının qarnının altınnan aradan çıxır. Şah baxıf görürkün, ceyran bunun öz səmtinnən getdi. Əl qaldırır elan eliyir ki, fərman

mənim öz boynumda qaldı. İndi mən ceyranın dalınnan gedərəm, ya diri tutaram, ya ölü gətirərəm.

Şah Abbas təhmə ciloy salır ceyranın dalınnan. Noolsun ki, şahın atı çox havalıdı, paçalıdı, axı qabaxdakı ceyrandı. Əyağını bir burda cüt yerə vuranda bir də yarım ağac o yanda vurur. Ceyran gedir, at gedir, ha burda, ha orda. Şahın məqsədi buydu ki, ceyranı diri tutsun. Bir vaxt baxıf görür ki, ceyran qabaxda bir cəngəllik meşəyə çatır. Əgər meşəyə girsə, ceyran əldən çıxajax. Oydu ki, oxu kamana qoyur, kirişi çəkif ya allah deyir. Elə ki kirişi çəkif buraxır, ceyran üzü üstə yerə sərilir. Şah çatır, ceyranın başını kəsir. Özü-özünə deyir ki, mən indiyə qədər heç zəhmətdi çörək yeməmişdim, indi bu ceyranın ətindən bir doyunca kavaf yeməsəm, mənim zəhmətim itər.

Bəli, ceyranı dəridən çıxardır. Ətinnən doğruyuf bir yaxşı kavaf eliyir, doyunca yeyir. Vaxt gəlif keçir, gün axşamüstünə çatır. Haqq-taala tərəfinnən bir boran qalxır, dolu yağışa qarışır, yağış doluya qarışır. Şah elə karıxır ki, bilmir harya pəriskar gətirsin. Ceyranın xoşagələn yerrərinnən bir az şaqqalıyır, büküf atın tərkinə bağlıyır. Atı minir, əmə gəldiyi yolu tanımır. Bilmir ki, hardan, hansı yolnan gəlif, hardadı. Şah baxıf görürkün, öz hesabına heç yana gedif çıxa bilməyəjək.

Deyillər, heyvan çox fəhimli olar. Şah atın başını buraxır. Fikirləşir ki, onu bir məkana aparsa, bəlkə, at apara. Yoxsa öz ixtiyarına qalsa, azıf itəjək. Xülasə, atı dehliyif yola düşür. Bir mənzil, iki mənzil, nə qədər yol gedir özü də bilmir. Bir vaxt eşidir ki, uzaxdan mal mələrtisi eşidilir. Atı sürüf səs gələn tərəfə gedir. Baxıf görür ki, bir naxır maldı, yanında da bir naxırçı var. Naxırçıya yaxınlaşıf salam verir. Soruşur ki:

– Naxırçı qardaş, bura haradı?

Naxırçı baxır ki, bu hər kimdisə qəribdi, özü də nabələd adama oxşuyur. Naxırçı deyir:

– Qardaş, görürəm, nabələd adama oxşuyursan. Bil və agah ol, bura Lut şəhəridir. Sən gəlif Lut şəhərinin kənarına çıxmısan.

Şah baxıf görür ki, bir kral yer keçif, gəlif tamam ayrı bir məmləkətə çıxıf. Atı sürür şəhərə, axşamın axşam vaxtı, vəzir yox, vəkil yox, qoşun yox, bunu tanıyan, bilən yox. Kim bilir, şah gəldi, ya bir gədə gəldi.

Şəhərin də belə bir adəti varıymış. Gün batan vaxtında hamı çəkər darvazasını bağlayarmış. Bəli, şah özünü şəhərə salır. Bu üzə – o üzə baxır görür ki, bütün evlərin darvazaları bağlıdı, əmə bir yerdən bir işıx gəlir. Şah atı bu işıx gələnə sürür. Yaxınlaşıf pəncərədən baxanda görür ki, bir qadındı, şam işığında oturuf. Qadını çağırır. Qadın bayıra çıxanda görür ki, bir mərifətdi, ləyaqətdi, bəzəkli, ziynətdi qonaxdı, gəlif qapıda atın üstündə dayanıf.

Qadın şahın atının başını tutur, onu qonax eliyir. Şah baxır ki, bu bir dar komalqadı, iki pişik boğuşsa, ocağa düşər. Ancax şahın ayrı əlacı yoxuydu, gecənin bu gecə vaxtı haraya gedəsiydi.

Arvad əzələn atı sakit eliyir. Şah keçir oturur. Sən demə, bu öyün yiyəsi Məhəmməd adında bir naxırçıymış. Naxırçı Məhəmməd elin naxırına gedərmiş, günü bir abbasıdan muzd alarmış. Arvad içəri girmir, kişinin yolunu gözdüyürkün, kişi bir balaca tez gələydi, qonağın yanında utanmıyeydıx. Gedif yeməyə, içməyə bir şey alıf gətireydi.

Bir vaxt baxıf görür ki, budu kişi gəldi, yağış zadda yaman döyüf, başdan ayağa əyin-başı çim yaşdı. Yaxınnaşır kişiyə sarı ki:

– A kişi, xoş gəldin, beş gəldin, on beş gəldin.

Kişi qayıdır ki:

– Arvad, sən sən olalı, mən mən olalı, sən mənə gələli, sən mənə xoş gəldin deməzdin, belə şirin qarşılamazdın, qəlbində nə var, nədən ötrü sən belə ilticalıx eliyirsən?

Kişi belə deyəndə arvad qayıdır:

– A kişi, düz deyirsən, sən sən olalı, mən mən olalı, mən sənə gəlif gəlin olalı, bu yaşa dolalı heç bizim qapıya bu hörmətdə, bu ləyaqətdə, bu bəzəkdə, bu ziynətdə qonax gəlmiyif. Bu günün muzdunun başından keçginən bu qonağın qarşısında utanmıyax.

Yazıx kişi gedir, bu günün muzdunun başınnan keçir, lazım olan şeylərdən alıf gətirir arvada verir. Arvad tez lətif xurdu-xörək qayırır, gətirif şahın qabağına süfrə salır, xurdu-xörəyi şahın qabağına qoyur.

– Qonax qardaş, bağışdaynan, varını verən utanmaz. Yoxdan verən də o kişidi, o da gözə görünməz. Buyur çörək ye.

Elə ki, kişi bu sözü deyir, şah qayıdır ki:

– Mən istəyirəm, heç sizin bu çörəyinizdən kəsmiyəm.

– Səbəbi nədi, niyə kəsmirsən?

Şah içəri girəndə baxıf görmüşdü, bu otağın bir tərəfində bir gərdək var. Öz-özünə fikirləşir ki, yağın təzə toy oluf, bu gərdək də təzə bəynən gəlinindi, əmə nə qədər gözdüyürsə, görür nə bəy gəldi, nə də gəlin. Deyəsən, gərdəyin heç yiyəsi yoxdu, eləcə boşdu. Şahı fikir götürürkün bəs, boş-boşuna bu gərdəyi niyə quruflar, nədən ötrü quruflar. Axırda ürəyi dözmüyüf deyir:

– Sənin çörəyini yemək istəmirəm onnan ötəri ki, bax, bu gərdək kimindi? Bunun dalında kim var? İndi əgər gəlinindi, mən bu evə gəlmişəmsə, gərək onun boygördüsünü verəm. Yox, ayrı bir işdi gərək onu biləm. Gərdəyin kimin olduğunu deməsən, mən sənin çörəyini kəsən deyiləm.

Arvad dinmir, kişi görür ki, ayrı əlac yoxdu, gərək gərdəyin dalında kim olduğunu deyə. Oydu ki, deyir:

– Qonax qardaş, vallah, indi ki iş belə oldu gərək deyəm. Bax o gərdəyin dalındakı mənim qızımdı. Xudavəndi-aləm ona o qədər eyb verib ki, eybinə səbəb onu üzə çıxara bilmirəm.

Şah xəbər aldı ki, onun eybi nədi. Naxırçı dedi:

– Gözdəri kordu, qulaqları kardı, dili laldı, ayaqları topaldı, əlləri də şildi.

Şah öz-özünə fikirləşir ki, xudavəndi-aləm bu yaratdığına bu qədər zülm eliyif eyb verirsə, doğrudan da, böyük dərddi. Onnansa bunu elə öldürsə, yaxşı imiş. Ancax şah fikrində bir götür-qoy eliyir, başa düşür ki, burda nəsə bir əmmə var. Ona görə də deyir:

– A kişi, sənin qızın laldı, şildi, topaldı hər nədi, mənə qəbuldu. Sən onu allahın əmrinnən verərsən mənə. Olar mənim halal arvadım. Mən də sənin halal çörəyini yeyərəm.

Kişi qayıdır ki:

– Ay qonax, sən bir bazburutdu, yaraşıxlı oğlan, o da bir eyibli insan, mən onu sənə verə bilmərəm.

Şah deyir:

– A kişi, sənə nə lazımdı, mən dilimnən ilqar verirəm, hər nədi mənə qəbuldu.

Kişi qayıdıf deyir:

– Ay qonax, bu axşam evimdə qonax olmağının xətrəsi üçün, bu qabağına açdığım süfrənin xətrəsi üçün, indi ki, sən məsləhət görürsən, mən qızımın eybini sənə dedim, sənə qəbuldusa, mən razıyam. Ancax bir anasınnan da razılığ alax.

Arvad deyir:

– Elə ha döyül mən kişinin sözünü qaytarmış olam, kişi razı, mən də razı.

Şah Abbas bir molla çağırtdırıb Allahın əmrinnən qızın nigahını kəsdirir özünə. Şah fikirrəşir ki, bir baxım görüm kişi deyən eyiblər bu qızda düzdümü. Duruf gərdəyi açanda görür ki, bəh-bəh, gərdəyin dalında bir qız oturur, bir qız oturur:

*Cəlal-xaliq, cəlal-xaliq,*
*Gör nə gözəl can yaradıb.*
*Behişti-ədnan içində*
*Huriyi-qılman yaradıb.*

Gözlər cəfərbər kimi, yanaqlar qızılgül yarpağı, dodaqlar süd qaymağı, əli düz, əyağı düz, qaməti sərf, məmələr baş veribdi döşündən, nə yetkindi, nə ötkündü, nə kaldı. Allah sənin allahlığına şükür, nə gözəl şikarın oldu. Şah qızın bu cahi-cəlalına, gözəlliyinə aşiq olur. Götürüf orda qıza belə bir tərif deyir. Kim olsa, deməz. Başqası beşini də artıq deyər.

*Bir gözəldi şövqün salıb cahanə,*
*Saxla tiflin kimi gözəl göz alə.*
*Aşıq deyər cahanə,*
*Cahan qurban Cahanə,*
*Xudanın xoş bəndəsi*
*Xoş gəlifsən cahanə.*
*Yaradan yaradıb salıb cahanə,*
*Gör necə yaradıb gözəl göz alə.*
*Bağbansan, gir bağa, bağ işini gör,*
*Bağ becər, bağ bəstə, bağ işini gör.*
*Ay aşıq, bağ işin gör*
*Bağ becər, bağ işin gör,*
*Ovçusan dur bərədə*
*Şikarın bax, işin gör.*
*Bir cəllad gözdünün baxışını gör,*
*İstəyir canımı gözəl göz alə.*
*Mən Abbasam deyim sözüm sənə, yar,*
*Həsrət könlüm sənə bağlı, sənə yar.*
*Aşıq deyər sənə yar,*
*Canım verdim sənə yar,*
*Qış otaqda, yaz bağda*
*Mehman olum sənə yar.*

*Dolandım dünyanı neçə sənə, yar,*
*Görmədim sənintək gözəl göz alə.*

Arvad deyir:

– Ay kişi, təzə oğlan, təzə qız, bəlkə, deyib danışajaxlar, öpüşüf görüşəjəklər. Bizim bunların yanında duruf bunları utandırmağımızın nə mənası var. Cavan vaxtlarımızı yadımıza salax. Dur, bir eşiyə çardağa çıxax. Bizimki bunlarınkınnan şirin olajax.

Qarı-qoca eşiyə çıxır. Eşikdə qiyamət qopur, öpüşə bax, qışqırığa bax.

Bəli, şah qıznan gecəni burda keçirər. Qızın adını soruşar. Qız deyər ki, mənim adım Xeyransadı.

Xeyransa soruşar:

– Bə, sənin adın nədi?

Şah Abbas cavab verər ki:

– Mənim adım Abbasdı, özüm də bir tacir babayam. İşim, gücüm o şəhər sənin, bu kənd mənim gəzməkdi.

Səhər dan üzü şah yerinnən qalxır ki, duruf getsin. Ta ki, onun burdan çıxıf getdiyini bir bəndeyi-bəşər görməsin. Nədən ki, birdən onu tanıyıf bilən olar. Xeyransaya deyər:

– Dur, anana deynən mənim atımı gətirsin, mən gedəjəm.

Şah Abbas belə deyəndə qızın qəlbini qan alır:

– Əə, bədbəxt oğlu, sən ki belə gəlif belə gedəjeydin bir gecədən ötrü məni niyə hörmətsiz elədin?

Şah Abbas cavab verər ki:

– Ay qız, daha oralarını deməynən, bu işin axırı inşallah yaxşı olar, pis olmaz.

Qız qayıdıf deyir:

– Yaxşı, indi ki, mənim bir adımı iki elədin, sabah mən atamın-anamın üzünə baxa bilmərəm. Heç olmasa mənə bir nişanədən-filannan ver, bəlkə, lazım oldu.

Deyillər, Şah Abbas yeddi ilin bacı-xərcınnan sağ qoluna bir bəzmənd[1] qayırtdırmışdı. Bəzməndi açıf deyir:

– Xeyransa xanım, Allahın əmrinnən mən sənin kəbinini özümə kəsdirmişəm, sən mənim halal arvadım olufsan. Al bu bəzməndi, indi əgər qızım olsa, satıf xərcləyərsən. Nə qədər işıqlı

---

[1] *базубянд*

dünya var sənə də, qızına da bəs eliyər. Yox, əgər oğlun olsa, elə ki on beş yaşına çatdı bəzməndi sağ qoluna bağlayıf yola salarsan. Harda olsa gəlif məni tapar.

Bu sözü deyif Şah Abbas bəzməndi qıza verir. Qız götürüf burda oğlana belə deyir:

*İgiddər igidi, igiddər xası,*
*Getmə oğlan, mənə zülümdü zülüm.*
*Gəl çıxart könlümnən qaralı pası,*
*Getmə oğlan, mənə zülümdü zülüm.*

*Babamın taxtını yıxa bilmərəm,*
*Taytuş arasına çıxa bilmərəm,*
*Anamın üzünə baxa bilmərəm,*
*Getmə oğlan, mənə zülümdü zülüm.*

*Xeyransayam qara gəldi baxtım da,*
*Qoy şah tar-mar olsun tacı-taxtında.*
*Hardan rast gəlmisən gecə vaxtında,*
*Getmə oğlan, mənə zülümdü zülüm.*

Söz tamama yetir. Şah Abbas atın yəhərini belinə basır, at yəhərli-yüyənni hazır olandan sonra Şah Abbas qızın ata-anasınnan xəbərsiz yola düşür.

İndi sizə deyim kimnən. Şah Abbasın vəzir-vəkilinnən, əyan-əşrəfinnən, bir də qoşun-ləşkərinnən. Elə ki Şah Abbas ceyranın dalınca yola düşəsi oldu, əmr verdi ki, heç kəs yerinnən tərpənməsin. O gələnə qədər onu gözləsin. Bəli, bir gözlədilər, iki gözlədilər, gördülər nə şah var, nə də şahdan bir xəbər-ətər. Vəzir Allahverdi xan dözməyib axırda dedi:

– Əyə, bu evi yıxılmış harda qaldı? Gözləməkdən gözümüzə qara su gəldi.

Vəzir Allahverdi xan yola düşdü. Ta ki gəlib Şah Abbasdan bir xəbər-ətər öyrənsin. Nə isə bu evi yıxılmış da aza-təzə gəlif haman Lut şəhərinə çıxır. Şəhərə yaxınlaşan vaxtı bunun atı gəlif bir ceyilgahda battağa batır. Nə qədər çalışırsa da, atı battaxdan çıxara bilmir. Altı torpaq, üstü yarpaq battağın kənarında ağacın altında yatar, gecəni keçirər, səhər açılar. Səhərrər üzünüzə xeyirriyə açılsın. Bir vaxt vəzir baxar görər ki, budu şah gəlir.

– Əə, evin yıxılsın şah, hardaydın?

Şah Abbas deyir:

– Vəzir Allahverdi xan, danışmax vaxtı döyül. Tez ol, atı min gedək. Camahat ayılıf eşiyə-bacaya çıxar, bizi görər.

Vəzir deyir:

– Bəs, at batdağa batıf.

Şah da atdan enər. Zor-güc birtəhər atı çıxardıllar. Ta ki qoşun-ləşkəri də götürüf gəlif taxtı-səltənətə yetişəllər.

Bəli, sizə hardan xəbər verim, Lut şəhərinnən. Qulluğuna ərz elədiyimiz kimi Xerynsa xanımın atası elin naxırına gedirdi. Buna görə də adəti üzrə səhər o başdan qalxar, naxırı yığıb çölə sürər ki, aparıf otarsın. Arvad da gecə bir az kişiynən oynuyuf yorulmuşdu. İndi yatıf günortuya qalar. Bir vaxt arvad ayılır, fikirrəşir ki, axı, mən axşamnan qız ərə vermişəm. Bir gedim görüm qıznan oğlanın söhbəti tutufmu, bir-birinnən razılığı, bir-birinnən məhəbbəti nətərdi.

Arvad içəri girəndə görər ki, qız çox qaş-qavaxlıdı. Gözdər bahar buludu kimi doluf, elə bir himə bənddi ki, tökülsün. Anası soruşur:

– Ay qızım, özün sevdin, özün oysandın, dəli sənsən, yoxsa mən? Əgər ayrı fikrin varıydı axşamnan razı qalmıyeydin. Niyə bikefsən, olmuya oğlan xoşuna gəlmiyif?

Anası belə deyəndə qız qayıdıf deyir ki:

– Ana, dərdin biriydi yüz oldu. Oğlan məni qoyuf getdi.

Arvad baxar görər ki, oğlan, doğrudan da, yoxdu.

– A qızım, bə, nətəri getdi?

Qız deyər:

– Elə-belə getdi də. Gecəni yatdı, səhər açılar-açılmaz duruf atını da mindi, vidalaşıf getdi.

– Yaxşı, bə, sənə nişanədən-zaddan vermədimi?

– Verdi, bax bu bəzməndi mənə qoyuf getdi.

Arvad baxır ki, bu bir bəzmənddi ki, dəyəri əlli padşahın xəzinəsində də yoxdu, dedi:

– A qızım, o hər kimsə böyük bir işin yiyəsidi, elə-belə adam döyül, Allah kərimdi, gedif gedif. Qayıdar daha yaxşı, gəlməz bizim bu dünyalığımızı verif gedif. Daha nə ağla, nə dərd elə.

Qız burda özünü saxlıya bilmir. Ağlıyıf görək anasına nə deyir:

*Canım ana, gözüm ana,*
*Ağlaram, ana, ağlaram.*

*Sənə qurban özüm ana,*
*Ağlaram, ana, ağlaram.*

Anası köyrəlir, qızına deyir:

– A bala, qoy söz tək olmasın, cüt olsun. Birini də mən deyim.

Anası götürür:

*Baban sənə zülm eylədi,*
*Ağlama, qızım, ağlama.*
*Bağrım başını teylədi,*
*Ağlama, qızım, ağlama.*

Qız götürür:

*Ağlayıram yana-yana,*
*Yandı bağrım döndü qana*
*Bəzməndi verdi nişana,*
*Ağlaram, ana, ağlaram.*

Anası deyir:

– A qızım, ağlıyıf eləmeynən, sözümə qulaq as:

*Darayıb zülfün hörəyim*
*Boyuna sədəqə verəyim,*
*Gətir bəzməndin görəyim,*
*Ağlama, qızım, ağlama.*

Qız fikirrəşir ki, bular ac-gic şeydilər. Bəzməndi çıxarar verər, bular da qiymətini bilməz, tələf eliyər. O oğlan da sənə tapşırıx verif gedif. Gəl deynən mənə bəzmənd zad verif eləmədi:

*Xeyransadı mənim adım,*
*Sinəmi yandırır odum,*
*Bir söz idi yalan dedim,*
*Ağlaram, ana, ağlaram.*

Anası götürür:

*Bu dünya fanidi, fani,*
*Səni qoymaz, nə də məni.*
*Oda saldın Mələknisəni,*
*Ağlama, qızım, ağlama.*

Söz tamama yetir. Qız qalır evdə, anası da gedir öz işinin dalınca.

İndi sizə deyim naxırçıdan. Naxırçı axşam naxırı sürüb kəndə gətirir. Elə ki hərə öz mal-danasını qapısına aparır naxırçı gəlir evinə. Baxır ki, evdə məğşuşduxdu. Arvadın ağzı bir yanda, qızın

ağzı bir yanda. Soruşur ki, niyə beləsiniz, nə oluf hərəniz ağzınızı bir yana tutufsunuz. Arvad deyir:

– Sənin toy eliyən başına ildırım düşsün. Əhvalat belədi, oğlan yoxdu, çıxıf gedif.

– Əşşi, nə danışırsan?

Arvad deyir:

– And bu, qəsəm bu, nə qonax var, nə də bir izi sorağı.

Kişi baxır ki, qız pisikir, deyir:

– A qızım, qəti pisikif eləmeynən. Gəlif həddi təhlif olmuşdun. Fikrinnən keçirdi ki, ay allah, bir mənə də gərdən qurulajaxmı? Bir oğlan qucağına girəjəmmi? Şükür haqqın dərgahına. Bir gecənin içində gərdək də quruldu, oğlanın da qucağına girdin.

Bəli, Şah Abbas gedir, taxtı-səltənətə çıxır. Bunnan neçə müddət ötür. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz saniyəsi tamam olanda Xeyransa xanım yükünü qoyur yerə. Hax-taalanın hökmü ilə Şah Abbasın Xeyransa xanımdan bir oğlu olur. Oğlanın adını Söyün qoyullar. Atası olmadığına görə el-oba buna yetim Söyün deyir.

Yetim Söyün aynan, ilnən, müxtəsəri-dilinən böyüyüf on dörd-on beş yaşına çatır. Bir gün Söyün uşaxlarnan aşıx-aşıx oynuyurmuş. Oyunda cığallıx düşür. Söyün istiyir uşaxların aşığını götürüf evə qaçsın. Bu vaxt uşaxların içində bir ifriti keçəl olar, allah-taala aləmin cəmi vələdüznalığını buna verər. Keçəl qayıdıf əlini gözünün üstünə qoyuf deyər:

– Əə, xalx atasının, anasının adına çağırılanda sən də yarım gecənin adına çağırılırsan. Əə, qonağın oğlu, mənim aşıxlarımı burya gətir.

Bu söz Söyünə güllə kimi dəyir. Qaytarır buların aşıxlarını üsdərinə tökür. Ağlıya-ağlıya gəlir anasının yanına ki, mənim babam hardadı. Anası qayıdıf deyir ki:

– Oğul, baban mala gedif, axşam gələjək.

Söyün deyir:

– Ana, mən öz babamı deyirəm.

– Oğul, o da öz babandı.

– Ana, insaf elə, o sənə də baba oluf, mənə də baba ola bilərmi? Mənim babam kimdi de!

Anası baxıf görür ki, yox, bunu başa salıflar, danmağın xeyri yoxdu.

– Oğul, sən hansı babanı soruşursan?

Orda götürüf görək Söyün anasına nə deyir, babasını onnan necə soruşur:

*Başına döndüyüm gülüzlü ana,*
*Ana, söylə babam kimdi gedəyim.*
*Yanaram odlara pərvanə kimi*
*Ana, söylə babam kimdi gedəyim.*

– Oğul, babanın oluf olmadığını sənə kim xəbər verdi?

Anasına Söyün sözün dalını belə deyir:

*Bir gül idim, aradılar, dərdilər,*
*Dəribinən pünhan yerə sərdilər.*
*Meçit qabağında xəbər verdilər*
*Ana, söylə babam kimdi gedəyim.*

*Mən Söyünəm dəryalara dalaram,*
*Şirin canım eşq oduna salaram,*
*Hər nə vəsyət versən, onu alaram,*
*Ana, söylə babam kimdi gedəyim.*

Sözdər tamam olur. Anası görür ki, mümkünat yoxdu. Söyünü əyləmək olmuyajax. Oydu ki, gətirir həmən bəzməndi Söyünün qoluna bağlıyır. Sonra oğluna deyir:

– Oğul, sənin baban Abbas adında yaraşıqlı, boylu-buxunlu bir adamdı. Özü də ya tacirdi, ya da ayrı bir böyük işin sahibidi. Bilmirəm gedif tapa biləjəksən, ya yox.

Bəli, Söyün tədarük görür ki, yola düşüf gedif atasını tapsın. O, gedən vaxtı anası götürüf görək nə deyir:

*Başına döndüyüm gülüzlü oğul,*
*Qürbət eldə gah da yada sal məni.*
*Yanaram odlara pərvanə kimi*
*Qürbət eldə gah da yada sal məni.*

*Kəmərin qurşasın Murtuza Əli,*
*Yolunda qoymuşam can ilə səri,*
*Apardın ağlımı etdin sərsəri,*
*Qürbət eldə gah da yada sal məni.*

*Ərşə qalxar Xeyransanın naləsi,*
*Viran qalsın Lut şəhrinin qalası,*
*İsfahanda tacir Abbas balası,*

*Qürbət eldə gah da yada sal məni.*

Elə ki söz tamama yetir anası öpüşür, görüşür, halal-hümmət eliyif Söyünü yola salır.

Söyün gedir. Dərələrdən sel kimi, təpələrdən yel kimi, badeyi-sərsər kimi gedir. Söyün getməkdə olsun. Söyünün anası da qalır, babası da Lut şəhrində.

Söyün neçə şəhərdə olur, necə kənddən keçir, neçə yerlər dolanır, neçə üzdər görür, neçə sözdər eşidir, çox dolanıf çox gəzənnən sonra axırda gəlif İsfahan nisfi-cahan şəhərinə çıxır.

Söyünə xudavəndi-aləm tərəfinnən bir şikil, bir şavayin, bir şəxsiyyət verilmişdi. Bir görən deyirdi, xudavəndə-aləm, bir də göreydim. Şah balasıdı, zarafat döyül, əskiklik çəkmiyif, kasıflıx çəkmiyif, yaxşı yeyif, yaxşı gəzif, ət içində böyüyüf.

Gedif şəhərə çatır. Əmə nabələdiydi. Haranı görmüşdü, haranı tanıyırdı ki? Qonax yeri də yox. Fikirrəşir ki, görəsən, mən nətəri eliyim. Bir vaxt baxıf görür ki, gəlif bir dükanın ağzına çatıf. Baxıf görür ki, bir kişidi. Söyün buna sarı yaxınnaşıf salam verir.

– Baba, mən qəribəm, bu axşam qonax saxlıya bilərsənmi?

Kişi bunun bir eninə, bir uzununa baxır, görür ki, bu çox yaraşıqlı bir oğlandı. Fikirrəşir ki, bu şəxsiyyətin yiyəsi, bu gözəlliyin yiyəsi nətəri deyir ki, mən qəribəm, özü də mənim burda qonax yerim yoxdu. Bu düzgün adam döyül. Əgər düzgün adam olsa, bunun buralarda bir qonax yeri filanı olmuş olardı. Başdıyıf hay-küy salır ki:

– Ay camahat, qəribə lotu əlinə keçmişəm, kömək eliyin, məni bunun əlinnən qurtarın.

Hərə bir tərəfdən tökülür:

– A kişi, olmuya cibini kəsif?

Söyünü bərk pisikdirillər. Hərə bir tərəfdən bir söz deyir. Söyün görür, iş o işdən döyül, deyir:

– Ay baba, insaf eləynən, mən nə civə görən döyüləm, nə oğru döyüləm.

Söyün görür, yox, bu kişinin elə-belə deməknən başa sala bilmiyəjək, əl atır saza. Görək saznan kişini necə başa salmax istiyir:

*Başına döndüyüm gülüzlü baba,*
*Baba mən qəribəm axşam bazarı.*
*İrəhm eylə gözdən axan yaşıma,*

*Baba mən qəribəm axşambazarı.*

Kişi baxıf görür ki, əyə, bu şeyir də deyir. Fikirrəşir ki, bunun sözünün qabağını deməsəm heç insafdan döyül. Kişinin də adı Qənnət Məhəmməd olur. Qənnət Məhəmməd baxır ki, deyəsən, zənnində yanılıf, bu, oğru, quldur deyil, qərib bir kimsədi, gəlif çıxıf burya. İstiyir oğlanın kim olduğunu, burya nə üçün gəldiyini öyrənsin. Oydu ki, götürüf belə deyir:

*Qoca baban alsın sənin qadanı,*
*Oğul, nədi sən qəribin güzarı.*
*Düzgün danış mən eşidim sədanı*
*Görüm nədi sən qəribin güzarı?*

Götürür Söyün:

*Cavan ikən mən ömrümdən doymuşam,*
*Ağ əlimə əlvan həna qoymuşam,*
*Bir anam var Lut şəhrində qoymuşam*
*Baba, mən qəribəm axşambazarı.*

Qənnət Məhəmməd fikirrəşir ki, buna bir hədə-qorxu gəlim, bəlkə, düzünü deyə:

*Tanımıram sultanını, xanını,*
*Buyurar cəllada allam canını,*
*Sən isnad ver mənə adı-sanını*
*Görüm nədi sən qəribin güzarı.*

Götürür Söyün:

*Nə müddətdi yetən yoxdu dadıma,*
*Giryan oldum bir sənəmin oduna,*
*Atam tacir Abbas, Söyün derlər adıma,*
*Baba mən qəribəm axşambazarı.*

Qənnət Məhəmməd fikirrəşir ki, bu şəxsiyyətdə, bu camalda, bu gözəllikdə oğlan başqasının ola bilməz. Yəqin bu Şah Abbasın oğludu. Yəqin evi yıxılmış hansı axşamsa hansı evdəsə qonax qalıf, hansı qızısa bir gecəliyinə alıf. Bu da elə onun oğludu. Dili qurumuş kimi də yekəxana təpindim ki, tanımıram sultanını, xanını. Əgər gedif qulağına çatsa, mənim həyatım da bunnan puç oluf getdi. Oydu ki, Qənnət Məhəmməd axırında elə söz işdədir ki, oğlanın xoşuna gəlsin:

*Qənnət Məhəmmədəm bağça, bağım var,*
*Namusum var, qeyrətim var, arım var.*
*Sən cavanın gözüm üstə yerin var,*

*Görüm nədi sən qəribin güzarı.*

Sözdər tamama yetər. Qənnət Məhəmməd bunu götürüf öz evinə aparır. Gecə Qənnət Məhəmmədin evində yeməkdən, içməkdən yeyir, içir. Qənnət Məhəmmədin də balaca tükançası varıydı, halva satırdı. Gecə qalır, səhər Söyün durur şəhərə çıxır.

İndi sizə hardan xəbər verim, Şah Abbasın vəzirinnən. Şah Abbasın bir vəziri olur, adına Qara vəzir deyillər. Bu vəzirin bir qızı olur, Sənəm adında. Başında otuz doqquz qul-qaravaşnan səyahətə çıxıbmış. Yazın laləzar vaxtıymış. Qızdar kimisi bənöyşə dərir, kimisi nərgiz dərir, aparıf Sənəm xanıma verillər.

Bir vaxt elə olur ki, Söyün bulara rast gəlir. Sənəm xanımın Ağca qız adında bir qarabaşı olar. Elə olar ki, bu Söyünü görər. Baxar ki, bu bir oğlandı, bir oğlandı heç qoymazsan ki, xotkar oğlu əlinə sü töksün. Özü də, deyəsən, sazı da var. Ağca qız buna sarı yaxınnaşar.

– Əyə, nə işin yiyəsisən?

Söyün deyər:

– Ay qız, nə bilim adamam, Allah yaradıf.

Ağca qız:

– Burya bax görüm, səni burya bir yerə aparajam, qız yığnağıdı, bir balaca bizə söhət eliyərsən.

Qızdarın hərəsi bir qom, iki qom, kim hər nə bacarır bənöyşədən, nərgizdən dərif Sənəm xanıma peşkəş gətirillər. Ağca qız günü qara bu oğlanı tapannan sonra bunnan məşğul olur. Oydu ki, bir qədər ləngiyir, qızdarın hamısınnan geri gedir. Sənəm xanımın buna acığı tutur ki, bayaxdan hardasan, sənin qıçın harda qırılmışdı. Ağca qız deyər:

– Ay Sənəm xanım, bağışda yatmışdım…

– Aaa, a günü qara, qız xeylağı da çöldə yatarmı?

– Sənəm xanım, niyə yatmır?

– Niyə nədi, qız qorxuludu, heç yeri döyül ki, qız çöldə yata.

Ağca qız deyir:

– Sənəm xanım, niyə qorxulu olar ki, yiyəsinə tapşırdım, arxayın yatdım.

Sənəm xanımın bu söz xoşuna gəlir. Qızın yiyəsi də kimdi, kim qabağa düşüb alsa odu.

Sənəm xanım baxır görür ki, Ağca qız yanınca bir oğlan gətirif, elə bil Misir sultanının oğludu, baxanda adamın ağlı

başınnan çıxır. Baxar ki, bunun çiynində də saz var. Yəqin eliyər ki, bu çalıf oxumağı da bacarır. Sənəm xanım üz tutur oğlana:

– Oğlan bizim bu günkü səyahətə çıxmağımıza, geyimimizə, gecimimizə, gözəlliyimizə, göyçəkliyimizə bir tərif deyərsənmi?

Söyün deyir:

– Xanım, niyə demirəm. Deyərəm, hələ o yana da keçərəm.

İndi görək Söyün orda götürüf qızdara nə deyir. Biz deyək, siz şadlıxda olasız:

*Bir bölük pərilər, pərizadalar,*
*Çıxıban səhraya lala dərəllər.*
*Şamaxı yaylığı salıblar çarpaz*
*Gül, çiçək dərməyə yerə sərəllər.*
*Bir bölük pəridi tamam növrəstə,*
*Dərəllər bənövşə, tutallar dəstə,*
*Hər qıya baxanda olarsan xəstə,*
*Aşıqlara nazü qəmzə edəllər.*
*Biri var içində gözləri xumar,*
*Cilvəsi Söyünü yandırar, yaxar,*
*Biri işvə satar, qıyqacı baxar,*
*Çox əcaib zövqü səfa sürərlər.*

Sənəm xanım deyir:

– Ey oğlan, mənim ətrafımdakılar hamısı mənim əlaltı kənizdərimdi, məni bu qarabaşlara qatıf olarnan birrikdə tərif deyirsən. Ayrıca mənim özümə bir söz deyəjəksən, ya yox? Əgər mənə ayrıca tərif deməsən, sənə bu qızdara bir toy tutdurajam ki, gəl görəsən.

Orda Söyün götürüf təkcə qızın adına yazır. Görək nə yazır:

*Naz eyləmə nazlı dilbər,*
*Qaşın kamana layiqdi.*
*Sənin o şirin dillərin,*
*Sultana, xana layiqdi.*
*Öldürməz sevən sevəni,*
*Öldürürsən sən ki məni,*
*Yolunda qoyan sərini*
*Ola mehmana layiqdi.*
*Söyün deyərlər adıma,*
*Haqq özü yetsin dadıma,*
*Sinəmdəki eşq oduna,*

*Yana pərvana layiqdi.*

Söz tamama yetir. Sənəm xanım deyir:

– Ağca qız, bunu sən tapıf gətirifsən, indi özün də aparıf bir yaxşı yerə qonax verərsən. Səhər nətəri olur olsun mən özüm axtarıf tapajam.

Ağca qız deyir:

– Xanım, insanın itiyi tapılmaz deyillər. Apararam bir yerə qoyaram, o da başını götürər geniyər, başım əldə qalar. Hara göndərəjəksən özün göndər, mənnik iş döyül.

Xanım hökmüdü, Ağca qıza təpinir. Ağca qız Söyünü salır yanına, gətirir həmən Qənnət Məhəmmədin tükanına. Qənnət Məhəmmədinən söhbətdəşillər. Qənnət Məhəmməd deyir:

– Oğul, balaca tükandı. Mayamı götürərəm, qazancına ortaq. Yeməyin, içməyin, hər nəyin varsa da, mənim hesabıma. Mənim tükanımda qalar, işə-gücə əl-ayax verərsən.

Söyün qalır burda, başdıyır halva satmağa. Gecəni qalır, səhər təzədən Sənəm xanım başında qırx qul-qarabaşnan gəzməyə çıxır. Ora-bura çox gəzif dolanıllar. Axır gəlif Qənnət Məhəmmədin tükanına çıxıllar. Sənəm xanım baxır ki, Söyün burdadı, özü də halva satır. Əmr verir, qul-qarabaş hərəsi bir tərəfə dağılır. Ağca xanıma deyir:

– Sən də get ayrı bir yerə, al-verin varsa, al-verini elə, yoxsa da gör şəhərdə-filanda nə xəbər-ətər var. Mən burda bir az halva alıf yeyəjəm…

Sənəm xanım bunun dərdini başa düşür, əmə özü güdyanılıxnan soruşur ki:

– Xanım, halvanı evdə bişirtdirif yeyəmmirsənmi?

– Yox, tükannan alıf yeyəndə şirin olur.

Bəli, Ağca qız bunun dərdini bilirdi, daha çənə-boğaz eləmir, çıxıf gedir. Sənəm xanım al-yaşıl geyinif, ağ əlində həna, tel teldən keçir, bel üzükdən keçir, elə bil behiştdən yarım sahatdı çıxıf, sallana-sallana Qənnət Məhəmmədin tükanına doğru gəlir. Söyün bir də baxıf görür ki, budu Sənəm xanım gəlir. Sənəm xanımı belə nazlı-qəmzəli görəndə Söyünün ürəyi tab eləmir. Sənəm xanımın ilqarı, etibarı onun ürəyini coşdurur, götürüf orda belə deyir:

*Sallanıban gələn dilbər,*
*Bir təmiz ada xoş gəldin.*
*Çəməndəki xoş ixtilat,*

*Könlümə dada xoş gəldin.*
*Sevdiyim zülflərin dara,*
*Həsrətəm qoynunda nara,*
*Xilaf çıxmadın ilqara,*
*Arzu, murada xoş gəldin.*
*Geyibsən zərü xaranı,*
*Sinəmə çəkdin yaranı,*
*Yazıq Söyün biçəranı,*
*Salıban yada xoş gəldin.*

Sənəm xanım gəlif tükana daxil olur. Xoş, beş, on beş görüşüllər, baxışıllar. Oğlan təzə, qız təzə, halva da ki şirin. Evini yıxıllar Qənnət Məhəmmədin. Halvadan yeyif öpüşüllər, öpüşüf halvadan yeyillər. Halvanın axırına çıxıllar. Gedən baş Sənəm xanım deyir:

– Sən yerini dəyişmə, qal burda ki mən yerini bilim. Yaxın vaxtdarda mən bir şey fikirrəşif tədbir görəjəm. Özü də sənnən orada əlaqə saxlıyajam.

Bəli, elə ki Sənəm xanım gəlif saraya çatır, özünü xəstəliyə vurur. Qara vəzirə xəbər çatır ki, bəs, qızın şəhərə çıxıf qayıdannan sonra bərk xəstələnif. Heç halı özündə deyil, vəziyyəti ağırdı. Vəzir, vəkil, anası, qohum-əqrabası yığılır bunun başına ki:

– A bala, sən sağ-salamat şəhərə çıxdın, bə birdən-birə sənə nə oldu?

Sənəm xanım deyir:

– Ölürəm, ay ata.

Qara vəzir deyir:

– İnşallah ölməzsən, a qızım. Yenə dərd yiyəsi dərmanını bilər. Sənə nə alım, nə gətirim, nə yeyəjəksən, nə içəjəksən, hansı təbibi, hansı loğmanı gətirim, kimnən sənə əlac olar, de, buyruğunda hazır eliyim.

– Ata, mənə həkim filan lazım döyül. Mənim dərdimin bircə əlacı var. O da budu ki, mənim yerimi dəyişəsən. Bu sarayda yaşamax heç mənə düşmür. Mənə elə bir yerdə bina tikdir ki, ora mənim xoşuma gəlsin.

– A qızım, xoşuna gələn yer haradı?

– Qənnət Məhəmmədin tükanının qabağındakı meydan mənim ən çox xoşuma gələn yerdi. Ordan mənə uca bir imarət

tikdirsən, şəhərin hər yerini görərəm, dərdim olmaz, xəstəliyim də keçif gedər.

Bəli, nə olajax, vəziriymiş. Puldan, qızıldan əskikliyi ha yoxuydu. Əmr verdi, bir ayın içində Qənnət Məhəmmədin tükanının qabağındakı meydannan elə bir uca imarət tikdilər ki, dibində durub başına papaxlı baxsan papağın düşərdi.

Sənəm xanımın da elə o saat xəstəliyi, azar-bezarı, hər nəyi varıydı qurtardı. Özü də otuz doqquz qul-qarabaşnan köçdü bu imarətə. Elə ki imarətə köçdülər qızdardan birinə buyrux verdi ki, get, bir kənkan tap gətir. Qız gedif bir kənkan tapıf gətirdi. Sənəm xanım üz tutdu kənkana dedi:

– A kişi, sən bu otağın içinnən lağım götürəsən, Qənnət Məhəmmədin tükanınnan çıxarasan. Neçə vaxta başa gələr?

Kənkan dedi:

– Xanım sağ olsun, torpağımı şirin götürən olsa, üç günün tamamında hazır elərəm.

Sənəm xanımın buna acığı tutdu, dedi:

– Bunnan bizimki tutmadı, ötürün getsin.

Qızdar bunu ötürdülər getdi. Sənəm xanım buyrux verdi:

– Ayrı birini tapın.

Qızdar bir sahatın içində ayrı bir kənkan tapdılar gətirdilər. Sənəm xanım bunnan da soruşdu:

– A kişi, bu otaxdan lağımı götürəsən, Qənnət Məhəmədin tükanınnan çıxarasan, neçə vaxta başa gələr?

– Xanım, torpağımı şirin götürən olsa, iki günün tamamında hazır elərəm.

– Bu da yaramadı, ötürün getsin. Bir ayrı qoçağını tapın.

Bir ayrı qoçax kənkan tapıf gətirdilər. Sənəm xanım bunnan da soruşdu:

– A kişi, lağımı burdan götürəsən. Qənnət Məhəmmədin tükanınnan çıxarasan, neçə vaxta başa gələr?

– Xanım, torpağımı şirin götürən olsa, axşam başlaram sabaha hazır elərəm.

Sənəm xanım gördü, bu elə o axtardığıdı ki, var. Oydu ki, dedi:

– Hə, tapdıx, onda işə başla.

Sənəm xanım əmr verdi, qızlar kənkanın qazdığı torpağı çəkib bayıra tökməyə başladılar. Bir kənkanın qazdığı torpağı otuz

doqquz qul-qarabaş zornan çatdırıb bayıra daşıyırdı. Hələ səhər işıqlaşmamış lağım hazır oldu. Ağca qız Sənəm xanımnan qabax əlində də şam lağımnan gəldi çıxdı Qənnət Məhəmmədin tükanına.

Söyün şirin yuxuda yatdığı yerdə bir də baxıf gördü ki, əyə, otax işıqlandı. Bir dənə qadındı otaxda hərrənir, əlində də şam var. Öz-özünə dedi:

– Əşşi, gecənin bu vaxtı bu kimdi, cindi, şeytandı, nə işin yiyəsidi gəlif girif otağa?

Ağca qız gəlir, yatdığı yerdə boynunu qucaxlıyıf üzünnən öpür. Deyir, sonra onsuz da Sənəm xanım mənə rüsxət vermiyəjək. Qoy heç olmasa indi bir doyunca səni öpüm. Söyün baxır ki, bu Sənəm xanımın yanındakı qızdardandı. Xəbər alır:

– Bə, sən hardan gəldin, burya necə girdin?

Ağca qız lağımı göstərir ki, bəs, burdan. Hal-qəziyyədən Söyünü hali eləyir. Özü də deyir ki, Sənəm xanım səni çağırır. Söyünün üstünə, elə bil, gün doğur. Sevincinnən bilmir neyləsin. Duruf Ağca qızın arxasına düşür. Ağca qız qabaxda, Söyün dalda lağımnan gəlillər Sənəm xanımın yanına. Söyün baxıf görür ki, Sənəm xanım al-əlvan touz quşu kimi bəzənif, tel teldən keçir, bel üzükdən keçir. Səbirsizdiknən Söyünün yolunu gözdüyür. Görüşüllər, öpüşüllər, hal-əhval tutullar. Bir qədər söhbətdən sonra Sənəm xanım əmr verir, süfrə açılır. Dünyanın hər nazü neymətinnən süfrəyə düzüllər. Elə bil hind padişahi oğluna toy eliyir. Bəli, yeyillər, içillər. Bir qədərdən sonra Sənəm xanım deyir:

– Ay Söyün, indi bilirsənmi nə var? Mənim gözəlliyimi, göyçəkliyimi bir yana qoyax. Bu bir ayın içində gördüyün imarəti tikdirmişəm. Bir gecədə yerin altınnan lağım atdırıf Qənnət Məhəmmədin tükanına yol açdırmışam. De görüm, bu qədər əziyyətin, cəfanın qabağında mənim şəxsiyyətimə nə layiqdi, sən ona bir qiymət verginən, görüm doğrudu, ya yalan. Orda götürüf görək Söyün nə deyir, Sənəm xanımın əziyyətini necə qiymətləndirir.

*Hər gözələ mən ha gözəl demərəm,*
*Gözəllərdə qeyri əlamət olu.*

*Zülf pərişan, gərdən düşüb bir yana*
*Özündən bixəbər bir babət olu.*
*Camalda, kamalda özü bir dənə,*
*Hər tərif yaraşır desən isminə,*
*Zər atlası salıb başdan gərdənə,*
*Açılsa sinəsi qiyamət olu.*
*Söyünün sevgisi nazik cilvəli,*
*Şirin ədaları nazü qəmzəli,*
*Kimin olsa yarı belə işvəli*
*Bu dünya qəminnən səlamət olu.*

Söz tamama yetir. Sənəm xanımın öz otağıdı. Kimnən qorxusu, ürküsü ola bilər.

Bular burda kefdə-damaxda olsun. Sizə kimnən xəbər verim, şəhərin camahatınnan, bir də şəhərin tükançılarınnan… Xudavəndi-aləm tərəfinən Söyünə o qədər gözəllik, göyçəklik, şəxsiyyət verilmişdi ki, bir görən arzu eliyirdi ki, bir də göreydi. Söyünün bu gözəlliyinə tamaşa eləmək üçün şəhərdə eşidən, bilən Qənnət Məhəmmədin tükanına axışıf gəlir. Deyillər, görəsən, bu kimdi, nəçidi, hardan gəlif, nə işin yiyəsidi. İş elə olur ki, daha başqa tükançıların tükanına alış-veriş eləməyə gedən olmur. Hamı gəlif nə lazımdı Qənnət Məhəmmədin tükannınan alır. Axırda cəmi halvaçılar yığışıf Şah Abbasa şikayətə gedir ki, bəs belə-belə, biz xəzinəyə hər il tükanımızdan nə qədər vergi veririk. İndi Qənnət Məhəmmədin yanında bir oğlan peyda oluf. Camalda, şəxsiyyətdə misli-bərabəri yoxdu. Ona baxmağın dərdinnən hamı gedif al-verini Qənnət Məhəmmədnən eliyir. Şah Abbas bu sözə inanmıyıf deyir:

– Bir adamın nə qədər gözəlliyi olar ki, hamı gedif ona baxsın? Elə şey olmaz.

Buna deyillər:

– Şah sağ olsun, hər deyilən yalan olar, öz gözün görənnən danış. Yaxşı olar ki, bir özün get, bax gör biz yalan deyirik, ya gerçək.

Tükançılar bu məlumatı Şah Abbasa verənnən sonra Şah Abbası marax götürür. Deyir, görən bu nə olan şeydi. Fikirrəşir ki, bir bunu yoxlasın, görsün tükançılar yalan deyir, ya gerçək. Oydu ki, bir gün dərviş libas olur, gəzə-gəzə gəlif Qənnət Məhəmmədin tükanına çıxır. Baxır ki, şirin al-ver gedir. Halva satan cavan bir oğlandı. Şah Abbas buna o qədər tamaşa eliyir ki, mayil olur. Hər

şey yadınnan çıxır. Müştəri çəkilənnən sonra Yetim Söyün üz tutur Şah Abbasa:

– Dərviş baba, bu tükanda sənin nə işin var? Niyə sözünü demirsən? Dinif danışmırsan?

Söyün belə deyəndə Şah Abbas cavab verir ki:

– Ay oğul, mən bu şəhərdə qəribəm, qonax yerim yoxdu. Məni bu axşam qonax saxlıyarsanmı?

– Dərviş baba, qonax Allah qonağıdı, buyur gözüm üstə yerin var.

Şah Abbas dərviş libasında burda qonax qalır. Əl-ayax çəkilir, gecənin bir vaxtı Sənəm xanım Ağca qızı göndərir ki, get gör Söyün niyə gəlmədi. Ağca qız şam əlində lağımnan üz tutur Söyünün olduğu tükana. O yerdən ki, lağım gəlif tükana çıxırdı, Söyün deşiyin ağzına bir xalça sərmişdi ki, gəlif-gedən lağımnan xəbər tutmasın. Bir vaxt Şah Abbas baxıf görür ki, xalça tərpənir. Bir də baxır ki, budu burdan bir qız əlində şam çıxdı, üz tutdu Söyünə:

– A Söyün, bu lağımda sürünməkdən əynimdə paltar da qalmadı. Siz xanımnan dünyanın ləzzətini çəkirsiniz, əziyyəti nə mənə düşür. Xanım səni gözdüyür axı.

Söyün cavab verir ki:

– Ağca qız, get xanıma deynən bu axşam gələ bilmərəm, çünki qonağım var.

Ağca qız gedir, beş-on dayqa keçməmiş təzədən qayıdıf gəlir ki:

– Bəs, Sənəm xanım deyir, mənim başımda otuz doqquz qız var. Otuz doqquz qonağı olanacan gətirsin.

İş belə olanda Söyün üz tutur dərvişə ki:

– Dərviş baba, gəlsənə mənnən bir yerə qonax gedəsən. Hər halda narazı qalmazsan.

Bəli, Şah Abbas razı olur. Ağca qız qabaxda, onnan sonra Söyün, lap arxada Şah Abbas lağımnan gəlif çıxıllar Sənəm xanımın otağına.

Şah Abbas baxıf görür ki, ey dili-qafil, bu, vəzirin qızı Sənəm xanımdı, özü də vəzirin qızı üçün tikdirdiyi həmən imarətdi. Burda bir kef-damax, çal-oyna var ki, elə bil xotkar oğluna toy eliyir.

Şah Abbas heç nəyə qarışmır, nə işi varyıdı. Keçif lal-dinməz bir tərəfdə dayanır. Dedi, hələ görüm bu işdərin axırı nə olajax. Sənəm xanımın eşq o qədər gözünü pərdələyir ki, qayıdıf deyir:

– Dərviş baba, bu bir şəhərdir ki, özün qazan özün ye. Burda mənnən qırx qız var, mən heç, yerdə qalan otuz doqquz əl dəyməz qızdan hansını istəyirsən seç, bu gecə keyfini çək.

Şah Abbasın o vaxtdan Ağca qıza gözü düşmüşdü, əmə bu qarabaş olduğunnan qüruruna sığışdırıf buna bir söz deyəmmirdi. Əlqərəz, Söyün Sənəm xanımnan, Ağca qız Şah Abbasnan bu gecə dünyanın kefini çəkillər.

Səhər tezdən Sənəm xanım buyrux verif Ağca qıza deyir:

– Yaxşı, daha vaxtdı, bunları yola sal. Dərvişə də deynən ağzını farağat qoysun. Bir ziyannığa zada düşmüyüf ha. Biz ona hörmət eləmişik, ömründə bir gecəni kefnən, ləzzətnən yaşayıf, işdi şayət ağzınnan bir yerdə bir söz qaçırsa, özünnən küssün.

Bəli, bular lağımnan çıxıf Qənnət Məhəmmədin tükanına gəlillər. Şah Abbas Söyünə dil-ağız eliyif tükannan çıxır. Ordan birbaş gedir saraya, Qara vəziri yanına çağırtdırıf deyir:

– Bu qədər ki, şahlıq eləmişəm, mən gəzmiyən, mən baxmıyan mənzərə, mən görmüyən kef, mən çəkmiyən ləzzət yoxdu, ancax bu gecə bir yerə getmişdim, hələ indiyə qədər nə belə yer görməmişdim, nə belə kef çəkməmişdim.

Vəzir qayıdıf deyir:

– Şah Abbas, səni and verirəm o atanın taci-mehracına, məni də ora apar.

Şah Abbas deyir:

– Yox, vəzir, apara bilmərəm.

Vəzir çox yalvarır ki, səni atanın taci-mehracına and verirəm niyə aparmırsan?

Şah Abbas deyir:

– Vəzir, mən səni aparram, əmə mənim atamın taci-mehracına and ver ki, orda hər nə görsən, hər nə eşitsən dinmiyəjəksən, mən səni aparım.

Vəzir and içir. Şah Abbas vəzirnən bir yerdə təğyiri-libas olur. Hər ikisi dərviş paltarı geyinif gəlillər Qənnət Məhəmmədin tükanına. Söyün yenə al-verini eliyir, alan alır, gedən gedir. Vəzirnən şah dərviş libasında burda qalıllar. Söyün baxıf görür ki,

tükanda iki dərviş qalıf. Biri dünənki dərvişdi, ancax o birini tanımır. Soruşur ki:

– Dərviş baba, bu kimdi?

Şah Abbas cavab verir:

– Bu mənim ən yaxın dostumdu. Özü də əmim oğlunun babasının qız nəvəsidi. Çoxdanıydı biri-birimizi itirmişdik, elə təzəcə tapmışıx. Qonax yerimiz yoxdu. Dünən də mənə hörmət eliyifsən, mümkün olsa, bu axşam da bizi qonax saxlaynan. Səhər inşallah çıxıf öz yerimizə-yurdumuza gedərik.

Söyünün bulara yazığı gəlir. Buları burda qonax saxlıyır. Elə ki, axşam düşür Şah Abbas xəlvəti vəzirə deyir:

– Sən o xalıyı gözdə, xalı tərpəndi dünənki kefi görəjeyik, yox, əgər xalı tərpənmədi onda özünnən küs.

Gecənin bir vaxtı vəzir baxır ki, xalı tərpəndi. Şah Abbası dümsükləyir ki, taxtın tarac olsun, bə, budu xalı tərpənir. Şah Abbas mürgü vururdu. Qara vəzirin dümsüyünə ayılır. Baxıf görür, doğrudan da, xalı tərpənir. Bəli, xalı tərpənməyiynən Ağca qız əlində şam lağımnan çıxıf deyir:

– Ay Söyün, xanım sənə nə tapşırmışdı? Bayaxdan səni gözdüyür.

Söyün deyir:

– Get xanıma deynən Söyün bu axşam gələ bilməz, çünki qonağı ikidi.

Ağca qız gedir, cavab gətirir ki, Sənəm xanım deyir otuz səkkiz qonax üçün qız tapılar. Biri mən özüm, birini dünənki dərvişə verdik, qırxdan ikisini çıxaq, otuz səkkizi ki, durur. Deynən gəlsinnər.

Ağca qız əlində şam qabağa düşür. Onun arxasınca Söyün, onnan sonra Şah Abbas, lap arxada vəzir gethaget gəlif Sənəm xanımın imarətinə çıxıllar. Vəzir baxıf görür ki, qara gəlsin, harya gəlif çıxsa yaxşıdı, öz tikdirdiyi imarətə. Budu bu həmən imarətdi, içində də Sənəm otuz doqquz qul-qarabaşnan. Bir istiyir dinə. Bir də yadına düşür ki, Şah Abbasın atasının taci-mehracına and içif, dinsə, başı fərmandadı. Vəzirin qarnına sancı düşür.

Burda kef başdıyır. Deyillər, gülüllər, yeyillər, içillər, çalıllar, oynuyullar. Birdən nə fikirrəşirsə, Sənəm xanım qayıdıf deyir:

– Ay Söyün, bu axşamkı məclisdə mənə bir tərif deməsən sənə qoynumda, qucağımda yer vermiyəjəm, orda qapının ağzında yatajaxsan.

Söyün işi belə görəndə Sənəm xanımın bir al yanağına, qaymaq dodağına, bir qəmzəli gözdərinə, ilan zülflərinə, bir incə belinə baxır, sazı basır sineyi-sandığına görək nə deyir:

*Hüsnün artıb mürdələrə can verir,*
*Soyuq suyun abi-həyatı kimi.*
*Dəhanın şəkərdi, zəbanın şirin,*
*Dodaqların Misrin nabatı kimi.*
*Bir şikaram, şahmar zülfün bir kəmənd,*
*Bu yazıx canımı eyləmisən bənd,*
*Qıyqacı baxışın eyliyir çox fənd,*
*Xotkarın, sultanın baratı kimi.*
*Bülbül kimi daldan-dala səkməkdən,*
*Qızıl dyümə çarpaz keçir dirsəkdən,*
*Gecə-gündüz həsrətini çəkməkdən*
*Söyünəm incəldim xəyyatı kimi.*

Burda Şah Abbas xəlvəti vəzirə deyir:

– Vəzir, yaxşı fikir ver, qız oğlanı çağırıf haa… Şərtimiz şərtdi.

Vəzir dinə bilmir. Elə hərdənbir hə… hıı… – eliyir, yəni ki, Şah Abbasın dediyinə razıdır. Əmə Söyün baxıf görür ki, Sənəm xanım əvvəlki Sənəm xanım döyül, dünənki şirinnik yoxdu. Nəsə nazı qəmzə eliyir, bunu özünə yaxın qoymax istəmir. Fikirrəşir ki, əşşi, bunu zornan məcbur eləmiyəjəksən ki, məni istə, ya istəmə. Oydu ki, qızın qəlbinə dəyməkdən ötrü götürüf orda deyir:

*Nazlı yarın al yanağı*
*Nə düzülüf xal üstünə.*
*Qurşayıbdı gümüş kəmər,*
*Xub yaraşır bel üstünə.*

Qız başdıyır özünü naza çəkməyə, deyir, nə mənim nazdı yanağım yoxdu, nə də incə belim. Arxayın ol, bu gecə o qapının ağzında yatajaxsan.

Söyün baxıf görür ki, qız oysara gəlmək istəmir. Götürüf sözün arxasını belə deyir:

*Görürsən yarın yar döyül,*
*Tərkini qılmax ar döyül,*

*Dünya başına dar döyül,*
*Get birini al üstünə.*

Söyün belə deyəndə qız baxır ki, bir az da o yan-bu yan eləsə, Söyün ajıx eliyif çıxıf gedəjək. Odu ki, Söyünün könlünü almax üçün deyir:

– Nə tez qarabağır oldun, mən ki, zarafat eliyirəm.

Söyün deyir:

– Elə mən də zarafat eliyirəm, qoy, sözümün dalını deyim.

Qız yumşaldığınnan Söyün də yumşalır. Götürüf sözünü belə tamama yetirir:

*Söyün baxar ilqarına,*
*Heç dönük çıxmaz yarına,*
*Baxmaynan ahu zarına*
*Bülbül qonar gül üstünə.*

Nə isə, təzədən kef-damax başdıyır. Otuz səkkiz qızın içinnən dilli-dilavər biri qalxıf Sənəm xanıma deyir:

– Xanım, dünən Ağca qızı o dərvişə verdin. Bu gecə bu biri dərvişi də mənə ver.

Sənəm xanım deyir:

– Mən heç nə deyə bilmərəm. Əgər fərasətin var, get böyrünə-başına keç, gör sənə yaxın durursa, o da sənin.

Əmmə bu qız ombadan bir az axsax kimiydi, ancax incədən ipəkçə şeyiydi. Yaxınnaşır Qara vəzirə, görür, vəzir buna heç əhəmiyyət vermir. Vəzirin halı o halda döylüydü ki, kef-damax yadına düşəydi. Qız qayıdır ki:

– Evin yıxılsın, Allah sənnən niyə alıf, gözün niyə yumuluf. Aş Xıdırın, əppək Xıdırın, yeyim-yeyim qudurum. Sənəm xanımın bu məclisində sənə niyə sancı düşüf. Qarnının dərdini de.

Qara vəzir bir tərs-tərs bunun üzünə baxıf deyir:

– Sənin kefin məndə yoxdu, hırın qalxmasın, mənnən aralaş.

Qız nə qədər bunun böyür-başına keçirsə də, görür, vəzir yerinnən tərpənmək istəmir. Hərrənif vəzirin boş böyrünnən bir qatır təpiyi əldən qoyur. Söyün Sənəm xanımnan, Şah Abbas Ağca qıznan gecəni sabaha qədər dünyanın kefini çəkillər. Qara vəzir də elə sancının içində qıvrıla-qıvrıla qalır.

Səhər açılır, səhərrər üzünüzə xeyirriyə açılsın. Söyün, Şah Abbas, Qara vəzir lağımnan qayıdıllar Qənnət Məhəmmədin tükanına.

Şah Abbasnan vəzir dərviş libas gəlillər saraya. Təğyiri-libas olannan sonra Şah Abbas soruşur:

– Vəzir, indi ağlınca neyniyək?

Vəzir deyir:

– Şah Abbas sağ olsun. İndi ki qız mənimdi bircə saat hökmü mənə ver, qoy, taxtı-səltənətdə mən oturum, işə necə istəyirəmsə, o cür də baxım.

Şah Abbas cavab verir ki:

– Vəzir, hökmü verərəm, əmbə qorxuram işi ədalətli aparmıyasan.

Vəzir deyir:

– Şah sağ olsun, işi ədalətli aparmaram, yanımdasan, harda səhv eləsəm, düzəldərsən.

Şah Abbas razılaşır. Vəzir qırmızı geyinif taxta çıxır… Şah Abbas da oturur yanında ki, görsün, vəzir işi necə aparır. Vəzir buyrux verir:

– Cəllad!

Yeddi yerdən ləbbeyk səsi gəlir ki, biz hazır. Vəzir hökm eliyir:

– Bu sahat gedərsiniz Qənnət Məhəmmədin tükanına, ordakı oğlanı da, mənim qızım Sənəm xanımı da qollarını dar sarıyıf mənim hüzuruma gətirərsiniz.

Nolajeydı, şah hökmüydü. Cəlladdar bir su içimində Söyünnən Sənəm xanımın başdarının üstünü alıllar. Qollarını arxadan dar bağlıyıf istiyillər ki, gətirsinnər şahın hüzuruna. Söyün baxır ki, iş o işdən döyül. Gözünün qabağında Sənəm xanımı qolu bağlı görəndə halı daha da pərişan olur. Görür, yaman yerdə axşamlıyıf. Bəli, Söyün cəlladdardan xahiş eliyir ki, onun qolunu açsınnar, ürəyində üç qatar sözü var, onu deyənnən sonra yenə qolu bağlı hara istəsələr aparsınnar.

Cəlladdardan hansı ki, anasının oğluydu deyir:

– Nə qol açmax, nə filan, qolunu açarsan qaçar. Başımız əldə qalar.

Hansı ki, insan oğluydu deyir:

– Adamdı, bəlkə, bir dərdi-səri var. Qolunu açax, qoy, sözünü desin, sonra yenə ixtiyar bizimdi.

Əlqərəz, bu cəllad Söyünün qolunu açır. Söyün sazı sinəsinə basıf görək nə deyir:

*Ay ağalar, gəlin sizə söyləyim,*
*Yarı gördüm əlin verib yad ələ.*

*Gecələr alışıb, gündüz yanaram,*
*Yarı gördüm əlin verib yad ələ.*
*Qoç igidlər öz yerində göz olu,*
*Həmdəmsiz igidin dərdi yüz olu,*
*İgid üçün ölüm onda fərz olu,*
*Desələr ki, yar əl verib yad ələ.*
*Aləm bilir sən Hüseynin gözüsən,*
*El içində dürlü-dürlü sözüsən,*
*Necə qoydun sinəm üstə közü sən,*
*Demədinmi ya yandıra, ya dələ.*

Buların hər ikisini qolu bağlı gətirillər vəzirin hüzuruna. Söyün baxıf görür ki, bəs, bular onun yanına gələn dərvişlərdi. İndi təğyiri-libas oluf biri oturuf taxtı-səltənətdə, biri də onun yanında. Əmə dinif danışıf bir söz demir.

Vəzir əmr verir cəllada:

– Bu oğlanı aparıf öldürüf qannı köynəyini mənə gətirərsiniz!

Şah Abbas nə qədər ki, vəzir Söyünü dindirif danışdırırdı, kim olduğunu, nəçi olduğunu soruşurdu, dinif danışıf bir söz demirdi. Əmə görürdü ki, Söyün vəzirə sağəməlli bir cavab vermir. Vəzir onun kimliyini yaxşı öyrənə bilmədi. Elə ki, vəzir acıqlanıf əmr verdi ki, bunu aparıf öldürün, Şah Abbas dözmədi, qayıdıf dedi:

–Vəzir!

Vəzir dedi:

– Bəli.

– Vəzir, mən şərt qoydum ki, sən işi ədalətli aparajaxsan. Sən də razılaşdın, eləmi?

Vəzir cavab verdi:

– Bəli, elədi, qibleyi-aləm.

– Vəzir, bə, sən nətəri ədalətdi iş görürsən ki, heç həqiqətdən hali olmamış, oğlanın kimliyini öyrənməmiş əmr verirsən ki, bu oğlanı aparıf öldürsünnər.

Şah Abbas özü qayıdıf Söyünnən soruşur:

– Oğul, sən camalda, kamalda bir yaxşı oğlansan. Bəs, niyə belə zinakər işdər görürsən? Qanunnan, qaydadan xəbərin yoxdumu? Şəriətnən, Allahın buyurduğu kimi evlənmək olmazdımı? Niyə belə naxələf iş görürsən?

Söyün görür ki, taxtda ikinci gələn dərviş otursa da, deyəsən, hökm birinci gələnin əlindədi. Oydu ki, üz tutur həmən dərvişə:

*Əvvəl gələn dərviş evin yıxılsın,*
*Gizli sirin aşkar etdin Hüseynin.*
*El yığıldı, iltiması tutmadı,*
*Gətirifdi bəxti qara Hüseynin.*

Şah Abbas deyir:

– Oğul, dərvişdərə niyə qarğıyırsan. Onların günahı nədi ki? Bir de görüm, sən qızı yoldan çıxartdın, ya qız səni?

Cavabında Söyün deyir:

*Hər nə oldu ala gözlü baxannan,*
*Xuni-dilim eşq oduna yaxannan,*
*Zalım cəllad nə tutubsan yaxamnan?*
*Gətirdin amana, zara Hüseyni.*

Şah Abbas soruşdu:

– Bu gün sənin dar yerindi, dünyaynan halallaşırsan, sənin anannan, bajınnan bir canı yananın varmı ki, halını belə görsə, dadına çata, qəlbi yana.

Bunu eşidəndə Söyün sözün mabədində götürüf belə deyir:

*Bu günümdə gələ anam Xeyransa,*
*Yolaydı zülflərin ol mələknisa,*
*Əlim heç yetmədi babam Abbasa,*
*Edəydi dərdinə çara Hüseynin.*

Şah Abbas görür ki, bu Xeyransa, Abbas adı çəkir. Bir fikr eliyir ki, bəlkə, bu onun Lut şəhrində bir gecəliyə aldığı qız ola. Bir də deyir, yox, Lut hara, bura hara. Yəqin haranın düşməsidi gəlib çıxıb bura. Bu fikirdən sonra Şah Abbas soruşur:

– Yaxşı, bala, bəs, dərvişlərə niyə qarğıyırsan?

Söyün deyir:

– Mənim dərvişdərə elə bir qarğamağım olmuyuf, əmə bu dəfə bərk qarğıyajam.

Söyün götürür görək dərvişdərə necə qarğıyır, əvəzində deyək, kefdə olasız:

*Əzəl gələn dərviş evin yıxılsın,*
*Nəzər eylə bu inqilab olmasın.*

*Mənşər günü hax dərgaha, divanə*
*İki dərviş heç nəsilin gəlməsin.*
*Dizlərin titrəsin, canın sıxılsın,*
*Ağ əlinə əlvan qanın yaxılsın,*
*Baş kəsilsin nizələrə taxılsın,*
*Dərdi-dilin bir kimsənə bilməsin.*
*Başına qoyubsan qızıldan tacı,*
*Silinsin könlünün qalmasın pası,*
*Şaha budu qul Hüseynin duası,*
*İki sevgi bu arada ölməsin.*

Söz tamama yetir. Şah Abbas Söyünün bu qarğışınnan qəzəblənif deyir:

– Vəzir, bu deyəsən, əyri getdi ha, fərman sənindi, nə istəyirsən, onu da elə.

Vəzir iki cəllada əmr verir ki, bunu aparın gözdən, könüldən uzax, bəni-insannan irax bir yerdə boynunu vurun, qannı köynəyini mənə göndərin.

Bəli, cəlladlar bunu aparmağa başdıyır. Ancax cəlladlardan biri qoca olur, biri cavan. Bir az gedənnən sonra cavan cəllad qoçuya deyir:

– Belə oğlanı öldürmək hayıfdı, bizə bir düşmənçiliyi zadı ha keçmiyif. Gəl bunun köynəyini çıxarax, qana buluyuf aparıf vəzirə verək, özünü də buraxax varsın getsin. Bunu öldürsək, Allah-taala günaha yazar. O dünyada qiyamət günü nə cavab verərik.

Qoca cəllad bu sözə razılaşmır. Deyir, birdən vəzir bilər, dərimizə saman təpər, balalarımızı yetim qoyar.

Bəli, indi sizə deyim Şah Abbasdan. O zaman ki, Şah Abbas bəzməndi Xeyransa xanıma verif onnan ayrıldı, ta ki gəlif saraya çatdı, elan verdi ki, bəs, gecə xəzinəni yarıf mənim sağ qolumun bəzməndini oğurluyuflar. Hər kəs bu bəzməndi hər kəsdə görsə, tapıf gətirsə, onu dünya malınnan qane eliyəjəm. Ancax bir şərtnən ki, bəzmənd hər kəsin üstə tapılsa, gərək öldürmüyüf onu mənə sağ gətirsin.

Cavan cəllad çox dedi, əşşi, yazıxdı, gəl bunu öldürmüyək, qoca cəllad dinə-imana gəlmədi. Axır cavan cəllad görür, olmadı. Söyünü soyundurası olullar ki, öldürüf köynəyini qana buluyuf vəzirə aparsınnar. Bunu soyunduran vaxt bir də baxıllar ki, paho,

Şah Abbasın sağ qolunun bəzməndi bunun qolundadı. Cavan cəllad işi belə görəndə deyir:

– Evin yıxılmasın, əlli ildi cəlladdıx eliyirsən, qazancın bir həsirdi, bir Məmmədnəsir. Allah durduğumuz yerdə bizimkini gətirdi. Bunun qolundakı Şah Abbasın xəzinəsinnən oğurlanan bəzmənddi. Gəl bunu öldürmüyüf şahın yanına aparax, deyək ki, bəs, bu iki şeydə günahkardı. Həm qız məsələsinə görə, həm də xəzinəni yarıf bəzməndi oğurladığına görə.

Qoca cəllad görür, bu ağılkəsən söhbətdi. Şah Abbasın ənamınnan qaçmax ağılsızdıxdı, razılaşır.

Cavan cəllad deyir:

– Ya istəyirsən sən qabaxda get şahı muştuluqla, mən bu oğlanı arxadan gətirim, ya mən gedim, sən bunu gətir.

Qoca cəllad deyir:

– Şah əmr verif ki, bəzməndi oğurluyan adamı mənim yanıma sağ-salamat gətirin. Allah xatirinə mən apararam, əyağına daş-zad dəyər, şaha şikayət eliyər. Qoy mən qabaxda gedim, şahı muştuluqluyum. Sən arxadan oğlanı gətir.

Əlqərəz, razılaşıllar. Qoca cəllad qaçıb tənginəfəs özünü yetirir Şah Abbasa ki:

– Şah sağ olsun, bəs, deməzsənmi, sənin xəzinəni yaran da elə bu oğlandı.

Şah Abbas soruşur:

– Necə yəni bu oğlandı? Hardan bildin?

– Şah sağ olsun, bəs, belə-belə, paltarını soyunduranda bəzməndi qolunda gördük.

Şah Abbas barmağını dişdiyir, fikirrəşir ki, ey dili-qafil, yəqin, elə bu mənim öz oğlumdu. Əmə məsələni açıf-ağartmır, soruşur ki:

– Yoxsa oğlanı öldürdünüzmü? Ona bir şey eliyifsinizsə, boynunuz kəndirdədi.

Cəllad deyir:

– Yox, öldürüb eləməmişik. İndi bu sahat cavan cəllad onu da gətirif gələr.

Az keçmiş cavan cəllad Söyünü gətirif gəlir. Şah Abbas bəzməndi alıf baxır, görür ki, Lut şəhrində Xeyransa xanıma verdiyi bəzmənddi. Təəccüblənir ki, cəlladdar bunu nə əcəb

öldürmüyüflər, sağ buraxıflar, çünki olara əmr olunmuşdu ki, aparın bunu öldürün. Qayıdıf soruşur ki:

– Oğul, bəs, bu cəlladdar səni nə əcəb öldürmədilər?

Söyün deyir:

– Qibleyi-aləm sağ olsun, ona görə ki mənim köməyimə yetənnər oldu.

– Oğul, mənim qorxumnan bir bəndeyi-bəşər sənin köməyinə yetə bilməzdi, çünki vəzir şah əvəzi fərman vermişdi. Kim bu işə mane olsa, boynu cəllad qılıncının tiyəsinə tuş gələrdi. Bə, sənə kimlər kömək elədi?

– Qibleyi-aləm, icazə ver, mənə kimlər kömək elədiyini saznan deyim, söznən desəm, ürəyim tab eləməz.

Şah icazə verdi. Aldı Söyün:

*Yetişdi imdada, dada*
*Haqqı-tala demədimmi.*
*Az qala ki qoca cəllad*
*Canım ala demədimmi.*

*Məhəmməd Bürağı mindi,*
*Yaxşı məzhəb, yaxşı dindi,*
*Şahi-Mərdan köməyimdi,*
*Düşsəm qala demədimmi.*

*Söyünəm yoxdur günahım,*
*Dada yetdi Nəcəf şahım,*
*Qəribəm odur pənahım,*
*Qadir mövla demədimmi.*

Söz tamama yetir. Şah Abbas qayıdıf deyir:

– Vəzir, Allah evini yıxsın, axı, bu mənim oğlumdu.

Vəzir cavab verir:

– Şah, Allah iqbalını yeyin eləsin, o, sənin oğlundu, bə, bu da mənim qızımdı.

– Vəzir, sən hancarı mənim oğlumu öldürtmək istəyirdin? Bə, sənin axırın necə olajeydı?

Vəzir qayıdır ki:

– Şah, o barədə günahkar sənsən, Allah evini yıxsın, dünyanın üzünü yedin doymadın, getdin yerin altında da uşaxların üzünün suyunu tökdün.

Şah baxıf görür, vəzir haxlıdı, üz tutur Söyünə:

– Oğul, bil və agah ol, sən mənim doğmaca oğlumsan. İndi mənə de görüm, sənin toyunu Sənəm xanımnanmı eliyim, ya ayrı birinimi alım?

Söyün cavab verif deyir:

– Ateyi-mehriban, Sənəm xanımın gözəlliyi, göyçəkliyi öz yerində, buna söz yox. Allahdan gizlin olmuyanı sənnən nə gizlədim, mən onu sevirəm, o da məni. Əgər məni istəyirsənsə, bizi bir-birimizdən ayırma.

Şah Abbas deyir:

– Oğul, yazıya pozu yoxdu, madam ki, siz bir-birinizi istəyirsiniz söz sənin əməl mənim. Sənə elə bir toy elətdirərəm ki, ruzigarın gözü hələ elə toy görməmiş olar.

Bəli, Şah Abbas elan verir ki, toy tədarükünü görsünlər. Filan ayın filan günündə oğlu Söyünnən Qara vəzirin qızı Sənəm xanıma toy başdıyajax. O biri tərəfdən də adam göndərir Lut şəhrinə ki, gedif Xeyransa xanımı ata-anası ilə birlikdə saraya gətirsinnər.

Noolajeydı, şah əmriydi, iki keçir üçüncü gün Xeyransa xanımı ata-anası ilə birlikdə Şah Abbasın hüzuruna gətirillər. Şah Abbas, Söyün bularnan təzədən görüşür, öpüşür. O günnən bular da sarayda yaşayır.

Şah Abbas qırx gün qırx gecə toy eliyif Sənəm xanımı Söyünə alır. Onlar şadi-xürrəm ömür-gün keçirillər. Siz də şadi-xürrəm ömür sürəsiz.

## SÖZ SONU

Biz bir neçə il öncə Miskin Vəlinin «Şeirlər, dastanlar» kitabını tərtib edib nəşrə hazırlamışdıq. Lakin maddi çətinliyə görə çap etdirə bilmirdik. 2011-ci ildə maraqlı bir məsələ ilə rastlaşdıq. Görkəmli şairimiz Hüseyn Cavidin oğlu, gənc yaşlarında dünyadan getmiş Ərtoğrul Cavidin arxivində olan materiallar (həmin arxiv H.Cavidin ev muzeyində yerləşir) 12 cilddən ibarət kitab halında nəşr olundu (Bax: Azərbaycan qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid. 12 cilddə (tərtibçi: Gülbəniz Babaxanlı), IX c., Azərbaycan aşıq yaradıcılığı və Ərtoğrol Cavid. Bakı «Çaşıoğlu», 2011). Kitabın IX cildi bütövlükdə aşıq ədəbiyyatımızın görkəmli nümayəndələrindən Molla Cümə və Miskin Vəlinin əsərlərindən ibarətdir. Molla Cümənin şeirlərini Ə.Cavid özü, Miskin Vəlinin şeirlərini isə Hümmət Əlizadə toplamışdır. Ə.Cavid bu şeirlərə nəşr üçün rəy yazmışdır. Çox təəssüf ki, həmin əsərlər indiyə qədər çap olunmamış qalmışdır.

Adını çəkdiyimiz kitaba Miskin Vəlinin qoşma, gəraylı, divani, müxəmməs, cığalı müxəmməs, qıfılbənd janrlarında və deyişmə formasında olan 25-ə qədər şeiri daxildir. Bu şeirlərdən bəzisi (**qoşmalar:** *«Gözəllər», «Yeriyir», «Olmasa»*; **müxəmməs**: *«Zərnişan»*; **cığalı müxəmməs**; *«Bəxtəvər»*; **deyişmələr:** *«Bilgi-nən», «Gəldin», «Gədə», «Gözəl»*; **qıfılbənd**: *«Qayıtdı»*) bizim toplayıb tərtib etdiyimiz «Şeirlər, dastanlar» kitabına daxil idi. Bəzilərini isə əldə edə bilmədiyimizdən tərtib etdiyimiz kitaba sala bilməmişdik. Aşağıdakı şeirlər bizim tərtib etdiyimiz nüsxədə olmadığından biz onları «Ərtoğrol Cavid» nəşrindən (IX cild) götürüb buraya əlavə edirik. Əlbəttə, bu, «Miskin Vəli: şeirlər, dastanlar» kitabının tamlığına xeyli dərəcədə kömək etmiş olar.

## QOŞMALAR

## GÖZƏL

Səhər-səhər bağa qədəm basanda,
Ağ sinəndə gördüm bir cüt nar gözəl.
Ağ üzündə cığa tellər əsəndə,
Könlümü qoyursan intizar gözəl.
Xudam səni nə xoş gündə görübdür,
Sinən üstə tər bənəfşə səribdir.
Qızıl gül bağını sənə veribdir,
Ağ gül, qırmızı gül tamam var gözəl.
Dahanın gövhərdir, ləblərin baldı,
Gözəlsən, libasın ipəkdi, şaldı.
Desələr ki, Vəli qürbətdə qaldı,
Aman, kəsmə məndən ehtibar gözəl.

## QIZLAR

Yüz işvə naz ilə gedən zamanda,
Nəydi mənim üçün gülüş, a qızlar.
Bağrım başın şan-şan edən zamanda,
Qafil eşq oduna alışa qızlar.
Dolanırsan dağı, gül çiçəyin dər,
Əgər layiq bilsən dər bizə göndər.
Yanmışam oduna misli səməndər,
Pərvanətək nara sarışa qızlar.
Sağ əlində gəzdirirsən sağını,
Sinəndə görmüşəm gülgəz ağını.
Bağban olan yaxşı bəslər bağını,
Gül-bülbül çağırar yarışa qızlar.
Yaşılbaşlar gəşd eyləyər gölündə,
Şeyda fəqan eylər meyli gülündə.
Payəndazam gözəllərin yolunda,
İstəsən, sinəmdən yeriş a qızlar.
Mən Miskin Vəliyəm vardır vatanım,
O süzgün baxışın axıdır qanım.
İncimə sözümdən, sən mənim canım,
Əgər küsübsənsə, barış, a qızlar.

## GÖZƏLLƏR

Bu yolla gedirsiz hansı yaylağa,
Sizin oylağınız hara, gözəllər?
Qənd tökülür şirin dilə, dodağa,
Libasın ipəkdir xara, gözəllər.
Sallanıban siz seyrana çıxanda,
Xəstə könlüm eşq oduna yaxanda.
Gendə durub pünhan-pünhan baxanda,
Eylərsiz qəlbimi para, gözəllər.
Hərəniz bir cürə ipək libasda,
Tər sinə üstündə şamama bəsdə.
Köçünüz ayrıldı Ağbulaq üstə,
Vəlini saldınız nara, gözəllər.

## DİLBƏR

Nə səfalı yerdir kəhrizin başı,
Hayıf ki, düşərik aral[1], a dilbər.
Ovçuyam ovumu ovlaram naşı,
Arınıb dönübsən marala dilbər.
Yaşılbaş sonatək yana çəkirsən,
Nə eşq ataşıdır cana çəkirsən.
Ağ nazik əlində şana çəkirsən,
Çin-çin eylə zülfün arala dilbər.

Mən Miskin Vəliyəm yoxdur soyadım,
İstəyirəm qəmli könlüm oyadım.
Layiq bilsən hasil eylə muradım,
İstəmə ki, rəngim sarala, dilbər.

## SEVDİYİM

Eşqin göllərini çalxanıb üzən,
Sənsən yaşılbaşlı sona, sevdiyim.
Nədir qəsd eyləyib bağrımı əzən,
O süzgün baxmağın yana, sevdiyim.

---

[1] *aralı*

Könlüm sevdi səntək mina gərdəni,
Eşqin atəşinə yandırma məni.
Məhəbbət odunun nədir dərməni,
Qəsd eyləmə şirin cana, sevdiyim.
Göz götürməm yanağından, xalından,
Gül bənövşə ətir verir telindən.
Mərhəmətli gözəl, nəzik əlindən,
Ver Vəliyə bir nişana, sevdiyim.

## TELLƏRİN

Gözəl, sənsən gözəllərin ülkəri,
Nədəndi tökülüb yana tellərin.
Açılmış qönçənin təzə novrağı,
Düşüb böylə bir nişana tellərin.
O gözəl zənburu şandan eyləyir,
Şeydaları o gülşandan eyləyir.
Görən aşıqları candan eyləyir,
Bağrını döndərir qana tellərin.
Mən Miskin Vəliyəm düşməm xiyala,
Sən ahu ceyransan gözlərin ala.
Bənövşə ətirli yanağı lala,
Ətir verir ol rizvana tellərin.

## OLMAZ

Mən bir söz söylərəm arif yanında
Sözüm yerə düşüb bimiqdar olmaz
Namərd bulunsa da, mərd meydanında
Durub ilqarında mötəbər olmaz.
Xəstə ollam namərd gülün dərəndə
Şəfa bullam mərdə salam verəndə
Namərd gözdə olar mehman görəndə
Mərd açar süfrəni qəlbi dar olmaz.
Miskin Vəli tut mərdlərə üzünü
Mərifətdən kənar etmə özünü
Hər vaxt həqiqətdən söylə sözünü
Bundan qeyri sənə yadigar olmaz.

## DEYİRƏM

Namərd ilə köçün sürmə yaylağa
Səni yurdda qoyub köçər deyirəm.
Xoşun olsa mehribandı qaymağa
Olmasa, hörmətdən keçər deyirəm.
Mənim sözüm hərcayidən pünhandır,
Əhli hal yanında ləli mərcandır.
Namərd adam var gününə mehmandır
Dar günündə sənnən qaçar deyirəm.
Vəli, əlin vermə namərd əlinə
Yetəmməzsən fitnəsinə, felinə
Yalandan seryağıb döysə belinə,
Doldurub qanından içər deyirəm.

## MOLLALAR

Kəsmirdi yalanın, hiylən, fəsadın
Nə günə qoymuşdun eli mollalar.
Mövhumatı yayıb xalq arasına
İşlədirdin fitnə-feli mollalar.
Deyirdin qurban kəs başı mənimdir
Bölün yeddi yerə, beşi mənimdir.
Bir də quyruq ilə döşü mənimdir
Sən tökürdün yağlı dili mollalar.
Deyirdin camaat qılın namazı
Demirdin oxuyun öyrənin yazı.
Sənin dostun idi bəy, ağa, qazı,
Nə salmışdın qilü-qalı mollalar.
Hökmündü arvatlar çadra bürünə
Günah olur bir kimsəyə görünə.
Yazıxları döydürürdün ərinə,
Dutmuş idin kəc xiyalı mollalar.
Salmış idin bir ay orucu işə,
Pəl vururdun hər vaxt düzgün gedişə.
Xalqı talamağı qılmışdın peşə,
Toplayırdın devlət-malı mollalar.

Deyirdin məzhəbi, dini bəsləyin
Sinə vurun, əziz günü bəsləyin,
Özünüz ac qalın, məni bəsləyin,
Aşırırdın yağı, balı mollalar.
Vəlinin sözləri qalarmış sana,
Lənət sənə xalqı doydurdun cana,
Baş yozurdun söyləyirdin əfsana
Ayırırdın ərkən yolu mollalar.

## GƏRAYLILAR

### GÖRMÜŞƏM

Bu gün bir sona görmüşəm
Çalxanırdı göl içində.
Tər istəkan, zərdə bölmə
Dolandırır əl içində.
Zülfü gərdanda qoşadır
Deyəsən, boyu şuşadır.
Ətir verir bənövşədir,
Gül yanağı xal içində.
Sallanıb gəlir mərdana
Miskin Vəli oda yana
Saçı tökülüb gərdana
Şana gəzir tel içində.

### BƏNZƏR

Ay qız sənin mah camalın
Bahar fəsli yaza bənzər.
Gözlərin cannar alandır
Qamətin şahbaza bənzər.
Bülbül oxur gül içində
Vəzfin çıxıb el içində.
Yaşılbaşsan göl içində,
Çırpınmağın qaza bənzər.
Sinən nişanıdır qarın.

Məmən məzəsidir narın.
Səndən ayrı düşən yarın
Artıx dərdi yüzə bənzər.
Sənin kimi gözəl olmaz,
Yar yarını dərdə salmaz.
Beinsafsan, ay dilbilməz
Yandı bağrım közə bənzər.
Gözüm qaldı uca boyda,
Gülə xar qonur nə fayda.
Vəli deyər isti yayda
Sinən sərin buza bənzər.

## DEYİŞMƏLƏR

### AŞIX MƏMMƏDLƏ AŞIX VƏLİNİN DEYİŞMƏSİ

**AŞIX MƏMMƏD** – Aşıxlığın qaydasını bilməyən
Saz götürüb hər meydanda danışır.
Bir kamil ustaddan dərsin almayan
Heç utanmır arif yanda danışır.

**VƏLİ** – Aşıxlıq elmindən xəbərdaram mən
Saz götürüb hər meydanda gəzirəm.
Bir kamil ustaddan dərsim almışam.
Arif mənəm arif yanda gəzərəm.

**AŞIX MƏMMƏD** – Dildə sümük yoxdur, deyir yalanı,
Mən bilirəm dərsi dərin olanı.
Meydan açır hər burya gələni
Kirmiş sazı vermir manda danışır.

**VƏLİ** –Heç kimsəyə tanıtmaynan özünü,
Arif yanda çaşdırmaynan sözünü,
Mötəbərsən, əldən vermə sazını.
Mərdanəyəm mərd devranda gəzirəm.

**AŞIX MƏMMƏD** – Məmmədəm burada peyda olmuşam
Cümlə ustadları xofa salmışam.
Neçə aşıxların sazın almışam,
İndi mənlə bir çoban da danışır.

**VƏLİ** – Miskin Vəli neylər çoban deyərsən,
Bir söz desəm, ondan qorxu yeyərsən.
Acizyanə sazı yerə qoyarsan
Mən sərrafam gövhərkanda gəzirəm.

## SAVADLI BİSAVAD SÖZÜ

Firqənin kütləyə bir günəşi var
Layıxdırmı bu cahanda bisavad.
Savadlı elmidən oxuyur əzbər,
Baxa-baxa qalır yanda bisavad.

**SAVADLI**

Göhər olur mədənyətin yolları,
Sürər dövran bu cahanda savadlı,
Oxuyanda qumru kimi dilləri,
Qiymət alar imtahanda savadlı.

**SAVADSIZ**

Elm oxuyan heç bir yerdə allanmaz,
Elmisiz xeyrini, şərini qanmaz,
Elm öyrənməyən insan sanılmaz,
Yəqin qalar biabanda bisavad.

**SAVADLI**

Alan dərsin əzbər edən kitabı,
Elm üçün firsətdə heç olmaz tabı.
Hər sahədə özü çəkər hesabı
Allanılmaz heç bir yanda savadlı.

**SAVADSIZ**

Miskin Vəli sözün yadigar gərək,
Elm, mədəniyyət əldə var gərək,
İnsan hər elmidən xəbərdar gərək,
Utanar hesabda, sanda bisavad.

**SAVADLI**

Miskin Vəli de sözünü möhtəbər
Elm deyər adama dünyada nə var,
Həm yerdən, həm göydən salıbdı yollar,
Gəşt eyləyir hər asmanda savadlı.

## AŞIQ MƏHƏMMƏDƏLİ BAYRAMOV

*Məhəmmədəli Alı oğlu Bayramov 1886-cı ildə Gədəbəy rayonunun Miskinli (o zamankı Gəncə quberniyasının Qazax qəzasının Gədəbəy nayihəsinin Böyük Qarabulaq kəndi) kəndində doğulmuşdur. Əslində o da qardaşı Miskin Vəli kimi onların babalarının adını daşıyan Bayraməli (Şəmkir çayı ilə Qalakənd çayını qovuşduğu və hal-hazırda Qoşakörpü adlanan yer) qışlağında anadan olmuş, sonradan ailəsi ilə birlikdə Miskinli kəndinə köçmüşdür. Ustad sənətkar Miskin Vəlinin böyük qardaşıdır. 13-14 yaşlarından saz çalmağa başlamışdır. 30-32 yaşlarında Böyük Qarabulaqdan köçüb qonşu Dəyəqarabulaq kəndində məskən salmış, 1974-75-ci illərə qədər burada yaşamışdır. Qoca yaşlarında yenidən Böyük Qarabulaq kəndinə qayıtmış, 1980-ci ildə həmin kənddə vəfat etmişdir. Qəbri indiki Miskinli kəndindəki təzə qəbristanlıqdadır.*

*M.Bayramovun şahrah və zil səsi olmuşdur. Qardaşı Miskin Vəli ilə birlikdə aşıqlıq edər, məclis-mərəkəyə onunla birlikdə gedərmiş.*

## *QOŞMA*

### LƏLƏ

Xəyalım dolanır, könlüm atlanır,
Gəl gəzək şən olmuş elləri, lələ.
Çox gəzən çox bilir, həm urvatlanır,
Bülbül də çox sevir gülləri lələ.

Dolanaq ölkəni, gəzək düzünən,
Mərd igidlər mehribandı bizinən,
Azad ölkəmizdə gülər üzünən,
Açıqdı hər yana yolları, lələ.

Məhəmmədəm, deyər yaxşı olur var
Onlardan üstündü düzlük, e'tibar,
Yenə yada düşdü o köhnə dostlar,
Görüşək, necədi halları, lələ.

### ARASINDA

Mən aşığam deyib məclisə varan,
Həqiqətdən danış söz arasında.
El bir solmaz bağdı, sən də bir bülbül,
Doğru düzgün dolan gəz arasında.

Atalar sözünü çıxarma yaddan,
Ölüm çox yaxşıdı hər bədnam addan,
Haqqına dost olan qorxmasın oddan,
Düşsə də saxlayır göz arasında.

Məhəmməd, aç gözün bura haradı,
Bir işlək bazardı, karvansaradı,
Axır səfərimiz dar məzaradı,
Qismətsə on ərşin bez arasında.

### SAQQALIMA

Tökülür dişlərim, ağarır başım,
Yavaş-yavaş qorxu var saqqalıma.

Mən desəm, cavanam inanan olmaz,
Qırov düşüb, yağıb qar saqqalıma.

Eşqinən məclisə çıxa bilmirəm,
Səsinən yandırıb yaxa bilmirəm,
Gözəllər üzünə baxa bilmirəm,
Gəlir namus, qeyrət, ar saqqalıma.

Bu dərd Məhəmmədəlini yandırıb yaxır,
Elə bil sinəmə ox, kaman çaxır,
Kənara çəkilib köndələn baxır,
Əzəldən can deyən yar saqqalıma.

## GÖRMƏDİM

Bu qoca dünyada yaranmış insan,
Ölüncə çalışdı yaman görmədim.
Çoxları atlandı girdi yarışa,
Kamınca mənzilə çatan görmədim.

Çığnatma fağırı minəndə atı,
Elsiz bir adamın nədi urvatı?
Olsan da qüvvətdi, olma sən qatı,
Dörd əlli dünyanı tutan görmədim.

Çalış bu dünyada yaxşılıq qazan,
Eşidən hər yandan qoy desin əhsan,
Dolaşar, yıxılar yolundan azan,
Namərdin tərəfin tutan görmədim.

Süleyman dünyanı tutdu, necoldu?
Firon da oxunu atdı, necoldu?
İsgəndər zülmətə getdi, necoldu?
Haqqın qərarınan ötən görmədim.

Məhəmmədəm sığın qadir sübhana,
Haqqını düz tanı, uyma şeytana,
İki ad insandan qalar nişana,

Yaxşılıq, yamanlıq itən görmədim.

## *GƏRAYLI*

## DEYİM

Cavan aşıq, gəl meydana,
Mən sənə mərfətdən deyim.
Birinci şərtdi insana,
Düzlük, sədaqətdən deyim.

Təzyanə çək tel içində,
Bülbül kimi gül içində,
Dolanmışıq el içində,
Gördüyüm hörmətdən deyim.

Məhəmmədəli dərd biləndi,
Var olsun şəhəri, kəndi,
Cücə, plov, çayı, qəndi,
Hatəm səxavətdən deyim.

## BEŞ GÜNDÜ

Dəli könül qafil olma,
Dünya beş gündü, beş gündü.
Qəm yeyib saralıb, solma,
Dünya beş gündü, beş gündü.

Eylə kefin, sür dövranın,
Hər şeydən şirindi canın,
Qalacaqdır xanimanın
Dünya beş gündü, beş gündü.

Sən yaxşı bilirsən özün,
Neçəsini görüb gözün,
Dəqiqəyə yoxdu sözün,
Dünya beş gündü, beş gündü.

Belə yazıb yazı yazan,

Özü düşər quyu qazan,
Cəhd elə yaxşılıq qazan,
Dünya beş gündü, beş gündü.
Məhəmmədəli vaxtın dolar,
İrəngim saralar, solar,
Çox yığarsan kimə qalar?
Dünya beş gündü, beş gündü.

## ***QIFILBƏND***

### DOLANIR
***(arı üstə)***

Bir sirri görmüşəm altı ayaqlı,
Saatda beş dəfə dağı, dolanır.
Əl-ayağı irəng-irəng boyaqlı,
Tarlanı, meşəni, bağı dolanır.

İki buynuzu var, dörd də qanadı,
Tərlan yox, aləmdə aşkardı adı,
Bircə qapısı var böyük qaladı,
Bu qalada çox yığnağı dolanır.

Bilməzsən sirrini göz qabağında,
Toplayır ruzusun dil, dodağında,
Arif məclisində, mərd yığnağında,
Şirin şərbət olub saqi dolanır.

Girillər yarışa, çəkillər bəsi,
İnsana xoş gəlir ana laylası,
Yaxşı xörəklərin düşəndə bəsi,
Yanında qaymağı, yağı dolanır.

Doğrusunu söylər Məhəmmədəli,
Doqquz kəməri var incədir beli,
Haqqın vergisidi açıq sürfəli,
Ətrafında çox qonağı dolanır.

# MÜNDƏRİCAT

**USTAD OZAN MISKIN VƏLI** ........ 3

**USTADNAMƏLƏR**

Bilginən ........ 8
Vədəsində ........ 8
Bilsin ........ 9
Oğluma nəsihət ........ 10
Səbr elə ........ 11
Ola bilməz ........ 11
İnanma ........ 12
Dünyada ........ 13
Saxlamaz ........ 14
Olmaz ........ 15
Olmaz ........ 15

**QOŞMALAR**

Eylər ........ 17
Etibarsız ........ 17
Yeriyir ........ 18
Gərəkdi ........ 18
Nəsihət ........ 19
Çətindi ........ 19
Gərək ........ 20
Deyimmi ........ 20
Olsun ........ 21
Səninkidi ........ 22
Gözəllik ........ 23
Kimi ........ 23
Batırma ........ 24
Qocalanda ........ 24
Lənət ........ 25
Mübarək olsun ........ 26
Nədən oldu ........ 27
Bizim eldə ........ 27

Eylər-eylər........................................................................28
Yaxşı..................................................................................29
Gözəllər.............................................................................29
Vurğun...............................................................................29
Aparır.................................................................................30
Ey pul.................................................................................30
Hayıfsan.............................................................................31
Səbirsiz..............................................................................32
Tamahkar...........................................................................32
Dünya ................................................................................33
Gülərmiş.............................................................................34
Deyimmi.............................................................................35
Danışaq..............................................................................35
Qoca bəxtim.......................................................................36
Nə qaldı-qaldı.....................................................................37
Mənəm mən.......................................................................37
Nədəndi..............................................................................38
Nəsihət...............................................................................38
Üzə.....................................................................................39
Olmasa...............................................................................39
Aparır.................................................................................40
Aşığın.................................................................................40
Vidalaşır.............................................................................41
Keçir...................................................................................41
Zalım..................................................................................42
Yerində...............................................................................43
Deyirəm..............................................................................43
Gələndə..............................................................................44
Sən dedin, mən dedim.......................................................44
Ceyranı...............................................................................45
Mən dedim, sən dedin.......................................................46
Lalasıdırmı?…………………… ......................................46
Mən inanmadım.................................................................47
Gəzirəm..............................................................................47
Dotsluq...............................................................................48
Bax-bax..............................................................................48
Hey qala-qala.....................................................................49
Gödələndə..........................................................................50
Gələndə..............................................................................50
Durnalar.............................................................................51

Analar ........ 51
Gözlərin ........ 52
Nədi ........ 52
Qalacaq ........ 53
Verə bilməz ........ 53
Necoldu ........ 54
Neyləsin ........ 54
Deyirəm ........ 55

## QOŞAYARPAQ QOŞMALAR

Mənim möhnətim ........ 57
Necə candı ........ 57

## GƏRAYLILAR

Boylana-boylana ........ 58
Mənəm ........ 58
Bağlı ........ 58
Aparır ........ 59
Bilməz ........ 60
Dağlar ........ 60
Getdi ........ 61
Bilməlisən ........ 61
Olsun ........ 63
Dağlar ........ 63
Ceyran ........ 67
Nifrət ........ 68
Alarmış ........ 68
Sənindi ........ 68
Mənim ........ 69
Qalacaqdı ........ 69
Qocalıq ........ 70
Oldu ........ 71
Kimdi? ........ 71
Gülməlidi ........ 72
Kimdi? ........ 72
Kimi ........ 73
Tamah ........ 74
Olsun ........ 74
Ola ........ 75
Səndədi ........ 75

Oldu ........ 75
Ayrı ........ 76
Könül ........ 76
Mən ........ 77
Ay bülbül ........ 77
Olar ........ 78
Gördüm ........ 79
Qalasından ........ 80
Dad əlindən ........ 81
Qaldı ........ 82
Səni ........ 82
Qoynunda-qoynunda ........ 83
Ələsgərdi ........ 83
Belədi ........ 84
Ağlama ........ 85

## TƏCNİSLƏR

Yenə ........ 86
İndii ........ 86
Ya tarix ........ 87
Sinadər ........ 87
Yanara ........ 87
Yar almasına ........ 88
Ya sənə ........ 88
Hey dərin-dərin ........ 89
Nə zərafəti ........ 89
Bax-bax ........ 89
Sinəsinə ........ 90
Sənə mən ........ 90
İndi ........ 91
«------------» (iki dəfə öpmək) ........ 91
Qoymuşam ........ 92
Gözlər ........ 92
Gəldin ........ 93

## CIĞALI TƏCNİSLƏR

Görüncə ........ 94
Düşəndə ........ 94
Yetir ........ 95
Ay nədən-nədən ........ 96

Bağlı .......... 97
Atana .......... 97
Nəsinə .......... 98
Hey ana qərəz .......... 99
Birisin .......... 99
Sini-sin .......... 100
Məndədi .......... 101
Ayə-ayə .......... 102
Ayağ-ayağa .......... 103
Oyana dağlar .......... 103

## DODAQDƏYMƏZ CIĞALI TƏCNİS

Yaxşı .......... 105

## GEDƏR-GƏLMƏZ CIĞALI TƏCNİS

Qədər .......... 106

## DODAQDƏYMƏZLƏR

Azaldı .......... 107
Nədəndi .......... 107
Yenə .......... 107
Yenə .......... 108
Hey qala-qala .......... 108

## MÜXƏMMƏSLƏR

Boğaz .......... 110
Dünya .......... 111
Zərnişan .......... 114
Aşıq .......... 115

## QOŞAYARPAQ MÜXƏMMƏSLƏR

Yaxşıdı .......... 117
Salatın .......... 118

## QOŞAYARPAQ CIĞALI MÜXƏMMƏSLƏR

Gözəl .......... 120
Bəxtəvər .......... 121

## DİVANİLƏR

Gözlə-gözlə sən .......... 123

Bayram günləri ........ 124
Bayram günləri ........ 125
Səslənir ........ 126
Görmədim ........ 126
Gözəl ........ 127
Gözəl ........ 128
Dünyada ........ 129
Yüküm ........ 129
Mənə ........ 130
Əldən gedər ........ 131
Yüküm ........ 131
Tez ........ 132
Olmasa ........ 133
Verir ........ 133
Tez ........ 134
Mərd ........ 135
Verir ........ 135
Ya Əli ........ 137
Gəl ........ 138

## DODAQDƏYMƏZ DİVANİ

Gədə ........ 140

## VÜCUDNAMƏ

Gəldim ........ 141

## BAYATILAR

Bayatılar ........ 145

## QIFILBƏNDLƏR

Dolanır ........ 147
Nədi ........ 147
Ay nədən oldu ........ 148
Səslənir ........ 149
Bağlıdı ........ 149
Dördü nə ........ 150
Kim oldu?……… ........ 150
Lövhi-qələm ........ 151
Beş ........ 151
Görmüşəm ........ 152

## DEYİŞMƏLƏR, YAZIŞMALAR

Gəlmədin (Miskinli Vəlinin Aşıq Şəmşirə məktubu ........................... 153
Aşıq Şəmşirlə deyişmə – I ........................... 154
Aşıq Şəmşirlə deyişmə – II ........................... 156
Aşıq Şəmşirlə deyişmə – III ........................... 157
Şair Cavadla deyişmə – I ........................... 158
Şair Cavadla deyişmə – II ........................... 160
Yetgin Qəşəmlə deyişmə – I ........................... 161
Yetgin Qəşəmlə deyişmə – II ........................... 162
Yetgin Qəşəmlə deyişmə – III ........................... 163
Miskinli Vəlinin qardaşı Aşıq Məhəmmədəli ilə deyişməsi ........................... 164
Aşıq Teymurla deyişmə ........................... 165
Tahirlə deyişmə ........................... 166

## MISKIN VƏLIYƏ HƏSR OLUNMUŞ ŞEIRLƏR

**Cəmil müəllim**
Gördüm ........................... 168
Sən ........................... 169
Tapmışam ........................... 169
Bəyəndi ........................... 170
**Sahib Camal**
Dədələr ........................... 171
**Aşıq Murad Niyazlı**
Ay baba ........................... 172

## DASTAN

Miskin Vəlinin Canbağça səfəri ........................... 173

## MISKIN VƏLININ DILINDƏN QƏLƏMƏ ALINMIŞ DASTANLAR

Xəstə Qasımın Dağıstan səfəri ........................... 220
Cəlali Kürdoğlu ........................... 267
Yetim Söyün ........................... 297
**SÖZ SONU** ........................... 331

## QOŞMALAR

Gözəl ........................... 332
Qızlar ........................... 332
Gedirsiz ........................... 333
Dilbər ........................... 333

Sevdiyim........................................................................................333
Tellərin ........................................................................................334
Olmaz ..........................................................................................334
Deyirəm........................................................................................335
Mollalar ........................................................................................335

## GƏRAYLILAR

Görmüşəm ....................................................................................336
Bənzər ..........................................................................................336

## DEYİŞMƏLƏR

Aşıx Məmmədlə Aşıx Vəlinin deyişməsi ..........................................338
Savadlı bisavad sözü .......................................................................339

## AŞIQ MƏHƏMMƏDƏLİ BAYRAMOV

***Qoşma***

Lələ..............................................................................................341
Arasında........................................................................................341
Saqqalıma ......................................................................................341
Görmədim......................................................................................342

***Gəraylı***

Deyim ...........................................................................................343
Beş gündü......................................................................................343

***Qıfılbənd***

Dolanır.........................................................................................344

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Tünzalə Tağıyeva

Çapa imzalanmış **20.01.2016.**
Şərti çap vərəqi **22.** Sifariş **№ 590.**
Kağız formatı **60x84 1/16.** Tiraj **300.**

*Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*

***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*